**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**
**TARİX, ETNOQRAFİYA VƏ ARXEOLOGİYA İNSTİTUTU**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**

# NAXÇIVANIN MƏSCİD VƏ ZİYARƏTGAHLARI

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 29 yanvar 2018-ci il tarixli, 02/9 saylı qərarı ilə nəşr olunmuşdur.*

**NAXÇIVAN – 2018**

**Elmi redaktoru**: **İsmayıl Hacıyev**
akademik

**Rəyçi:** **Hacı Qadir Qədirzadə**
*AMEA-nın müxbir üzvü*

***Hacıfəxrəddin Səfərli. Naxçıvanın məscid və ziyarətgahları.*** *Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2018, 216 səh.*

***Monoqrafiyada Yaxın və Orta Şərqin ən qədim mədəniyyət mərkəzlərindən sayılan Naxçıvan bölgəsində islamın qəbulundan sonra orta əsrlərin müxtəlif dövrlərində, həmçininmüstəqillik illərində inşa edilən məscidlərdən və islam dini ilə əlaqədar yaranmış ziyarətgahlardan bəhs edilir, taleyi daim Naxçıvanla sıx bağlı olan, bəzi vaxtlarda Naxçıvan adı altında yaradılan inzibati-ərazi bölgülərinə daxil edilən ərazilərdə xalqımızın inam yerinə çevrilən bir neçə məşhur ziyarətgah haqqında söhbət açılır.***

**Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Qrant № EİF-KETPL-2-2015-1(25)-56/47/5**

4700000000
053-2018

**©"Əcəmi" 2018**

*Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.*

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

# ÖN SÖZ

***Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi münasibəti ilə hazırlanmışdır***

Məlum olduğu kimi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan Muxtar Respublikasının paytaxtı, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Naxçıvan Muxtar Respublikasının, bütövlükdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında çox böyük əhəmiyyəti olan bu tədbirlərin keçirilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 iyun 2016-cı ildə "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzalamışdır.

Sərəncamla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə yaradılan Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə ilk iclası keçirilmişdir. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov çıxış edərək bu möhtəşəm tədbirlə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edərkən bir sıra məsələlərlə yanaşı muxtar respublikanın türk-islam mədəniyyəti nümunələri, dini abidələrlə zəngin olduğunu, bu abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində iş aparılmasını, muxtar respublikanın dini abidələri, məscid və ziyarətgahları haqqında kitablar nəşr olunmasının nəzərdə tutulduğunu vurğulamışdır.

İlk iclasın keçirilməsindən sonra keçən müddət ərzində bir sıra işlər görülmüş, mühüm tədbirlər həyata keçirilmişdir. Bu

tədbirlər sırasında ilk növbədə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 23 yanvar 2017-ci ildə imzaladığı "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipinin hazırlanması haqqında" Sərəncamı qeyd etmək lazımdır. Sərəncama əsasən loqotipin hazırlanması üçün müsabiqə elan olunmuş və müsabiqəyə təqdim olunmuş layihələr arasından loqotip seçilərək qəbul olunmuşdur. Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan möhtəşəm türk-islam mədəniyyəti abidələrinin beynəlxalq aləmdə tanıdılması və təbliği ilə bağlı onlardan bəzi nümunələrin İSESKO-nun siyahısına salınması istiqamətində işlər aparılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu Himayəçilik Şurası tərəfindən "Naxçıvanın türk-islam mədəniyyəti abidələri" və "İslamda müdrik kəlamlar" kitabları hazırlanaraq "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik səviyyədə nəşr etdirilmişdir. Bu istiqamətdə başqa kitabların da nəşr etdirilməsi nəzərdə tutulmuşdur. Həmçinin, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar internet səhifəsi yaradılmış, videoçarxlar, suvenirlər, zərf və poçt markaları hazırlanmışdır. Milli-mənəvi dəyərlərimizə həsr olunmuş sənədli və televiziya filmlərinin hazırlanması diqqət mərkəzində saxlanılmış, "Naxçıvanın türk-islam abidələri" adlı televiziya filmi çəkilmişdir. Bu məsələ ilə əlaqədar elmi-kütləvi və mədəni tədbirlərin keçirilməsi, islam ölkələrinin folklor və rəqs qruplarının iştirakı ilə festivalların, müxtəlif idman yarışlarının təşkili və keçirilməsi üçün hazırlıq işləri aparılmışdır.

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə əlaqədar keçirilən silsilə tədbirlər sırasında 2017-ci il iyul ayının 7-8-də keçirilən "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilən beynəlxalq konfrans mühüm yer tutur. Amerika Birləşmiş Ştatlarından, Türkiyə Respublikasından, İran İslam Respublikasından,

Bakı şəhərindən gəlmiş qonaqların və yerli alimlərin iştirakı ilə keçirilən konfransda Naxçıvanın türk-islam mədəniyyəti abidələri ilə bağlı maraqlı məruzələr dinlənildi. Konfransın plenar iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov proqram xarakterli, dərin məzmunlu, istiqamətverici çıxış etdi. Çıxışında Naxçıvanda türk-islam mədəniyyəti abidələrinin meydana gəlməsi, Naxçıvan memarlıq məktəbinin yaranması, müasir dövrdə bu abidələrə diqqət və qayğı məsələlərindən bəhs edən Ali Məclisin Sədri demişdir: "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi tərəfindən keçirilən "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikası ərazisindəki türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi və təbliğində yeni mərhələnin əsasını qoyacaqdır".

Ali Məclisin Sədri bu sözləri ilə bir sıra aid təşkilatların, o cümlədən AMEA Naxçıvan Bölməsinin, bütövlükdə Naxçıvanda yaşayıb-yaradan tədqiqatçıların qarşısında böyük vəzifələr qoydu və bu istiqamətdə aparılan işlərlə yeni mərhələnin başlanmasına start verildi. Ona görə də naxçıvanlı alimlər qüvvələrini səfərbərliyə almalı, muxtar respublika rəhbərinin tövsiyə və tapşırıqlarının yüksək səviyyədə yerinə yetirilməsi üçün səylə çalışmalıdırlar.

Biz də bu tapşırıqların yerinə yetirilməsi istiqamətində müəyyən işlər görmüş, uzunmüddətli tədqiqatlarımızın nəticəsi olaraq indiyədək çoxlu məqalə və kitablar, o cümlədən 2017-ci ildə "Naxçıvanın türk-islam mədəniyyəti abidələri" və "Эпиграфические памятники Нахчывана" adlı monoqrafiyaları hazırlayaraq nəşr etdirmişik. Geniş oxucu auditoriyasının diqqətinə təqdim olunan "Naxçıvanın məscid və ziyarətgahları" monoqrafiyası da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar tədqiqatçılar qarşısında qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində atılan bir addımdır.

# I. MƏSCİDLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

İslamın müqəddəs kitabı Qurani-Kərimin "Ali-İmran" surəsinin 96-cı ayəsində məscidlər haqqında deyilir: "Həqiqətən insanlar üçün ilk bina olunan ev Bəkkədəki (Bəkkə Məkkə şəhərində Kəbənin yerləşdiyi məhəllənin adıdır-H.S.) evdir ki, o şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır" **(Qurani-Kərim, 2015, s. 61)**. İslam peyğəmbəri Həzrəti Məhəmmədin söylədiyi bir hədisi-şərifə görə isə ikinci belə yer Qüds şəhərindəki Məscid əl-Əqsadır. Məscid əl-Əqsa ("Uzaq məscid") əvvəllər yəhudilərə məxsus məbəd olmuşdur. İslamın banisi Məhəmməd peyğəmbər oradan Meraca getdiyi və müsəlman ibadəti ilk dəfə orada həyata keçirildiyi üçün bu məbəd məscid adlandırılmışdır. Adı "Qurani-Kərim"də xatırlanan bu məscid indi də müsəlman dünyasında Məkkə şəhərindəki Məscid əl-Həramdan ("Toxunulmaz məscid"dən) və Mədinə şəhərindəki Məscid ən-Nəbidən ("Peyğəmbər məscidi"ndən) sonra üçüncü müqəddəs yer sayılır.

İslam tarixində məscidlərin yaranması isə Məhəmməd peyğəmbərin islam dinini insanlara təbliğ etməyə başladığı zamandan başlanır. Bu dövrdə hələ məscidlər yaranmadığı üçün Allaha ibadət və namaz qılınması açıq havada, müəyyən ərazilərdə, kənarlarına xətt çəkilmiş yerlərdə həyata keçirilirdi. Ancaq bu islamı qəbul etmiş insanların tələbatını ödəyə bilmədiyi üçün məscidlər inşa olunmağa başlamışdır. Məscid əl-Həram və Məscid əl-Əqsa "Qurani-Kərim"də ilk məscidlər kimi xatırlansa da onlar, islamdan əvvəl mövcud olduqları üçün islam tarixində tikilən ilk məscid Məhəmməd peyğəmbərin 622-ci ildə Məkkədən Yəsrib şəhərinə (indiki Mədinəyə) hicrət edərkən elə həmin ildə Mədinə yaxınlığındakı Quba kəndində inşa etdirdiyi məscid hesab edilir. Bu məscid inşa edildikdən sonra, islam dini inkişaf edib Ərəbistan yarımadasında yayıldıqca həmin yerlərdə də müsəlman ibadət yerləri, məscidlər tikilirdi.

Beləliklə, hələ peyğəmbərin sağlığında islam dini Ərəbistan yarımadasında tam qələbə çalmış, bununla əlaqədar orada çoxlu məscidlər yaranmışdı.

İlk xəlifələr dövründə islam dini Ərəbistan yarımadası çərçivəsindən çıxaraq digər ölkələrə yayılmağa başladı. İslam dini yayıldığı yerlərdə də yeni müsəlmanların ibadət etməsi üçün məscidlər inşa edilməyə başladı. Məlumdur ki, ikinci xəlifə Ömər ibn əl-Xəttabın hakimiyyəti illərində ərəb orduları Azərbaycan ərazisini tutmağa başladılar. Bu zamandan başlayaraq Azərbaycan VIII yüzilliyin əvvəllərinə qədər olan uzun bir müddətdə islamlaşdırıldı və islam dini ölkədə hakim dinə çevrildi. Azərbaycan özünün bütün mədəni, elmi və s. nailiyyətləri ilə ümumislam mədəniyyəti xəzinəsinə daxil oldu. İslam dininin qəbulu ilə əlaqədar olaraq Azərbaycanda əhalinin ibadət yerlərinə ehtiyacı yarandı və bu ehtiyacı ödəmək üçün məscidlər inşa edilməyə başladı. Ərazimizdə islam memarlığının möhtəşəm nümunələri olan gözəl məscidlər meydana gəldi. Ancaq bu məscidlərin çoxu keçən uzun müddət ərzində müxtəlif səbəblərdən aşınmış, məhv olmuş, zəmanəmizədək gəlib çatmamışdır. Azərbaycan ərazisində bizə qədər gəlib çatmış ilk məscid nümunəsi 743-cü ildə Şamaxıda inşa olunmuş məsciddir.

İslamın ilk dövrlərində yaradılan məscidlər planda düzbucaqlı olurdu. Hündür həyət divarları ilə əhatələnmiş bu məscidlərin Məkkə istiqamətindəki cənub divarında, müsəlmanların namaz qıldıqları vaxt üzlərini tutduqları Məkkə şəhərindəki “Beytül-Lah”ı göstərən mehrab olurdu. Məscidlərin böyüklüyündən asılı olaraq mehrabların sayı artırıla bilirdi.

Qeyd etmək lazımdır ki, orta əsrlər zamanı məscidlərin inşasında heç də həmişə standart fomalardan istifadə edilmir, yerli memarlıq ənənələrinə uyğun müstəqil məscid tipləri yaradılırdı. Beləliklə, Ərəbistanda, Misirdə, Orta Asiyada, İraqda, Azərbaycanda və s. yerlərdə ümumi prinsiplər saxlanmaqla hər bir ölkənin memarlıq ənənələrinə uyğun məscidlər inşa edilirdi. Müxtəlif ölkələrdə inşa edilən bu abidələrdə yerli və milli ənə-

nələr nəzərə alınsa da onlar arasındakı ümumi bənzərliklər və fərqlər aydın nəzərə çarpırdı. Bu məsələdən bəhs edərək H.Bammat yazır ki, Qahirə və Qurtubə abidələri ilə Səmərqənd və ya Dehlidə mövcud olan abidələr arasında hiss edilə bilən bənzərlik vardır. Fəqət digər hallarda bariz bir ayrılıq gözə çarpır. Misal üçün, Hələb və Şam memarlıq əsərlərində plan və həcmlərdəki sadəlik və uyğunluq Qrenada, İşbiliyyə saraylarında görünən xəyali süs, dəbdəbə və həcm böyüklüyü bir-birindən tamamilə fərqlidir **(Bammat H., 1994, s. 56)**.

İslam dini şəkil çəkməyin və heykəl yapmağın, ibadət yerlərinin süslənməsinin əleyhinə olduğundan **(Faruk Beşer, 1994, s. 216-217)** məscidlərin bəzədilməsində daş, gəc, ağac və s. üzərində bədii oyma, şəbəkələr, kərpic, daş və s. tikinti materiallarının hörgüsündən əmələ gətirilən müxtəlif bəzəklərdən istifadə olunurdu.

Həmçinin, ərəb əlifbasının müxtəlif xətlərindən və bu əlifbanın elastikliyindən istifadə olunaraq gözəl kitabə motivləri yaradılır, bu kitabələr həndəsi və nəbati ornamentlərlə çox ustalıqla uyğunlaşdırılaraq bədii cəhətdən çox yüksək səviyyəli bəzək ünsürləri yaradılırdı. Xəttatlar kitabələr arası boşluqları həndəsi və nəbati ornamentlərlə böyük məharətlə doldurur, nəfis bəzək ünsürləri yaradırdılar. Məscidlərin daxili və xarici divarlarında, günbəz hissədə yerinə yetirilən bu işlər bəzən şirli kərpic, kaşı və s. ilə yerinə yetirilir, məscidlərin gözəlliyini artırırdı.

Məscidlər yarandığı andan əhalinin əsas ibadət yeri, namaz qıldığı məkan olduğu üçün əhali arasında böyük hörmət və nüfuz qazanır, getdikcə müqəddəsləşirdi. Müsəlmanlar "Qurani-Kərim"in müvafiq ayələrinə və islam peyğəmbərinin dilindən çıxan hədislərə əsasən məscidləri Allaha məxsus bir yer, "Allahın evi" adlandırır, hətta oranı and yerinə çevirirdilər. İndi də müsəlman əhali arasında məscidə üz tutaraq "məscid haqqı" deyərək and içilməsi məhz məscidlərin yaranması vaxtından meydana gələrək, dindar əhali tərəfindən nəsildən-nəslə ötürül-

müş və zəmanəmizədək gəlib çıxmışdır.

Məscidlərin Allaha məxsus olması islamın müqəddəs kitabı "Qurani-Kərim"in ayələri ilə təsbit olunmuşdur. "Qurani-Kərim"in 72-ci, əl-Cinn ("Cinlər") surəsinin 18-ci ayəsində oxuyuruq: "Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin" **(Qurani-Kərim, 1992, s. 596)**.

Bu ayədə işlədilən "məscidlər" kəlamı islamşünaslar tərəfindən aşağıdakı mənalarla təfsir edilir: 1) Namaz qılmaq üçün bina edilmiş yerlər; 2) Namaz və ibadət yalnız camelərə və bəlli yerlərə həsr edilmiş olmadığından, bütün yer üzü; 3) Bütün məscidlərin qibləsi olduğundan Məkkə şəhərindəki "Məscid əl-Həram"; 4) Səcdəyə təmas edən üzvlər **(Kuran-i Kerim, 1992, s. 592)** (Səcdəyə təmas edən üzvlər dedikdə namazın ən yüksək anı sayılan səcdə zamanı torpağa toxunması vacib hesab edilən alın, iki əlin içi, iki diz qapağı və ayaqların baş barmaqları olmaqla, cəmi yeddi üzv nəzərdə tutulur).

Allaha məxsusluğu "Qurani-Kərim"də bu şəkildə elan edilən məscidlərə bütün müsəlman dünyasında böyük hörmət və ehtiramla yanaşılmışdır. Məscidə hörmət, onun qayğısına qalmaq, silmək, süpürmək, təmir və bərpa etmək, yeni məscid inşa etdirmək savab əməl hesab edildiyindən hələ islamın yarandığı ilk vaxtlardan bu işlər imkanlı şəxslər tərəfindən yerinə yetirilmiş və ənənəyə çevrilərək bütün orta əsrlər boyu davam etmiş, indi də davam etdirilməkdədir. Bunu orta əsrlər zamanı inşa və ya bərpa etdirilən məscidlərin üzərindəki kitabələrdən də aydın görmək olur. Bu kitabələrin əksəriyyətinin əvvəlində "Qurani-Kərim"in "ət-Tövbə" ("Tövbə") surəsinin bu məsələdən bəhs edən 18-ci ayəsi həkk edilirdi. Ayədə deyilir: "Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər (Yalnız bu qəbildən olan şəxslərin əməlləri Allah dərgahında qəbul olunar). Məhz onlar doğru yol tapa bilənlərdən ola bilərlər"

**(Qurani-Kərim, 1992, s. 160)**.

İslam peyğəmbərinin dilindən çıxan bir hədisi-şərifdə isə deyilir ki, Allahın razılığını qazanmaq üçün məscid tikdirənə Allah cənnətdə saray bəxş edər. Göründüyü kimi məscidlərin təmir və bərpa olunması, yeni məscidlər tikdirilməsi Müqəddəs kitabda və Məhəmməd peyğəmbər tərəfindən söylənilən hədislərdə təqdir olunduğundan müsəlman Şərqinin hər yerində olduğu kimi Azərbaycanda da bu iş geniş miqyas almış, məscidlərin bərpası və tikdirilməsiişi ayrı-ayrı imkanlı şəxslər tərəfindən, bəzi hallarda isə hər hansı bir yaşayış məskənində yaşayan camaatın gücü və vəsaiti ilə yerinə yetirilmişdir. Bu ənənə indi də davam etdirilməkdədir.

Məscidlər, onların Allaha məxsusluğu, məsciddə namaz qılmağın, oraya getməyin fəzilətləri və s. haqqında islam peyğəmbəri Həzrəti Məhəmmədin dilindən çıxan bir çox hədislərdə də maraqlı fikirlərlə rastlaşırıq. Həmin hədislərin birində deyilir: “Allah-taala buyurur: Agah olun, Mənim yer üzündəki evlərim məscidlərdir. Ulduzlar Yer əhlinə nur saçdığı kimi, məscidlər də səma əhlinə işıq saçır. Xoş olsun o kəslərin halına ki, məscidlər onun evi olsun. Xoş o kəsin halına ki, öz evində özünü paklayıb sonra Məni öz evimdə (məsciddə) ziyarət edə. Bunu da bilin ki, ziyarət olunan şəxsə, ziyarət edəni hörmətlə qarşılamaq vacibdir. Ey Məhəmməd, gecə qaranlıqda məscidə gedənlərə müjdə ver ki, qiyamət günü parlaq bir nur ilə hərəkət edəcəklər” **(Şeyx Məhəmməd…, 2001, s. 253)**.

Məhəmməd peyğəmbərin söylədiyi bu hədisdə Yer üzündə Allahın evləri kimi səciyyələndirilən məscidlərə getməyə, orada namaz qılmağa nə qədər böyük əhəmiyyət verildiyi aydın görünür. İslam peyğəmbərinin dilindən çıxan hədislərin birində isə deyilir: “Hər kəs Allahın məscidlərindən birində bir çıraq yandırsa, o çırağın işığı gəldikcə mələklər və ərşin hamilləri (ərşi öz çiyinlərində saxlayan mələklər) o adam üçün istiğfar edər, Allahdan onun günahlarının bağışlanmasını istərlər

**(Əhmədov Ə., 1996, s. 31)**. Başqa bir hədisdə isə bildirilir ki, hər kəs cümə axşamı gündüz və gecə məscidi süpürüb oradan gözə tökülən toz dərmanı qədər torpaq çıxarıb atsa, Allah-taala onun günahlarını bağışlar **(Əhmədov Ə., 1996, s. 31)**. Peyğəmbərin dilindən söylənilən bu hədislər islam dinində məscidlərə nə qədər böyük önəm verildiyini parlaq şəkildə sübut edir.

Məhz buna görə də bir çox islamşünasların əsərlərində məscidlərə hörmət və ehtiramla yanaşmaq tövsiyə olunmuşdur. Məscidlər uçub dağılsa belə, onun yerini satmaq, mənimsəmək və ya küçəyə daxil etmək, onun qapı, pəncərə və əşyalarını satmaq, məsciddən bir şey aparmaq günah hesab edilirdi. Əksinə, məscidi abadlaşdırmaq, işıqlandırmaq, təmizləmək dini kitablarda təqdir olunur. Məscidə gələn adamların təzə və təmiz paltar geyinməsi, üstünə ətir səpməsi, ehtiram olaraq 2 rəkət namaz qılması təqdir olunduğu kimi, orada yatmaq, dünya söhbətləri etmək, soğan, sarımsaq yemiş halda məscidə girmək, tüpürmək və ucadan danışmaq bəyənilməyən əməllər kimi qiymətləndirilir **(Xumeyni əl-Musavi, s. 121-122)**.

Çox zəngin bir tarixə malik olan məscid inşa mədəniyyəti tədqiqatçıları daim düşündürmüşdür. Memarlar bu haqda dəyərli fikirlər söyləmişlər. Tədqiqatçıların fikrincə məscidlərdə ən mötəbər yerlər mehrab, minarə və minbər sayılır. Bunların içərisində mehrab Məkkə şəhərini, oradakı Beytül-Həramı – müqəddəs Kəbənin istiqamətini göstərdiyinə görə ən yüksək məqam hesab edilir.

İslam estetik duyum mədəniyyətinin əsasını təşkil edən “cəlal”, “camal”, “əzəmət” və “bütövlük” anlayışları məscidlərdə özünü daha çox büruzə vermişdir. “Cəlal” dedikdə zahiri əlamət nəzərdə tutulduğundan o, ancaq məscidlərin zahiri hissəsinə tətbiq edilmiş, özünü əsasən məscidin günbəz və baraban hissəsində büruzə vermiş, nəticədə həmin yerlər ərəb əlifbasının müxtəlif xətləri ilə müqəddəs kəlamlardan ibarət kitabələrlə süslənmişdir. “Cəlal” özünü həmçinin məscidin ən mö-

təbər və müqəddəs yeri olan mehrabda da göstərmişdir. Qibləni göstərən bu məqam xüsusi biçimdə nəqş edilərək ibadət edən müsəlmanların diqqətini cəlb etməlidir. Buna görə də məscidlərin mehrabları həmişə xüsusi biçimdə nəqşlənmişdir.

“Camal” düsturuna əsasən məscidin iç divarları, tavan və s. sahələr nəqş və təsvirlərlə bəzədilmirdi. “Əzəmət” – ucalıq, böyüklük, əlçatmazlıq səciyyəsi ilə məscidin minarələrini rəmzləndirir. “Əzəmət” Allahın sifətlərindən ən alisi olduğundan məscidin də əzəməti minarələr vasitəsi ilə ifadə edilir. Minarələrin ucalığı məscidlərin mötəbərliyi və hörmətindən xəbər verir. Bu cəhətdən müsəlman dünyasının baş məscidi olan Məkkə şəhərindəki Məscid əl-Həramın hündürlüyü adamı heyrətə gətirən 9 ədəd minarəsini xatırlatmaq kifayətdir.

Bu üç estetik səciyyənin (“cəlal” “camal” “əzəmət”) ayrılmaz rabitəsi harmonik bütövlüyün, tamlığın nişanəsini hasil edir. Bu da məscidin bütün kompleksində, bütün hissələrinin harmonik uyarlığında özünü tam büruzə verir. Beləliklə, məscid öz bütövlüyü ilə ən möhtəşəm iman və sənət abidəsinə çevrilir **(Həsənov R., 1991, s. 79-80)**.

Tədqiqatçılar məscidləri dini və estetik rəmzləri təcəssüm etdirən qiymətli sənət və mədəniyyət abidəsi kimi xarakterizə edirlər. Onlar məscidə şaquli və üfüqi istiqamətdə nəzər salaraq orada islam kosmoqoniyasının (kainat təliminin) rəmzlərini görürdülər. Onların fikrincə şaquli biçimdə məscid dörd mühüm ünsürdən (dördkünc oturacaq, baraban, günbəz, minarələr) ibarətdir. Bu hissələrin hərəsi özünəməxsus rəmzə malikdir: Dördkünc oturacağın sahəsi yer həyatının timsalı kimi qələmə verilir. Yer həyatı isə axirət dünyası, behiştlə müqayisədə qüsurlu olduğu üçün, qüsurluluq və qeyri kamillilik isə adətən rəmzi olaraq kub, dördkünc biçimində təsəvvür edildiyindən məscidin özülü də məhz bu həndəsi biçimdə inşa edilirdi.

Behişt dünyası kamilliyin, harmoniyanın nişanəsi kimi kürəvi, sferik biçimdə simvollaşdırılır. Bu mənada məscidin

günbəz hissəsi behişt dünyasını nişan verir. Məscidin baraban hissəsi qüsurlu yer həyatı ilə kamil behişt dünyası arasındakı keçid məqamını bildirir. Minarələr isə məscidin bütün hissələrindən uca olub Allahın əzəmət və ehtişamını göstərir **(Həsənov R., 1991, s. 78-79)**.

Məscidə üfüqi baxanda isə iki element: giriş qapıları və mehrab diqqəti cəlb edir. İlahiliyin, ruhaniliyin və mənəviyyatın təcəssümü olan məscidə ancaq giriş qapıları vasitəsilə daxil olmaq olar. Buna görə də məscidin giriş qapıları günahlarla, qüsurlarla dolu olan imansız dünyadan din, iman dünyasına keçidi təmsil edir.

Məscidin daxilində ruhaniyyəti, imanı, möminliyi özündə əks etdirən mehrab yerləşir. Müqəddəs Kəbəni – Beytül-Həramı nişan verən mehrab ruhaniyyət dünyasının ən mötəbər məqamı hesab olunur **(Həsənov R., 1991, s. 79)**.

Qeyd edildiyi kimi, islam tarixində ilk məscidlər ibadətxana, namaz qılmaq üçün tələbatı ödəyən yer kimi meydana gəlmişdir. Burada ibadət edilir, namaz qılınır, dua və xütbə oxunurdu. Ancaq zaman keçdikcə məscidlər bu əlamətləri saxlamaqla digər xüsusiyyətlər də kəsb etmiş və orta əsrlər dövründə əhalinin ən çox toplaşdığı, cəm olduğu sosial-siyasi və ideoloji mərkəzlərdən birinə çevrilmişdir.

Ümumiyyətlə, islam ibadət yerləri öz həcminə və funksiyasına görə Came məscidləri və məscidlər olmaq üzrə iki yerə bölünürdü. Böyük məscidlərə verilən Came adına "Qurani-Kərim"də və hədislərdə rast gəlinmir. Bu söz ərəb dilində "cəm" kökündən törəyərək "toplayan", "bir araya gətirən" mənasını verir və islamın yarandığı ilk əsrlərdən sadəcə olaraq cümə namazı qılınan böyük məscidlər üçün istifadə olunan "əl-məscidül-Cami" söz birləşməsinin qısaldılmış şəklidir. Zaman keçdikcə cümə namazları qılınan, xütbələr oxunan, camaatın ən çox cəm olduğu, toplandığı məscidlər həmin söz birləşməsinə uyğun olaraq Came adlanmış, kiçik ibadət

yerlərinə isə sadəcə olaraq məscid deyilmişdir.

Peyğəmbər və ilk xəlifələr dövründən başayaraq dini və dünyəvi funksiyaların yerinə yetirildiyi, bir sıra problemlərin çözüldüyü məkanlar olan camelər və kiçik məscidlər islamın intibah dövründə daha da məşhurlaşmış, funksiyaları genişlənmiş, cəmiyyətin həyatında mühüm rol oynamışlar. Artıq bu zamanlar məscidlər təkcə ibadət yeri kimi deyil, insanların həyatının, məişətinin, cəmiyyətin mühüm məsələlərinin müzakirə və həll olunduğu bir yer kimi diqqəti cəlb edirdi. Orta əsrlər zamanı məscidlər dini, sosial və siyasi baxımdan bir sıra vəzifələri yerinə yetirmişdir. Həmçinin, onlar bir çox hüquqi məsələlərin və davaların, mübahisələrin həll olunduğu məhkəmə salonu vəzifəsini də yerinə yetirmişlər. Məscidlərin bu xüsusiyyətini nəzərə alaraq t.e.d, AMEA-nın müxbir üzvü M.Nemət "Elm və həyat" jurnalına verdiyi müsahibəsində (1990, № 11-12) qeyd edir ki, məscidlərdə vaxtilə məhkəmə və mədəni-maarif işlərinin aparıldığını kitabələrin köməyi ilə təyin etmək mümkündür. Məlumdur ki, məscidlər əsasən hökmdarlar, ruhani alimlər, qazı və başqa sədrlər tərəfindən tikilirdi. Ona görə də belə müəyyənləşdirilmişdir ki, hansı məscidin kitabəsində onun qazı (hakim) tərəfindən inşa olunduğu yazılıbsa, deməli, orada vaxtilə məhkəmə işləri aparılmışdır.

Orta əsrlərdə məscidlər siyasi məsələlərin müzakirə edildiyi bir məşvərət məclisi rolunu da icra etmişdir. Onların geniş salonlarında dövlətlərarası diplomatik münasibətlər həll olunurdu. Türk alimi İ.Cərrahoğlu məscidlərin bu cür geniş və əhatəli funksiyalarından bəhs edərək yazır ki, məscidlərdə sosial və iqtisadi məsələlər həll olunmuş, sədəqə və hədiyyələr burada toplanmış və ehtiyac içərisində olanlara elə buradaca paylanmışdır. Məscidlərdən müharibələr zamanı yaralananların müalicə olunduğu məkanlar kimi istifadə olunmuşdur **(İsmail Cerrahoğlu, 1994, s. 11)**. Alimin fikrincə, məscidlərin çox geniş olan bu funksiyalarının bəziləri, həmin işlərin yerinə yetiri-

ləcəyi  başqa bir yer olmadığı üçün, məcburi olaraq məscidlərdə yerinə yetirildiyi düşünülə bilər **(İsmail Cerrahoğlu, 1994, s. 11)**. Həqiqətən də, orta əsrlər zamanı geniş salonlara malik ictimai binalar (məsələn, müasir dövrdəki mədəniyyət sarayları, teatr və konsert salonları, klublar və s.) olmadığı üçün ümumi əhalinin iştirakı ilə keçirilməsi vacib olan yığıncaqlar məscidlərdə keçirilirdi. Məscidlər bir növ müasir dövrdəki mədəniyyət evlərinin, klubların da vəzifəsini icra edirdilər.

İslam tarixinə dair dəyərli əsərlərin müəllifi olan H.S.Həsənli hətta məscidləri ali bir orqan kimi xarakterizə edir və yazır ki, məscidlər ictimai həyatda bir növ parlament rolunu oynamışdır **(Həsənli H.S., 1998)**.

Orta əsrlər zamanı məscidlərdə doğum və ölüm halları qeydə alınır, kəbin kəsilir, boşanma işlərinə baxılırdı. Onların minbərindən xütbələr söylənilir, dövlət fərmanları oxunur, ictimai və mülki işlər müzakirə olunur, məhkəmələr aparılırdı. Həmçinin, burada insanlar vətən, torpaq, din yolunda cihada çağırılmış, hökmdarlara biətlər edilmişdir. Günün müəyyən vaxtlarında adamlar məscidə toplaşır, namaz qılır, ibadət edir, dualar oxuyur, müxtəlif müzakirələr aparırdılar. Hətta orada diskussiyalar  təşkil olunur, bəzi qaranlıq məsələlərə aydınlıq gətirilir, suallara cavablar verilirdi.

Adətən məscidlərin, xüsusilə böyük şəhərlərdəki əsas məscidlərin – camelərin salonlarında sütunun yanında bir, yaxud da bir neçə alim, fəqih oturardı. Məscidə gələnlər isə dərs prosesində olduğu kimi, onun ətrafında halqa şəklində əyləşərək onların söhbətlərini dinləyər, sual verib bilmədiklərini öyrənər, sonra isə islam dinində təqdir olunduğu kimi, öyrəndiklərini başqalarına da öyrədərdilər.

Came məscidləri mədəniyyət mərkəzləri olmuşlar. Radio, televiziya və digər kütləvi informasiya vasitələrinin olmadığı bir dövrdə xalq ölkənin daxili və xarici həyatına dair məlumatları oradan alırdı. Bir sıra sənədlərin – hökm, fərman, vəqf-

namə, siyasi-tarixi hadisələr haqqında məlumatların daş nüsxələri came məscidlərinin divarlarına qoyulurdu. Ruhanilər xalq iqtidar münasibətlərini camelərin minbərindən tənzimləyirdilər.

Burada aparılan söhbətlər, həyata keçirilən tədbirlər insanlar arasında kin və küdurəti aradan qaldırır, onların arasında ünsiyyət və məhəbbət yaradır, müsəlmanların birliyini gücləndirirdi. Bu işdə məscidlərdə qılınan camaat və cümə namazlarının əhəmiyyətini qeyd etməmək olmaz. Şəriət kitablarında, orta əsr müəlliflərinin əsərlərində camaat namazının üstünlüklərindən geniş söhbət açılır, bu namazların fərdi halda qılınan namazlardan daha əfzəl olması əsaslandırılır. Görkəmli ensiklopedist alim Nəsirəddin Tusi yazırdı ki, islam şəriətində camaat namazı xəlvətdə tək qılınan namaza nisbətən ona görə üstün tutulur ki, adamlar gündə beş dəfə bir yerə toplaşdıqda bir-biri ilə ünsiyyət saxlayırlar. İbadət və başqa işlərdə bir yerdə olmaları onlar arasında ünsiyyəti gücləndirib məhəbbətə çevirə bilər. Bunun sübutu odur ki, belə namaz gündə beş dəfə bir yerə yığılması mümkün olan kənd və məhəllə camaatına məsləhət görülmüşdür. Şəhər əhalisinə gündə beş dəfə bir yerə yığılmaq çətin olduğundan onlara başqa cürə ibadət məsləhət bilinmişdir: həftədə bir dəfə kənd və məhəllə adamları hamını tuta biləcək çox böyük bir məscidə toplaşır, orada kənd, məhəllə adamları bir-biri ilə ünsiyyət yaratdıqları kimi, şəhər əhli də bu ünsiyyətdə iştirak edirlər. Beləliklə, kənd, məhəllə, qəsəbə və şəhər əhalisi həftədə bir dəfə görüşüb öz işlərini nizama salarlar **(Nəsirəddin Tusi, 1989, s. 184)**.

Bu fikirdən də göründüyü kimi, hələ Nəsirəddin Tusinin yaşadığı XIII əsrdə də məscidlərin funksiyası təkcə ibadət yeri olmaqla məhdudlaşmamışdır. Məscidlər həm də insanlar arasında ünsiyyət yaradan, bu ünsiyyəti inkişaf etdirib məhəbbətə çevirən, nəticədə müsəlmanlar arasında birlik yaradan və bu birliyi möhkəmləndirən bir sosial-siyasi və ideoloji mərkəz rolunu oynamışdır. Bu mərkəzlərin – məscidlərin minarələrin-

dən gündə beş dəfə səslənən azanla – namaza çağırışla insanlar bir yerə toplaşır, ibadət edir, bir-biri ilə görüşür, ünsiyyət yaradırdılar. Məhz bu cəhətdən də islam şəriətində camaat namazlarına çox üstünlük verilir, tək halda namaz qılmaqla müqayisədə camaatla qılınan namaz təqdir olunur.

Camaat namazının fəzilətləri haqqında şəriət kitablarında çoxlu məlumat vardır. Qeyd olunan cəhətlərinə əsasən din alimləri camaat namazına o dərəcədə yüksək yer verirlər ki, hətta müxtəsər qılınan camaat namazını tək qılınan namazdan daha yaxşı hesab edirlər **(Xumeyni əl-Musavi, s. 182)**. Camaat namazı islamın ən önəmli ibadəti olan namazın aydın bir qayda ilə çoxlu adamla birlikdə səflər halında imam arxasında qılınmasıdır. Camaat ilə namaz Məhəmməd peyğəmbərin ifadəsinə görə yalnız qılınan namazdan iyirmi yeddi dərəcə daha fəzilətlidir **(İslam, 1985, s. 106; Mustafa Varlı, 1993, s. 106)**.

Məşhur şiə alimi Şeyx Bəhaüddin Amili isə şiələrin altıncı imamı Cəfər Sadiqdən belə bir fikir gətirir ki, camaat namazı qılmaq fərdi namaz qılmaqdan iyirmi dörd dərəcə əfzəldir **(Şeyx Bəhaüddin, 1994, s. 118)**. Ona görə də camaat ilə namaz qılmağa bir maneçilik yoxdursa hər bir müsəlman gündəlik namazını məsciddə camaatla qılsa daha yaxşı olar.

Fikrimizcə, islam müqəddəslərinin dilindən söylənən fikirlərdə camaat namazına bu qədər üstünlük verilməsinin və bu namaza toplaşmaq haqqında bu qədər israrlı təkidin səbəbi bir tərəfdən namaz qılmaq üçün daha çox adamın yığılmasına nail olmaq idisə, əsas məqsəd əhalinin daha çox hissəsini bir yerə toplamaq, onlar arasında ünsiyyət, dostluq əlaqələri yaratmaq və islamın bir toplum dini olmasını nümayiş etdirməkdən ibarət olmuşdur. Çünki birlik və bərabərlik yüksək dərəcədə gözlənilən bu məkanlarda ibadət edənlər Allahın hüzurunda dayandıqları üçün rütbə və vəzifəsindən, ictimai mənşə və məqamından asılı olmayaraq eyni duyğu və məhəbbətlə səf tutaraq yanaşı durur, ibadət edir, ibadətini qurtardıqdan sonra bir-biri

ilə görüşüb ayrılırlar.

Müsəlmanlar arasında ünsiyyətin, məhəbbətin, dostluğun, birliyin yaranmasında və möhkəmlənməsində ən böyük məscidlərdə qılınan və daha çox adamın həftədə bir dəfə cümə günü qıldığı cümə namazlarının əhəmiyyəti daha çoxdur. Həftədə bir gün, yəni cümə günü dindarlar ən böyük məscidlərə toplaşır, ibadət edir, namaz qılırdılar. Bu zaman namazdan əvvəl və sonrakı vaxtlarda daha böyük insan qrupları bir-biri ilə görüşür, söhbət edir, onların arasında ünsiyyət yaranır. Beləliklə, hər hansı bir şəhərin müxtəlif guşələrindən cümə namazı qılmaq üçün bir məscidə toplaşan, bir-birini tanımayan adamlar burada tanış olur, söhbət edir, fikir mübadiləsi aparır, müəyyən məsələlər ətrafında müzakirələr açır, ümumi bir fikrə gəlirlər.

Nəsirəddin Tusi camaat namazlarından başqa insanlar arasında ünsiyyəti gücləndirən əsas vasitələrdən ildə iki dəfə təşkil olunan ümumi ibadətdən də söhbət açır və qeyd edir ki, bütün camaatın görüşməsi üçün onların hamısını tuta biləcək böyük bir səhra (meydan) seçməli və hamını oraya dəvət etmək lazımdır. Hamını tutan belə geniş bir sahədə toplanmış insanlar bir-birini gördükdə tanışlığı təzələyib ünsiyyəti bərpa edər, onların yenidən görüşməsi dostluğu artırıb məhəbbəti möhkəmləndirər **(Nəsirəddin Tusi, 1989, s. 184)**.

Həmçinin, alimin fikrincə, müxtəlif şəhər və ölkələrdən gəlmiş adamların ömürlərində bir dəfə bir yerə toplaşaraq bir-biri ilə görüşməsi, ünsiyyət yaratması üçün şəriət sahibinin evindən (Məkkə şəhərindəki Allahın evi – Kəbə nəzərdə tutulur-H.S.) daha yaxşı bir yer ola bilməz **(Nəsirəddin Tusi, 1989, s. 189)**.

Orta əsrlər zamanı olduğu kimi, indi də dünyanın müxtəlif guşələrindən gəlmiş müsəlmanlar ildə bir dəfə Məkkə şəhərindəki Allahın evinə, Kəbənin ətrafına – onu dairə şəklində dövrələyən və müsəlman dünyasında ən nüfuzlu məscid hesab olunan Məscid əl-Harama toplaşır və Həcc ibadətlərini yerinə

yetirirlər. Həmçinin, bu zaman planetin müxtəlif guşələrindən gəlmiş müsəlmanlar bir-biri ilə görüşür, dərdləşir, söhbətləşirlər. Nəticədə müxtəlif millətlərdən olan, ancaq islam bayrağı altında birləşən insanlar arasında ünsiyyət və məhəbbət yaranır. İnsan qrupları arasında yaranan bu ünsiyyətlər zamanı ölkələr arasında elmi-mədəni, iqtisadi əlaqələr qurulur, bu isə müsəlmanların birliyini daha da möhkəmləndirir.

İslamın yarandığı ilk günlərdən başlayaraq məscidlər təhsil mərkəzləri kimi fəaliyyət göstərmişlər. Mədinə şəhərindəki peyğəmbər məscidində süffələrdə başlayan təhsil sonrakı dövrlərdə məscidlərdəki təhsil üçün bir təməl və örnək olmuşdur. İri məscidlərdə, xüsusilə Camelərdə uşaqlara təhsil verilmiş, sonralar isə onların yanında mədrəsələr təşkil olunmuşdur. Bu tədris müəssisələrində dini və dünyəvi elmlər tədris edilirdi. Burada təkcə kişilər deyil, qadınlar da təhsil alırdılar. Ümumiyyətlə, məscidlər dövrün ictimai-siyasi həyatında mühüm rol oynayırdı və əhalinin ən çox toplaşdığı, cəm olduğu sosial-siyasi, ideoloji və maarifçilik mərkəzlərindən biri idi.

Bütün bunlara görə orta əsr qaynaqları və tədqiqatçılar məscidlər, onların funksiyaları haqqında dəyərli məlumatlar verirlər. Məsələn, akademik V.V.Bartold qeyd edir ki, bu məscidlərdə dövlət xəzinələri saxlanılır, məhkəmələr keçirilir, ictimai məsələlər həll edilir, müəllimlərin mühazirələri dinlənilirdi **(Бартольд В., 1963, с. 205)**.

Göründüyü kimi, məscidlər orta əsr cəmiyyətinin həyatında mühüm əhəmiyyətə malik və müqəddəs sayılaraq toxunulmaz olduğu üçün hətta dövlət başçıları bəzən öz xəzinələrini başqa möhkəmləndirilmiş yerlərdə deyil, məhz məscidlərdə saxlayırdılar.

# II. NAXÇIVAN BÖLGƏSİ MƏSCİDLƏRİN YAYILDIĞI MƏRKƏZLƏRDƏN BİRİ KİMİ

İslam dininin inkişaf edib yayıldığı ölkələrin hamısında oduğu kimi Azərbaycanda, o cümlədən onun ayrılmaz və tərkib hissəsi olan Naxçıvanda da çoxlu kiçik və böyük məscidlər meydana gəlirdi. Ancaq islam dini VIII yüzilliyin əvvəllərində Azərbaycanda vahid din kimi hakim dinə çevrilsə də təəssüf ki, ərazimizdə islamın ilk dövrlərinə, xüsusilə səlcuq türklərinin Azərbaycana gəlməsi zamanınadək olan vaxtlara aid məscid nümunələri gəlib çatmamışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü C.Qiyasi Azərbaycan ərazisindəki dini memarlıq abidələrini, o cümlədən məscidləri tədqiq edərək belə bir nəticəyə gəlmişdir ki, dini memarlıq haqqında Nizami dövrünəcən əldə olunan materiallar çox azdır. Dövrümüzədək gəlib çatan bitkin məscid örnəkləri XI-XIII yüzilliklərin Azərbaycan memarlığında ən dayanıqlı və inkişaf etmiş memarlıq tipoloji qruplarından birinin məscidlər olduğunu bəlliləşdirir **(Qiyasi C., 1991, s. 41)**.

Məlum olduğu kimi, islamın qəbulu ilə qədim ənənələrə malik olan Azərbaycan memarlığına yeni xüsusiyyətlər və üslub daxil oldu. İslam inşaat mədəniyyəti Azərbaycan memarlığına böyük təsir göstərdi. Şeyxülislam A.Paşazadənin yazdığı kimi bu dövrün memarlıq sənəti öz ifadəsini əsasən məscidlərin və onların nəzdindəki mədrəsələrin, zaviyələrin, məqbərələrin, türbələrin, xanəgahların, bəndlərin, körpülərin və s. tikintisində tapırdı **(Paşazadə A., 1991, s. 144)**.

İslamın qəbul edildiyi ölkələrdə ilk andan başlayaraq islam adət-ənənələrinin yerinə yetirilməsinə xüsusi fikir verilirdi. İlk öncə yeni müsəlmanların ibadət yerlərinə – məscidlərə olan ehtiyacını ödəmək üçün ayrı-ayrı yaşayış məskənlərində məscidlər inşa edilirdi. Bu məscidlər hələ tələm-tələsik inşa edildiyi üçün memarlıq baxımından o qədər də diqqətəlayiq deyildi-

lər. Ancaq zaman keçdikcə dövrün tələblərinə uyğun olaraq yeni və möhtəşəm məscidlər inşa edilməyə başlayır.

Ərazimizdə ilk məscidlər əsasən mərkəzi günbəzlə örtülmüş kub şəkilli binalardan ibarət olmuşdur. Bunun ən parlaq nümunəsi kimi Naxçıvanda XII yüzillikdə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş Came məscidini, Culfa bölgəsinin Kırna kəndindəki Came məscidini, Gəncə Came məscidini və başqa abidələri göstərmək olar. Bu məscidlər həyət daxilində yerləşərək, ətrafı sıra tağla əhatələnmiş tikililərdən ibarət olmuşdur. Bəzi hallarda hər iki məscid tipi qarışıq tətbiq olunmuşdur. Məscid komplekslərində əsas məqamlardan biri olan minarələr Azərbaycan məscidlərində əsasən binanın baş fasadı tərəfdə bir cüt olmaqla simmetrik şəkildə yerləşirdi. Şirvan-Abşeron məscidlərində isə minarələr tək olmaqla asimmetrik olurdu **(ASE, 1982, s. 529)**.

Artıq bu zamandan başlayaraq Azərbaycanda mövcud olan memarlıq məktəbləri (Arran, Naxçıvan, Şirvan-Abşeron, Təbriz) qədimdən bəri formalaşan yerli inşaatçılıq ənənələrini qoruyub saxlamaqla yanaşı, həm də islam tikinti mədəniyyətinin başlıca qayəsini – yerlə göy, insanla Allah arasında əlaqənin möhkəmləndirilməsinə xidmət etmək vəzifəsini başa düşür və həyata keçirməyə çalışırdı. Göylərə ucalan minarələr, məscidlərin nəbati və həndəsi şəkilli sonu olmayan naxışlarla və şəbəkələrlə bəzədilmiş uca divarları dindarların maddi dünya ilə mənəvi dəyərlər arasında axtardıqları həmahəngliyin əhəmiyyətini təsdiq edən rəmzlər idi **(Paşazadə A., 1991, s. 144)**.

Azərbaycan ərazisi səlcuqlar tərəfindən tutulduqdan sonra ölkədə məscid tikintisi genişlənir. Bunun isə əsas səbəbi səlcuq hökmdarlarının məscid tikintisinə böyük diqqət yetirməsi, bunun üçün hətta dövlət səviyyəsində çoxlu vəsait ayırması idi. Görkəmli memar Cəfər Qiyasi bu haqda orta əsr müəllifi Əbdül Cəlil Qəzvinidən misal gətirir. Hadisələrin şahidi olmuş tarixçi yazır ki, müsəlmanlıqda came, mədrəsə, xanəgah və hər dürlü xeyir və

yaxşılıqların görülməsi, pisliklərin atılması səlcuqların uğurlu qılıncları sayəsində mümkün olmuşdur **(Qiyasi C., 1991, s. 41)**. Məhz bunun nəticəsində səlcuq imperiyasına daxil olan digər ölkələrdə olduğu kimi Azərbaycanda da çoxlu məscidlər inşa olunmuşdur. Həmin məscidlərin bir hissəsi zaman keçdikcə təbii fəlakətlər, həmçinin müharibələr, yanğınlar və s. nəticəsində məhv olub sıradan çıxsa da onların müəyyən hissəsi zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatmışdır.

Səlcuq dövründən sonrakı yüzilliklərdə də Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində də çoxlu məscidlər inşa edilmişdir. Orta əsr qaynaqlarında bu məscidlər, hətta onların adları və sayı haqqında məlumatlar gəlib çatmışdır. Qaynaqlar məlumat verirlər ki, 1590-cı ildə Naxçıvan şəhərində 3 came və 10 məscid (cameyi-Qızıl Arslan, cameyi-Məhməd kətxuda, cameyi-Şərif, Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi (?), İsmayilan məscidi olmuşdur **(İrəvan əyalətinin…, 1996, s. 20)**.

Orta əsr səyyah və tarixçiləri bölgədə olarkən ayrı-ayrı yaşayış məskənlərini, oradakı memarlıq abidələrini, o cümlədən məscidləri görmüş, özlərinin yol qeydlərində həmin abidələrdən geniş söhbət açmış, hətta bəzi yerlərdə onların sayını da göstərmişlər. Məsələn, məşhur türk səyyahı Övliya Çələbi XVII yüzillikdə Naxçıvan ərazisində olarkən Qarabağlar şəhərində (indiki Qarabağlar kəndində) 70 mehrab, o sıradan minarəli 40 came **(Çələbi Ö., 1989, s. 231)**, Naxçıvan şəhərində 70 came və ibadət yeri, 40 məhəllə məscidi **(Çələbi Ö., 1989, s. 232)** olduğunu qeyd etmişdir.

Həmçinin, səyyah səyahətnaməsində şəhərdəki məscidlərin adları, onların bəzədilməsi haqqında da maraqlı məlumatlar verərək yazır ki, şəhərdə qəribə camelər vardır ki, hər biri bir cənnət bağçasıdır. Bəzi camelər zərgərlik məmulatları, çini,

mina və kaşı ilə bəzədilmişdir. Səyyahın şəhadətinə görə həmin vaxt şəhərdə Əhməd paşa, Fərhad paşa, Gözəl Əli paşa, Cığaloğlu, Xadim Cəfər paşa cameləri və digər məscidlər olmuşdur. XVII yüzillikdə Naxçıvan şəhərində İnstanbul minarələrinə bənzər 33 minarə ucalırmış **(Челеби Э., 1983, с. 236-237)**.

Fransız səyyahı J.Tavernye Naxçıvan şəhərindəki məscidlərdən bəhs edərkən yazırdı ki, Naxçıvan çox böyük şəhərlərdən biri olmuşdur. O, Sultan Murad tərəfindən tamamilə dağıdılmışdır. Orada çoxlu miqdarda gözəl məscidlərin xarabalıqları görünür. Bu məscidlər osmanlılar tərəfindən darmadağın edilmişdir. Çünki Məhəmməd təriqətindən olanlar (müəllif sünni təriqətini nəzərdə tutur-H.S.) Əlinin təriqətindən olanların (şiə təriqəti nəzərdə tutulur-H.S.) məscidinə girmək istəmirdilər. Başqa məscidləri də müharibə zamanı osmanlılar və iranlılar bu yolla dağıtmışdılar **(Məmmədov R., 1977, s. 127)**.

Beləliklə, bölgədəki məscidlərin bir hissəsi bu yolla, bir qismi isə təbii qüvvələrin təsirindən zaman keçdikcə sıradan çıxsa da biz onlar haqqında məlumatı orta əsr müəlliflərinin və tədqiqatçıların əsərlərindən alır, onların həcmi, quruluşu və s. haqda faktları əldə edirik. Heç təsadüfi deyildir ki, XVIII yüzilliyə aid qaynaqlarda XVII əsr müəlliflərinin, o cümlədən Övliya Çələbinin haqqında məlumat verdiyi məscidlərin çoxunun adına rast gəlmirik. Məsələn, Osmanlı türkləri 1727-ci ildə Naxçıvan sancağında əhalini siyahıya alarkən ərazidəki məşhur camelərin vəqflərindən də bəhs etmiş, tərtib etdikləri "dəftər"də bir neçə camenin adını çəkmişlər. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan nahiyəsində ancaq Sultan Murad, Həzrətpaşa və Xaçaparaq camelərinin **(Naxçıvan sancağının…, 1997, s. 25, 51-53)** və Azadciran nahiyəsinə daxil olan Ordubad qəsəbəsindəki Sultan Murad xanın Böyük camesinin **(Naxçıvan sancağının…, 1997, s. 31, 215)** adları qeyd olunmuşdur.

Naxçıvan şəhərindəki məscidlərdən bəhs edən qaynaqlarda Qızıl Arslan camesi (cameyi-Qızıl Arslan) adlı məscidin

adı çəkilir **(İrəvan əyalətinin…, 1996, s. 20)**. Görünür, Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş bu məscid Möminə xatun türbəsindən sonra, Atabəy Qızıl Arslanın zamanında tikilmiş və el arasında onun adı ilə tanınmışdır.

Göründüyü kimi, baş verən müharibələr zamanı əsas döyüş meydanlarından birinə çevrilən Naxçıvan ərazisi böyük zərər çəkmiş, təsərrüfat və iqtisadiyyat viran edildiyi kimi mədəniyyət abidələri, o cümlədən məscidlər də dağıdılmışdır. Burada islam məzhəbləri arasındakı ziddiyyət də əsas rol oynamış, osmanlılar sünni olduğu üçün ərazidəki şiə məscidlərini dağıtmışlar. Məhz buna görə də "Naxçıvan sancağının müfəssəl dəftəri"nə ancaq osmanlılarla əlaqəli olan məscidlərin adları salınmışdır.

Bütün bunlara baxmayaraq Naxçıvan ərazisində indiyədək orta əsrlər zamanı inşa edilmiş müəyyən qədər məscidlər qalmışdır. Bu məscidlər özlərinin möhkəmliyi, memarlıq-konstruktiv quruluşu ilə diqqəti cəlb edirlər. Ərazidə son dövrlərə və indiyədək qalan məscidlərdən Naxçıvan, Ordubad, Kırna, Vənənd və s. yaşayış məskənlərindəki məscidləri buna misal göstərmək olar.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra muxtar respublikanın bir sıra yaşayış məskənlərində olan məscidlərin əksəriyyəti bərpa edilmiş, eyni zamanda çoxlu yeni məscidlər inşa olunmuşdur. Bu baxımdan dövlət səviyyəsində geniş miqyaslı tədbirlər həyata keçirilmiş, çoxlu məscidlər bərpa edilmiş, bir neçə möhtəşəm məscid inşa olunaraq əhalinin istifadəsinə verilmişdir. Hazırda muxtar respublikada 209 məscid fəaliyyət göstərir. Bu məscidlərdən 72-si yeni tikilmiş, 95-i yenidən qurulmuş və ya bərpa olunmuşdur **(Şərq qapısı, 28 sentyabr 2017-ci il).**

# III. NAXÇIVAN MƏSCİDLƏRİ

## Naxçıvan şəhər Came məscidi

Naxçıvan bölgəsində indiyədək bizə məlum olan ən qədim məscid nümunəsi Naxçıvan memarlıq məktəbinin banisi, görkəmli memar Əcəmi Əbubəkr oğlu tərəfindən Naxçıvan şəhərində XII əsrdə inşa edilmiş Came məscididir. XIX yüzilliyin sonlarınadək yarımuçuq vəziyyətdə mövcud olan, bizədək ancaq fotoşəkli və rəsmi gəlib çatan bu məscid Atabəylər memarlıq kompleksinə daxil olan ən möhtəşəm memarlıq nümunələrindən biri olmuşdur. Məscid o dərəcədə möhtəşəm, gözəl və cazibədar olmuşdur ki, bu gün də öz əzəməti və gözəlliyi ilə seyr edənləri heyran qoyan Möminə xatın türbəsini kölgədə qoymuş, Naxçıvana gələn orta əsr səyyah və tarixçilərinin diqqətini özünə cəlb etmişdir. Naxçıvan şəhərində olan əcnəbilər öz yol qeydlərində və əsərlərində Atabəylər memarlıq kompleksinə daxil olan çoxsaylı abidələrin heç birindən deyil, məhz Came məscidindən söhbət açmışlar. Bu cəhətdən XVII əsr fransız səyyahı Jan Tavernyenin qeydləri çox maraqlıdır. Səyyah Naxçıvan Came məscidinin möhtəşəmliyindən, gözəlliyindən söhbət açmış və onu Asiyanın ən möhtəşəm memarlıq abidələrindən biri kimi səciyyələndirmişdir: “Bu, Asiyanın ən yaxşı və gözəl məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbirinə yadigar olaraq bina edilmişdir” **(bax: Onullahi S., 1999, s. 90)**. Eyni zamanda səyyah şəhərdə olarkən bu məscidin dağıdılmış və bərbad vəziyyətdə olduğunu da vurğulamışdır.

Qeyd olunduğu kimi, Naxçıvan Came məscidi zəmanəmizədək gəlib çatmamışdır. Onun haqqında bizə ancaq tədqiqatçıların əsərləri, XIX əsrdən yadigar qalmış foto şəkil və XIX yüzillikdə Naxçıvana gəlmiş fransız səyyahı və arxeoloqu Jan Dyelafuanın çəkdiyi rəsm əsəri məlumat verir. Jan Dyelafua Came məscidinin şəklini çəkməklə kifayətlənməmiş, öz qeydlərində onun haqqında bəhs etmiş, hətta ehtişamına valeh olduğu Möminə

xatın türbəsini onun bir hissəsi hesab etmişdir. Səyyahın yazdığına görə o, Naxçıvanda olarkən fasadı və frizi kufi kitabələri ilə bəzədilən Came məscidi dağıdılıbmış **(Məmmədov R., 1962, s. 15)**. Alman memarı E.Yakobstalın XIX əsrin sonlarında Naxçıvanda olarkən çəkdiyi fotoşəkil məscid haqqında təsəvvür yaratmaq baxımından daha qiymətlidir. Məhz həmin fotoşəkillər və rəsmlər əsasında Naxçıvan Came məscidi haqqında müəyyən fikir yürütmək mümkün olmuşdur.

Naxçıvan şəhər Came məscidi haqqında V.A.Engelqardtın XIX yüzilliyin ortalarında yazdığı məlumatlar diqqəti cəlb edir. Tədqiqatçı yazır ki, bu türk məscidi yonulmuş daşdan tağları olan nəhəng bir tikilidir. Onun daxilində gözəl oyma izləri hələ də qalmaqdadır. Binanın bir hissəsi uçaraq tökülmüş, qalan hissəsi isə daim uçmaq təhlükəsi altındadır. Məsciddən 50 sajın aralıda məscid kompleksinə daxil olan və hər biri 10 sajın ucalığında olan bir cüt minarəyə malik qapı vardır. Əvvəllər məscidlə qapı arasında çoxlu tikililər olsa da, indi onlar sıradan çıxmışlar və adamda elə fikir yaranır ki, həmin qapı yaxınlığındakı tək qülləyə (Möminə xatın türbəsinə-H.S.) məxsusdur **(Salamzadə Ə., Məmmədzadə K., 1985, s. 186)**. Ancaq qaynaqlar təsdiq edirlər ki, Atabəylər memarlıq kompleksində bir sıra möhtəşəm memarlıq abidələri, o cümlədən hökumət evi, Came məscidi, onun yanında mədrəsə, türbə və s. olmuşdur. Heç şübhəsiz ki, Naxçıvan şəhərindəki Atabəylər memarlıq kompleksinə də bizə məlum olan abidələrlə yanaşı, elmə naməlum olan başqa tikililər də daxil olmuş, haqqında bəhs olunan qoşa minarəli qapı – baştağ isə bu binaların məcmusundan ibarət olan Atabəylər memarlıq kompleksinə giriş qapısı olmuşdur.

Atabəylər memarlıq kompleksinə daxil olan bu məscid Naxçıvanda ən əzəmətli məscid olmaqla əhalinin ən çox toplaşdığı sosial-siyasi və ideoloji mərkəz kimi uzun müddət şəhərin həyatında bu cəhətdən aparıcı olmuşdur. XVII əsrdə məscid dağıntıya məruz qaldıqdan sonra öz aparıcı yerini şəhərdəki digər

məscidlərə vermişdir. Bu məscid zəmanəmizədək gəlib çatmadığı, orta əsr qaynaqlarında isə onun haqqında geniş məlumatlar qalmadığı üçün məscidin həcmi, əzəməti və s. haqqında ancaq J.Dyelafuanın rəsmi və XIX əsrdən qalma fotoşəkillərə əsaslanaraq akademik Ə.V.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadə yazırlar ki, məscidin şəkilləri onun plan quruluşu haqqında bəzi nəticələr çıxarmağa imkan verir. Şəkildəki həcm bu binanın ancaq mərkəz hissəsidir. Planda kvadrat olan bu kubik həcm rəsmlərindən göründüyü kimi, çatma günbəzlə örtülmüş, dörd divarında qoşa tağlar var. Salonun açıq tağ şəklində olan yan divarlarının quruluşu göstərir ki, məscidin mərkəz hissəsi bir tərəfdən otaqlar və keçidlərlə əhatə olunmuşdur **(Salamzadə Ə., Məmmədzadə K., 1985, s. 186-187).**

Bu məscid Naxçıvan şəhərinin mərkəzində, Atabəylər memarlıq kompleksində inşa edilmişdi. Bu kompleksin əsas tikililərindən biri Eldənizlər sarayı idi. Ehtimal ki, bu məscid Atabəy hökmdarlarının ibadət etməsi lüzumundan sarayın yaxınlığında inşa etdirilmişdir. Məscid inşa edilərkən Atabəylər dövlətinin qüdrəti, dövlətin başında duran Eldənizlərin əzəməti nəzərə alınmalı, paytaxtın baş məscidi olmaq etibarı ilə bu məscid çox möhtəşəm tikilməli idi. Ona görə də Eldəniz hakimlərindən bu haqda göstəriş alan Əcəmi Əbubəkr oğlu Naxçıvani Atabəylər memarlıq kompleksində belə möhtəşəm bir məscid inşa etmişdi. Məhz bu əzəmətinə və möhtəşəmliyinə görə o, digər abidələri kölgədə qoymuş və əraziyə gələn səyyahların, tədqiqatçıların diqqətini cəlb etmişdir.

Akademik Ə.Salamzadə XIX əsr şəkillərinə əsaslanaraq Atabəylər kompleksinə daxil olan abidələri müqayisə etmiş və təxmini də olsa Came məscidinin həcmi haqqında müəyyən nəticəyə gəlmişdir. Alimin bu barədə fikirlərində oxuyuruq: “Şəkildə Came məscidi Möminə xatun türbəsindən xeyli hündürdür. Möminə xatun türbəsinin saxlanmış hissəsinin ümumi hündürlüyü 26 metr olduğu üçün Came məscidinin ona nisbətən hündürlü-

yünü nəzərə alsaq, bu məscidin hündürlüyü 30 metrə yaxın nəhəng bir tikinti olduğu aydınlaşır” **(Salamzadə Ə., 1976, s. 30).** Şəhərin – paytaxtın baş məscidi olmaq etibarilə bu məscidin yanında mədrəsə fəaliyyət göstərirdi. Atabəylər memarlıq kompleksində mədrəsə olduğunu qaynaqlar da təsdiq edirlər. Orta əsrlər zamanı mədrəsələr əsasən məscidlər yanında təşkil edildiyi üçün bu mədrəsənin Naxçıvan şəhərinin əsas ibadət yeri olan Came məscidi ilə sıx əlaqədar olması heç bir şübhə doğurmur.

## Pirqamış məscidi

Naxçıvan şəhərində fəaliyyət göstərən məscidlərdən biri də “Pirqamış məscidi”dir. “Pirqamış” məscidi şəhərin Şahab məhəlləsində yerləşir. Aparılan tədqiqatlar təsdiq edir ki, bu məscid orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət göstərən sufi təriqətləri ilə əlaqədar yaranmışdır.

Orta əsr qaynaqlarının da təsdiq etdiyi kimi Azərbaycanın və Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhəri və onun çevrəsi sufi təriqətlərinin geniş yayıldığı və fəaliyyət göstərdiyi ərazilərdən olmuşdur. Burada orta əsrlər zamanı ölkənin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynayan çoxlu xanəgahlar olmuşdur. Ancaq bu xanəgahların bir qismi zaman keçdikcə unudularaq yaddaşlardan silinmiş, bir qismi isə təbii qüvvələrin və başqa amillərin təsirindən uçub dağılaraq xarabalığa çevrilmişdir. Dövrün və cəmiyyətin həyatında mühüm yeri olan bu xanəgahlardan sonralar yerli əhali tərəfindən məscid və ziyarətgah-pir kimi istifadə olunma halları da olmuşdur. Belə sufi mərkəzlərindən biri Pir Xamuş xanəgahı olmuşdur **(Səfərli H., 2001-II)**.

Naxçıvan şəhərinin əhalisi arasında “Pirqamış məscidi” adı ilə tanınan məscidin binası sovet hakimiyyəti illərində, ateizmin tüğyan etdiyi zamanlarda sökülmüş, yerində hamam tikilmişdi. Ancaq məscid yerində tikildiyi üçün əhali buraya

gəlməmiş və hamam uzun müddət istifadəsiz qalmışdı. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bina yenidən qurularaq təzədən məscidə çevrilmişdir. Hazırda bu məscid Naxçıvan şəhərində fəaliyyət göstərən dörd məsciddən biridir. Onun ümumi sahəsi 400 kvadratmetr, həyətyanı sahəsi isə 1500 kvadratmetrdir. İki mərtəbəli məsciddə eyni zamanda 500 nəfər ibadət edə bilər **(Bağırov F., 2008, s. 35)**. Son vaxtlar məscidin birinci mərtəbəsində yas mərasimləri keçirilir.

Məscidin nə üçün "Pirqamış" adlanması haqqında müxtəlif fikirlər vardır. Bəzi tədqiqatçıların fikrincə, əvvəllər məscidin yerində ətrafı qamışla hörülmüş pir olmuş, bu səbəbdən də sonralar onun yerində inşa edilən məscidə "Pirqamış" adı verilmişdir **(Seyidov A., 1999, s. 5)**. Başqa bir fikrə görə isə "Pirqamış" sözü qədim şumerlərin "Gilqamış" dastanının adından yaranmışdır **(Seyidov A., 1999, s. 5)**. Tədqiqatçılar tərəfindən inandırıcı sayılmasa da vaxtilə sulu və çəmənlik sahə olan bu ərazidə çoxlu qamış bitdiyi üçün oraya "Pir qəmiş" adının verilməsi fikri də əhali arasında yayılmışdır **(Bağırov A., 2002, s. 135)**.

Əslində isə məscidin adı orta əsrlər zamanı bütün müsəlman Şərqində olduğu kimi, Azərbaycanda da geniş yayılan və ölkənin ictimai-siyasi və ideoloji həyatında mühüm rol oynayan sufi təriqətləri ilə bağlıdır. Belə ki, keçmişdə bu məscidin yerində sufi təriqətinə mənsub dərvişlərin fəaliyyət göstərdiyi xanəgah olmuşdur. Məscidin adı da bu təriqətlə bağlı yaranmışdır.

Məscidin ilkin adı "Pirqamış" deyil, "Pir Xamuş" olmuşdur. Məscidin adının birinci hisəsində qeyd olunan "Pir" titulu sufilikdə ən yüksək məqam sayılır və orta əsrlər zamanı çox nadir şəxsiyyətlərə verilirdi. Lüğətlərdə "pir" sözü "ziyarətgah", "ocaq", "qoca" mənaları ilə yanaşı, "təriqət başçısı", "şeyx", "dini rəhbər", "mürşid", "bir təriqətin banisi və başçısı" kimi də mənalandırılır **(Персидско…, 1983, c. 324; Azərbaycan dilinin izahlı…, 1983, s. 503; Azərbaycan klassik…, 1993, s. 181)**.

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru M.Nemət "Pir" sözünün mənşəyi haqqında danışarkən yazır ki, bu titul böyük ruhani alimlərə, sosial-siyasi, ideoloji mərkəzlərin rəhbərlərinə verilən ləqəb idi. Adətən bu mərkəzlərin yerləşdiyi müqəddəs tikili komplekslərində alim, ruhani və yaxud təriqət başçısının öz zaviyəsi olurdu. Şeyx zaviyədə oturub müridlərinə təlim-tərbiyə verir, onların vasitəsi ilə öz nəzəriyyəsini yayır, müridlərinin feodala münasibətində ortaya çıxan bir sıra sosial-iqtisadi məsələlərin həll edilməsində iştirak edirdi. Bununla yanaşı, o, əsasən öz müridlərinin mənafeyini güdür, beləliklə, kütlə içərisində nüfuz qazanırdı **(Nemət M., 1992, s. 6)**.

"Pir" istilahının təsəvvüflə bağlı cəhətindən bəhs edərkən akademik Z.Bünyadov qeyd edir ki, sufilikdə pir, Allah yolunda gedən, qorxulu və təhlükəli yerləri bilib, müridə doğru yolu, faydalanacağı və ya zərər görəcəyi şeyləri göstərən kimsədir. Bundan dolayı piri-mürşid də deyilir. Sufilərə görə, pirlər hər baxımdan tər-təmiz, Allahın sevimli bəndələri olub, Allahı bəndələrinə, bəndələri də Allaha sevdirdikləri kimi, Peyğəmbərin naibi və qövmin nəbisi kimi qəbul edilir **(Bünyadov Z., 1997, s. 187)**.

Türk alimi Halil Aktüccar sufi termini "mürşid"i təriqət piri yerində işlənən bir təbir kimi xarakterizə edir və onun "doğru yola dəlalət edən zat", "Səccadənişin", "Post nişin", yaxud "Şeyx" kimi izah olunduğunu göstərir **(Aktüccar H., 1984, s. 157)**.

Göründüyü kimi, "pir" istilahı digər mənaları ilə yanaşı, həm də orta əsrlər zamanı sufi təriqəti rəhbərlərinə verilən titul olmuşdur. Ümumiyyətlə, tədqiqatçıların fikrincə, sufilikdə ən yüksək məqam övliyalara və pirlərə məxsus olmuşdur **(Cəlilov E., 1995, s. 118)**.

Məlumdur ki, hicrətin II əsrində (miladi ilə VIII əsr) islam aləmində baş verən mürəkkəb sosial-siyasi hadisələr fikir sahəsində də müəyyən dəyişikliklərə səbəb olmuş, islam təsəv-

vüfü yaranmışdı. Bu zaman möminlər arasında özlərini tərki-dünyalığa, zahidliyə, ibadətə həsr etmiş böyük şəxsiyyətlər meydana çıxaraq "həqiqətlər həqiqətini" – Allahı dərk etməyin mümkünlüyü fikrini təbliğ edir, insanın mənəvi kamilliyə yetişməsi yollarını öyrədir, erkən müsəlmanlar bəlkə də qəribə görünəcək tərki-dünya həyat tərzi sürürdülər. Müsəlman fikri və təcrübəsi tarixində böyük hadisə olan sufi təlimlərinin mühüm hissəsini Allaha təmənnasız məhəbbət, ona yaxınlıq axtarışları, eyni zamanda insanın mənəvi yüksəlişi məsələləri və s. təşkil edirdi **(Dikici R., 1993, s. 3)**.

Əgər ilk dövrlərdə təsəvvüf ideyaları ardınca gedən adamlar eyni zamanda həm də öz əsas peşələri ilə (sənətkarlıq, müxtəlif ticarət və s.) məşğul olurdularsa, artıq XI əsrə yaxın onlarla yanaşı, peşəkar sufilərin də sayı artır. Onların bir çoxu mənəvi rəhbərliyin spesifik nizamnaməsi yaradılmış xanəgah, zaviyə, ləngə, ribat adlanan daimi və ya müvəqqəti dərviş iqamətgahlarında yaşamağa başlayırlar. Bu iqamətgahlarda gənc sufilər hami tərbiyəçilərin, yəni şeyxin və ya pirin nəzarəti altında olurdular. İtaətkar müridə münasibətdə şeyx onun mürşidi hesab olunurdu. Mürşidin rəhbərliyi altında mürid təriqət yollarında kamilliyə çatmaq üçün tərki-dünya və idraklı həyata çatmaqdan ötrü uzun bir yol keçməli idi.

Müridlər şeyxin və ya pirin rəhbərliyi altında təlim alır, sınaq müddəti keçir, yalnız bundan sonra sufilərin cəmiyyətinə qəbul edilir və dərviş paltarı alırdılar. Hami tərbiyəçisi olan şeyxlə onun əlaqəsi bütün ömrü boyu saxlanırdı. Mürid öz iradəsindən əl çəkərək bütünlüklə özünü mürşidinə tapşırırdı. O, özünə qarşı münasibətdə mürşidini sanki Allahın müavini hesab edirdi **(Sultanov Ş., Sultanov K., 1991, s. 277-278)**.

Pirdən, yaxud mürşiddən təlim alan mürid getdikcə kamilləşir və onların tövsiyəsi ilə öz yerlərinə, yaxud başqa ölkələrə gedir, orada öz pirlərinin-şeyxlərinin ideyalarını yayırdılar. Sonralar öz xanəgahlarını yaradan bu adamların bəzisi getdikcə

kamilləşərək və məşhurlaşaraq yüksək titullar (şeyx, mürşid, pir) alır və öz məktəblərini yaradırdılar.

Hazırda Azərbaycan ərazisində bu günədək qalan, orta əsrlərdə dərviş məskənləri olan bir sıra xanəgah və ziyarətgahların kitabələrində də “pir” tituluna rast gəlinməsi onun sufiliklə bağlı termin olduğunu təsdiq edən ən sanballı qaynaqlardandır. Məsələn, Bakının 127 kilometrliyində, Pirsaat çayı sahilində, Bakı-Salyan ticarət-karvan yolunun üzərində yerləşən “Pir-Hüseyn xanəgahı”nın kitabəsində, şeyx Pir Hüseyn adı ilə tanınan əl-Hüseyn ibn Əli “əzəmətli, Salik əl-məsalik (sufiliklə III dərəcəyə çatmış), görkəmli pir” kimi təqdim olunmuşdur **(Nemət M., 1992, s. 9)**. Həmçinin, bu titula Quba rayonundakı Ağbil pirinin, Pirşağı pirinin, Mərdəkandakı Pir Hüseyn türbəsinin və başqa abidələrin kitabələrində də rast gəlinir **(Nemət M., 1992, s. 65-68)**.

Bütün bunlara əsasən deyə bilərik ki, Naxçıvan şəhərində indi “Pirqamış” adı ilə tanınan məscidin adındakı “pir” sözü sufiliklə bağlıdır və orada fəaliyyət göstərən təriqətin rəhbərinin titulu olmuşdur. Məscidin adının ikinci hissəsində indi “qamış” kimi tələffüz olunan “xamuş” sözü isə fars dilində “sakit”, “dinməz” mənasını verir. Görünür, təriqətin başçısı çox danışmağı sevməyən, sakit zikr etməklə gününü keçirən bir adam olduğundan xalq arasında “susan pir” – “Pir Xamuş” adı ilə tanınmışdır.

Təsəvvüf tarixindən məlumdur ki, bir sıra məşhur sufi şeyxlərinin çoxu, xüsusilə ariflik mərtəbəsinə yüksəlmiş, “pir” titulu almış təriqət başçıları danışmaqdan çox susmağa üstünlük vermişlər. Bunun səbəbi isə onların mənəvi kamilləşmənin həqiqət mərtəbəsində heç bir şey bilmədiklərini, yaxud da bildiklərinin az və qüsurlu olduğunu qavramaları olmuşdur **(İslam ansiklopedisi, 1991, s. 361)**. Məşhur sufi Cüneyd Bağdadi ariflik mərtəbəsinə çatmış sufini “özü susduğu halda içində haqqın danışdığı kişi” kimi xarakterizə etmişdir **(İslam ansiklopedisi, 1991, s. 361)**. Sufiliyə aid qaynaqlar da təsdiq edirlər ki, “Allahı

tanıyanın dili tutulur" **(İslam ansiklopedisi, 1991, s. 361)**.

Bütün bunlar bir daha təsdiq edir ki, orta əsrlər zamanı Naxçıvan şəhərində yaşayan və Pir Xamuş adı ilə məşhur olan sufi şeyxi təsəvvüfdə ən yüksək dərəcə olan ariflik mərtəbəsinə yüksəlmiş, onun danışmaqdan çox susmağa üstünlük verməsi isə bu səbəbdən irəli gəlmişdir.

Ədəbiyyat materiallarının, orta əsr qaynaqlarının, o cümlədən epiqrafik faktların təsdiq etdiyi kimi, orta əsrlər zamanı Naxçıvan torpağında, həmçinin ərazinin əsas şəhəri olan Naxçıvanda sufiliklə bağlı çoxlu təriqətlər fəaliyyət göstərmiş, onların hər birinin özünəməxsus xanəgahı olmuşdur. Haqqında bəhs olunan "Pir Xamuş" xanəgahı da onlardan biri olmuşdur.

Qaynaqlar şahidlik edirlər ki, Səfəvilərin hakimiyyəti dövründə, I Şah Abbas zamanından Naxçıvan ərazisində sufizmin "Nöqtəviyyə" təriqətinin ideyaları yayılmağa başlayır. Hürufiliyin əsasında təşəkkül tapan, ancaq daha bidətçi və inqilabi təlim olan "Nöqtəviyyə" təriqəti hicri VIII əsrin sonlarında (miladi XIV əsrin sonlarında) meydana gəlmişdir. Əsası Fəzlullah Nəiminin ardıcıllarından Mahmud Pasihani Gilani tərəfindən qoyulmuş bu təriqət, Hindistan, İran, Türkiyə və Azərbaycanda geniş yayılmışdı. Özündə mütərəqqi ideyaları və demokratik qüvvələri birləşdirən "Nöqtəviyyə" təriqəti orta əsrlər zamanı amansız təqiblərə məruz qalmışdır **(Кулизаде З.,1970, с. 53)**.

Dünyanı əbədi hesab edən, bütün varlığı vəhdətdə görən Mahmud Pasihani və ardıcıllarının fikrincə, "nöqtə" vəhdəti ifadə edir. Bu səbəbdən də onların təlimi "Nöqtəvilik" adlanırdı. Nöqtəvilər nöqtə ilə yeri eyniləşdirərək, yerin daim dəyişmədə və hərəkətdə olduğu fikrində idilər. İfrat bidətçi Mahmud Pasihani məntiqi təfəkkürün dindən üstün olduğunu iddia edirdi. İnsanın ilahiləşdirilməsi bu təlimdə əsas yer tuturdu. Nöqtəvilər üçün "özünə müraciət et, səndən başqa bir şey yoxdur" fikri əsas idi **(Azərbaycan tarixi, 1999, s. 166)**.

Fəlsəfə elmləri doktoru Z.Quluzadə "Nöqtəviyyə" təri-

qətini hürufiliklə müqayisə edərək belə bir nəticəyə gəlmişdir ki, bir sıra fəlsəfi məsələlərin şərhində bu təriqət özünün vahid və ya münasib fikrində qalsa da, bütövlükdə o, fəlsəfədə mistik panteizm mövqeyində dayanmışdır **(Кулизаде З.,1970, с. 54)**.

Azərbaycanın müxtəlif yerlərində olduğu kimi, Naxçıvan ərazisində də bu təriqətə məxsus xanəgahlar yaradılmış, onların rəhbər şeyxləri-pirləri meydana çıxmışdır. Rus şərqşünas-alimi K.N.Smirnov yazır ki, Naxçıvanda "Nöqtəviyyə" təriqətinin məşhur şeyxlərindən biri Pir Xamuş ("susan qoca") olmuşdur. Onun Naxçıvana haradan gəlməsini və əsl adını heç kəs bilmir. Ancaq çox susduğuna görə onu "Pir Xamuş" adlandırmışlar. O, indiki (1934-cü il nəzərdə tutulur-H.S.) Puşkin küçəsində yerləşən məscidin yerindəki qəbiristanlıqda dəfn olunmuşdur. Onun qəbirindən iz qalmamışdır. Hesab edirlər ki, onun yeri məscidin daxilində, mehrabın yaxınlığında olmuşdur. Qadınlar buraya ibadətə gəlirlər **(Смирнов К.,1999, с. 78)**. Şərqşünas-alim daha sonra qeyd edir ki, məsciddə ibadət yeri müqəddəs Pir Xamuşun qəbiridir **(Смирнов К., 1999, с. 101)**.

Naxçıvan şəhəri əhalisi arasında da belə bir fikir vardır ki, nə vaxtsa Naxçıvana bir dərviş gəlmiş, Pirqamış məscidinin yerində özünə ev – xanəgah qurmuş və orada yaşamışdır. Özünün əməlləri ilə şəhər əhalisi arasında böyük hörmət və nüfuz qazanan həmin dərviş öldükdən sonra öz evində dəfn etmişlər. Qəbir dərvişin ardıcılları və yerli əhali tərəfindən ziyarət olunmuş və ziyarətgaha çevrilmişdir. Sonradan ziyarətgaha gələnlərin ibadət etməsi üçün burada məscid tikilmişdir. Həmin məscid müəyyən dəyişikliklərlə zəmanəmizədək gəlib çatmışdır. Burada ziyarət olunan qəbir məscidin həyətindəki tut ağacının yanında imiş **(Bağırov F., 2008, s. 32-33)**.

Buradan aydın olur ki, orta əsrlər zamanı nəinki Azərbaycanın, eləcə də Yaxın Şərqin yüksək inkişaf etmiş ictimai-siyasi və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhərində digər xanəgahlarla yanaşı, "Nöqtəviyyə" sufi təriqətinə

mənsub xanəgah da fəaliyyət göstərmiş, onun rəhbəri isə Pir Xamuş olmuşdur. Digər sufi təriqəti rəhbərləri kimi, Pir Xamuş da öz xanəgahında yaşamış və müridləri vasitəsi ilə mənsub olduğu təriqətin ideyalarını yaymışdır. Vəfat etdikdən sonra isə Pir Xamuş adət üzrə öz xanəgahında dəfn olunmuş, qəbiri müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir.

Beləliklə, qeyd olunanları nəzərə alaraq, belə bir nəticəyə gəlmək tamamilə mümkündür ki, Naxçıvan şəhərində fəaliyyət göstərən “Pirqamış” məscidi “Pir Xamuş” xanəgahının yerində inşa edilmiş və onun adını əxz etmişdir. Ancaq zaman keçdikcə “Pir Xamuş” adı təhrif olunaraq dəyişilmiş və “Pirqamış” şəklinə düşmüşdür.

Pir Xamuş xanəgahı Naxçıvan şəhərində uzun müddət fəaliyyət göstərmiş, onun ardıcılları olan dərvişlər əhali arasında böyük nüfuza malik olmuş, dövrün və cəmiyyətin sosial-siyasi, ideoloji həyatında yaxından iştirak etmişlər. Əhali arasında böyük hörmət və nüfuz sahibi olması səbəbindəndir ki, xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbəri-şeyxi Pir Xamuş öldükdən sonra qəbiri ziyarətgaha çevrilmişdir.  Orta əsrlərdə olduğu kimi bu qəbir XX yüzilliyin 30-cu illərində də ziyarət edilirmiş.

## Ordubad şəhər Came məscidi

Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək gəlib çatan möhtəşəm məscid nümunələrindən biri də Ordubad şəhər Came məscididir. Bölgənin ikinci böyük şəhəri olan Ordubad orta əsrlər zamanı yüksək inkişaf səviyyəsində olmuşdur. Şəhər maddi-mədəniyyət nümunələri, xüsusilə tarix-memarlıq abidələri ilə çox zəngindir. Bu cəhətdən o nəinki Naxçıvan Muxtar Respublikasında, geniş mənada Azərbaycanda əvvəlinci yerlərdən birini tutur. Məhz buna görə, həmçinin orta əsr şəhərsalma ənənələrini qoruyub saxladığına görə Ordubad şəhəri Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il

tarixli qərarı ilə “Qoruq şəhər” elan olunmuşdur.

Şəhərdə zəmanəmizədək gəlib çatan tarix-memarlıq abidələri içərisində məscidlər xüsusi yer tutur. Məscidlərin çoxluğu cəhətdən Ordubad şəhəri Şimali Azərbaycanın digər şəhərlərini qabaqlayır. Şəhərin demək olar ki, hər bir məhəlləsində məscid vardır. Bu cəhət Azərbaycanın, o cümlədən Naxçıvan xanlığının tərkibində Ordubad mahalının Rusiya ilə birləşdirilməsindən sonra bölgəyə gələn rus məmurlarının və tədqiqatçılarının da diqqətini cəlb etmişdir. 1836-cı ildə Sankt-Peterburqda nəşr olunmuş bir mənbədə qeyd olunur ki, Rusiyaya birləşdirildiyi vaxt şəhərdə 63 məhəllə məscidi fəaliyyət göstərirmiş **(Обозрение..., 1836, с. 83)**. Nəzərə alsaq ki, V.Qriqoryevin 1833-cü ildə nəşr etdirdiyi kitabında verdiyi məlumata görə həmin vaxt Ordubad şəhərində 515 ev olmuşdur **(Григорьев В., 1833, с. 193)**, onda çox da böyük olmayan bu şəhərdə 63 məscidin olması həqiqətən çox böyük rəqəm kimi diqqəti cəlb edir. V.Qriqoryevin məlumatlarından aydın olur ki, şəhərin bütün küçələrində xüsusi məscidlər yerləşir, ancaq onlardan ikisi böyükdür. Bu məscidlərdən biri (Came məscidi nəzərdə tutulur-H.S.) saraya bənzəyir **(Григорьев В., 1833, с. 194)**. 1828-ci il Türkmənçay müqaviləsindən az sonra Naxçıvan ərazisində olan İ.Şopen isə göstərir ki, həmin vaxt Ordubad şəhərində 6 böyük, 25 kiçik məscid (ibadət yeri) olmuşdur **(Шопен И., 1852, с. 482)**. Rus tədqiqatçısı P.Zelinski 1880-ci ildə nəşr etdirdiyi məqaləsində şəhərdə 41 məscidin olması haqqında məlumat vermişdir **(Зелинский С.П., 1880, с. 261)**.

1872-ci ildə Ordubad şəhərində anadan olmuş görkəmli yazıçı Məmməd Səid Ordubadi (1872-1950-ci illər) “Həyatım və mühitim” adı memuarında yazır ki, şəhərdə 8 böyük (Sərşəhər məscidi, Şoturləngə məscidi, Əngəc məscidi, Mingis məscidi, Yəhya bəy məscidi, Kürdətal məscidi, Yuxarı Anbaras məscidi, Came məscidi) və 23 kiçik məscid var imiş. Yazıçının məlumatına görə bu məscidlərin çoxu əyanların özlərinə məx-

sus məscid olmuşdur. Burada gündüzlər müəllim uşaqlara dərs vermiş, gecələr isə tanışlar yığılıb söhbət edərmişlər **(Ordubadi M.S., 2012, s. 36)**.

1927-ci ildə Ordubadda elmi ezamiyyətdə olan rus alimi V.Sısoyev İ.Şopenin şəhərdə 6 böyük, 25 kiçik məscid olması haqqında məlumatını xatırladaraq qeyd edir ki, həmin məscidlər indi də qalmaqdadır. Demək olar ki, şəhərin hər küçəsində məscid və ibadət yerinə rast gəlirsən **(Сысоев В., 1929, с. 138)**.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 6 dekabr 2005-ci ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar ərazidəki abidələr haqqında məlumat toplanarkən Ordubad şəhərində indiyədək qalan məscidlər də qeydə alınmışdır. 2006-cı ildə Ordubad bölgəsinə səfərlər zamanı şəhərdə 30-dan artıq məscid qeydə alınmış, onların ölçüləri götürülmüş, quruluşu haqqında məlumat toplanmış və hər birinə aid "Qeydiyyat kartı" hazırlanmışdır.

Toplanılan materiallara əsasən məlum olur ki, hazırda Ordubad şəhərində mövcud olan məscidlərin bir hissəsinin adı Məmməd Səid Ordubadinin qeyd etdiyi məscidlərin adları ilə uyğun gəlsə də müəyyən fərqlər də vardır. Bu da ehtimal ki, zaman keçdikcə bəzi məscidlərin əsil adlarının unudularaq və təhrif olunaraq dəyişilməsi, yaxud iki adla adlanması ilə əlaqədardır.

Ordubad şəhərinin mərkəzində yerləşən Came məscidi şəhərin əsas məscidi olmuşdur. Əhali tərəfindən tikdirilməsi varlı bir qadının adı ilə əlaqələndirilən məscidin həcmi böyükdür. Daxili sahəsi təxminən 400 $m^2$ olan məscidin tavanı sütunlar üzərində qərar tutmuşdur. Tavanın hündürlüyü təxminən 5 metrə yaxındır. 1902-ci ildə məsciddə təmir və bərpa işləri aparılarkən onun qərb tərəfində əlavə bir salon tikilmişdir. Uzunu təxminən 25

metr, eni 6,5 metr olan bu salonun ayrıca mehrabı vardır. Salon qadınlar üçün nəzərdə tutulmuşdur. Bir neçə pəncərə ilə yüksək səviyyədə işıqlandırılır. Daxili divarlar rənglə gəc üzərində gözəl xətlərlə yazılmış Quran ayələri, hədislər, dini mətnlər və inşaat xarakterli kitabələrlə bəzədilmişdir. Bu iş təkcə qadınlara məxsus salonda deyil, ümumiyyətlə məscidin bütün salon və otaqlarının daxili divarlarında həyata keçirilmişdir.

Kişilərə məxsus salonun cənubundakı mehrabın yerləşdiyi hissədə yazılan kitabələrin birindən aydın olur ki, məscid təmir olunarkən bu kitabələri müctəhid Ağaəlinin oğlu Hacı Məhəmməd Tağı yazmışdır **(Сафаров Ф., 1987, с. 34)**.Bərpa-təmir işləri zamanı məscidin bütün salonları, xüsusilə mehrablar nəfis şəkildə, gözəl ornament və naxışlarla bəzədilmişdir. Qadınlara məxsus salonun mehrab olan hissəsinə şərqdən giriş qapısının baş tərəfindəki kitabə məsciddə nəqqaşlıq işlərini yerinə yetirən ustanın adını təqdim edir: "Kərbəlayı Zeynalabidin Nəqqaş Abdullazadə" **(Сафаров Ф., 1987, с. 34)**. Məscidin yeni tikilən, qadınlar üçün salonunun şərq divarında zanbaq təsviri içərisində rənglə yazılan kitabə isə xəbər verir ki, məsciddə aparılan tikinti və bərpa işləri ordubadlı Ağa Mirzəbabanın oğlu Hacı Məhəmmədqulu ağa tərəfindən yerinə yetirilmişdir **(Сафаров Ф., 1987, с. 33-34)**.

Məscidin əsas, kişilərə aid salonuna şimaldan və şərq tərəfdən giriş qapısı vardır. Şərqdən giriş qapısının baş tərəfində iri həcmli bir kitabə qoyulmuşdur. Kitabə Səfəvi hökmdarı I Şah Abbasın şəhər əhalisinin xəzinəyə veriləcək bir sıra vergilərdən azad edilməsi haqqında 1604-cü il tarixli fərmanının mətnidir. Ölçüsü 157x52 sm olan boz rəngli daş üzərində, beş sətirdə qarışıq ərəb-fars dillərində nəsx elementli süls xətti ilə həkk edilmiş kitabə tamamilə salamat vəziyyətdə qalmışdır. Kitabənin mətninin tərcüməsi belədir: "Ehsanlar bəxş edənə həmd olsun, xalqları yaradana şükür olsun! Və amma bu kəlmələri yazmaqda məqsəd odur ki, pak Ordubad qəsəbəsinin –

Allah onu fitnə-fəsaddan qorusun – bütün əhalisinin, böyükdən kiçiyə, kasıbdan zəifə qədər xilafət məkanlı, Cəmşid cəlallı, mələk qoşunlu şah Abbas Bahadur xanın xanədanına – Allah onun hökmdarlığını əbədiləşdirsin – nisbət bəslədikləri məhəbbət və fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlərin əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə, fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə-Tusiyyə silsiləsinin fədakarlığı müqabilində şahın müzayiqəsiz mərhəmətinin bir qisməti onlara bəxş edildi. Qeyd olunan vilayət, yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlaqat, nuzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın. Şah bu hədiyyəni onlar üçün daimi bəxşiş hesab etdi. Bu qaydanın dəyişdirilməsinə yol verilməməsini əmr etdi. 1012-ci ilin şəban ayında (miladi ilə 4.01. – 2.02.1604-cü il) yazıldı".

Səfəvi hökmdarı I Şah Abbas həmin fərmanı verməklə Osmanlı dövləti ilə müharibədə onu müdafiə etmiş Ordubad əhalisinin rəğbətini və hörmətini qazanmaq istəmiş, bununla da osmanlılarla gələcək müharibələrdə özünə möhkəm və etibarlı arxa yaratmaq məqsədini güdmüşdü. Həmçinin, şah fərmanda xüsusi olaraq qeyd olunan və Ordubad şəhərində yaşayaraq orada böyük nüfuz sahibi olan Nəsirəddin Tusi nəslinin də etibarını qazanmaq, onları həmişəlik olaraq öz tərəfinə çəkmək istəmişdi **(Səfərli H., 2001-1, s. 89-92)**. Bu fərmanı imzalayarkən I Şah Abbas strateji məqsədlər də güdmüş və bütün Azərbaycan xalqına göstərmək istəmişdir ki, şahı müdafiə edən, onun rəğbətini qazanan hər bir kəs şah tərəfindən mükafata layiq görülə bilər.

Ordubad şəhər əhalisinin xəzinəyə veriləcək bir sıra vergilərdən azad edilməsi haqqında fərmanın verilməsində şahın baş vəziri, Etimad əd-Dövlə, Nəsirəddin Tusi nəslindən olan Hatəm bəy Ordubadinin də böyük rolu olmuşdur **(Нейматова М., 1967, с. 105-110)**. Görkəmli alim İ.P.Petruşevskinin fikrincə I Şah Abbas bu fərmanı baş vəziri Etimad əd-Dövlə Hatəm bəy Ordubadinin xahişi ilə vermişdir **(Петрушевский И., 1949-1, с. 181)**.

Şəhər əhalisinin bir sıra vergilərdən azad edilməsi haqqında I Şah Abbasın fərmanının mətnini özündə əks etdirən bu kitabənin Ordubadın əsas məscidinin giriş qapısının baş tərəfində qoyulması heç də təsadüfi xarakter daşımırdı. XVII əsrdə şəhərin əsas məscidi olmaqla yanaşı, bu məscid həm də şəhərin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynayan bir mərkəz idi. Ümumiyyətlə, bu məscidin funksiyası təkcə şəhər əhalisinin ibadət yeri olmaqla məhdudlaşmamışdır. O, həm də əhalinin ən çox toplaşdığı əhəmiyyətli bir mərkəz olmuşdur. Əhali burada namaz qılıb ibadət etməklə yanaşı, başqa adamlarla görüşür, söhbətləşir, bir-biri ilə ünsiyyət yaradırdılar. Burada adamlar ölkədə olan məlumatlardan xəbər tutur, fikir mübadiləsi edirdilər. Ordubad şəhər Came məscidinin bu çoxsahəli cəhətindən bəhs edən tədqiqatçılar yazırlar ki, bu məscid şəhərin dini və inzibati mərkəzi sayılmışdır. Dini məqsədlərlə tikilməsinə baxmayaraq o, şəhər camaatının ən çox toplaşdığı sosial-siyasi mərkəz funksiyasını da yerinə yetirmişdir **(Пашаев А., 1998, с. 71)**.

Məscidin üzərində inşaat kitabəsi olmadığı üçün onun inşa tarixi haqqında qəti fikir söyləmək mümkün deyildir. Ancaq abidəni memarlıq baxımından tədqiq edən akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadənin fikrincə, özünün indiki görkəmində çox zəngin inşaat ənənələrinin məhsulu təsirini bağışlayan məscidin zahiri memarlıq siması ehtimal ki, XVII yüzilliyin əvvəllərində yaranmışdır **(Salamzadə Ə., Məmmədzadə K., 1985, s. 196, 200; Салаева Р., 2002, с.**

**95)**. Ancaq məscidin inşa tarixi haqqında başqa fikirlər də vardır. Seyyid Səbri "Şərq qapısı" qəzetinin 15 sentyabr 1926-cı il tarixli nömrəsində dərc etdirdiyi məqaləsində yazır ki, 1902-ci ildə Came məscidi təmir edilərkən torpağın altından kərpic üzərində həkk edilmiş bir kitabə tapılmışdır. Həmin kitabədə hicri 111-ci il tarixi və "Harun" şəxs adı yazılıbmış **(Səbri S., 1926)**. Hicri tarixlə 111-ci il, miladi tarixilə 729-cu ilə müvafiqdir. Əgər bu tarixi məscidin inşa tarixi kimi qəbul etsək, onda onun VIII yüzilliyin əvvəllərində, Naxçıvan ərazisinin islamlaşdığı ilk vaxtlarda yarandığı fikri ortaya çıxır. Ancaq çox təəssüflər olsun ki, nəinki Came məscidinin, eyni zamanda Ordubad şəhərinin özünün yaranması tarixi haqqında əsaslı və əhəmiyyətli fikir söyləməyə imkan verəcək bu kitabə indiyədək gəlib çatmamışdır və onun aqibəti də məlum deyildir.

Came məscidinin kişilər üçün salonunun mehrab olan hissəsi, diametri təxminən 5 metr olan dairə şəklində salondan ayrılmışdır. Salondan oraya qapı yeri kimi bir girişdən daxil olmaq lazım gəlir. Burada mehrab və dairəvi otağın divarları nəfis ornamentlərlə və ərəb əlifbasına məxsus gözəl xətlərlə, rənglə yazılmış kitabələr vardır. Şəhərin yaşlı əhalisi, həmçinin əsasən dini xarakterli həmin kitabələrin bir neçəsinin axırında qeyd olunmuş tarixlər şahidlik edirlər ki, bu kitabələr məscid hicri-qəməri təqvimi ilə 1319-cu ildə (miladi ilə 1902-ci il) təmir edilərkən yazılmışdır.

Arxiv materialları təsdiq edir ki, orta əsrlər dövründə olduğu kimi, XIX yüzillikdə də Came məscidinin çoxlu vəqfləri olmuşdur. Məsələn, məscidin şəhərin Mingis məhəlləsində Kərbəlayi Nurşərəf xan Ordubadi tərəfindən vəqf edilmiş, ildə 60 manat gəliri olan meyvə bağı var idi. Həmçinin, məscidin Ordubad şəhərində Məşədi Abutalıb Hacı Məhəmməd oğlu tərəfindən vəqf kimi bağışlanmış bir maqazini, Nüsnüs kəndində 3 meyvə bağı, Hacı Abdulla Ağakərim oğlu tərəfindən vəqf olunmuş bir dükanı var idi. Bunlardan gələn gəlir məscidin ehtiyaclarına sərf olunurdu **(Кулиева В., 2003, с. 132)**.

## Mingis məscidi

Keçmişdə Ordubad şəhərinin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynayan məscidlərdən biri də Mingis məscidi olmuşdur. Bu məscid şəhərin şərq tərəfində yerləşən eyni adlı məhəllənin mərkəzi hissəsində inşa edilmişdir. Şəhərin böyük bir hissəsini təşkil edən Mingis məhəlləsi Ordubadın ən qədim məhəllələrindəndir. Yerli əhali məhəllənin böyüklüyünü əsas götürərək onun adının ilkin olaraq "Min kəs", yəni min ailə yaşayan məhəllə şəklində olması, zaman keçdikcə təhrif olunaraq "Mingis" şəklinə düşməsi fikrindədir. Ordubad şəhərinin bütün məhəllələrində olduğu kimi, bu məhəllədə də bir neçə kiçik və bir böyük məscid fəaliyyət göstərmişdir. Əhalinin sosial-siyasi və ideoloji həyatında özünəməxsus yeri olan, bu səbəbdən də şərti olaraq "I Mingis məscidi" adlandırdığımız bu məscid zaman keçdikcə orta əsrlər zamanı olan ehtişamını itirmiş, XX yüzillikdə, xüsusilə sovet hakimiyyəti illərində baxımsız qalmış, unudulmuş, yanğın nəticəsində yanaraq məhv olmuşdu. Ancaq onun şərq divarı nisbətən salamat qalmışdı. Həmin divarda yerləşən giriş qapısının baş tərəfində məscid XVII yüzillikdə bərpa olunarkən bir inşaat kitabəsi qoyulmuşdu. Boz rəngli mərmər lövhə (56x29 sm) üzərində dörd sətirdə ərəb dilində süls elementli nəsx xətti ilə həkk edilmiş kitabənin mətni belədir: "Bu məscidi Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi 1088-ci ildə (miladi ilə 1677-ci il) yeniləşdirdi (bərpa etdirdi)" **(Сафаров Ф., 1987, с. 21)**.

Orta əsr qaynaqları bizədək Əbdülhüseyn Ordubadi adlı bir şəxsiyyətin adını çatdırmışdır. I Şah Abbasın baş vəziri Hatəm bəy Ordubadinin qardaşı Hacı Ədhəm bəyin Əbdülhüseyn Ordubadi adlı oğlu olmuş və o Səfəvi hökmdarı I Şah Səfinin dövründə (1629-1642-ci il) sarayın baş münşisi (sarayda fəaliyyət göstərən katiblərin rəhbəri-H.S.) vəzifəsini tutmuşdur.Orta əsrlər zamanı şah sarayında yazı işləri ilə məşğul olan katiblər "münşi" adla-

nırdılar. I Şah Abbasın tarixçisi İsgəndər bəy Türkmanın (1560/1561-1634) "Münşi" təxəllüsü ilə tanınması və məşhur olması buna parlaq misaldır. İsgəndər bəy Münşinin timsalında deyə bilərik ki, münşilər feodalizm dövründə əsasən şahın yanında olur, yürüşlər və müxtəlif səfərlər zamanı onu müşayiət edirdilər. Bir müddət Səfəvilər dövlətinin baş münşisi olan Əbdülhüseyn Ordubadi də müəyyən maddi və mənəvi imkanlara malik olmuşdur.Fikrimizcə, Mingis məscidini 1677-ci ildə bərpa etdirən Məhəmməd Hadinin atası, kitabədə adı çəkilən Əbdülhüsyen Ordubadi bu adamdır. Çünki orta əsrlər zamanı belə möhtəşəm bir məscidi bərpa etdirmək hər adama müyəssər olan iş deyildi. Görünür, Səfəvilər sarayında yüksək mənsəb sahibi olan atasının hesabına Məhəmməd Hadinin də maddi durumu normal olmuş, bu səbəbdən də belə bir xeyirxah işi yerinə yetirmişdir **(Səfərli F., 2003, s. 285)**. Məscidin böyüklüyü və möhtəşəmliyi onun orta əsrlər zamanı Ordubad şəhərinin əhəmiyyətli məscidlərindən, əhalinin həyatında mühüm rolu olan mərkəzlərindən biri olduğunu söyləməyə əsas verir.

Məscid Ordubad şəhərinin ictimai-siyasi və ideoloji həyatında mühüm əhəmiyyətə malik olduğu üçün ona vəqf kimi bir sıra əmlaklar bağışlanırdı. Məsələn, şəhərdə onun 4 dükanı, bağçalı evi vardı. Bu vəqflərdən əldə olunan gəlir məscidin təmir işləri və kasıb seyidlər üçün xərclənirdi **(Кулиева В., 2003, с. 132)**.

Məscidin binası 2001-ci ildə Hüseyn Əli oğlu Qənbərovun övladları tərəfindən yenidən bərpa edilmiş və əhalinin ixtiyarına verilmişdir.

## Vənənd kənd Came məscidi

Orta əsrlər zamanı Naxçıvan ərazisində əhalinin sosial-siyasi və ideoloji həyatında mühüm yeri olan məscid – mərkəzlərdən biri də Ordubad bölgəsinin Vənənd kəndikdəki Came

məscididir. Özünün planlaşdırılması və tikilişində orta əsr şəhərsalma mədəniyyətinin əlamətlərini saxlayan Vənənddə bu günə qədər qalan çoxlu maddi-mədəniyyət nümunələrindən biri də Came məscididir. Zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatan Came məscidi düzbucaqlı formada inşa edilmişdir. Hazırkı vəziyyətdə giriş qapısı şimal tərəfdən olan məscidin hündürlüyü 7 metrə, daxili sahəsi 400 kvadratmetrə yaxındır. Məscidin cənub divarında böyük bir mehrab vardır. Mehrab müxtəlif rənglərdən istifadə olunmaqla ornament və naxışlarla, kiçik kitabə motivləri ilə çox nəfis şəkildə bəzədilmişdir. Məscidin daxili ağac və taxtalardan istifadə olunmaqla düzəldilən balkon vasitəsilə iki mərtəbəli şəklə salınmış və ikinci mərtəbə, yəni balkon qadınların ibadət etməsi üçün nəzərdə tutulmuşdur. Balkonun mehraba baxan taxtalarından birinin üzərində qara rənglə geniş həcmli bir kitabə yazılmışdır. Ölçüsü 348x26,5 sm olan, süls elementli nəsx və şikəstə xətti ilə yazılan kitabənin mətninin tərcüməsi belədir:

“Bu səadətli məscidin yenidən bərpa edilməsinə, ibadətə layiq hökmdarın (Allahın) köməyi ilə 1145-ci ilin məhərrəmül-həram ayında səadətli cənab Əxəvi Məhəmməd Molla Zəhir ibn mərhum, bağışlanmış, bağışlayan Allahın rəhmətinə çatmış Mövlana Məhəmməd Möminin – Allah onların hər ikisini bağışlasın – səyi nəticəsində mübarək bir zamanda əmr edilmişdir. (Bu zaman) vəziyyət çətin, qəhətlik həddən aşmışdı. Məzənnəyə görə tilani çəkisi ilə bir batman buğda dörd yüz dinara, düyü səkkiz yüz dinara, yağ iki min səkkiz yüz dinara, bal üç min iki yüz dinara, doşab iki min dörd yüz dinara, pendir min altı yüz dinara, məviz iki min dörd yüz dinara, arpa üç yüz əlli dinara, (ucuzlu) qaysı səkkiz yüz dinara, soğan səkkiz yüz dinara, sarımsaq min iki yüz dinara, pambıq dörd min dinara, qovun tumu beş min dinara satılırdı. Bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı. Zəmanə elə pis olmuşdu ki, Vənənd kəndi və onun ətrafı bir il içərisində üç dəfə talan ol-

muşdu. Bir çox müsəlman qadın və kişilər öldürülüb və əsir alınmışdı. Digər Allah bəndələri qaçaraq Araz çayını keçib o taydakı kəndlərdə məskən salmışdılar. O pozğunluq zamanında alver qapısı bağlanmışdı. Allahın dəyişməz, böyük və yüksək dərgahına ümidvarıq ki, bütün müsəlman və möminlərin şəhərlərindən belə bəlaları qaldırar və uzaqlaşdırar. Amin. Peyğəmbərlərin ən hörmətlisinin xatirəsinə (bunu) mərhum Molla Məhəmməd Mömin Vənəndinin oğlu, günahkar, yazıq, yoxsul Məhəmməd Rzadan – Allah onları peyğəmbər və onun canişini xatirəsinə bağışlasın – qəbul et. 1145-ci il" (24.6. – 23.7. 1732-ci il) **(Nemətova M., 1963, s. 139-140)**.

Kitabənin məzmunundan aydın olur ki, hicri 1145-ci ildə məscidin binası yenidən bərpa edilmişdir. Bərpa haqqında dəyərli məlumatlar verən kitabə, həmçinin yazıldığı dövrün tarixi hadisələrini izah etmək baxımından da qiymətli faktlar təqdim edir.

Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar bu kitabəyə əsaslanaraq, yanlış olaraq onun tarixini məscidin inşa tarixinə aid edirlər. Ancaq kitabənin məlumatından da aydın olur ki, məscid 1732-ci ildə inşa deyil, bərpa olunmuşdur. Əslində məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Məscidin vaxtilə qərbdən giriş qapısı olmuş və həmin giriş qapısının baş tərəfində qırmızımtıl rəngli daşa həkk olunmuş bir kitabə qoyulmuşdur. Həmin kitabə indiyədək salamat vəziyyətdə qalmışdır. Ancaq XVIII əsrin 30-cu illərində məscid bərpa olunarkən məscidin qərb divarından təxminən 2 metr aralı – qərb tərəfdə, məscidi genişləndirmək üçün başqa bir divar çəkilmiş və kitabə olan divar məscidin içərisində qalmışdır. Məscidə giriş qapısı isə bərpa zamanı şimal divardan qoyulduğu üçün daha qərbdəki qapıdan istifadə olunmamış və zaman keçdikcə orada olan kitabə də unudulmuşdur. Kitabənin mətnindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 725-ci ildə (miladi ilə 1325-ci ildə) inşa edilmişdir. Bu məscid Ordubad bölgəsinin daha bir kəndində, Nüsnüsdə bu günə qədər gəlib çatan

pir-ziyarətgahla eyni vaxtda (1326-cı il) inşa edilmişdir. Vənənd kəndində bu gün də əsas məscid funksiyasını yerinə yetirən bu məscid Naxçıvan şəhərində XII əsrdə Əcəmi Əbubəkr oğlu tərəfindən inşa edilən Came məscidi və Nüsnüs kəndindəki pir-məscid istisna olmaqla bölgədə bizə məlum olan ən qədim məscid nümunələrindəndir.

Vənənd məscidi Naxçıvan ərazisində yeganə məscidlərdəndir ki, onun üzərində müxtəlif dövrlərə aid bir neçə kitabə qalmışdır. Artıq ikisi haqqında danışılan bu kitabələr özlərində məscidin inşa tarixi, ayrı-ayrı şəxsiyyətlərin qayğısı və vəsaiti ilə bərpa və təmir olunması haqqında məlumatları əks etdirirlər. Bizə bu haqda məlumat verən üçüncü kitabə məscidin cənub divarında, mehrabın sağ tərəfində gəc üzərində rənglə yazılmış kitabədir. İri hərflərlə yazılan bu kitabənin mətni "Ya Əli, kömək ol! Kömək ol, ya Əli! 1307-ci ilin mübarək ramazan ayında Mirzə Süleyman Mərəndi yazdı" sözlərindən ibarətdir. Kitabəyə əsasən aydın olur ki, məscid hicri 1307-ci ildə (miladi ilə 1890-cı il) təmir olunmuş, həmin vaxt orada yazılan kitabəni mərəndli xəttat Mirzə Süleyman yazmışdır. Məscid təmir olunarkən onun mehrabı da müxtəlif rənglərlə nəfis şəkildə bəzədilmişdir. Ehtimal etmək olar ki, məsciddə aparılan bütün rəng işlərini Mirzə Süleyman Mərəndi yerinə yetirmişdir **(Səfərli F., 2003, s. 295-299)**.

Son illərdə məsciddə təmir-bərpa işləri aparılmışdır.

## Hacı Hüseynqulu məscidi

Orta əsrlər zamanı Naxçıvan bölgəsində inşa edilmiş ən möhtəşəm və qədim məscidlərdən biri də Ordubad rayonunun Gənzə kəndinin mərkəzində inşa edilən Hacı Hüseynqulu məscididir. Məscid son zamanlaradək diqqətdən kənarda qalmış, geniş tədqiqat obyektinə çevrilməmişdir. Onun haqqında yalnız 1927-ci ildə Ordubadda olan Azərbaycanı Tədqiq və Tətəbbö

Cəmiyyətinin elmi katibi, rus alimi V.Sısoyev qısa məlumat vermişdir **(Сысоев В., 1928, с. 151)**. Daxildən ölçüsü 23x14 m olan məscidin üzərində kitabə olmadığı üçün onun banisi, inşa tarixi, memarı və s. haqqında konkret və dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq yerli camaatın dediyinə görə onu Hacı Hüseynqulu adlı nüfuzlu və imkanlı bir adam tikdirmişdir. Hacı Hüseynqulu öldükdən sonra vəsiyyətinə əsasən məscidin cənub divarının qarşısında dəfn olunmuşdur. Onun qəbiri hazırda məscidin qabağında qalmaqdadır. Məsciddə olduğu kimi qəbirin üstündə də heç bir epiqrafık sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbirin üstü də götürülmüş, üzərinə mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, XVI əsr" sözləri həkk edilmişdir. Hacı Hüseynqulunun vəfat tarixinin XVI əsr kimi göstərilməsi heç bir tarixi fakta söykənmir və yaşlı sakinlərin dediyinə görə təxmini bir tarix olaraq başdaşında həkk edilmişdir.

Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. Sonralar, deyilənə görə, 20 əsrin əvvəllərində məscidin qərb tərəfindən əlavə bina tikilərək kişilərə aid salona birləşdirilmiş və məcidin sahəsi genişləndirilmişdir. Məscidin əsas, qədim hissəsi daşdan hörülmüş, tavanı üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvari hörülərək birləşdirilmişdir. Divarların qalınlığı 1 metrdir. Məscidin içərisində, divarlarda 5 divariçi taxça düzəldilmişdir. Məscidə girişin önündə eyvan vardır. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır.

Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı cənub-qərb tərəfində gözəl bir minarə ucaldılıb. Minarənin üstündə ərəb və kiril əlifbası ilə yazılmış kitabə qoyulmuşdur: "Məscidin minarəsi 2000-ci ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdiril-

mişdir. Memarları Kərbəlayi Səyid, Kərbəlayi Qurban". Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlikdə və orucluqda burada dini mərasimlər icra olunur.

Məscidin cənubunda olan qəbiristanlıq da vaxtı ilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş, onu qəbiristanlıq üçün bağışlamışdır. Orada olan məzar kitabələrinin üzərində olan tarixlərə əsasən demək olar ki, Hacı Hüseynqulu XV əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir **(Səfərli H., 2006, s. 40-41).**

Məscidin memarlıq baxımından geniş və sistemli tədqiqinə ehtiyac vardır.

## Xanəgah məscidi

Naxçıvan bölgəsində memarlıq xüsusiyyətlərinə görə diqqəti cəlb edən məscidlərdən biri də Culfa rayonunun Xanəgah kəndindəki məsciddir. Məscid kəndin qərb tərəfində, Əlincəqalanın şərq ətəyində, Əmirxan türbəsindən təxminən 100 metr şimalda, Əlincə dağının yamacında inşa edilmişdir. Dördbucaqlı şəklində inşa olunan məscidin daxilində qadınların oturması və ibadət etməsi üçün xüsusi dayaqlarla ikinci mərtəbə hazırlanmışdır. Məscidin şərqdən və şimaldan giriş qapısı vardır. Şərq tərəfdən olan qapı kişilər, şimal tərəfdən olan qapı isə qadınlar üçün nəzərdə tutulmuşdur. Məscid dağın yamacında inşa edildiyi üçün qadınlara aid qapı yüksəklikdə qoyulmuşdur. Ona görə də qadınlar həmin qapıdan birbaşa məscidin daxilində ikinci mərtəbə sayılan balkona daxil olurlar. Binanın pəncərələrinin başlıqları yarımdairəvi formada hazırlanmışdır. Məscidin minarəsi dördkünc formada inşa olunmuşdur. Məscid binasında sonradan aparılan tikinti işlərinə əsasən demək olar ki, abidə XX əsrdə bərpa edilmişdir. Ancaq məscidin ətrafında orta əsrlərə aid tikinti qalıqları qalmaqdadır. Kəşfiyyat xarakterli axtarışlar zamanı məscidin ətrafından orta əsrlər dövrünə aid keramika nümunələri aşkar edilmişdir.

Hazırda kənd əhalisi tərəfindən istifadə olunan məscidin üzərində epiqrafik sənəd olmadığı üçün onun inşa tarixi haqqında dəqiq fikir söyləmək çətindir. Ancaq əldə olunan arxeoloji materiallara, məscidin tikinti texnikasına (abidə günbəzli məscidlər qrupuna daxildir, ancaq binanın üstü qar və yağış sularından qorunmaq üçün dəmir təbəqə ilə örtüldüyündən günbəz görünmür), Xanəgah kəndində XV yüzillikdə inşa edilən digər memarlıq abidələrinin olmasına, xüsusilə yaxınlıqda tarixi dəqiq məlum olan Əmirxan türbəsinin yerləşməsinə və onunla bəzi oxşar cəhətlərinə əsasən abidənin inşa tarixini XV yüzilliyə aid etmək olar.

## Saltaq məscidi

Saltaq məscidi Culfa rayonunun eyni adlı kəndinin mərkəzində yerləşir. Girişi şimaldan olan məscid binasının daxili sahəsi təxminən 160 kvadratmetrdir (ölçüsü: uzunluğu 16 metr, eni 10 metr, hündürlüyü 5 metr). Tavanı bir neçəağac dirəyin üzərində qərar tutan məscidin daxilində, şimal divarda 3 ədəd mərmər lövhə üzərində kitabə qoyulmuşdur. Böyük mərmər parçası (ölçüsü 66x45 sm) üzərində dörd sətirdə ərəb dilində, aydın süls xətti ilə həkk edilmiş kitabənin mətninin tərcüməsindən aydın olur ki, hansı isə qalanın [bür]cü sultan, rəhbər – fədai, əsfiya saliksüluk, haqq əl-yəqin, sultan Heydərin oğlu, böyük sultan, ali nemətlər, qalibiyyət və bayraq sahibi, Allahın peyğəmbərlərinin və elçilərinin varisi, xeyir işlər sahibi Əbül-Müzəffər Şah İsmayıl Bahadır xan – Allah onlara rəhmət eləsin – üçün 910-cu ildə (14.06.1504 – 03.06.1505-ci il) [inşa edilmişdir].

İkinci kitabə ölçüsü 44x42 sm olan mərmər lövhə üzərində süls xətti ilə həkk edilmişdir. Kitabənin mətnində “sultan, övliya.. [Heydərin] oğlu, böyük sultan, xaqan… Allahın peyğəmbərlərinin və elçilərinin [varisi]… [Şah] İsmayıl Bahadır xan” sözləri yazılmışdır.

Kiçik mərmər lövhə (30x18 sm) üzərində həkk edilən üçüncü kitabənin isə mətni belədir: "…Haqq əl-yəqin, sultan Heydər…".

Göründüyü kimi kitabələrdə orta əsrlərdə Azərbaycanda geniş yayılan "Səfəviyyə" sufi təriqətinin XV yüzillikdə rəhbər-şeyxi olmuş (1460-1488-ci illər) sultan Heydərin və oğlu, təriqətin rəhbəri (1494-1524-cü illər), həmçinin Azərbaycan tarixində xüsusi yeri olan, hakimiyyəti 235 il davam etmiş (1501-1736-ci illər) Səfəvilər dövlətinin 1501-ci ildə əsasını qoymuş və 1501-1524-illərdə bu dövlətə rəhbərlik etmiş Şah İsmayılın adları qeyd olunmuşdur.

Kitabələrdə atanın və oğulun adlarına əlavə olunmuş titullar diqqəti cəlb edir. Şeyx Heydərin adına əlavə edilmiş birinci kitabədə "sultan", "rəhbər-fədai", "əsfiya", "salik-süluk" və "haqq əl-yəqin", ikinci kitabədə "sultan", "övliya", üçüncü kitabədə isə "haqq əl-yəqin" və "sultan" titulları onun dünyəvi rəhbər (sultan) olmaqla bərabər həm də təriqət rəhbəri, sufilikdə çox böyük məqam sahibi olduğunu, təsəvvüfdə ən yüksək, ali mənsəbə çatdığını göstərir. Bu titullardan biri, "salik-süluk"dur. Sufilikdə mürşidinin yardımı və köməyi ilə sufiliyin təriqət mərhələsinə daxil olan və həqiqət mərhələsinə çatmaq üçün inamla irəliləyən kəs "salik" adlanır. "Süluk" isə burada qət edilən yoldur. Xacə Nəsirəddin Tusinin "Övsafül-əşraf" əsərinə qeyd və şərhlər yazmış F.Şəfiyev bu məsələni izah edərkən Nəfisidən misal gətirir. Nəfisi deyir: "Bil ki, süluk ərəb dilində mütləq gedişdən ibarətdir, yəni yolçu ola bilsin zahiri aləmdə seyr etsin, ola da bilsin batini aləmdə seyr etsin. Sufilər yanında süluk xüsusi hərəkətdən, gedişdən ibarət olub müəyyən dərəcələrə bölünür, bu həmin "seyr iləllah" (Allaha doğru seyr), "seyr fillah"dır (Allahda seyr). Allaha doğru seyrin nəhayəti var, Allaha seyrin nəhayəti olmaz. Əgər bu deyilənlər çətin anlaşılarsa başqa bir şəkildə söyləyim. Bil ki, sufilər yanında süluk, pis danışıqdan yaxşı danışığa, pis əməldən

yaxşı əmələ, pis əxlaqdan yaxşı əxlaqa, öz varlığından Allahın varlığına doğru getməkdən ibarətdir” **(Xacə Nəsirəddin Tusi, 2005, s. 17-18)**.

Kitabələrdə Azərbaycan tarixində xüsusi yeri olan I Şah İsmayılın da adı çəkilir və o “böyük sultan”, “xaqan”, “ali nemətlər, qalibiyyət və bayraq sahibi”, “Allahın peyğəmbərlərinin və elçilərinin varisi” kimi titul və epitetlərlə təqdim olunur. Burada “böyük sultan” və “xaqan” titulları onun dünyəvi dövlət başçısı olmasına, “ali nemətlər, qalibiyyət və bayraq sahibi” epiteti isə bir sıra döyüşlərdə qələbə çalmasına işarədir.

Şah İsmayılın adına əlavə olunmuş “Allahın peyğəmbərinin və elçilərinin varisi” epiteti üzərində qısa dayanmaq istərdik. Qeyd edək ki, Şah İsmayılı sağlığında müridləri, tərəfdarları, dövlət aparatında işləyənlər və s. belə adlandırırdı. Onun şeirlərində də bu fikir təbliğ olunurdu. Şah İsmayıl təbliği yazılarında bildirirdi ki, sadəcə şahlığa çıxmamış “haqqın səsi” olmaqla on iki imamın biri kimi (“On iki imamın mən dəxi biriyəm”) zühur etmişdir. O öz şəxsiyyətini ilahiləşdirmək üçün “rəfiqim qazilər” adlandırdığı təriqət döyüşçülərinə, bütün orduya və xalqına üz tutub: “Allah-Allah deyin qazilər / Qazilər, deyin Şah mənəm” inanışına çağırırdı. Bu inanışa qarşı çıxmaq onun şeirlərində dinsizlik, kafirlik və düşmənçilik kimi dəyərləndirilirdi: “Əzəldən şah bizim sultanımızdır, pirimiz, mürşidimiz, xanımızdır; Xətai dər məvali – sirri Heydər, Şahi həqq bilməyən düşmanımızdır” **(Azərbaycan tarixi, 1996, s. 368)**.

Bu kitabələr Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan müsəlman kitabələri içərisində Şeyx Heydərin və oğlu Şah İsmayılın adı qeyd olunan ilk epiqrafik sənəddir. Kitabəyə əsasən demək olar ki, Naxçıvan bölgəsi yeni dövlət yarandığı andan Səfəvi hökmdarlarının diqqət mərkəzində olmuş, orada geniş quruculuq işləri aparılmışdır. Həmçinin, kitabədə sufiliyə məxsus bir sıra yüksək titul və epitetlərin qeyd olunması Şeyx Heydərin və Şah İsmayılın rəhbərlik etdiyi, Səfəvilər

dövlətinin yaradılmasında xüsusi rolu olan "Səfəviyyə" sufi təriqətinin Naxçıvanda geniş yayıldığını və fəaliyyət göstərdiyini təsdiq edir. Əlincəçay vadisinin sufi təriqətlərinin geniş yayıldığı ərazilərdən olduğunu, hələ Səfəvilər dövləti yaranmamışdan səfəvilərlə hürufilər arasında geniş əlaqələrin olduğunu, hətta orta əsr müəllifləri tərəfindən "Səfəviyyə" təriqətinin hürufilərin hamisi kimi qiymətləndirilməsini **(Sadiqoğlu Ç., 1988, s. 63)** nəzərə alaraq demək olar ki, "Səfəviyyə" dərvişləri Əlincəqaladan təxminən 1 km şərq tərəfdə yerləşən və el arasında Hürufilik təliminin banisi Fəzlullah Nəimi ilə əlaqələndirilən xanəgahda hürufilərlə birlikdə yaşamış və fəaliyyət göstərmişlər. Buna görə də haqqında bəhs olunan kitabələrin sovet hakimiyyəti illərində ateizm təbliğatına uyğun olaraq Əlincəçay xanəgahının baxımsız qaldığı və dağılmaq təhlükəsi qarşısında olduğu dövrlərdə xanəgahdan təxminən 2-3 km aralı yerləşən Saltaq kəndinə gətirilməsi fikrindən də yayınmaq olmur.

Məscidin inşa tarixi XVIII əsrə aiddir. Müstəqillik illərində bərpa və təmir edilmişdir.

## Şah Abbas (Yuxarı Əylis) məscidi

Ordubad rayonunun Yuxarı Əylis kəndində vaxtilə Səfəvi hökmdarı I Şah Abbas tərəfindən və ya onun hakimiyyəti illərində (1587-1629-cu illər) inşa etdirilən, bir neçəsi bu günədək salamat vəziyyətdə gəlib çatan və şahın adı ilə adlandırılan məscid, mədrəsə və körpü kəndin orta əsrlər dövründəki inkişaf səviyyəsini göstərir. Kəndin əsas məscidinin "Şah Abbas məscidi" adlandırılması onun Səfəvi hökmdarı I Şah Abbas tərəfindən inşa etdirilməsi ilə əlaqələndirilir. Ümumiyyətlə, Naxçıvan ərazisində orta əsrlər zamanı inşa edilmiş bir çox abidələr, o cümlədən məscidlər, hamamlar, körpülər, göllər və s. I Şah Abbasın adı ilə əlaqələndirilir. Naxçıvanda əhali arasında yayılan və tədqiqatçıların da təsdiq etdiyi belə bir fikir vardır

ki, I Şah Abbasın hakimiyyəti dövründə (1587-1629-cu illər) Azərbaycanda müxtəlif təyinatlı 999 abidə tikdirilmişdir **(Miller K., 2002, s. 125)**. Bu abidələrin sayının konkret olaraq 1000 deyil, 999 kimi ifadə olunması I Şah Abbas dövründə Səfəvi-Osmanlı müharibələri nəticəsində Azərbaycanın siyasi, iqtisadi, hərbi vəziyyətinin ağır olmasına baxmayaraq ölkədə quruculuq işlərinə yüksək dərəcədə fikir verilməsi, bu rəqəmin daha əzəmətli səslənməsi və sonsuzluğa doğru getməsi ilə əlaqədardır. Naxçıvanda Şah Abbasın adı ilə əlaqələndirilən abidələrin, o cümlədən Yuxarı Əylis məscidinin də həmin dövrdə inşa etdirilməsi ehtimal olunur.

Zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatmış məscid Yuxarı Əylisin ən qədim məhəllələrindən biri olan Meydan məhəlləsində yerləşdiyinə görə "Meydan məscidi" də adlandırılır. Girişi qərbdən olan (daxildən ölçüsü: uzunu 11 m, eni 7,7 m, hündürlüyü 4,2 m) məscidin şimal tərəfində məscidə bitişik təsərrüfat binası vardır. Məscidin şərq, qərb və cənub divarlarında pəncərələr qoyulmuşdur. Maraqlıdır ki, bu pəncərələrin hamısının üstündə, təxminən 30 sm yuxarıda ikinci pəncərə vardır. Görünür bunu nəzərə alaraq V.M.Sısoyev yazır ki, bina iki mərtəbəli deyil, ancaq iki işıqlıdır. Çünki ikinci mərtəbə birincidən ayrılmamış, birinci mərtəbənin pəncərələri üzərində təxminən ikinci mərtəbə yüksəkliyində əlavə bir neçə pəncərə düzəldilmişdir **(Сысоев В., 1928, с. 161)**.

Məscidin şimal-qərb tərəfində, məscidə bitişik mədrəsə binası vardır. Bu məscid Naxçıvan bölgəsində Ordubad Came məscidindən sonra yanında mədrəsə binası olmaqla indiyədək gəlib çatan ikinci məsciddir. Yanında belə gözəl bir mədrəsənin fəaliyyət göstərməsi məscidin, eyni zamanda Yuxarı Əylisin orta əsrlər zamanındakı ehtişamından xəbər verir. Bu mədrəsədə orta əsrlərdə Əylis şəhərinin və ətraf yerlərin uşaqları təhsil almışlar.

Məscidin şimal-şərq tərəfində yenə də məscidə bitişik hamam vardır. İndiyədək dağılmış və yarımuçuq vəziyyətdə gəlib çatan hamamın hazırkı görkəmi və ölçüləri göstərir ki, o çox möhtəşəm bir abidə olmuşdur. Hamamın məscidin yanında inşa edilməsi onun əsasən məscidə xidmət etməsi səbəbindən irəli gəlmişdir. Ordubad bölgəsinin Gənzə kəndindəki Hacı Hüseynqulu məscidinin yanındakı, həmçinin rayonun Nüsnüs kəndindəki hamam da eynilə bu hamam kimi məscidin şimal-şərqində oxşar şəkildə inşa edilmişdir. Ona görə də onların eyni usta tərəfindən inşa olunması fikrindən yan keçmək olmur **(Səfərli H., 2007, s. 11-12)**.

Məscidin inşa tarixini I Şah Abbasın hakimiyyəti illərinə (1587-1629-cu illər) aid etmək olar.

## Mir Gədik məscidi

Mir Gədik məscidi Ordubad rayonunun Yuxarı Əylis kəndinin şimal hissəsində yerləşir. Əylisçayın sol sahilində inşa edilən məscid müstəqillik illərində bərpa olunmuşdur. Giriş qapısı şimaldan olan məscidin daxili sahəsi təxminən 50 kvadratmetrə yaxındır. Məscidin tavanı 2x2=4 dirək üzərində dayanmışdır. Cənub divarında iki pəncərəsi vardır.

Əsasən məhəllə camaatına xidmət edən məscidin inşa tarixini XVII əsrə aid etmək olar.

## Meydan (Dəstə) məscidi

Ordubad rayonunun Dəstə kəndində zəmanəmizədək dörd məscid gəlib çatmışdır: Sahib əz-Zaman məscidi, Şingiləy məscidi, Hacı Allahverdi məscidi və Meydan məscidi. Yerli əhalinin fikrincə bu məscidlərdən ən qədimi Şingiləy məscididir. Kəndin mərkəzində inşa edilməsi səbəbindən əhali arasında "Meydan məscidi" kimi tanınan məscid kəndin əsas məscidi olmuşdur. Bu məscid Came məscidi funksiyasını yerinə yetirmiş-

dir. Məscidin daxildən ölçüləri belədir: uzunluğu 18,5 metr, eni 12,5 metr (ümumi sahəsi: 230 m), hündürlüyü 4 metr. Məscidin tavanı 3x6=18 ağac sütunun üzərində dayanmışdır. Binanın daxilini şərq divarda qoyulan 4, cənub divarda qoyulan 4 və qərb divarda qoyulan 2 pəncərə işıqlandırır.

Məscidin qərbdən giriş qapısının baş tərəfində iki kitabə qoyulmuşdur. Boz rəngli daş lövhə (48x32 sm) üzərində ərəb dilində, nəsx xətti ilə iki sətirdə həkk edilmiş birinci kitabənin mətninin tərcüməsi belədir: "Qurani-Kərim, LXXII-18. Bu məscidin bina olunmasını 19-cu ildə Əbdülxan Cavad oğlu əmr etdi" **(Сафаров Ф., 1987, с. 14-15).**

Kitabənin tarixi mətndə 19-cu il kimi qeyd edilmişdir. Ancaq bir sıra tarixi faktlar, həmçinin kitabənin xətt xüsusiyyətləri onu hicri qəməri təqvimi ilə 19-cu ilə (miladi ilə 640-cı ilə) aid etməyə imkan verir. Ona görə də bəzi müsəlman epiqrafikası abidələrində tarixlər yazıların minliklərin buraxılması faktına **(Лавров Л., 1966, с. 158)** əsaslanaraq kitabənin tarixini 1019-cu il (26.03.1610 – 15.03.1611-ci il) kimi qəbul edirik.

Məscidin giriş qapısının baş tərəfində bu kitabədən yuxarıda yaşılımtıl rəngli daş lövhə (51x32 sm) üzərində qarışıq ərəb-fars dillərində nəsx xətti ilə üç sətirdə həkk edilmiş başqa bir kitabə də qoyulmuşdur. Kitabənin məzmunu belədir: "Qurani-Kərim, IX-18. Bu məscidin və Dəstək kəndinin Tub-Basar kövşənindəki körpünün banisi cənnətməkan Məşədi Hüseynəli Dəstəkinin oğlu, Fəxrül-Hac Hacı Məhəmmədnəqidir. 1019-cu ildə (26.03.1610 – 15.03.1611-ci il) yazıldı. Rus əyyamında" **(Сафаров Ф., 1987, с. 13).**

Bu kitabə keçən yüzilliyin 70-ci illərində anbar kimi istifadə olunan məsciddə kiçik təmir işləri aparılan zaman daxildə torpağın altından aşkar olunmuşdur. Kəndin yaşlı sakinlərinin söylədiyinə görə kitabə əvvəl məscidin qızdırılması üçün divarda düzəldilən buxarının üzərində qoyulubmuş. Nə vaxtsa

yerindən düşən kitabə torpağın altında qalmış, tapıldıqdan sonra qapının baş tərəfində qoyulmuşdur.

Hər iki kitabənin verdiyi məlumatların təhlilindən aydın olur ki, məscidin bina olunmasını miladi təqviminin 1610-1611-ci ilində Əbdülxan Cavad oğlu əmr etmiş, Hacı Məhəmmədnəqi isə bir memar kimi onu inşa etmişdir. Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, Azərbaycan Ensiklopediyasının III cildində bu məscidin inşa tarixi yanlış olaraq XIX yüzilliyə aid edilir.

Dəstə kənd Came məscidi yarandığı andan kəndin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynayan bir mərkəzə çevrilmişdir. Əhalinin maariflənməsində, kəndin mədəni və ideoloji həyatında müəyyən yeri olan bu məscid XX yüzilliyin əvvəllərində ermənilərin müsəlman türklərə qarşı həyata keçirdiyi soyqırım zamanı dağıntılara məruz qalmışdır. 1926-cı ildə kənddə olmuş rus alimi V.M.Sısoyev məscidi dağılmış vəziyyətdə görmüş və onun vətəndaş müharibəsi (Sovet elmi ədəbiyyatında ermənilərin xalqımıza qarşı həyata keçirdiyi soyqırım məhz belə adlandırılırdı) zamanı dağıntıya məruz qaldığını yazmışdır **(Сысоев В., 1928, с. 182).**

Kəndin mərkəzində yerləşən geniş həcmli bu məscid yaşayış məskəninin ən böyük məscidi olmaqla əhalinin həyatında mühüm rol oynamış, onların ən çox toplaşdığı, ibadət və zikrlə məşğul olduğu yer olmuşdur. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini əldə etdikdən və insanların dini etiqadlarına azadlıq verildikdən sonra məscid yenidən təmir olunaraq dindarların istifadəsinə verilmişdir. İndi də bu məscid orta əsrlər dövründəki kimi kənddəki digər məscidlərlə müqayisədə dindarların ən çox toplandığı bir mərkəzə çevrilmiş, beləliklə, o, əvvəlki funksiyasını yerinə yetirməyə başlamışdır.

## Şingiləy məscidi

Bu məscid Ordubad rayonunun Dəstə kəndində yerləşir. Dəstə kəndinin Şingiləy məhəlləsində inşa edildiyi üçün mə-

həllənin adı ilə "Şingiləy məscidi" adlandırılır. Girişi şimaldan olan məscid qədim tarixə malikdir. Ancaq keçən müddət ərzində məscid binası tamamilə uçub dağıldığı üçün 1989-1992-ci illərdə əhali tərəfindən bərpa olunmuşdur. Bərpa zamanı məscidin cənub divarında iki kitabə qoyulmuşdur: birinci kitabədə "XI əsr abidəsi", ikinci kitabədə "Məscid 1989-1992-ci illərdə yenidən bərpa olunmuşdur" sözləri yazılmışdır.

Hazırki vəziyyətdə məscidin uzunluğu 16,6 metr, eni 9,0 metr, hündürlüyü 4,3 metr olmaqla daxili sahəsi təxminən 150 kvadratmetrdir.

Məsciddən əsasən Dəstə kəndinin Şingiləy məhəlləsinin əhalisi istifadə edir.

## Heydərxanlı məscidi

Babək rayonunun Cəhri kəndində zəmanəmizədək beş məscid binası gəlib çatmışdır. Bu məscidlərdən bəzisi yarımuçuq vəziyyətdə olsa da nisbətən salamat qalanları da olmuşdur. Ancaq onlardan sovet hakimiyyəti illərində təsərrüfat məqsədi ilə anbar kimi istifadə olunmuşdur. Belə məscidlərdən biri kənd əhalisi arasında "Heydərxanlı məscidi" kimi tanınan məsciddir. Kəndin mərkəzində, Heydərxanlı məhəlləsində yerləşən bu məscidin divarları kvadrat formalı çiy kərpicdən inşa olunmuş, fasadı bişmiş kərpiclə üzlənmişdir. Məscid qoşa mehrablıdır. Qeyd etmək lazımdır ki, Naxçıvan bölgəsində qoşa mehrablı məscidlərə demək olar ki, nadir hallarda rast gəlinir.

Sovet hakimiyyəti illərində Heydərxanlı məscidindən anbar kimi istifadə edilmişdir. Son illərdə bura taxıl yığılırdı. Buna görə də məscidin uçub tökülən yerləri, xüsusi ilə qərb divarı kobud şəkildə bərpa edilmişdir. Məscidin cənub tərəfdən iki giriş qapısı vardır. Qərbdəki qapı kişilər, şərq tərəfdəki qapı isə qadınlar üçün nəzərdə tutulmuşdur. Binanın içərisi üç sıra ağac sütunlarla dörd yerə ayrılmışdır. Məscidin daxilində şimal

və şərq divarların qarşısında kərpic hörgü ilə geniş səki düzəldilmişdir. Bu hissə qadınların oturması üçün nəzərdə tutulmuşdur. Mehrab cənubda yerləşən iki dərin uzunsov taxça və onları birləşdirən tağşəkilli ornamentdən ibarətdir. Məscidin üstü ağac tirlərlə örtülmüşdür. Xüsusi memarlığa, qədim tarixə malik olan məscid hazırda yarımuçuq vəziyyətdədir.

XV əsrə aid olan məscid son dəfə XIX əsrdə əsaslı şəkildə bərpa edilmişdir.

## Cilovxanlı məscidi

Naxçıvan ərazisində orta əsrlər zamanı yaradılan ibadət yerləri içərisində özünəməxsus yeri olan məscidlərdən biri də Cilovxanlı məscididir. Əsasının XV əsrdə qoyulması ehtimal olunan məscid Babək rayonundakı Cəhri kəndinin ən böyük və qədim məhəllələrindən olan Cilovxanlı məhəlləsində yerləşdiyindən kənd əhalisi tərəfindən məhəllənin adı ilə "Cilovxanlı məscidi" adlandırılır. Sovet hakimiyyəti illərində baxımsızlıq ucbatından güclü aşınmaya məruz qalmış, uçub-dağılmış məscid XX yüzilliyin sonlarında xaraba vəziyyətdə idi. Ona görə də əhali tərəfindən 1988-ci ildə yenidən bərpa olunmuşdur. Bərpa zamanı məscid daşdan inşa olunmuş, fasadı bişmiş kərpiclə üzlənmişdir.

Məscid dördkünc formalı böyük salondan ibarətdir. Daxildə qadınların oturması və ibadət etməsi üçün ikinci mərtəbə düzəldilmişdir. Qapı və pəncərələr yuxarıdan tağ şəkilli tamamlanmışdır. Mehrabı tağ şəkilli taxçadan ibarətdir. Məscidin ətrafında tapılan orta əsrlərə aid şirli və şirsiz keramika məmulatları və yerli əhalinin fikirləri göstərir ki, məscidin əsası XV əsrdə qoyulmuşdur.

## Sədərək məscidi

Tədqiqatlarımız və müşahidələrimiz göstərir ki, böyüklüyündən asılı olaraq bir sıra yaşayış məskənlərində bir və ya bir

neçə məscid fəaliyyət göstərmişdir. Belə yaşayış məskənlərindən biri də Naxçıvan Muxtar Respublikasının ən böyük kəndi olan Sədərək rayonunun Sədərək kəndidir. Bu kənddə üç məscid vardır. Bu məscidlərdən ən böyüyü (ölçüsü: uzunluğu 20 metr, eni 10 metr = 200 $m^2$) Came məscidi olmuşdur. Məscidin tavanı iki cərgə düzülmüş ağac sütunların üstündə oturmuşdur. Sədərək kəndinin sosial-siyasi həyatında mühüm rol oynayan bu məsciddə indiyədək bir neçə epiqrafik sənəd-kitabə qalmışdır.

İlk dəfə AMEA-nın müxbir üzvü M.Nemət tərəfindən tədqiq edilən **(M.Nemət, 1991, s. 19-20; Неймат М., 2001, с. 107-108)** bu kitabələrdən biri, xronoloji cəhətdən ən qədimi tavanı saxlayan sütunlardan birinci cərgədəki ikinci sütunun baş tərəfində yazılan və Qurani-Kərimin 61-ci surəsinin 13-cü ayəsinin bir hissəsindən: "(Sizi hələ) sevdiyiniz başqa bir şey (bir nemət) də – Allah dərgahından kömək və yaxın qələbə (Məkkənin fəthi) gözləyir" **(Qurani-Kərim..., 2015, s. 551)**, "Məhəmməd, Əli, ya Əli" sözlərindən və "1112"-ci il tarixindən ibarətdir.

Quran ayəsi, islam peyğəmbəri və birinci imam Əlinin adları ilə birlikdə yazılan hicri 1112-ci il tarixi (1700-1701-ci il) ehtimal ki, məscidin əsasının qoyulduğu tarixi əks etdirir.

Sütunun üzərində yazılmış başqa bir kitabədə isə ərəb dilində belə bir kitabə yazılmışdır: "Məhəmməd Şahbaz oğlu, 1259 (1843-cü il)".

Məscidin sütunlarından birinin üzərində isə başqa bir kitabə vardır. Ərəb dilində yazılmış kitabənin tərcüməsi belədir: "Abbas Sədərəkinin oğlu memar, nəccar Məşhədi Məhəmməd, 1259 (1843)".

II cərgədə yerləşən II sütunun üzərində qalan kitabədən isə aydın olur ki, hicri 1259, miladi 1843-cü ildə məsciddə aparılan təmir işlərini Təqinin oğlu Məşhədi Həmid yerinə yetirmişdir.

Başqa bir sütun üzərində yazılmış kitabənin isə tərcüməsi belədir: "Məhəmmədxanın oğlu Salehin ehsanıdır 1259 (1843)".

Xronoloji cəhətdən sonrakı dövrə aid kitabələrdən biri məscidin baş fasadında, qapının sağ və sol tərəfində qalmışdır. Sağ tərəfdə ərəb dilində nəstəliq xətti ilə yazılmış kitabənin tərcüməsi belədir: "Ey çətinlikləri həll edən! Zərgər Məşədi Əbülqasimin işidir". Sol tərəfdəki kitabədə isə tarix yazılmışdır: "20 cəmadi əl-əvvəl, 1315" (17.10.1897-ci il).

Kitabələrdən aydın olur ki, məsciddə 1897-ci ildə bərpa-təmir işləri aparılmış, bu işləri zərgər Məşədi Əbülqasim həyata keçirmişdir.

Göründüyü kimi məscidin kitabələrində bir neçə tarix qeyd olunmuşdur. Kitabələrin ilk tədqiqatçısı M.Nemətin fikrincə buradakı ən qədim, yəni 1701-1702-ci ilə aid kitabəni məscidin ilkin tikilmə tarixinə aid etsək binanın hicri 1259/1843-cü ildə əsaslı bərpa olunduğunu söyləyə bilərik. Çünki bina XVII əsr memarlıq-konstruktiv quruluşunu saxlamamışdır. Hicri 1315/1897-ci ildə binada yenidən təmir işləri aparılmışdır. Hazırki binanın memarı Sədərəkli Abbasın oğlu Məşədi Məhəmməd olmuşdur. Məsciddəki taxta işləri, yaraşıqlı nəbati ornament və kitabə motivləri işlənmiş sütun başlıqları da Sədərəkli memar və nəccar Məşədi Məhəmmədə aiddir.

"1259, Təqinin oğlu Məşədi Həmidin işidir" sözləri yazılmış kitabəyə əsasən belə bir qənaətə gəlmək olar ki, Məşədi Həmid memar Məhəmməd ilə bir vaxtda işləmişdir. Məhəmmədin yüksək peşəkar inşaatçı – memar tituluna görə Məşədi Həmidin məscidin tikintisində iştirak etmiş bənna olduğunu demək mümkündür.

Digər kitabələrdə adı çəkilən Məhəmməd Şahbaz oğlu, Məhəmmədxanın oğlu Saleh isə məscid binasının tikilməsinə xeyriyyə məqsədi ilə vəsait vermiş və adlarını kitabələrdə əbədiləşdirmişlər **(Неймат М., 2001, с. 107-108)**.

## Hacı Şəfi məscidi

Ordubad rayonunun Üstüpü kənd məscidi də bölgənin əhəmiyyətli məscidləri sırasında özünəməxsus yer tutur. Məscid kəndin mərkəzində, "Karvansara" məhəlləsində yerləşən meydanın şimal tərəfində, üzü qibləyə inşa olunmuşdur. Yerli əhalinin dediyinə görə məscid kəndin mötəbər şəxsiyyətlərindən olan Hacı Şəfi tərəfindən inşa etdirildiyi üçün "Hacı Şəfi məscidi" adlanır.

Məscidin girişi cənub tərəfdəndir. Qadınlara və kişilərə aid olmaqla 2 qapısı vardır. Daxildən uzunu 17,4 metr, eni 10,7 metr (186 $m^2$), hündürlüyü 4 metrdir. Binanın tavanı 4x2=8 dirəyin üstündə oturub. Şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbə düzəldilib. Məscid binasının bayır tərəfdən cənub divarının qərb tərəfində, təxminən 2 metr yüksəklikdə divara yaşıl rəngli başdaşı üzərində həkk edilmiş kitabə qoyulmuşdur. Kitabə güclü şəkildə aşındığı üçün mətnin tam oxunması mümkün olmamışdır. Kitabədən ancaq aşağıdakı sözlər oxunmuşdur: "Quran XVIII-88 ...oğlu, mərhum, günahları bağışlanmış Şeyxülislam Kərbəlayi Fəthullah... 930-cu il" (10.11.1523 –28.10.1524-cü il).

Bu kitabənin tarixinə əsasən məscidin tarixini XVI əsrə aid etmək olar.

XV əsrin II yarısı, XVI əsrin əvvəllərində Üstüpü kəndində Şeyxülislam titulu daşıyan şəxsiyyətin yaşaması və orada dəfn olunması həmin vaxt Üstüpü kəndinin yüksək inkişaf səviyyəsində olan yaşayış məskəni olduğunu təsdiq edir.

## Burçunlu məscidi

Orta əsrlər zamanı Naxçıvan bölgəsinin inkişaf etmiş yaşayış məskənlərindən olan Ordubad rayonunun Vənənd kəndində fəaliyyət göstərən məscidlərdən biri də kəndin Burçunlu

məhəlləsində inşa edilən məsciddir. Məscid kəndin cənub tərəfində inşa edilmişdir. Onun girişi cənub tərəfdəndir. Məscidin cənub tərəfdəki çatma tağlı qapısından kiçik otağa, oradan isə şərq divardan böyük salona giriş qapısı vardır. Məscid binasının daxildən uzunluğu 9,5 m, eni 9,6 m, hündürlüyü 4,2 metrdir. Binanın divarının qalınlığı 1,2 metrdir. Onun tavanı 2x2=4 sütunun üstündə oturmuşdur. Daxildən şimal divarın önündə qadınların oturması üçün ikinci mərtəbə – balkon düzəldilmişdir. Sütun başlıqları çox ustalıqla gözəl şəkildə hazırlanmışdır.

Məscidin üzərində kitabə olmadığı üçün onun inşa tarixi, sifarişçisi, memarı və s. haqqında tutarlı fikir söyləmək çətindir. Memarlıq abidəsini digər oxşar abidələrlə memarlıq-konstruktiv quruluşuna görə müqayisə edərək XVII əsrə aid etmək olar.

## Abidin məscidi

Abidin məscidi Ordubad rayonunun Vənənd kəndində, kəndin mərkəzi meydanından təxminən 200 metr şimal tərəfdə yerləşir. Yerli əhalinin fikrincə Abidin adlı şəxs tərəfindən inşa etdirildiyi üçün onun adı ilə belə adlanır. Şimaldan və qərbdən məscidə giriş qapısı vardır. Uzunluğu 15 metr, eni 5,2 metr, hündürlüyü 4,0 metr olan məscidin daxili sahəsi təxminən 80 kvadratmetrdir. Məscidin tavanı 6 dirəyin üstündə oturmuşdur.

Məscidin giriş qapısının kənarları son orta əsrlərə aid bişmiş kərpiclə işlənmiş, baş tərəfində isə yarım dairə şəklində yaradılan hissədə bişmiş kərpiclərin ustalıqla düzülməsi yolu ilə ornamentlər yaradılmışdır.

Pir Məqsud xanəgah-piri Abidin məscidinə bitişik yerləşir. Məscidin qərb tərəfində Pir Məqsud piri ilə əlaqədar yaranmış kiçik qəbiristanlıq vardır. Fikrimizcə bu məscid Pir Məqsud xanəgah-pirinə ziyarətə gələnlərin ibadət etməsi üçün Abidin adlı şəxs tərəfindən inşa etdirilmişdir.

Məcsidin inşa tarixini XVII-XVIII əsrlərə aid etmək olar.

## Uzun küçə məscidi

Uzun küçə məscidi Ordubad rayonunun Vənənd kəndində, Uzun küçə – Dənə daşı məhəlləsində inşa olunmuşdur. Divarlarının qalınlığı 1,3 metr olan məscidin daxili sahəsi təxminən 70 kvadratmetrdir (uzunluğu 12,4 metr, eni 5,5 metr, hündürlüyü 4,6 metr). Girişi qərbdən olan məscidin tavanı 4 dirəyin üstündə qərar tutub.

Əsasən məhəllə camaatına xidmət edən məscidin tarixi XVII əsrə aiddir.

## Böyük məscid

Ordubad rayonunun Dırnıs kəndinin Yuxarı məhəlləsində, Mirzə küçəsində indiyədək qalan və hazırda əhali tərəfindən kəndin əsas məscidi kimi istifadə olunan məscid binası vardır. Kənddə həcminə görə ən iri məscid olduğundan el arasında "Böyük məscid" adlanan bu məscid Came məscididir. Məscidin girişi qərbdəndir. Qadınlar üçün giriş isə şərq tərəfdəndir. Tavan 5x2=10 dirəyin üstündə dayanıb. Şərq və şimal divarın qarşısında qadınların oturması üçün ikinci mərtəbə – balkon düzəldilib. Şərq divarda qoyulan 3, qərb divarda 2, cənub divarda isə 3 böyük pəncərə məscidin daxilini normal şəkildə işıqlandırır.

Məscidin dirəklərindən birinin sütun başlığı üzərində qara rənglə yazılan kitabədən aydın olur ki, məscid hicri 1339-cu ildə (1920-21-ci il) təmir olunmuş, təmir işlərini usta Həsən Ordubadi həyata keçirmişdir. Məscid 1999-cu ildə kənd əhalisinin vəsaiti ilə yenidən təmir olunmuş, bu zaman məscidin qərbdən giriş qapısının qarşısında balkon düzəldilmiş və minarə hörülmüşdür.

Memarlıq-konstruktiv quruluşuna görə məscid XVII əsrə aid edilir.

## Bazar məscidi

Bazar məscidi Ordubad rayonunun böyük yaşayış məskənlərindən olan Dırnıs kəndinin mərkəzində yerləşir. Əvvəllər

kəndin bu hissəsində bazar yerləşdiyi üçün məscid belə adlandırılmışdır.

Tivi kəndinə gedən şose yolunun sol tərəfində, yüksəklikdə inşa olunan məscid müstəqillik illərində bərpa olunmuş, divarları bişmiş kərpiclə üzlənmişdir. Girişi şimaldan olan məscidin mehrabının sağ və sol yanında, həmçinin qərb divarda bir pəncərə qoyulmuşdur.

Məscid bərpa olunarkən giriş qapsının ağzında ibadətə gələnlərin ayaqqabılarını çıxarmaq üçün əlavə yer düzəldilmişdir.

Məscidin inşa tarixini XVII-XVIII əsrlərə aid etmək olar.

## Tivi məscidi

Orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən əhəmiyyətli kənd məscidlərindən biri də Ordubad rayonunun Tivi kənd məscididir. Məscid kəndin cənub tərəfində, Anabat məhəlləsində yerləşir. Əvvəllər məscidin yerində pir olmuş, sonralar məscidə çevrilmişdir. Ona görə də bəzən yerli əhali arasında məhəllənin adı ilə məscidə "Anabat piri" də deyilir.

Məscidin girişi şərq tərəfdəndir. Kişilər və qadınlar üçün 2 qapısı vardır. Kişi salonu cənubda, qadın salonu şimal tərəfdədir. Qadın salonuna daxil olarkən qapının ağzında bir qəbir vardır. Ancaq qəbirin üstündə epiqrafik sənəd –kitabə olmadığı üçün orada dəfn olunan şəxsiyyətin mənsubiyyətini təyin etmək mümkün deyildir. Deyilənə görə əvvəllər qəbirin üstündə kitabə olmuşdur. Məscidin tavanı 5x2 olmaqla 10 sütunun üstündə dayanıb. Şimal və cənub divarların hərəsində 3 pəncərə var. Sonralar girişdə əlavə kiçik otaq tikilib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məsciddə aparılan bərpa-təmir işləri zamanı döşəmənin altından daş fiqur və üzərində kitabə olan daş tapılmışdır. Çox primitivşəkildə cızma üsulu ilə yazılan kitabənin mətni belədir: "1199 (1784) Əliəkbər Ordubadi".

Məscid binasının inşa tarixini XVII-XVIII əsrlərə aid etmək olar.

## Uçuq məscid

Ordubad rayonunun Biləv kəndi tarix-mədəniyyət abidələri ilə çox zəngindir. Belə abidələrdən biri də "Uçuq məscid"dir. Zəmanəmizədək uçub-dağılmş vəziyyətdə gəlib çatması səbəbindən yerli əhali tərəfindən "Uçuq məscid" adlandırılan bu ibadət yeri Biləv kəndinin mərkəzində yerləşir. Həcmcə çox böyük (15x18 metr) olan məscid təxminən XVIII əsrdə inşa olunmuşdur. Məscidin tikintisində divarları möhkəmləndirmək üçün 4-5 sıra daş hörüldükdən sonra bir-birinə calaq edilmiş və yonularaq dördbucaqlı halına salınmış uzun qələmə ağaclarından istifadə edilmişdir. Həmçinin divarı hörərkən bəzən künc daşları əvəzinə daş qoç heykəli tipli qəbirüstü xatirə abidələrindən istifadə olunmuşdur. Divardan uçub düşmüş həmin qoç fiqurlarından biri üzərindəki kitabəni biz keçən yüzilliyin 70-ci illərində tədqiq etmiş, üzərindəki kitabəni oxumuş, onun hicri 1080-ci ildə (1669-1670-ci illər) vəfat etmiş Nəcəf Niyazəli oğlunun xatirəsinə hazırlandığını müəyyən etmişdik. Həmin kitabə haqqında Azərbaycan SSR Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya sektorunda 1978-ci ildə keçirilən arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunan sessiyada məlumat vermiş, fəlsəfə doktoru dissertasiyasının yazılmasında istifadə etmişik **(Сафаров Ф., 1987, с. 86; Сафарли Ф., 2017, с. 64-65)**.

Kəndin sosial-siyasi həyatında çox mühüm rol oynayan, bütün dini mərasimlər keçirilən bu məscidin birinci mərtəbəsində mədrəsə fəaliyyət göstərmişdir. Orada Biləvin və ətraf kəndlərin uşaqları təhsil almışlar. 1918-1920-ci illərdə ermənilər Naxçıvanın digər yerlərində qətliamlar və dağıntılar törədərkən Biləvdə də böyük qırğınlar və dağıntılar törətmişlər. Həmin vaxt kənddə digər tikintilərlə yanaşı bu məscid də dağıdılmışdır.

Sovet hakimiyyəti illərində isə bu məscidi bərpa etmək mümkün olmamışdır. Ona görə də elə uçuq vəziyyətdə qalmışdır. Əslən Biləv kəndindən olan və kəndə aid çox sanballı bir əsər yazan geologiya-mineralogiya elmləri üzrə fəlsəfə doktoru Həmid Aslanlının fikrincə, XVIII əsrdə tikilmiş bu uçuq məscid Allahın evi – müqəddəs yer olmaqdan başqa, həm də qədimlik nişanəsi və 1918-ci il erməni vəhşiliklərini əks etdirən tarixi abidədir **(Aslanlı H., 2008, s. 65)**.

## Xanağa məscidi

Ordubad rayonunun Xanağa kəndində də orta əsrlər zamanı inşa edilmiş məscid binası vardır. Məscid kəndin mərkəzi meydanında inşa edilmişdir. Məscidə daxil olmaq üçün şərqdən giriş qapısından kiçik otağa (uzunluğu 3,1 metr, eni 3,5 metr, hündürlüyü 2,5 metr) daxil olduqdan sonra şimal divarda qoyulmuş qapıdan əsas salona daxil olmaq lazım gəlir. Məscidin ölçüləri böyükdür: daxildən uzunu 11,3 metr, eni 10,2 metr, hündürlüyü 4,8 metrdir. Divarların qalınlığı 1,1 metrdir. Çiy kərpicdən hörülmüş, bişmiş kərpiclə üzlənmişdir.

Məscidin şərq divarında dörd qapı, hər qapının yuxarı tərəfində başdan iti bucaqla tamamlanan pəncərələr qoyulmuşdur. Qərb divarda da şərq divarda olduğu kimi dörd pəncərə, cənub divarda isə üç pəncərə vardır. Məscidin tavanı iki sırada yerləşdirilmiş 10 dirəyin (5x2) üstündə dayanmışdır. Sütun başlıqları çox yüksək sənətkarlıqla düzəldilmişdir. Şimal divarın qarşısında taxta ilə ikinci mərtəbə düzəldilmişdir. Bu yer qadınlar üçün nəzərdə tutulmuşdur. Məscidin qərb divarının şimal qurtaracağında həyətə çıxış qapısı vardır.

Memarlıq-konstruktiv quruluşu orta əsr abidələri üçün xarakterik olan və XIX yüzillikdə təmir olunan məscid XVII əsrdə inşa edilmişdir.

## Ağrı məscidi

Ağrı məscidi Ordubad rayonunun eyni adlı kəndinin mərkəzi hissəsində inşa olunub. Girişi şərq tərəfdən olan məscidin daxili sahəsi təxminən 55 kvadratmetrdir (uzunluğu 10,7 metr, eni 5,1 metr, hündürlüyü 3 metr). Məscidin daxilində, şimal divarın qarşısında qadınların ibadət etməsi və oturması üçün balkon düzəldilmişdir.

Məscidin inşa tarixini XVII-XVIII əsrlərə aid etmək olar.

## Düylün məscidi

Bu məscid Ordubad rayonunun Düylün kəndində inşa olunub. Məscidin girişi şimal tərəfdəndir. Burada kişilər və qadınlar üçün olmaqla iki qapı qoyulub. Giriş qapılarının qarşısında balkon düzəldilib. Uzunluğu 10,5 metr, eni 7 metr, hündürlüyü 3,6 metr olan məscidin daxili sahəsi 70 kvadratmetrdən artıqdır. Divarlarının qalınlığı 70 sm olan məscidin tavanı 2 sütunun üstündə qərar tutub.

Məscidin inşa tarixini XVIII əsrə aid etmək olar.

## Qoşa Dizə məscidi

Bu məscid Ordubad rayonunun eyni adlı kəndinin mərkəzində yerləşir. Kənd meydanının şimal-şərq tərəfində yerləşən məscidin xarabalıqları qalır. Kəndin yaşlı əhalisinin söylədiyinə görə tarixi çox qədim olan məscid kəndin həyatında mühüm rol oynamışdır.Yaşlıların dediyinə görə məscid 1918-ci ildə ermənilər tərəfindən dağıdılmış və yandırılmışdır. Bundan sonra məscid bərpa olunmamış, eləcə xaraba vəziyyətdə qalmışdır. Sonralar məscidin yaxınlığında kənd sakini Məşədi Güllü öz torpağında kiçik bir məscid tikdirmişdir.

Qalıqlarına əsasən məlum olur ki, məscidin daxili sahəsi təxminən 60 kvadratmetr (uzunluğu 8,7 metr, eni 6,6 metr,

hündürlüyü 3,3 metr) olmuşdur. Girişi şimaldan olan məscidin şərq divarında buxarı, buxarının sağ və sol tərəfində isə pəncərələr olmuşdur.

Məscidin inşa tarixini XVIII əsrə aid etmək olar.

## Bəyimcan məscidi

Bəyimcan məscidi Ordubad rayonunun Baş Dizə kəndinin mərkəzində inşa olunmuşdur. Məscidin inşa edildiyi torpaq sahəsini kəndin sakini, Bəyimcan adlı qadın hədiyyə etdiyi üçün məscid onun adı ilə belə adlandırılmışdır.

Divarlarının qalınlığı 75 sm, daxili sahəsi təxminən 50 kvadratmetr olan (ölçüsü: uzunluğu 9,8 metr, eni 5,1 metr, hündürlüyü 3,5 metr) və yamacda inşa olunan məscidin qarşısında, cənub tərəfdə balkon düzəldilmişdir. Qadınlar və kişilər üçün olmaqla balkondan məscidin daxilinə iki giriş qapısı qoyulmuşdur.

Məscidin inşa tarixi dəqiq məlum olmasa da kənd sakinlərinin fikrincə onun yaşı 400 ilə yaxındır. Məscidin inşa tarixini XVIII əsrə aid etmək olar.

## Meydan (Nüsnüs) məscidi

Ordubad rayonunun Nüsnüs kəndində indiyədək salamat vəziyyətdə gəlib çatan məscidlərdən biri də kəndin mərkəzində yerləşən məsciddir. Kəndin mərkəzi meydanında yerləşməsi səbəbindən kənd əhalisi tərəfindən “Meydan məscidi” adlandırılan məscidin girişi cənub tərəfdəndir. Məscidin cənub divarı bişmiş kərpiclə üzlənmişdir. İri həcmdə (uzunluğu 16 metr, eni 10,5 metr=168m$^2$) inşa edilmiş məscidin daxildən hündürlüyü 5 metrə yaxındır. Məscidin tavanı hər cərgədə 6 ədəd olmaqla 12 ağac sütunun üstündə oturmuşdur (2x6). Giriş qapısından sağ tərəfdə qoyulan 4 ədəd pəncərə məscidin daxilini yaxşı işıqlandırır.

“Meydan məscidi”nin giriş qapısının baş tərəfində yaşılımtıl rəngli daş lövhə üzərində fars dilində beş sətirdə oyma

üsulu ilə həkk edilmiş kitabə vardır. Kitabənin mətninin tərcüməsi belədir:

"Nüsnüs camaatı və başqaları ...adət üzrə... məscid şəban ayı, 1335-ci il tarixində (23.05. – 20.06.1917-ci il), rus müharibəsi zamanı bərpa olundu... etdi"

Məscidin cənuba baxan pəncərələrindən birinin baş tərəfində, bişmiş kərpic üzərində oyma üsulu ilə beş sətirdə yazılmış başqa bir kitabə də vardır. Kitabənin mətninin tərcüməsi belədir:

"Məscid şəban ayının 24-ü, 1335-ci ildə (15.06.1917-ci il), Rusiya-Türkiyə müharibəsi zamanı təmir olundu".

Birinci kitabədə "Rus müharibəsi", ikinci kitabədə isə "Rusiya-Türkiyə müharibəsi" söz birləşmələri diqqəti cəlb edir. Kitabəni yazan xəttat və həkkak hər iki kitabədə bu fikirləri vurğulamaqla məsciddə bərpa-təmir işlərinin həmin vaxt, yəni 1917-ci ildə davam edən Birinci Dünya müharibəsi çərçivəsində Antanta bloku tərəfindən Rusiya ilə "Üçlər ittifaqı" tərəfindən Türkiyə arasında Qafqaz cəbhəsində davam edən müharibəni nəzərdə tutmuşdur. Kitabədən aydın olur ki, Azərbaycanın da Rusiyanın tərkibində olması səbəbindən dolayısı ilə I Dünya müharibəsində iştirak etdiyi dövrdə məsciddə bərpa-təmir işləri aparılmışdır.

Keçən yüzilliyin 80-ci illərində biz kənddə epiqrafik tədqiqat apararkən məscidin içərisində, cənuba baxan pəncərənin baş tərəfində, gəc üzərində, qara rənglə, fars dilində dörd sətirdə yazılmış mənzum kitabə var idi. Kitabənin mətninin tərcüməsi belədir:

"Bu Hüseyn kimdir ki, aləm onun divanəsidir?
Bu necə şamdır ki, canlar onun pərvanəsidir.
Bu nə nalədir ki, xalq fəryad edir,
Bu necə əza, necə matəmdir ki,ərşə yetişir" **(Сафаров Ф., 1987, с. 38-39)**.

Məscidin inşa tarixini XVIII əsrin sonları-XIX əsrin əvvəllərinə aid etmək olar.

## Anabat məscidi

Anabat məscidi Ordubad şəhərindən 4 km şimal-şərq tərəfdə, Gənzə çayının sol sahilində yerləşən Anabat kəndinin şimal-şərq tərəfində inşa olunmuşdur. Məscidin içərisində üzərində yazı olan bir ədəd taxta parçası saxlanılır. Qara rənglə ərəb və kiril əlifbası ilə yazılan kitabə vaxtilə məscidin tavanında olmuşdur. Hər iki kitabənin mətni Azərbaycan dilindədir. Ərəb qrafikası ilə yazılan kitabənin mətni belədir:

"Tirlər dəyişdirilib 28/8.1960. Yusif Xudayar oğlu. Məscidin tirləri dəyişdirilib. 28/8.1960".

Kiril əlifbası ilə yazılan digər kitabənin mətni belədir:

"Məscidin tirləri dəyişdirilib. 28/VIII.60".

Məscidin qərb tərəfində, onunla üzbəüz, Ordubad-Gənzə şose yolunun sol tərəfində "Baba çeşmə" adlı kəhriz vardır. Son zamanlar kəhriz bərpa olunmuşdur. Həmin vaxt onun üstü bişmiş kərpiclə hörülmüş, divara bu məzmunlu kitabə qoyulmuşdur.

""“Baba çeşmə" kəhrizinin bərpasını həyata keçirən Beynəlxalq Miqrasiya təşkilatı. Maliyyə dəstəyi: Kanada səfirliyi. Əməkdaşlıq: Naxçıvan MR hökuməti. İcraçı: Anabat kəndi SİE Assosiasiyası. 24 yanvar 2002-ci il".

## Köhnə Kotam məscidi

Naxçıvan bölgəsinin indiki Ordubad rayonu ərazisində mövcud olan məscidlərdən biri də hazırda yaşayış olmayan və xarabalıqları qalan Köhnə Kotam kəndindəki məsciddir. Dördkünc formalı böyük salondan ibarət olan məscid indiyədək qismən salamat qalmışdır. Təpənin yamacında inşa olunan məscidin salonu iki sıra ağac dirəklə üç hissəyə bölünmüşdür. Məscidin mehrabı cənub divarda düzəldilmiş tağşəkilli taxçadan ibarətdir. Ön tərəfdə şəbəkələrlə naxışlanmış dörd pəncərə var.

Məscidin girişi şərqdəndir. Girişin sol tərəfində buxarı, divarların içəri tərəfində dördkünc taxçalar düzəldilmişdir.

Məscidin içərisindən mərmər lövhə üzərində həkk edilmiş bir kitabə aşkar olunmuşdur. Kitabə vaxtilə məscidin giriş qapısının baş tərəfində qoyulubmuş. Zaman keçdikcə yerindən düşən kitabə məscidin içərisinə qoyulmuş və orada qalmışdır. Kitabənin mətninin tərcüməsindən aydın olur ki, Naxçıvan xanları nəslindən olan, bir müddət Ordubadın hakimi, Rusiyaya birləşdirildikdən sonra isə Ordubadın naibi vəzifəsində çalışmış Hacı Şeyxəlixanın oğlu İbrahim xan hicri 1260-cı ildə (1844-cü ildə) Kotam kəndindəki torpaq sahibliyi mənsəbini Tükəzban xanıma bəxşiş etmişdir.

Bina daşdan və kvadrat formalı çiy kərpiclərdən inşa edilmiş, bir neçə dəfə bərpa olunmuşdur. Hazırda yarımdağılmış vəziyyətdədir.

Məscidin inşa tarixi XVII-XVIII əsrə aid edilir **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 228).**

## Təkeşiyi (Yəhya bəy) məscidi

Ordubad şəhərinin sosial-siyasi və mədəni-ideoloji həyatında özünəməxsus yeri olan məscidlərdən biri də Təkeşiyi (Yəhya bəy) məscididir. Bu məscid şəhərin mərkəzində, keçmiş bazar meydanının qərb tərəfində, Came məscidindən təxminən 100 metr cənub-qərb tərəfdə yerləşir. Zəmanəmizədək gəlib çatmış bu məsciddən sovet hakimiyyəti illərində anbar kimi istifadə olunmuşdur. Məscid bir mərtəbəli olmasına baxmayaraq çox hündür tikilmişdir. Şəhərin baş məscidi sayılan Came məscidinin yaxınlığında belə böyük bir məscidin hansı səbəbdən inşa edilməsi və fəaliyyət göstərməsi maraq doğurur. Həqiqətən də əhalinin əsas hissəsini özünə cəlb edən Came məscidi kimi möhtəşəm bir məscidin yaxınlığında bu məscidin inşa edilməsi hansı zərurətdən yaranmışdır?

Məscid el arasında "Təkeşiyi" və ya "Yəhya bəy məscidi"

adı ilə tanınır. Yerli əhali arasında olan fikrə görə məscidin Təkeşiyi adı "Şiə təkyəsi" söz birləşməsinin təhrif olunmuş formasıdır. Məlumdur ki, "təkyə" müsəlman Şərqində xanəgah, zaviyə, ribat və s. ilə birlikdə sufi məskənlərinə, müxtəlif təriqətlərə mənsub dərvişlərin yaşadıqları yerlərə verilən addır. Təkyələrdə dərvişlər, hər hansı bir şeyxin müridləri toplanaraq orada yaşamış, mürşidlərindən dərs almış, zikrlə məşğul olmuşlar. Burada qeyd etmək yerinə düşər ki, Osmanlı imperiyası ərazisində sufi təriqətlərinə mənsub dərvişlərin yaşadıqları yerlərə ərəb mənşəli "təkyə", "təkkə" deyildiyi kimi, müasir Türkiyədə həmin vaxtdan qalma bu qəbildən olan abidələrə indi də "təkkə"deyilir. Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində isə dərviş məskənlərinə əsasən fars mənşəli "xanəgah" deyilməsinə baxmayaraq, bəzi hallarda "təkyə" ifadəsindən də istifadə olunmuşdur. Haqqında bəhs etdiyimiz məscid də bu qəbildəndir.

Nə üçün "Yəhya bəy məscidi" adlanması haqqında kitabəsində heç bir məlumat verilməyən məscid məhz bu səbəbdən, müəyyən bir təriqətə mənsub dərviş qrupuna aid olduğundan Came məscidindən ayrıca, onun yaxınlığında fəaliyyət göstərmişdir. Görünür, burada və Təkeşiyi məscidində fəaliyyət göstərən dərvişlər ayrı-ayrı təriqətlərə mənsub olduqlarından bir yerdə deyil, müxtəlif məkanlarda fəaliyyət göstərmişlər.

Şiə dünyasının bəzi yerlərində, o cümlədən Naxçıvan bölgəsində məhərrəmlik mərasimində keçirilən bəzi yığıncaqlar da təkyə adlanır. Bu baxımdan Təkeşiyi məscidində məhərrəmliklə bağlı mərasimlərin keçirilməsi də mümkün haldır. Yəqin ki, məhərrəm ayında burada müəyyən mərasimlər keçirilmiş, təkyələr verilmişdir. Ancaq bu, Ordubad şəhərindəki "Təkeşiyi" məscidinin sufi təriqətləri ilə bağlı olması fikrinə heç bir kölgə salmamalı və bu haqda şübhə yaratmamalıdır.

Göründüyü kimi, Ordubad şəhərindəki Təkeşiyi məscidi məscidlərlə zəngin olan Ordubad şəhərində həm məscid, həm də sufi təriqəti mənsublarının məskəni kimi fəaliyyət göstərmişdir.

Bununla da o, şəhərin həyatında baş verən sosial-siyasi və ideoloji proseslərə daha dərindən nüfuz edə bilmiş, cəmiyyətin həyatında həlledici rol oynamışdır **(Səfərli F., 2003, s. 286-288)**.

Məscidin şərqdən giriş qapısının baş tərəfində ağ mərmər lövhə üzərində (88x55 sm) açılmış çərçivələr içərisində fars dilində nəstəliq xətti ilə şeirlə kitabə həkk olunmuşdur. Məscidin hicri 1241-ci ildə (1825-1826-cı illər) bərpa olunmasından xəbər verən kitabədə adı indiyədək başqa mənbələrdən elmə məlum olmayan bir sənətkarın – Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi əl-Həccarın adını təqdim edir. Həmçinin kitabədən aydın olur ki, məscid bu vaxtadək daha iki dəfə təmir və bərpa etdirilmişdir **(Səfərli F., 2004, s. 36; Səfərli H., 2009, s. 107, 108, 135).**

Məscidin şərqdən giriş qapısının yan tərəflərində ağ mərmərdən hazırlanmış iki ədəd iri həcmli sənduqə formalı qəbirüstü xatirə abidəsi dik vəziyyətdə qoyulmuşdur. Hər iki sənduqənin səthi incə ornamentlərlə bəzədilmiş, səthin baş tərəfindəki düzbucaqlı çərçivələr içərisində Qurani-Kərimin 55-ci surəsindən 26-27-ci ayələr yazılmışdır. Sol tərəfdəki abidənin yanında Qurani-Kərimin II surəsindən 255-ci ayə, ayədən sonra isə "Ölüm qapısına hər bir kəsin mütləq qonaq daxil olması şübhəsizdir" sözləri həkk edilmişdir. Sağ tərəfdəki sənduqənin yanında isə Qurani-Kərimin II surəsindən 255-ci ayə həkk edilmişdir **(Səfərli H., 2009, s. 70-71)**.

Məscidin daxilində, divarda imam Hüseynə həsr olunmuş şeir parçası yazılmışdır. Fars dilində yazılmış şeirin tərcüməsi belədir:

Bu Hüseyn kimdir ki, aləm onun divanəsidir,
Bu necə şamdır ki, canlar onun pərvanəsidir.
Bu nə nalədir ki, xalq fəryad edir,
Bu necə əza və necə matəmdir ki, ərşə yetişir.

Şeirin mətni Ordubad rayonunun Nüsnüs kəndindəki Meydan məscidinin daxilinləki kitabənin mətni ilə eynidir

**(Сафаров Ф.Я., 1987, с. 38-39)**.

Məscidin tavanı bir neçə sütunun üstündə qərar tutmuşdur. Sütunlar və sütun başlıqları çox yüksək sənətkarlıqla hazırlanmışdır.

## Yuxarı Anbaras məscidi

Ordubad şəhər əhalisi arasında yerləşdiyi məhəllənin adı ilə Yuxarı Anbaras məscidi adlandırılan məscidin inşa tarixi məlum deyildir. XIX yüzilliyin ortalarında təmir olunarkən məscidin tavanında, taxta üzərində qara rənglə yazılmış kitabə qoyulmuşdur. Kitabənin mətni belədir:“Ya Məhəmməd! Ya Əli! Ağa Mirzə Cəfər məscidini Ağababanın oğlu mərhum, mərifətli Cəfərqulu 1284-cü il tarixdə (05.05.1867 – 23.04.1868-ci il) təmir etdirdi” **(Сафаров Ф., 1987, с. 25-26)**.

Kitabədə verilən məlumatdan görünür ki, təmir olunan vaxt (1867-1868-ci illər) məscid “Ağa Mirzə Cəfər məscidi” adlanırmış. Bu məlumata əsasən demək olar ki, plan quruluşunun həlli, fasad hissələrinin qurulmasında tətbiq olunan memarlıq kompozisiyası üsulları XVII-XVIII əsr tikintilərinə uyğun gəldiyi üçün ehtimal ki, XVII əsrdə Ağa Mirzə Cəfər adlı şəxsiyyət tərəfindən inşa etdirilmişdir. Məhz bu səbəbdən də abidə 1284-cü ildə təmir edilərkən “Ağa Mirzə Cəfər məscidi” adlanırmış.

El arasında məscidə bəzən “Hacı Mir Cəfər ağa məscidi” də deyirlər. Kitabədə isə məscidin adı “Ağa Mirzə Cəfər məscidi” kimi qeyd olunmuşdur. Görünür, zaman keçdikcə məscidin adındakı “Mirzə” sözü “Mir” şəklinə düşmüş və məscid “Mir Cəfər ağa məscidi” kimi adlandırılmağa başlamışdır. “Hacı” titulunun məscidin banisinin adına əlavə olunması isə onun sonralar Həcc ziyarətində olması ilə əlaqədardır.

Məscidin inşa tarixini XVII-XVIII yüzilliklərə aid etmək olar.

## Sərşəhər məscidi

Ordubad şəhərinin əsas məscidlərindən biri də Sərşəhər məscididir. Şəhərin böyük və əsas məhəllələrindən biri olan Sərşəhər məhəlləsinin mərkəzində inşa edildiyi üçün məscid belə adlanır. “Sərşəhər” sözü “şəhərin başı, mərkəzi” mənasındadır. XVIII əsrin əvvəllərində osmanlılar tərəfindən yaradılan Naxçıvan sancağının Azadciran nahiyəsinə daxil olan Ordubad qəsəbəsinin məhəllələrindən birinin adı indi olduğu kimi Sərşəhər məhəlləsi olmuşdur **(Naxçıvan sancağının..., 2001, s. 232)**. Haqqında bəhs olunan məscid məhəllənin mərkəzi meydanının şimal tərəfində yerləşir.

Orta əsrlər zamanı və sonrakı dövrlərdə Sərşəhər məhəlləsində bir neçə məscid fəaliyyət göstərdiyindən, bu məscid isə məhəllənin əsas məscidi olduğundan şərti olaraq “I Sərşəhər məscidi” adlandırılan bu ibadət yerinin bünövrəsi çay daşı, yuxarı hissəsi isə çiy kərpicdən tikilmiş, fasadı bişmiş kərpiclə üzlənmişdir. Sərşəhər məscidi planda kvadrat şəkilli olub, iki mərtəbədən ibarətdir. Məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulmuşdur. İkinci mərtəbəyə və məscidin damına qərb tərəfdəki dolama pilləkənlə çıxılır **(Салаева Р., 2002, с. 100-101)**. Zahiri görünüşü kifayət qədər cəlbedici olan məscidin tavanı taxta və fanerlə, döşəməsi isə taxta ilə işlənilib. Tavan 6 ağac sütun və divarların üzərində dayanıb. Məscidin şəbəkəli pəncərələri ona xüsusi gözəllik verir. Qarşısında böyük meydanı vardır. Meydanda nəhəng çinar ağacı ucalır. Məscidin ikinci mərtəbəsində kitabxana vardır. Burada dini kitablar və əlyazmalar saxlanılır. Əlyazma əsərlərin sayı 30-dan çoxdur. Məscid 1986-cı ildə bərpa və təmir edilmiş, meydan kompleksi şəklinə salınmışdır. Hazırda məhəllə məscidi kimi fəaliyyət göstərir **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 422)**.

Məscidin binası memarlıq baxımından XVIII əsrə xas üslubi və tipoloji xüsusiyyətləri əks etdirdiyindən o XVIII yüzilliyə aid edilir.

## Kürdətal məscidi

Orta əsrlər zamanı Ordubad şəhərinin əsas məscidlərindən biri də şəhərin cənub tərəfində inşa olunan Kürdətal məscidi olmuşdur. Məscid iki mərtəbəli olmaqla indiki mədəniyyət evinin yerində yerləşirdi. Ancaq özünəməxsus memarlıq üslubunda tikilmiş bu məscid Sovet hakimiyyəti illərində, 1981-ci ildə söküldü, yerində mədəniyyət evi inşa edildi. Həmin vaxt məscidin qarşısında, şəhərin ortasından keçən Naxçıvan-Ordubad şose yolunun sol tərəfində yerləşən orta əsrlərə aid "Pir Eyvaz qəbiristanlığı"da dağıdıldı, yerində park salındı və avtovağzal binası inşa edildi. Bu zaman qəbiristanlığın şimal-şərq tərəfində yerləşən və sufi şeyxi Pir Eyvaza məxsus olan, əhali tərəfindən ziyarət edilən qəbir və üstündəki tikili də məhv edildi **(Səfərli F., 2003, s. 186)**.

Məscidin dəqiq inşa tarixi məlum deyildir. Onun üstündə bu haqda məlumat verə biləcək kitabə olmamışdır və yaxud olmuşdursa da bizə qədər gəlib çatmamışdır. Ancaq məsciddə onun təmir etdirilməsi haqqında məlumat verən kitabə olmuşdur. Bu kitabə məsciddən tapılmış pərdi (taxta lövhə) üzərində rənglə yazılıbmış. Kitabənin mətni belə olmuşdur:

"Bu məscid Kərbəlayi Abutalıb tərəfindən hicri 1280-ci ildə əsaslı təmir etdirilmişdir. Məscidin qarşısındakı meydanda olan çinar ağacı isə hicri 1228-ci ildə əkilmişdir (Vaxtilə çinarın qarşısında qoyulan, hazırda Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanan mərmər lövhə üzərindəki kitabədən aydın olur ki, çinar hicri-qəməri təqvimi ilə 1230-cu, miladi təqvimi ilə 1815-ci ildə əkilmişdir-H.S.). Bu xətti yazan Mirzəli Məhəmməd vələdi Məşədi Ağarəhim təsdiq edir ki, 1251-ci il hicridə burada bir qarağac da əkilmişdir" **(Rəfiyev C.,**

**1966; Rəfiyev C., 1979)**.

Göründüyü kimi kitabədə üç tarix qeyd olunmuşdur:

1. Məscidin təmir tarixi: 1280 h.i.= 18.06.1863 – 05.06. 1864-cü il.

2. Çinarın əkilmə tarixi: 1228 h.i.= 04.01.1813 – 23.12.1813-cü il.

3. Qaraağacın əkilmə tarixi: 1251 h.i.= 21.04.1835 – 17.04. 1836-cı il.

Kitabədə məscidin inşa tarixi qeyd olunmasa da, onun 1863-1864-cü illərdə Kərbəlayi Abutalıb tərəfindən təmir etdirilməsi haqqında məlumat verilir. Həmçinin kitabədə məscidin qarşısında XX yüzilliyin 80-ci illərinədək qalan, şəhərdə kanalizasiya sistemi üçün dərin kanal qazılarkən köklərinin kəsilməsi səbəbindən quruyan nəhəng, diametri 2 metrdən artıq olan çinar ağacının əkilmə tarixindən bəhs edilir **(Səfərli H., 2009, s. 109, 110, 137)**.

## Xok kənd Came məscidi

Orta əsrlər zamanı Naxçıvan ərazisində özünəməxsus yeri olan ibadət yerlərindən biri də Kəngərli bölgəsinin Xok kəndinin mərkəzində yerləşən Came məscididir. Daşdan və bişmiş kərpicdən inşa edilən məscidin binası yarandığı vaxtdan indiyədək keçən müddətdə müəyyən dağıntı və aşınmalara uğrasa da, bu günədək əsasən salamat vəziyyətdə gəlib çatmışdır. Məscidin həcmi, möhtəşəmliyi və s. əlamətləri təsdiq edir ki, bu məscid inşa edildiyi zamandan ticarət-karvan yollarının üstündə yerləşən Xok kəndinin sosial-siyasi və ideoloji həyatında mühüm yer tutmuş, cəmiyyətin həyatında fəal rol oynamışdır.

Bir sıra memarlıq abidələrində olduğu kimi bu məscidin də üzərində abidə haqqında müəyyən məlumatları özündə əks etdirən bir neçə kitabə vardır. Bu kitabələrdən biri məscidin şərqdən giriş qapısının sol yanında qoyulmuşdur. Dörd sətirdə,

fars dilində boz daşa həkk edilmiş kitabənin mətnindən aydın olur ki, məscid binasının təmiri 1910-cu ildə, böyük çillədə başlamış, kiçik çillənin axırında, qış dövründə tamam olmuşdur. Kitabənin sonunda qeyd edilən 17 məhərrəm 1328-ci il tarixli miladi ilə 29 yanvar 1910-cu ilə müvafiq gəlir.

Göründüyü kimi, Qurani-Kərimin "Allahın məscidlərini yalnız Allaha və axirət (qiyamət) gününə iman gətirənlər təmir edərlər" ayəsinə (IX surə, 18-ci ayə) uyğun olaraq Xok kənd məscidi 1910-cu ildə təmir etdirilmişdir. Təmir zamanı giriş qapısının başında daha iki ədəd kitabə qoyulmuşdur. Kitabələrdən biri ancaq tarixdən ibarətdir: "1328". Üç sətirdə həkk edilmiş ikinci kitabədə isə Allahın və şiə aləmində "Pənc əl-Əba" adı ilə tanınan müqəddəslərin adı qeyd edilmişdir: "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn. 1328".

İnşa tarixi haqqında binanın üzərində heç bir məlumat yoxdur. Məscidin şərq divarının aşağı tərəfindəki pəncərənin sağ tərəfində boz daş üzərində kobud xətlə "Molla Abbas" şəxs adı, sol yanında isə tarix həkk edilmişdir: "1280". Hicri-qəməri təqvimilə verilən bu tarix miladi ilə 1863-1864-cü illərə müvafiqdir. Bu tarixi məscidin inşa ilinə aid etmək olmaz. Çünki məscidlər inşa edilərkən onlara aid kitabələr adətən giriş qapısının baş tərəfində qoyulurdu. Həmçinin, məscidin binasının memarlıq xüsusiyyətləri də onun XIX əsrin ortalarına aid edilməsi üçün əsas vermir. Fikrimizcə, daş üzərində çox naşı şəkildə qazılmış 1280-ci il tarixi daşa sonralar, ehtimal ki, adı digər daşda qeyd edilən Molla Abbas tərəfindən həmin ildə yazılmışdır.

Məscidin binası müstəqillik illərində camaatın vəsaiti və köməyi ilə yenidən təmir edilərək əhalinin istifadəsinə verilmiş, dindarların yığıncaq yerinə çevrilmişdir. Bununla da məscidin əvvəllər daşıdığı funksiya bərpa olunmuşdur. Təmir zamanı məscidin qarşısında, şərqdən girişinin önündə bişmiş kərpiclə artırma inşa olunmuşdur. Həmçinin həmin vaxt məscidin şimal və cənub tərəfində olmaqla dəmir borudan iki ədəd mi-

narə düzəldilmişdir.

Məscidin kitabələrində tikilmə tarixi haqqında bəhs edilmədiyindən onun inşa ilini dəqiq söyləmək mümkün deyildir. Ancaq memarlıq-konstruktiv xüsusiyyətlərinə və Azərbaycanın, o cümlədən Naxçıvanın digər bölgələrindəki oxşar abidələrlə müqayisəsinə əsasən onu XVII-XVIII əsrlərə aid etmək olar **(Səfərli F., 2003, s. 302-304).**

Kəndin şimal hissəsində əhali arasında "Köhnə məscid" kimi tanınan başqa bir məscid də vardır. Ancaq bu məscid zaman keçdikcə güclü aşınmaya məruz qalmış, dam örtüyü tamamilə dağılmışdır. Hazırda xarabalıqları qalmaqdadır.

## Zaviyə məscid-mədrəsə kompleksi

Naxçıvan şəhərində bu günə qədər salamat vəziyyətdə gəlib çatan orta əsr təhsil mərkəzlərindən Zaviyə məscid-mədrəsə binası nəinki Naxçıvan şəhərinin, ümumiyyətlə bölgə əhalisinin təhsilində mühüm rol oynamışdır. Bu təhsil mərkəzi hazırda şəhərin Heydər Əliyev prospekti ilə Təbriz küçəsinin kəsişdiyi yerdə, Zaviyə məhəlləsində yerləşir. Ərəbcə "guşə", "künc", "bucaq" mənasını verən "zaviyə" orta əsrlər zamanı müsəlman Şərqində fəaliyyət göstərən sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir. Xanəgahlar kimi zaviyələrdə də ayrı-ayrı təriqətlərə mənsub dərvişlər yaşamış və ətraflarına müridlər toplayaraq öz ideyalarını yaymışlar. Orta əsrlərdə Naxçıvanda mövcud olan bəzi təriqət tərəfdarları məscidlərə getmir, özləri üçün ayrıca təkyələr, zaviyələr tikir, orada yaşayır, ibadət və zikrlə məşğul olurdular. Hürufi təriqətçiləri belə zikr yerlərini xanəgah, bektaşi və nəqşibəndilər isə zaviyə adlandırırdılar.

Zaviyə-məscid mədrəsəsinin binası ilk baxışdan düzbucaqlı formada görünsə də mürəkkəb memarlıq quruluşuna malikdir. Bina yerdən 1 metr hündürlükdəki kürsülük üzərində yerləşdirilmişdir. Ümumi sahəsi 212 kvadratmetrdir. Binanın

divarlarının qalınlığı 0,9-1,5 metrarasında dəyişsə də əsas qalınlıq 90 santimetrdir. Zaviyə məscid-mədrəsəsi bişmiş kərpic və əhəng məhlulu ilə inşa edilmişdir. Kərpiclər iki ölçüdədir. Ölçüsü 20x20x5 smolan sarı rəngli kərpiclərdən binanın əsas tikintisində istifadə olunmuşdur. XIX əsrin II yarısında məscidin əsaslı təmiri zamanı 26x13x5 santimetrlikqırmızı rəngli kərpiclərdən daha çox istifadə edilmişdir. Bu kərpiclərə sonradan tikilən şərq və şimal divarlarda, otaqların arakəsmələrində, minarənin və binanın başına əlavə olunmuş antamblementdə, parapetdə və eləcə də binanın fasadında da geniş yer verilmişdir **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 483-484).**

Zaviyə məscid-mədrəsə binası istər plan quruluşu, istərsə də ayrı-ayrı hissələrin formasına görə Naxçıvandakı digər dini binalardan tamamilə fərqlənir. Çox güman ki, XIX əsrin axırlarında aparılan təmir işləri zamanı yeni tikintilər və formalar əlavə olunduğundan binanın memarlıq quruluşu xeyli dəyişdirilmiş, əvvəlki zamanların tikintisində istifadə olunan çatma tağlar və sferik günbəzlər əvəzinə, XIX əsrin mürəkkəb xətli tağları və düz dam örtüyü ilə əvəz edilmişdir. Ona görə də binanın tikilmə tarixinin dəqiqləşdirilməsi çətindir. Ancaq Naxçıvan memarlıq məktəbinə məxsus ustalar tərəfindən inşa edilən mədrəsə-məscidin zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun XVII-XVIII əsrlərin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir. XVII-XVIII əsrlərdə Azərbaycan memarlığında əvvəlki dövrün ənənələri ilə yanaşı yeni tikinti meylləri də özünü göstərirdi. İnşaat tiplərindəki bu dəyişiklik əsasən dini tələbatın daha geniş şəkildə ödənilməsi ilə əlaqədar idi.

Zaviyə məscid-mədrəsə binası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə 2008-ci ildə əsaslı təmir və bərpa olunmuşdur.

## Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidi

Naxçıvan şəhərində bu gün də fəaliyyət göstərən və "Şəhər məscidi" kimi tanınan Came məscidi şəhərin həyatında mühüm rol oynayan sosial-siyasi və ideoloji mərkəzlərdən biri olmuşdur. Sovet hakimiyyəti illərində, ateizm təbliğatına geniş rəvac verildiyi bir dövrdə bu məscid Naxçıvan bölgəsində fəaliyyət göstərən yeganə məscid idi. Həmin vaxtlar məscidin ətrafı uca divarlarla hasarlanmış, ətraf aləmdən təcrid olunmuş-du. Orada keçirilən mərasimlər məscidin daxilindən və qapalı vəziyyətdə olan həyətindən kənara çıxmırdı. Məscid sovet hakimiyyətindən əvvəlki dövrlərdə şəhərin həyatında mühüm rol oynamışdır. Ümumi sahəsi təxminən 1000 m$^2$ olan məscid inşa edildiyi zaman onun qərbdən giriş qapısının baş tərəfində bir kitabə qoyulmuşdu. Əvvəli Quran ayəsi və dini xarakterli mətndən ibarət olan, gözəl nəstəliq xətti ilə, qarışıq ərəb-fars dillərində mərmər lövhə üzərində (ölçüsü: 87x57x12 sm) həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir: "Allahın məscid-lərini yalnız Allaha və axirət (qiyamət) gününə iman gətirənlər təmir edərlər (Qurani-Kərim, IX-18). Xilqətin əvvəlindən sonu-na qədər bəxşişkar Allaha sitayiş. Sitayişdən sonra Rəfrəfə (Məhəmməd peyğəmbərin meraca gedərkən mindiyi at-H.S.) minən axırıncı peyğəmbər Məhəmmədə salavat və salam olsun! Və onun fasiləsiz vəsisi (ardınca gələni) olan Heydər lə-qəbli Əlini çağır, Əlini axtar. Həqiqətən O, zövci (arvadı) və on bir övladı yaranmışların ən yaxşısıdır (seçilmişidir). Bu Cəfə-riyyə məscidi min üç yüz on birinci ildə bina edildi. Çay yuxa-rısında iki dükan qoydum. Birini mücavirlər, digərini [məsci-din] məsrəfləri üçün. Allahım, Məhəmməd və ailəsi xatirinə bu kiçik töhfəni qəbul et. Məndən sonra bu məscidin memarını so-ruşsalar VIII imamdan sonrakı adla adlanıram".

Mərmər lövhənin sağ və sol kənarlarında açılmış çərçi-vələrdə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

"Günahları bağışlanmış Hacı Novruz Naxçıvaninin oğlu, hacıların xeyirlisi (Xeyrül-Hac) Hacı Məhəmməd Cəfər ağanın himayəsi ilə 1311-ci ilin rəcəb ayında (8.1 – 7.2.1894-cü il) tamamlandı. Onu (kitabəni) yazdı Məhəmməd Nəqi, həkk etdi Məhəmməd Saleh, hər ikisi Hüseyni Təbrizidir".

Kitabədən aydın olur ki, məscid naxçıvanlı Hacı Novruzun oğlu Xeyrül-Hac Hacı Məhəmməd Cəfər ağanın səyi ilə bina edilmişdir. Həmçinin kitabədə Hacı Məhəmməd Cəfər ağanın məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında vəqf olaraq iki dükan ayırdığı da qeyd olunmuşdur **(Nemətova M., 1967, s. 266-268; Сафаров Ф., 1987, с. 30-31)**. "Çay yuxarısında" deyərkən vaxtilə şimal şərqdən axaraq, cənub qərbdə Araza tökülən və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur. Bu çay XX yüzilliyin 70-ci illərinədək Naxçıvan şəhərinin içərisindən axır və şəhərə xüsusi gözəllik verirdi. Ancaq 70-ci illərdə çayın üstü beton plitələrlə örtüldü və görünməz oldu.

Kitabə məscidin inşa tarixi və onu tikdirən şəxs haqqında dəyərli məlumatlar verir. Məscidin kitabəsində adı başqa mənbələrdən məlum olmayan görkəmli sənətkarların da adı qeyd olunmuşdur. Bunlar məscidin memarı Məhəmməd Təqi (o, həmçinin kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır) və kitabəni həkk edən Məhəmməd Salehdir. Onların hər ikisi Təbriz memarlıq məktəbinə mənsub sənətkarlardır **(Nemətova M., 1967, s. 268)**.

Məscidin memarının adı kitabədə açıq şəkildə verilməmişdir. Şiə imamlarından IX imamın adı Məhəmməd Təqi olduğundan kitabədə yazılan "Məndən sonra bu məscidin memarını soruşsalar VIII imamdan sonrakı adla adlanıram" sözlərinə əsasən aydın olur ki, memarın adı Məhəmməd Təqi imiş.

Göründüyü kimi XIX yüzilliyin II yarısında Naxçıvanda yaşayan Hacı Məhəmməd Cəfər ağa belə gözəl bir məscid tikdirməklə yanaşı, onun sonrakı vaxtlarda fəaliyyət göstərmə-

sini təmin etmək qayğısına da qalmış və məscidə vəqf olaraq iki dükan bağışlamışdır ki, onlardan birinin gəlirləri məscidin təmiri, avadanlıq alınması və s. xərcləri, ikincisinin gəlirləri isə mücavirlərin dolanışığı üçün sərf edilsin. Vəqf feodal torpaq sahibliyinin çox yayılmış bir forması olmaqla bütün feodalizm dövrü davam edərək Azərbaycanda sovet hakimiyyətinin qurulmasınadək mövcud olmuşdur.

Məscid Naxçıvan şəhərində keçmiş bazar meydanının qərb tərəfində, əhalinin ən çox toplaşdığı, cəm olduğu bir yerdə inşa olunmuşdur. İnşa olunarkən onun yanında bir minarə də ucaldılmışdır. 1918-ci ildə ermənilər Naxçıvan əhalisinə divan tutarkən top mərmisi ilə minarəni zədələmişdilər. Görkəmli rəssam Bəhruz Kəngərlinin 1920-ci ildə çəkdiyi rəsm əsərində bu zədə aydın şəkildə əks olunmuşdur. Minarə sonralar bərpa olunmuşdur.

Məscid XIX yüzillikdə Naxçıvanda mövcud olan məscidlərin içərisində ən böyüyü idi. Ona görə də şəhərdə mərkəzi məscid funksiyasını yerinə yetirir, camaat və cümə namazları əsasən bu məsciddə qılınırdı. Bu baxımdan əhali buraya daha çox cəmləşirdi. Sovet hakimiyyəti illərində də bu məscid dindarların toplanış və ibadət yeri olmuşdur. Hətta burada gizli şəkildə olsa da dini nigahların qeydiyyatı aparılır, kəbin kəsilirdi. Ümumiyyətlə, Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidi dövrünün mühüm sosial-siyasi və ideoloji mərkəzlərindən biri olmuş, bölgənin həyatında özünəməxsus yeri olmuşdur.

Məscid Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə 2007-ci ildə əsaslı şəkildə bərpa olunmuşdur.

## Xaraba məscid

Naxçıvan ərazisində erməni vandalizminə məruz qalmış ibadət yerlərimizdən biri də Babək rayonunun Sirab kəndində təxminən XIX yüzilliyin sonlarında kənd sakini Məşədi Qənbər tərəfindən inşa olunmuş məsciddir. Sirab kəndində əhali arasın-

da “Xaraba məscid” adı ilə tanınan bu məscid son vaxtlara qədər xaraba vəziyyətdə qaldığı üçün kənd sakinləri tərəfindən belə adlandırılmışdır.

Məscidin xaraba qalmasının çox acı və faciəli bir tarixi vardır. Belə ki, 1918-ci ildə Arazı keçərək Culfa rayonunun Yaycı kəndində böyük qırğınlar törədən Andronik Ozanyanın quldur dəstələri Gilançay və Əlincəçay vadilərində bir sıra yaşayış məskənlərini viran etdikdən sonra Babək rayonunun Nehrəm kəndində və Naxçıvan şəhərində güclü müqavimətə rast gəlmiş, məğlubiyyətə uğramış, bundan daha da quduzlaşaraq Sirab kəndində və ətraf kəndlərdə böyük faciələr törətmişlər. Həmin vaxt ermənilər Sirab kəndində məscidlərə od vurmuş, içəridəki adamlarla birlikdə yandırmışlar. Beləliklə, həmin məscidlər bu hadisələrdən sonra xarabaya çevrilmişdir.

Sirab kənd sakini, kənddə baş verən faciələrin şahidi Rüstəm Ağayev qeyd edir ki, Sirab kəndində olan 3 məscid qaçqın, qoca, qadın və uşaqlarla dolu idi. Onlar belə hesab edirdilər ki, bəlkə məsciddə olduqlarına görə bu qaniçənin (Andronikin-H.S.) onlara rəhmi gəldi. Lakin ermənilər həmin məscidləri yandırdılar və oradan heç kim qurtara bilmədi. O məscidlərdən biri də mənim dayım Məşədi Qənbərin məscidi idi. İndi onun uçuqları qalır **(“Şərq qapısı” qəzeti, 31 mart 2001-ci il)**.

Son illərdə “Xaraba məscid”də abadlıq-bərpa işləri aparılmışdır.

## Əsgərxan məscidi

Tədqiqatlarımız və müşahidələrimiz təsdiq edir ki, Naxçıvan bölgəsinin bütün yaşayış məskənlərində məscidlər olmuşdur. Bununla bərabər ərazinin şəhərlərində və iri yaşayış məskənlərində bir əsas məscid olmaqla yanaşı hər məhəllənin də özünəməxsus məscidləri olmuşdur. Böyüklüyündən asılı olaraq bəzi məhəllələrdə bir deyil, bir neçə məscid fəaliyyət

göstərmişdir. Naxçıvan Muxtar Respublikasının böyük şəhərlərindən olan Ordubad şəhəri bu cəhətdən diqqəti xüsusi ilə cəlb edir. Belə ki, şəhərdə indiyədək bir əsas məscid (Came məscidi) ilə yanaşı çoxlu məhəllə məscidləri də qalmışdır. Şəhərin demək olar ki, bütün məhəllə və küçələrində məscidlər inşa edilmişdir. 1727-ci ildə osmanlılar tərəfindən tərtib olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən aydın olur ki, XVIII yüzilliyin I qərinəsində şəhərdə dörd (Anbaras, Məngis, İştərəngə, Sərşəhər) məhəllə **(Naxçıvan sancağının..., 2001, s. 222-239)** olmuşdur. XIX yüzilliyə aid rus dilli qaynaqlarda isə Ordubad şəhərində 5 (Anbaras, Kürdətal, Sərşəhər, Mingis, Üçtərəngi) məhəllə olması haqqında məlumat verilir (**Григорьев В., 1833, с. 195; Обозрение..., 1836, с. 355; Шопен И., 1852, с. 137**). Bu məhəllələr Ordubad şəhərində indi də olduğu kimi qalmaqdadır. Bunlardan əlavə, hazırda şəhərdə Qaraçanaq, Dilbər, Əngəş, Qarahovuz başı, Əsgərxan, Varsan, Körpübaşı, Meyrəmçə, Peci, Düz, Qoşqar, Musa təngi, Tırıxlar, Fəqrə və s. kimi kiçik məhəllələr də vardır **(Bağırov V., 2007, s. 81)**. Demək olar ki, bu məhəllələrin hamısının özünün ayrıca məscidi olmuşdur. Həm də bəzi məhəllələrdə bir neçə məscid fəaliyyət göstərmişdir. Məsələn, ən böyük məhəllələrdən olan Sərşəhər məhəlləsində bir böyük, iki kiçik məscid, Mingis məhəlləsində bir böyük, üç kiçik məscid olmuşdur. Əslində bu məscidlər görkəmli yazıçı M.S.Ordubadinin yazdığı kimi ayrı-ayrı əyanlara məxsus olmuş, gündüz məktəb, gecələr isə tanışların toplaşıb söhbət etdiyi kiçik ibadət yerləri olmuşdur **(Ordubadi M.S., 2012, s. 36)**. Görkəmli ədib Ordubad şəhərində belə ibadət yerlərindən 23 məscidin (Həkim məscidi, Hacı Sadiq məscidi, Ağa Lətif məscidi, Şükür bəy məscidi, Fəqrə (Füqəra) məscidi, Boyaqçılar məscidi, Molla Lütfəli məscidi, Məzzələtdin məscidi, Bazar məscidi, Başmaqçı bazar məscidi, Hacı Molla Hüseynin məscidi, Bala bəy məscidi, Hacı Əli məscidi, Pir Eyvaz məscidi, Aşağı Anbaras məscidi, Mirzə

Baxşı məscidi, Çayüstü məscidi, Qarahovuz məscidi, Yetimlər məscidi, Naharbaşı məscidi, Hacı Əbutalıb məscidi, Bala Ağa məscidi, Dilbər məscidi) adını qeyd etmişdir **(Ordubadi M.S., 2012, s. 36)**.

Ordubad şəhərindəki məscidlər şəhərin ictimai-siyasi həyatında mühüm rol oynamış, hətta onların vəqfləri olmuşdur. Arxiv materialları təsdiq edir ki, 1875-ci ildən 1892-ci ilədək Ordubad məscidlərinin gəlirləri orta hesabla ildə 450 manat təşkil etmişdir. Bu gəlir məscidlərin təmirlərinə, məscidlərdə təhsil alan tələbələrin təminatına, pişnamazların və vəqf komissiyası sədrinin əmək haqqına sərf olunmuşdur **(Кулиева В., 2003, с. 134)**.

Ordubad şəhərinin demək olar ki, bütün küçələrində mövcud olan bu məscidlər çox da böyük olmayan, məhəllə camaatının yığıncaq yeri olan meydanlarda inşa edilmişdir. Bu meydanlar insanların müxtəlif yığıncaq və əyləncə yeri olmuşdur **(Салаева Р., 2002, с. 97)**. Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, bu məscidlərin, xüsusi ilə böyük məscidlərin əksəriyyətinin qarşısında çinar ağacları vardır. Şəhərə kənardan baxarkən görünən çinarlar orada məscid olmasını göstərir. Həcmcə çox da böyük olmayan, bitkin memarlıq abidələri kimi təqdim olunan, özlərində xalq memarlığı ünsürlərini əks etdirən bu məhəllə məscidlərinin **(Салаева Р., 2002, с. 99)** çoxu zəmanəmizədək əsasən salamat vəziyyətdə gəlib çatmışdır.Həminməscidlərdən bir neçəsi haqqında bəhs etməyi məqsədəuyğun sayırıq.

Ordubad şəhərinin qədim və böyük məhəllələrindən olan Mingis məhəlləsində 4 məscid vardır. Bunlardan biri böyük, üçü kiçik ölçülüdür.1891-ci ildə məhəllədə 159 ailə yaşadığını **(Кулиева В., 1999, с. 41)** nəzərə alsaq burada bir böyük, üç kiçik məscidin olması məhəllədə məscidlərin çox sıx yerləşməsini (təxminən 40 ailəyə bir məscid) göstərir.

Ordubad şəhərinin Mingis məhəlləsində (Təbriz küçəsi) əhali tərəfindən “Əsgərxan məscidi” adlandırılan başqa bir məscid də vardır. Mingis məhəlləsində yerləşdiyi üçün (bəzi adamlar onun ayrıca məhəllə məscidi – Əsgərxan məhəlləsinin məscidi olması fikrindədir) şərti olaraq “IV Mingis məscidi” adlandırdığımız bu məscid məhəllədəki və şəhərdəki digər məscidlərlə müqayisədə çox hündür inşa olunmuşdur. İçəridən hündürlüyü 5 metrdir. İki mərtəbəli yerindədir.

Məscidin girişi qərb tərəfdəndir. İki qapısı, 3 pəncərəsi vardır. Pəncərələr böyük ölçülü olmaqla (330x140 sm) üst-üstə yerləşdirilmişdir. Divarların qalınlığı 110 sm-dir. Daxildən uzunluğu 13,5 metr, eni 11,8 metr olmaqla sahəsi 160 $m^2$-dir. Tavan 5 dirəyin və divarların üstündə oturmuşdur. Məhəllə əhalisinin fikrincə, məscidi Salman bəyin oğlu Hacı bəy tikdirmişdir. Şəhərin Əsgərxan meydanında tikildiyi üçün Əsgərxan məscidi də adlandırılır.

Məscidin binasının XVII əsrdə inşa edilməsi ehtimal olunur.

## Üştürləngə məscidi

Ordubad şəhərinin şimal-şərqində, Üştürləngə məhəlləsində də məscid vardır. Yerləşdiyi məhəllənin adı ilə “Üştürləngə məscidi” adlanan bu məscid bəzən el arasında “Ağa meydanının məscidi” də adlanır. Binanın girişi qərbdəndir. Daxili hissəsi iki salondan ibarətdir. Giriş qapısı kiçik otağa açılır. Əsas salon – ibadət salonu cənubdadır. Məscidin tavanı divarların və 3 sütunun üstündə oturmuşdur. Mehrabın sağ və sol yanında pəncərə vardır. Uzunluğu 14,4 metr, eni 9,0 metr olmaqla sahəsi 130 $m^2$-dir. Məmməd Səid Ordubadi Ordubad şəhərinin məscidlərindən bəhs edərkən bu məscidi “Şoturləngə məscidi” adı ilə şəhərin böyük məscidlərindən biri kimi qeyd etmişdir **(Ordubadi M.S., 2012, s. 36)**.

Məscidin binası XIX əsrdə inşa edilmişdir.

## Qarahovuz məscidi

Ordubad şəhərinin Sərşəhər məhəlləsində, meydanın şimal tərəfində yerləşən əsas məsciddən təxminən 200 metr qərbdə şəhər əhalisi tərəfindən "Qarahovuz məscidi" adlandırılan məscid vardır. Məscidin qarşısında qara rəngli daşdan tikilmiş hovuz olduğu üçün məscid belə adlandırılmışdır. Binanın girişi şimaldan və qərbdəndir. Cənub divarında 3 ədəd pəncərəsi vardır. Tavanı divarların və 5 dirəyin üstündə oturmuşdur. Qərbdən düzbucaqlı, şimal və şərqdən trapesiya formalıdır. Çiy kərpicdən hörülmüşdür. Daxildən uzunluğu 15 metr, eni 12 metr olmaqla sahəsi 180 $m^2$-dir.

Məscidin inşa tarixini XVII yüzilliyə aid etmək olar.

## Əngəş məscidi

Ordubad şəhərində indiyədək qalan məscidlərdən biri də Əngəş məscididir. Şəhərin Əngəş məhəlləsində yerləşən məscidin binası dördkünc formalıdır. Binanın girişi cənubdandır. Məscidin kvadrat formalı salonuna ensiz dəhlizdən girilir. Qapı və pəncərələri dördkünc formalıdır. Cənub divarında mehrabı və bir taxçası var. Salonu iki sıra sütunla üç yerə bölünmüşdür. Məscidin memarlıq üslubu XIX əsr tikintiləri üçün xarakterikdir. M.S.Ordubadi bu məscidi Ordubad şəhərinin 8 böyük məscidindən biri kimi təqdim edir **(Ordubadi M.S., 2012, s. 36)**.

Məscid binasını memarlıq-konstruktiv quruluşuna əsasən XIX yüzilliyə aid etmək olar.

## Meyrəmçə məscidi

Ordubad şəhərinin Meyrəmçə məhəlləsində, Təbriz küçəsində yerləşən məscid Meyrəmçə adlı qadın tərəfindən inşa etdirildiyi üçün onun adı ilə "Meyrəmçə məscidi" adlandırılmışdır. Məscid binasının girişi cənub-şərq tərəfdəndir. Şərq divarında bir böyük pəncərəsi, qərbdə isə kiçik pəncərəsi var-

dır. Məscid kiçik ölçülü, trapesiya formalıdır. 1989-cu ildə bərpa olunmuşdur. Məscid inşa olunarkən onu inşa etdirən Meyrəmçə adlı qadın onun qarşısında sonradan banisinin adı ilə adlanan “Meyrəmçə kəhrizi”ni də qazdırmışdır.

Məscidin inşa tarixini XVIII əsrə aid etmək olar.

## Qaraçanaq məscidi

Ordubad şəhərində indiyədək qalan məhəllə məscidlərindən biri də Qaraçanaq məhəlləsində yerləşən məsciddir. Məscid bir böyük salondan ibarətdir. Uzunluğu 11 metr, eni 11 metrdir (təxminən 120 $m^2$). Məscidin tavanı divarların və 6 sütunun üstündə dayanmışdır. Yerli əhalinin dediyinə görə məscidin tarixi çox qədimdir. Müəyyən aşınmalara məruz qaldığı üçün keçən yüzilliyin sonlarında bərpa edilmişdir. Məscidin girişi qərbdəndir. Qərb divarında həm də bir böyük pəncərəsi var. Əziz günlərdə burada dini mərasimlər keçirilir.

Məscidin binası XVIII əsrin sonları-XIX əsrin əvvəllərində inşa edilmişdir.

## Qırxayaq məscidi

Ordubad şəhərinin Kürdəbal məhəlləsində indiyədək qalan məscidlərdən biri də “Qırxayaq məscidi”dir. Kürdətal məhəlləsinin məscid yerləşən bu hissəsinə el arasında bəzən “Qurdlar məhəlləsi”, “Tırıxlı” da deyirlər. Məscidin adı onun cənub tərəfində yerləşən, Ordubad şəhəri üçün xarakterik kəhriz sisteminə daxil olan qırxayaqdan (ovdandan) yaranmışdır. Qeyd etmək lazımdır ki, orta əsrlər zamanı Ordubad şəhərində mövcud olan 70-ə yaxın kəhrizin böyük bir hissəsi bir-biri ilə yeraltı lağım vasitəsi ilə birləşdirilmiş və həyətlərdən, meydanlardan keçirilmişdir. Həmin həyətlərdə və meydanlarda ovdanlar düzəldilmiş, pillələrlə kəhriz suyunun axdığı yerə düşərək kəhrizlərdən istifadə olunmuşdur. Ordubad bölgəsində “qırxayaq”, “qırxpillə” adlandırılan

bu ovdanlardan yay vaxtı həm də soyuducu kimi istifadə olunmuş, tez xarab olan məhsullar orada saxlanmışdır **(Səfərli H., 2009, s. 49)**. Qırxayaqlarda təmizliyə yüksək səviyyədə əməl olunmuşdur. Haqqında bəhs olunan məscid də belə qırxayaqlardan birinin şimal tərəfində inşa olunduğu üçün onun adı ilə "Qırxayaq məscidi" adlandırılmışdır.

Məscidin binası uzunsov formalıdır. Daxildən uzunluğu 16,5 metr, eni 7,6 metr olmaqla sahəsi təxminən 125 $m^2$-dir. Girişi qərb tərəfdəndir. Cənub divarda bir pəncərəsi vardır. Məhərrəmlik və Orucluq aylarında burada dini mərasimlər keçirilir, təkyə, ehsan verilir.

Məscidin binası XIX əsrdə inşa etdirilmişdir.

## Dilbər məscidi

Ordubad şəhərinin böyük məhəllə məscidlərindən biri də "Dilbər məscidi"dir. Dilbər adlı qadın tərəfindən inşa edildiyi üçün belə adlanır. Məscidin binası yenidən bərpa edilmişdir. Məscidə aid ilk tikintilərdən indiyədək yalnız tağbəndlə tamamlanan baştağ qalmışdır. Məscid böyük, dördkünc formalı salondan ibarətdir. Memarlıq kompozisiyası baxımından XVIII əsrə xas üslub və tipoloji xüsusiyyətləri özündə əks etdirir. Məscidin mehrabı, şəbəkəli pəncərələri vardır. Şəbəkəli pəncərələrin işlənməsi, baştağın simmetrik yerləşməsi məscid binasının xalq yaşayış evləri ilə uyğunluq təşkil etdiyini göstərir.

Məscidin binası XVIII yüzillikdə inşa etdirilmişdir.

## Qoşqar məscidi

Ordubad şəhərinin Anbaras məhəlləsində, Y.Məmmədəliyev küçəsində də bir məhəllə məscidi vardır. Məhəllə əvvəllər Qoşqar məhəlləsi adlandığı üçün məscid belə adlandırılmışdır. Təpənin qərb yamacında inşa edildiyi üçün qərbdən iki

mərtəbəli kimi görünür. Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra məscid gözəl memarlıq üslübü ilə bərpa olunmuşdur. Bərpa zamanı məscidin şərq divarında latın və ərəb əlifbası ilə yazılmış belə bir kitabə qoyulmuşdur: “Qoşqar məscidi 2001-ci ildə Sadıqov Nemət Məmməd oğlu tərəfindən bərpa edilmişdir”.

Məscidin daxildən uzunluğu 12 metr, eni 10,6 metr olmaqla sahəsi 130 $m^2$-ə yaxındır. Məscid iki salondan ibarətdir. Cənubdan girişi olan salon qadınlar üçün, qərbdən girişi olan salon isə kişilər üçündür. Cənub və qərb tərəfdə balkonu vardır. Məscidin daxili divarlarında gəc üzərində ərəb əlifbası ilə qara rənglə dini mətnlər yazılmışdır.

Müstəqillik dövründə əsaslı şəkildə yenidən qurulan məscidin əsası XVII əsrdə qoyulmuşdur.

## Şərur şəhər məscidi

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Naxçıvanda insanların ibadət yeri olan məscidlərin inşasına da dövlət səviyyəsində xüsusi diqqət yetirilmiş, bir sıra yeni məscidlər inşa olunmuşdur. Belə məscidlərdən biri də Şərur şəhər məscididir. Şərur şəhərinin mərkəzində yerləşən iki mərtəbəli məscid 2007-2009-cu illərdə inşa edilmişdir.

Qədim və müasir Şərq memarlıq ənənələrini özündə birləşdirən məscidin ümumi sahəsi 900 kvadratmetr, həyəti isə 0,5 hektardır. Məscidin birinci mərtəbəsinin hündürlüyü 8 metr, ikinci mərtəbəsinin ucalığı isə 3 metrdir. Məscidin ümumi hündürlüyü 20 metrdir. Dörd sütunludur. Divarlarının qalınlığı 80 santimetrdir. Məscid 3 günbəzli tikilmişdir. Məsciddə 100 qadın, 300 kişi olmaqla 400 nəfər eyni anda ibadət edə bilir. Zaldan əlavə 4 otaq mövcuddur. Girişi şimal-şərqdən olan məscid iki minarəlidir. Minarələrin hündürlüyü 30 metrdir.

## Heydər məscidi

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında inşa edilən məscidlərdən bir hissəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şərəfinə inşa etdirilən Heydər məscidləridir. Belə məscidlərdən biri Şərur rayonunun Aşağı Aralıq kəndində inşa etdirilmişdir. Özünəməxsus memarlıq üslubuna malik olan iki mərtəbəli məscid 1996-cı ildə inşa olunmuşdur.

419 kvadratmetr sahəsi olan ərazidə yerləşən, Şərq memarlıq elementlərini özündə əks etdirən, müasir üslubda inşa edilən məscidin ümumi sahəsi 155 kvadratmetrdir. Məscidin həyəti dini simvollar, nəbati və həndəsi naxışlarla bəzədilmiş dəmir məhəccərlərlə əhatə olunmuşdur. Binanın günbəzində göy kaşılarla "HEYDƏR MƏSCİDİ" sözləri yazılmış, əsas giriş qapısının baş tərəfində isə Qurani-Kərimdən ayələr yazılmış kitabə qoyulmuşdur.

Məscidin birinci mərtəbəsinin hündürlüyü 5 metr, ikinci mərtəbəsinin hündürlüyü isə 3 metrdir. Məscidin ümumi hündürlüyü 10 metrdir. Dörd sütunludur. Divarlarının qalınlığı 50 santimetrdir. Bir günbəzlidir. Məsciddə 60 qadın, 100 kişi olmaqla 160 nəfər eyni anda ibadət edə bilir. İki minarəlidir. Minarələrin hündürlüyü 15 metrdir.

## Nehrəm kənd məscidi

Müstəqillik dövründə Naxçıvanda inşa olunmuş məscidlər sırasında Şərq memarlıq üslubunda inşa edilən və 2016-cı ildə istifadəyə verilən Nehrəm kənd məscidinin özünəməxsus yeri vardır. Məscid Babək rayonunun Nehrəm kəndində yerləşir. Bir mərtəbəli məscidin ümumi hündürlüyü 6,5 metrdir. Ümumi sahəsi 350 kvadratmetrdir. Dörd sütunludur. Divarlarının qalınlığı 60 santimetrdir. Məscid bir günbəzlidir. Günbəzin hündürlüyü 3,8 metrdir. Məsciddə 170 qadın, 180 kişi olmaqla 350 nəfər eyni anda ibadət edə bilir. Məsciddə zaldan

əlavə bir otaq var. Girişi şimal-şərqdən olan məscid bir minarəlidir. Minarənin hündürlüyü 24 metrdir.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Şərq memarlıq üslubunda inşa olunmuş məscidin açılış mərasimi olmuşdur.

## Həzrəti Zəhra məscidi

Həzrəti Zəhra məscidi Naxçıvan şəhərindəki "Böyük bağ"ın cənub tərəfində, şəhərin qədim məhəllələrindən olan Sarvanlar məhəlləsində, Naxçıvanın məşhur seyidlərindən Miriş ağanın həyətində inşa olunmuşdur. Məscidin ümumi sahəsi 6000 kvadratmetrdir. Sahəsi 3300 kvadratmetr olan böyük ibadət salonu günbəzlə örtülmüşdür. Məscidin hündürlüyü 31 metr olan iki minarəsi vardır.

Girişi şimal tərəfdən olan məscid iki mərtəbəlidir. Binanın birinci mərtəbəsində yardımçı otaqlar, yas mərasimlərinin keçirilməsi üçün salonlar, ikinci mərtəbəsində isə kişi və qadınlar üçün ibadət salonları yerləşir. Bu salonlarda eyni vaxtda 1000 nəfərdən artıq adam ibadətlə məşğul ola bilir.

10 noyabr 1999-cu ildə məscidin açılış mərasimi olmuşdur. Azərbaycan xalqının ümummilli lideri, həmin vaxt Azərbaycan Respublikasının Prezidenti olan Heydər Əliyev məscidin açılış mərasimində iştirak və çıxış etmişdir. Ulu öndər məscidə böyük qiymət verərək demişdir: "Bu məscid böyük məna daşıyır. Bu da ondan ibarətdir ki, o, İran-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gözəl bir nümunəsidir".

## Kazım Qarabəkir paşa məscidi

Kazım Qarabəkir paşa məscidi Naxçıvan şəhərinin şərq tərəfində inşa olunmuşdur. 1995-1999-cu illərdə inşa olunan məscid 1918-1919-cu illərdə Naxçıvan bölgəsinin erməni təcavüzündən qorunmasında, xüsusilə quldur general Andronik

Ozanyanın törətdiyi qırğınların qarşısının alınmasında böyük xidmətləri olan, Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində olmasını rəsmiləşdirən Qars müqaviləsinə imza atan Kazım Qarabəkir paşanın şərəfinə "Kazım Qarabəkir paşa məscidi" adlandırılmışdır. Türkiyə Diyanət İşləri vəqfi tərəfindən inşa etdirilən məscidin 13 oktyabr 1999-cu ildə baş tutan açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin Diyanət işləri bakanı Mehmet Nuri Yılmaz, Kazım Qarabəkir paşanın qızı Timsal xanım və başqa hörmətli qonaqlar iştirak etmişdir. Türkiyə televiziyası ilə yayınlanan açılış mərasimində xalqımızın ümummilli lideri Heydər Əliyev dərin məzmunlu geniş nitq söyləmişdir.

Girişi şimaldan olan üç mərtəbəli məscidin daxili sahəsi 550 kvadratmetr, tutduğu ərazi həyətlə birlikdə on üç min kvadratmetrdir. Məsciddə eyni vaxtda 1000 nəfər namaz qıla bilir. Məscidin əsas günbəzinin hündürülüyü 19 metr, yardımçı günbəzlər isə 4 metr hündürlüyündədir. Minarələrin hündürlüyü 38 metrdir.

Türkiyə Respublikasının Diyanət İşləri bakanı Mehmet Nuri Yılmaz bu məscidi "Heydər Əliyevin əsəri" kimi dəyərləndirmişdir.

## Heydər məscidi

Müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin şərəfinə inşa etdirilən məscidlərdən biri də Babək rayonunun Çeşməbasar kəndində yerləşən məsciddir. İki mərtəbəli məscidin birinci mərtəbəsinin hündürlüyü 3 metr, ikinci mərtəbəsinin hündürlüyü isə 2,5 metrdir. Məscidin ümumi hündürlüyü 6 metrdir. Ümumi sahəsi 72 kvadrat metr olan məscid dörd sütunludur. Divarlarının qalınlığı 70 santimetrdir. Bir günbəzli olan məsciddə 50 qadın, 70 kişi olmaqla 120 nəfər eyni anda ibadət edə bilir. Girişi şimaldan olan məscid bir minarəlidir.

Minarənin hündürlüyü 12 metrdir. Məscidin həyətində dini mərasimlərin keçirilməsi üçün əlavə zal inşa edilmişdir. Zalın ölçüsü 18x6 (108 $m^2$) metrdir.

Məscid 2015-ci ildə təmir olunmuşdur.

## Əbrəqunus məscidi

Müstəqillik dövründə Naxçıvan ərazisində inşa etdirilən məscidlərdən biri də Əbrəqunus məscididir. Məscid Culfa rayonunun Əbrəqunus kəndində yerləşir. Şərq memarlıq üslubunda inşa edilən bu möhtəşəm məscidNaxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 2012-2013-cü illərdə inşa edilmişdir.

Bir mərtəbəli məscidin ümumi sahəsi 320 kvadrat metrdir. Məscidin hündürlüyü 5,2 metrdir. Dörd sütunludur. Divarlarının qalınlığı isə 40 santimetrdir. Məscid bir günbəzlidir. Orada 110 qadın, 110 kişi olmaqla 220 nəfər eyni anda ibadət edə bilir. Girişi şimaldan olan məsciddə zaldan əlavə 4 otaq mövcuddur. Bir minarəlidir. Minarənin hündürlüyü 24 metrdir. Məscidə 1300 metrlik məsafədən içməli su xətti çəkilmişdir.

# IV. ZİYARƏTGAHLAR HAQQINDA ÜMUMİ MƏLUMAT

Müşahidələrimiz və tədqiqatlarımız təsdiq edir ki, islam dininin qəbulundan sonra Azərbaycan, o cümlədən Naxçıvan ərazisində çoxlu müqəddəs yerlər – ziyarətgahlar yaranmışdır. Bu ziyarətgahlar islam dininin hakim olduğu bütün müsəlman Şərqi ölkələrində olduğu kimi Azərbaycanda da orta əsrlər zamanı əhalinin həyatında mühüm yeri olan sosial-siyasi və ideoloji mərkəzlərdən biri olmuşdur. Azərbaycanın bütün bölgələri kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində də zəmanəmizədək qədim və orta əsrlər dövrünə aid çoxlu müqəddəs yerlər – ziyarətgahlar gəlib çatmışdır. Bir qismi insanların qədim inamları, çox hissəsi isə islam dini ilə əlaqədar olan ziyarətgahlara muxtar respublikanın demək olar ki, əksər yaşayış məskənlərində rast gəlinir. Onlardan çoxu məhdud çərçivədə tanınaraq o qədər məşhur olmasa da bir qismi nəinki Naxçıvan, hətta Azərbaycanın sərhədlərindən kənarlarda belə tanınmış, şöhrət tapmış, insanların diqqətini cəlb etmişlər.

VII yüzilliyin ortalarından başlayaraq islam dini yayıldıqdan sonra Azərbaycan mədəniyyəti özünün bütün nailiyyətləri ilə birlikdə ümumislam mədəniyyətinə birləşmiş, onun tərkib hissəsinə çevrilmişdir. Ən son və mükəmməl din olan islam digər müsəlman xalqları kimi Azərbaycan xalqının mədəniyyətinə də güclü təsir etmiş, elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata güclü təsiri olmuşdur. Əhalinin məişətində, adət və ənənəsində, ümumiyyətlə, həyatın bütün sahələrində olduğu kimi, Azərbaycan memarlığının bütün məktəblərində də bu təsir aydın nəzərə çarpmaqdadır. Orta əsrlər zamanı yaradılan möhtəşəm memarlıq nümunələri – məscidlər, mədrəsələr, görkəmli şəxsiyyətlər və müqəddəs adamların qəbirləri üzərində ucaldılan türbələr, xanəgahlar, zaviyələr, karvansaralar, körpülər, hamamlar, buzxanalar və s. Azərbaycanda islam mədəniyyəti abi-

dələrinin ən gözəl nümunələridir.

Azərbaycanda, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan bölgəsində islam mədəniyyəti abidələrinin mühüm bir hissəsini də ziyarətgahlar və onların üzərindəki tikintilər təşkil edir. “İmamzadə”, “pir”, “ocaq”, “seyyid qəbiri”, “ağanın qəbiri” və s. bu kimi adlarla tanınan ziyarətgahlar orta əsrlər zamanı cəmiyyətin həyatında mühüm rol oynayan sosial-siyasi və ideoloji mərkəzlərdən biri olmuşdur. Müqəddəs şəxsiyyətlərin məzarları yanında olan məscidlərdə ibadət etməyə üstünlük verildiyindən **(Книга Орудж-Бека Байата..., 1988, с. 35)** həmin yerlər camaatın əsas yığıncaq yerlərindən birinə çevrilmişdir. Həmin yerlərə çoxlu zəvvarlar gəlir, ibadət edilir, ehsan verilir, müxtəlif dini mərasimlər yerinə yetirilirdi. Təsadüfi deyildir ki, əhali tərəfindən hörmətlə yanaşılan və inam bəslənilən müqəddəs yerlərdən bəziləri dövlət tərəfindən himayə olunmuşlar. Müxtəlif vaxtlarda ayrı-ayrı imkanlı şəxslər və ya dövlət tərəfindən bu abidələrin üzərində möhtəşəm memarlıq nümunələri inşa edilmiş, onların saxlanması, xərclərinin ödənilməsi üçün çoxlu vəqflər edilmişdir. Dövrümüzədək deyilənləri təsdiq edən çoxlu şah fərmanları gəlib çatmışdır. Məsələn, XIX əsrdə akademik B.Dorn şiələrin VII imamı Museyi Kazımın qızı Hökumə xanımın Bakı yaxınlığındakı Şıx kəndində olan məzar-ziyarətgahına aid Səfəvi şahlarından I Şah Təhmasibin, I Şah Abbasın, II Şah Abbasın, Şah Hüseynin və başqalarının 10 ədəd fərmanını aşkara çıxarmışdır. Həmin fərmanlarla Səfəvi şahları Şıx kəndini əkin yerləri, bağları, pambıq tarlaları, neft quyuları və s. əmlakları ilə birlikdə ziyarətgahı idarə edən şeyxlərə bağışlamış və onları xəzinəyə verilən bütün vergilərdən azad etmişlər **(Nemət M., 1992, s. 36-37; Петрушевский И., 1949-2, с. 256-257; Петрушевский И., 1949-1, с. 171-175)**.

Bəzi hallar istisna olmaqla ziyarətgahların gəlirindən el-

liklə müxtəlif məqsədlər üçün istifadə edilirdi: cari təmir işləri aparılır, müəyyən əşyalar alınır, imkansız ailələrin dolanmasına sərf olunurdu. Bəzən ziyarətgahlardan siyasi məqsədlərlə istifadə edilirdi. Məsələn, I Şah Abbas zamanı, İrandan kənara qızıl axını olmasın deyə Həcc ziyarəti əvəzinə imamların qəbirini və başqa məqbərələri ziyarət etmək qərara alınmışdı **(Kruşinski U., 1993, s. 21)**.

Bütün orta əsrlər zamanı, hətta son dövrlərədək ziyarətgahlar ölüm cəzası gözləyənlərin, müqəssirlərin, təqib olunanların pənah gətirərək sığındığı yer olmuşdur. Orta əsr səyyahları təsdiq edirlər ki, həmin yerlərə sığınan adamlara orada yaşadığı dövrdə toxunmurdular. Hətta edama aparılan adam qaçıb hər hansı bir müqəddəs məkana pənah gətirsəydi, heç kəsin onu oradan zorla çıxarmağa ixtiyarı yox idi. İstədiyi qədər orada qala bilərdi **(Gevr J., 1993, s. 80)**. Məsələn, XVIII əsrin ortalarında sonralar İran şahı olmuş Ağa Məhəmməd şah Qacar Kərim xan Zəndin qəzəbindən özünü xilas etmək üçün Şirazdakı "Şahi-Çıraq" adlı imamzadəyə pənah gətirmiş, yalnız Kərim xan gedib onun təhlükəsizliyinə söz verdikdən sonra oradan çıxmışdı **(Gevr J., 1993, s. 153-155)**.

Ziyarətgahlar toxunulmaz olduğu kimi, onların əmlakı da toxunulmaz idi. Müşahidələrimiz və el arasında mövcud olan söhbətlər göstərir ki, hətta ən qıtlıq və şaxtalı illərdə belə ziyarətgahların əmlakına toxunulmamış, ətrafdakı ağaclar kəsilməmişdir.

Orta əsrlər dövrünün mühüm sosial-siyasi və ideoloji mərkəzlərindən biri olan ziyarətgahlar təəssüf ki, uzun illər boyu elmi cəhətdən tədqiq olunmamışdır. Bu abidələrin bəziləri Sovet hakimiyyəti illərində memarlıq baxımından müəyyən qədər öyrənilsə də, çox hissəsi diqqətdən kənarda qalmış, üstündən sükutla keçilmişdir. Tədqiqat obyektinə çevrilən ziyarətgahlar isə hərtərəfli tədqiq edilməmiş, mahiyyətləri tam açılmamış, onlara ateizm baxımından yanaşılmışdır.

Sovet hökumətinin ilk dekretlərindən biri "Vicdan azadlığı haqqında dekret" olsa da, ölkə Konstitusiyasında vətəndaşların dinə münasibətində əhaliyə Qanunla sərbəstlik verilsə də, bu söz olaraq qalmış, insanların mənəviyyatına, dini hisslərinə güclü zərbələr vurulmuşdur. Bu illərdə xalqın əsrlər boyu böyük inam bəslədiyi, hörmət və məhəbbətlə yanaşaraq ziyarət etdiyi inanc yerləri – ziyarətgahlar, pirlər və s. xalqa zorla unutdurulmuş, hətta onlar sinfi düşmənlərlə əlaqələndirilərək bağlanmış, həmin yerləri ziyarət etmək qadağan olunmuş, zəvvarlar təqib edilərək müxtəlif cəza tədbirlərinə məruz qalmışlar. Həmin dövrü xarakterizə edərək Şeyxülislam Hacı Allahşükür Paşazadə yazır: "… bu dövlətin tarixində elə bir mərhələ də olmuşdu ki, bu vaxt bütünlükdə dövlət-cəmiyyət münasibətlərində pozuntulara, ilkin dəyərlərin təhrif edilməsinə, təqibə və cəza tədbirlərinə yol verilmişdi. Sovet cəmiyyətinin tarixinə cəza tədbirləri və durğunluq dövrü kimi daxil olmuş və bu, bir qədər sürəkli mərhələdə həyatın bütün sahələrində olduğu kimi din sahəsində də adamların başı üzərində qılınc oynadılmışdır. Sovet hakimiyyətinin ilk illəri ilə müqayisədə bu dövrdə dövlətin dinə münasibətində böyük təzad vardı: din başdan-ayağa "cəhalətpərəstlik", "gericillik" və "donuqluq" mücəssəməsi elan edilir, dindarlar isə "cahil" və "mühafizəkar" kimi qələmə verilirdilər"**(Paşazadə A., 1991, s. 156)**.

Bu illərdə din xadimlərinin və dindarların böyük bir hissəsi cəmiyyətə düşmən ünsür kimi günahlandırılıb güllələnmiş, Sibirə sürgün edilmiş, müxtəlif cəza tədbirlərinə məruz qalmışdır. Xalqın əsrlər boyu tapındığı və üzərində möhtəşəm memarlıq abidələri ucaltdığı bəzi ziyarətgahlar müxtəlif bəhanələrlə dağıdılmış, yerlə yeksan edilmişdi. Məsələn, Bakı yaxınlığında Şıx kəndində ən böyük ziyarətgahlardan biri, şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə xanımın qəbiri üzərində ucaldılmış nadir memarlıq abidəsi olan Bibiheybət məscidi XX yüzilliyin 30-cu illərində "yol salınması səbəbin-

dən" dağıdılmışdır. Mingəçevir su anbarının tikilməsi ilə əlaqədar olaraq "Sarı Ata piri" suyun altında qalmışdır. Acı da olsa etiraf etmək lazımdır ki, Azərbaycanın bir sıra yerlərində belə dağıntılar törədilmişdir. Bir qrup ziyarətgah və məscidlər isə bağlanmış, qadağan edilmiş və ya təsərrüfat məqsədləri üçün istifadə edilən anbarlara çevrilmişdi.

Məhz bu səbəbdən də Qafqaz Müsəlmanları Ruhani idarəsinin sədri H.A.Paşazadənin yazdığına görə XX əsrin əvvəllərində, Oktyabr çevrilişi ərəfəsində Qafqazda iki minə yaxın məscid və ziyarətgah olduğu halda (fikrimizcə, burada söhbət iri məscid və ziyarətgahlardan gedir-H.S.), 80-ci illərdə burada təqribən 25 məscid və bir neçə müqəddəs ocaq fəaliyyət göstərirdi **(Paşazadə A., 1991, s. 157)**. Təkcə bu qəbil işlərlə kifayətlənməmiş, həmin illərdə ziyarətgahların elmi cəhətdən tədqiqinə qadağa qoyulmuş, bu sahədə çalışmaq istəyən tədqiqatçıların qarşısına sədd çəkilmiş, ateist alimlərin fəaliyyətinə rəvac verilmişdir. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan ziyarətgahlar da elmi şəkildə öyrənilməmiş, mahiyyəti açılmamış, onlar haqqında xalqa geniş və dəqiq məlumat çatdırılmamışdır.

Həmin dövrdə tək-tək adamlar isə bu istiqamətdə müəyyən işlər görsə də, onlar mətbuat səhifələrinə və nəşriyyatlara yol tapa bilməmiş, əlyazmalarını toz basaraq arxivlərdə qalmışdır. Əksinə, aparılan ateizm təbliğatı beyinləri dumanlandırmış, bol-bol nəşr edilən məqalə və kitablarda həmin müqəddəs yerlər haqqında səhv fikirlər söylənmiş, fikirlər çaşdırılmış, bununla da əhalinin həmin ocaqlara inamlarının sındırılmasına səy edilmişdir **(Ağasıoğlu, 1991; Alimlər..., 1965; Balayev M., 1971; Əhədov A., 1984; Mustafayev Q., 1973)**.

Bütün bunlara baxmayaraq əhalinin böyük hissəsi öz inamlarından dönməmiş, gizli də olsa bu müqəddəs yerləri ziyarət etmiş, onlara qurban kəsmiş, nəzir vermişlər. Əlbəttə, sistemli şəkildə aparılan əks-təbliğatlar da nəticəsiz qalmamış, zi-

yarətgahlar (onların bir qismi həm də gözəl tarix-memarlıq abidələridir) bəzi adamlar, xüsusi ilə aid təşkilatlar tərəfindən unudulmuş, baxımsız qaldıqlarından aşınaraq uçub dağılmış, məhv olmuşlar.

Hazırkı zamanda, xüsusilə 1992-ci ilin avqust ayında Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Dini etiqad azadlığı haqqında Qanun" qəbul edildikdən, xüsusilə ulu öndər 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra əhalinin dinə inamı özünə qayıtmış, dini təsisatların fəaliyyəti güclənmiş, müqəddəs yerlərə– ziyarətgahlara qayıdışı başlanmış, bu sahədə onlara sərbəstlik verilmişdir.

Qeyd etmək lazımdır ki, bəzən ziyarətgahlara gedən zəvvarlar heç də onların mahiyyət və mənasını dərindən dərk etmir, sadəcə olaraq əsrlərdən bəri davam edən ənənəyə uyğun olaraq həmin yerləri ziyarət etməkdə davam edirlər. Məhz bu səbəbdən də ziyarətgahların elmi şəkildə tədqiqi, onların mahiyyətlərinin açılması və xalqa doğru-düzgün məlumatlar çatdırılması vacib məsələlərdəndir. Fikrimizcə, ziyarətgahlar obyektiv şəkildə, elmi cəhətdən tədqiq edilərsə və tədqiqatın nəticələri geniş əhali kütləsinə çatdırılarsa, əhalidə ziyarət etdikləri yer haqqında ətraflı məlumat olar, onlar kimi və nəyi ziyarət etdiklərini dəqiq bilərlər.

Bu sahədə artıq ilk uğurlu addım atılmışdır. Görkəmli epiqraf-alim, tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Məşədixanım Nemət zamanın yaratdığı imkanlardan istifadə edərək, özünün çoxillik zəhmətinin bəhrəsi olan "Azərbaycanda pirlər" kitabını nəşr etdirmişdir. Müəllif bu əsərində Azərbaycanda, eləcə də onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisindəki bir neçə məşhur pirdən bəhs etmiş, onların əsil mahiyyətini açmış, xalqa həqiqəti çatdırmışdır **(Nemət M., 1992)**.

Azərbaycan ərazisində mövcud olan ziyarətgah-pirlər üzərində uzun illərdən bəri tədqiqat aparan M.Nemət onları

dörd əsas qrupa bölür:

1. Azərbaycanda şiə imamlarının övladları iləəlaqədar yaranmış pirlər.
2. Qədəmgah kimi yaranmış pirlər.
3. Şəhid məzarları ilə əlaqədar yaranmış ziyarətgahlar.
4. Mineral su, kükürdlü palçıq, dərmanlı bitki növləri olan yerlərdə yaranmış ziyarətgahlar **(Pirlərimiz..., 2001)**.

Azərbaycanın əksər yerlərində, o cümlədən Naxçıvan bölgəsində də bu bölgüyə daxil olan ziyarətgahlara bu və ya digər dərəcədə rast gəlmək mümkündür.

Qaynaqlar və apardığımız tədqiqatlar təsdiq edirlər ki, Azərbaycan və onun ərazisindəki müqəddəs yerlərin funksiyası təkcə ziyarət yeri – pir olmaqla məhdudlaşmamış, onlar həm də orta əsrlər zamanı ölkənin sosial-siyasi və ideoloji həyatında mühüm yeri olan mərkəzlər olmuşlar. Bu mərkəzlərin tarixindən aydın olur ki, onların əksəriyyəti ya birbaşa və yaxud da dolayısı ilə orta əsrlər zamanı bölgədə yayılan və fəaliyyət göstərən sufi təriqətləri, dərviş ordenləri ilə əlaqəli olmuşlar.

Vaxtilə ərazidəki ziyarətgahlar haqqında etnoqrafik məlumat toplayan rus alimi K.N.Smirnovun fikrincə Naxçıvan bölgəsində onların sayı 30-dan artıqdır **(Смирнов К., 1999, с. 105)**. Fikrimizcə, bu rəqəmi söyləyərkən alim ərazidəki nisbətən böyük ziyarətgahları nəzərdə tutmuşdur. Bu ziyarətgah-pirlərin içərisində Babək bölgəsindəki Əshabi-Kəhf, Naxçıvan şəhərindəki, Babək bölgəsinin Nehrəm kəndindəki, Şərur bölgəsinin Xanlıqlar (Parçı) kəndindəki imamzadələr, Ordubad bölgəsinin Nüsnüs kəndindəki pir, Culfa bölgəsinin Ərəfsə kəndindəki pir və başqaları xüsusi yer tutur.

Qeyd olunan və adları çəkilməyən ziyarətgah-pirlər orta əsrlər zamanı əhalinin ən çox toplaşdığı sosial-siyasi və ideoloji mərkəzlərdən olmuşlar. Əsasən payız fəslində, əkin-biçinin başa çatdığı, məhsulun yığılıb qurtardığı və asudə vaxtların yarandığı dövrdə əhali hissə-hissə, ailəliklə, tək-tək və ya

qrup halında bu müqəddəs yerlərə gəlmiş, qurban kəsmiş, nəzir vermiş, ibadət etmişlər. Bölgənin müxtəlif yerlərindən bu yerlərə ziyarətə gəlmiş çoxlu adamlar burada bir-biri ilə tanış olmuş, ünsiyyət yaratmış, dostlaşmış, aralarında möhkəm əlaqələr yaranmışdır. Bu ziyarətgahların arasında imam nəslindən olanların, din xadimlərinin, seyyidlərin və başqa görkəmli adamların qəbirləri mühüm yer tutur. Belə qəbirlərin bir qrupunun üzərində vaxtı ilə müxtəlif forma və ölçülü türbələr ucaldılmış, onlara hörmətlə yanaşılmış və xalq arasında "İmamzadə", "pir" adı ilə tanınmışdır.

Naxçıvan Muxtar Respublikası ərazisində islam dini ilə əlaqədar yaranmış ziyarətgahların içərisində "imamzadə"lər xüsusi yer tutur. Hazırda Naxçıvan bölgəsində "imamzadə" adı ilə tanınan üç ziyarətgah vardır: Babək rayonunun Nehrəm kəndindəki İmamzadə, Şərur rayonunun Xanlıqlar kəndindəki İmamzadə və Naxçıvan şəhərindəki İmamzadə. Yerli əhali tərəfindən birbaşa şiə imamlarının övladları ilə əlaqələndirilən bu qəbil ziyarətgahlar üzərində digər müqəddəs yerlərdən fərqli olaraq orta əsr sənətkarlarının əli ilə möhtəşəm tarix-memarlıq abidələri – türbələr ucaldılmışdır. Əsasən oxşar memarlıq-konstruktiv quruluşa malik olan bu abidələr ərazidəki digər ziyarətgah-pirlərdən fərqli olaraq "imamzadə" adlandırılırlar. Ərəbcə "imam", farsca "zadə" sözlərinin birləşməsindən əmələ gələn bu söz "imam övladı", "imam nəslindən olan" mənasını verir. El arasında yayılan fikirlərdən də göründüyü kimi, bu komplekslərdə olan qəbirlərdə uyuyan şəxslər şiə imamlarının övladları olmuşlar.

Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunmuşlar. Bu səbəbdən də onların övladları təqiblərdən yaxa qurtarmaq üçün qaçıb müxtəlif ölkələrə, o cümlədən Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinə pənah gətirmişlər. Məsələn, VII imam Museyi-Kazım hicri-qəməri təqvimilə 183-cü ildə (miladi təq-

vimilə 799-800-cü ildə) xəlifə Harun ər-Rəşid zamanında zəhərlənib öldürüldükdən sonra onun övladları təqib olunmuş və onlar canlarını qurtarmaq üçün didərgin düşüb müxtəlif yerlərə, o cümlədən Azərbaycana qaçmışlar. Onlar pənah gətirdikləri yerlərdə, o cümlədən Naxçıvanda yaşamış, vəfat etdikdən sonra orada da dəfn olunmuşlar. Sonradan onların qəbiri ziyarətgaha çevrilmişdir. Məhz bu səbəbdən də Azərbaycan ərazisində və ona yaxın yerlərdə, vaxtilə Azərbaycan torpaqları olan digər yaşayış məskənlərində və qonşu ölkələrdə olan bir sıra ziyarətgahlar da xalq tərəfindən imam Museyi-Kazımın övladları ilə əlaqələndirilir. Məsələn, Babək rayonunun Nehrəm kəndindəki imamzadə onun övladlarından Seyid Əqillə, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadə Seyid İbrahimlə, Ordubad rayonunun Düylün kəndindəki pir Seyid Səffanla (Səfi ilə), Azərbaycanın ən böyük ziyarətgahlarından olan Bibiheybət ziyarətgahı Hökümə xanımla, Bakı yaxınlığındakı Nardaran kəndindəki imamzadə Rəhimə xanımla, taleyi daim Naxçıvanla bağlı olan Mehri rayonundakı (indi Ermənistan Respublikasının tərkibindədir) Buğakar piri Seyid Əhmədlə, İran İslam Respublikasının Məşhəd şəhərindəki ziyarətgah İmam Rza ilə, Sofiyan qəsəbəsindəki ziyarətgah Seyid Qasımla əlaqələndirilir. Naxçıvan ərazisindəki imamzadələrdən bəhs edən rus alim-şərqşünası K.Smirnov Nehrəm və Xanlıqlar kəndlərini Naxçıvan ərazisinin şiə mərkəzləri kimi xarakterizə etmişdir.

Azərbaycan Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri öz məqsədlərini həyata keçirmək üçün islamın şiəlik məzhəbindən istifadə etdiklərindən idarə etdikləri ərazilərdə şiə imamları ilə bağlı olan ziyarətgahlara diqqətlə yanaşmış, onların üzərində gözəl memarlıq abidələri ucaltmışlar. Təsadüfi deyildir ki, Naxçıvan şəhərində, Babək bölgəsinin Nehrəm kəndində və Şərur bölgəsinin Xanlıqlar (Parçı) kəndindəki imamzadə binaları məhz Səfəvilər dövründə inşa edilmişlər.

Tədqiqatçılar təsdiq edirlər ki, orta əsrlər zamanı imamza-

dələrin funksiyası təkcə ziyarətgah-pir olmaqla məhdudlaşmamış, onlar həm də ərazidə fəaliyyət göstərən sufi təriqətləri üzvlərinin yığıncaq və ibadət yeri olmuşlar. Belə komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir.

İmamzadələrdə sufi təriqəti üzvlərinin yaşaması və fəaliyyət göstərməsini belə bir fakt da təsdiq edir ki, ərazimizdə XVII-XVIII yüzilliklərdə inşa olunmuş xanəgahlar yoxdur. Görünür yaşamaq və ideyalarını yaymaq üçün içərisində şiə imamları ilə bağlı qəbirlər olan imamzadələrdən istifadə edən dərvişlər xanəgahlar tikməyə ehtiyac duymamış, bu səbəbdən də XVII-XVIII yüzilliklərdə ərazimizdə xanəgahlar inşa edilməmişdir. Bunun əvəzində isə imamzadələr yanında dərviş-lərin yaşaması üçün təkyələr inşa edilmişdir. Zikr və ibadətlə-rini ziyarət obyekti olan qəbir yerləşmiş türbədə həyata keçirən təriqət mənsubları həmin təkyələrdə gecələmişlər.

# V. NAXÇIVAN ZİYARƏTGAHLARI

## Nehrəm imamzadəsi

Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək gəlib çatan məşhur ziyarətgahlardan biri Babək rayonunun Nehrəm kəndindəki “imamzadə”dir. Orta əsrlər dövründən əhali tərəfindən ziyarət edilən bu ziyarətgaha zəvvarlar keçən yüzillikdə, sovet hakimiyyəti illərində, hətta müqəddəs yerlərə gediş-gəlişin qadağan olunduğu dövrdə də gizli şəkildə olsa da getmiş, ziyarətlərini həyata keçirmişlər. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən bu müqəddəs yer türbə, məscid, təkyə və başqa yardımçı otaqlardan ibarət böyük bir kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir vardır. Qəbirin üstü iri sənduqə formalı düzəldilmiş, gəclə suvanmış, üstünə qara örtük salınmışdır. Ziyarətə gələn zəvvarlar həmin qəbiri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbirin üzərində onun kimə aid olmasını bildirən məzar kitabəsi yoxdur.

Ancaq kənd camaatı arasında yayılan fikrə görə bu qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Tarixdən məlumdur ki, ataları imam Museyi-Kazımın vəfatından sonra onun övladlarından bir neçəsi canlarını qurtarmaq üçün qaçıb Naxçıvan ərazisinə gəlmiş, orada yaşamışlar. Seyid Əqil isə həmin dövrdə Nehrəmə pənah aparmış, orada yaşamış, əhali arasında böyük hörmət və nüfuz qazanmışdır. Vəfat etdikdən sonra isə orada dəfn edilmiş, qəbiri yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Sonradan qəbirin üzərində türbə inşa edilmişdir. Gələn zəvvarların yerləşməsi, ibadət etməsi, gecələməsi, qurbanların və minik heyvanlarının saxlanması üçün türbənin yanında, ona bitişik məscid və başqa yardımçı otaqlar inşa edilmişdir.

Türbənin və kompleksə daxil olan digər otaqların heç birinin üzərində onların inşası haqqında məlumat verən kitabə

yoxdur.

İmamzadə kompleksi orta əsrlər zamanı ziyarətgah-pir olmaqla yanaşı, həm də sufi məskəni – xanəgah funksiyasını yerinə yetirmişdir. Burada hansı isə təriqətə, ehtimal ki, “Səfəviyyə” və “Bektaşiyyə” təriqətlərinə məxsus dərvişlər yaşamış və fəaliyyət göstərmişlər. Bu dərvişlər kompleksə daxil olan yardımçı otaqlarda yaşamış, buradan öz ideyalarını yaymış, qəbir olan türbədə isə ibadət etmişlər.

Kompleksə daxil olan otaqlardan biri təkyədir. Təkyə sufi yaşayış məskənlərinin adlarından biridir. Bu təkyədə İmamzadə kompleksinin əsasını təşkil edən türbədə dəfn edilən və şiə imamları ilə əlaqəli olduğu söylənilən mərhumun qəbirinə hörmət səbəbindəndir ki, şiəliklə sıx bağlı olan “Səfəviyyə” və “Bektaşiyyə” təriqətinə mənsub dərvişlər yaşamış və fəaliyyət göstərmişlər. Qeyd etmək lazımdır ki, bu dərvişlər hələ kompleks inşa edilməmişdən əvvəl də orada yaşamış, imamzadənin yerində olan dəfn tikililərində sakin olmuşlar.

Nehrəm kəndindəki bu türbə Naxçıvan imamzadəsi ilə bir dövrdə – Səfəvi şahı II Təhmasibin zamanında (1722-1732-ci illər) inşa edilmişdir. Keçən müddət ərzində təbii qüvvələrin təsirindən müəyyən aşınmalara məruz qaldığı üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə 2018-ci ildə İmamzadə kompleksində yüksək səviyyədə bərpa və təmir işləri aparılmışdır.

## Parçı (Xanlıqlar) imamzadəsi

Naxçıvan ərazisində orta əsrlər dövründən bəri yerli əhalinin hörmətlə yanaşdığı və böyük inamla ziyarət etdiyi məşhur ziyarətgahlardan biri də “Parçı imamzadəsi”dir. Parçı vaxtilə Şərur mahalında ayrıca kənd olub, Xanlıqlar kəndinin şimalında yerləşirmiş. XX yüzilliyin 20-30-cu illərinə aid ədəbiyyat materiallarında o, ayrıca kənd kimi qeyd edilir. Sonralar

Xanlıqlar və Parçı kəndləri genişlənmiş, bir-birinə birləşmişlər. Hazırda Parçı Xanlıqlar kəndinin bir hissəsinə çevrilmişdir.

Günbəzli böyük binadan ibarət olan "İmamzadə"nin mərkəzi salonunda bir qəbir vardır. Müstəqilliyin əvvəllərində bina kənd camaatı tərəfindən bərpa edilərkən qəbirin üstü də səliqəli düzəldilmiş, onun üzərinə yerli materiallardan hazırlanmış başdaşı və sinə daşı qoyulmuşdur. Ancaq onların üzərində heç bir yazı – kitabə yoxdur. Yaşlı adamların dediyinə və ədəbiyyat materiallarından məlum olduğuna görə vaxtı ilə qəbirin üzərində yazılı daş olmuş, ancaq məsuliyyətsiz və nadan adamlar onu məhv etmişlər. Hazırda qəbirin üzərində epitafiya – məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti haqqında tutarlı elmi fikir söyləmək mümkün deyildir.

Yerli əhali arasında da bu "imamzadə" haqqında dəqiq məlumat yoxdur. Kəndin əhalisi onu "Şahzadə İbrahim ibn Musa imamzadə"si adlandırır. "Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi, Naxçıvan Dövlət Tarix Muzeyinin yaradıcılarından olan Mirbağır Mirheydərzadənin Cəmiyyətin 1928-ci il 40 №-li protokoluna salınmış "Noraşen dairəsinə səyahət" adlı məruzəsində **(Mirheydərzadə M., 1989)**, "İşıqlı yol" qəzetində (31.11.1989, 19.06.1990) dərc edilən məqalələrdə, 1988-ci ildə buraxılan "Parçı imamzadə"si adlı bukletdə də abidə haqqında belə bir fikir söylənilir.

Adı çəkilən cəmiyyətin fəal üzvlərindən biri olan Məhəmməd Rasizadə 1930-cu ildə "Azərbaycanı öyrənmə yolu" məcmuəsinin 4-5-ci sayında "Şərur dairəsinə səyahət haqqında qeydlər" adlı məqalə nəşr etdirmişdir **(Rasizadə M., 1930, s. 81-82)**. Məzmunu təxminən M.Mirheydərzadənin məruzəsi ilə oxşar olan bu məqalədə Parçı kəndindəki "İmamzadə"dən də bəhs edilir. Müəllif yazır: "Bu kənddə (Parçı kəndində-H.S.) qədim nişanələrdən məşhur bir "İmamzadə" vardır, üstündə günbəzi və böyük həyəti vardır. Lövhəsində "İbrahim ibn Musa" qeyd edilmişdir. Şərur xanlığının içində buraya ziyarətə

gəlmək adətdir” **(Rasizadə M., 1930, s. 81)**.

Göründüyü kimi M.Rasizadə bu fikri “İmamzadə”nin lövhəsindəki kitabəyə əsasən söyləyir və burada M.Mirheydərzadənin və başqa müəlliflərin abidənin adında qeyd etdiyi “şahzadə” sözü yoxdur. Məlumdur ki, tarix-memarlıq abidələri, qəbirlər və s. haqqında ən düzgün məlumatları onların üzərindəki kitabələr verirlər. Ona görə də kitabəyə əsaslanan M.Rasizadənin məlumatını daha düzgün hesab etmək olar.

Bəs “İmamzadə”də dəfn olunan İbrahim ibn Musa (İbrahim Musa oğlu) kimdir? Abidənin yerli əhali tərəfindən “İmamzadə” adlandırılmasına əsasən aydın olur ki, o, şiə imamlarının övladlarından birinə mənsubdur. Şiələrin yeddinci imamının adı Museyi Kazımdır. Onun çoxlu övladları olmuşdur. Dini ədəbiyyatdan məlumdur ki, Museyi Kazımın oğlanlarından birinin adı İbrahim olmuşdur **(Fizuli M., 1993, s. 315)**.

Naxçıvan Muxtar Respublikası və Azərbaycanın bir sıra yerlərində olan ziyarətgahların şiə imamlarının övladları ilə əlaqəli olması baxımından mümkündür ki, Parçı “İmamzadə”sinin içərisində olan qəbir imam Museyi Kazımın oğlu İbrahimə məxsus olsun. Ehtimal ki, atası öldürüldükdən sonra İbrahim təqiblərdən yaxa qurtarmaq üçün qaçıb Şərur ərazisinə gəlmiş, orada yaşamışdır. Vəfat etdikdən sonra Parçı kəndində dəfn edilmiş, qəbiri ziyarətgaha çevrilmişdir. Sonralar isə onun qəbirinin üzərində türbə ucaldılmışdır.

Abidənin üzərində kitabə olmadığı üçün onun inşa tarixi haqqında dəqiq fikir demək mümkün deyildir. Ancaq memarlıq-konstruktiv əlamətlərinə görə onu XVI-XVII əsrlərə aid etmək olar.

Parçı imamzadəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə 2015-2016-cı illərdə yüksək səviyyədə bərpa olunmuşdur. Bərpa zamanı memarlıq quruluşu ilə diqqəti cəlb edən imamzadə kompleksinin tarixi görkəmi, orijinallığı və özünəməxsus memarlıq ünsürləri qorunub saxlanmışdır.

## Naxçıvan imamzadəsi

Naxçıvan Muxtar Respublikası ərazisində "imamzadə" adı ilə tanınan məşhur ziyarətgahlardan biri də Naxçıvan şəhərində, yerli əhali tərəfindən "imamzadə" adlandırılan memarlıq kompleksidir. Şəhərin cənub tərəfində yerləşən və əhalinin böyük ehtiram bəsləyərək ziyarətə gəldiyi bu kompleks üç binadan ibarətdir. Kompleksin özəyini cənub tərəfdə yerləşən türbə təşkil edir. Aşağıdan kvadrat şəklində inşa edilən abidənin yuxarı hissəsində, silindr şəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi rəngli kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv – "Allah" sözünü yaratmışdır.

Türbənin içərisində bir qəbir vardır. Qəbirin üstü sənduqə formasında (uzunluğu 150 sm, hündürlüyü 88 sm, eni 115 sm) düzəldilmiş, sementlə suvanmış, üstünə qara parçadan örtük salınmışdır. Şəhərin yaşlı əhalisinin söylədiyinə görə bu qəbirdə şiələrin VIII imamı Rzanın oğlu dəfn edilmişdir.

1926-cı ildə Naxçıvanda olan rus alimi V.M.Sısoyev muxtar respublikaya səfərinin yekunlarına həsr olunmuş elmi hesabatında bu imamzadədən danışarkən həmin qəbir haqqında da bəhs edir. Alim qeyd edir ki, deyilənə görə burada VIII imam Rzanın oğlu dəfn edilmişdir. Həmçinin alim yazır ki, həmin vaxt qəbirin üstündə mərmər lövhə üzərində ərəb dilində həkk edilmiş kitabə, yanında isə müqəddəs sayılan və dindarların öpdüyü iki ədəd iri, qara rəngli daş vardır. Yerli əhali bu daşları "hərəkət edən daşlar" adlandırır **(Сысоев В., 1929, с. 107)**. Qeyd etmək yerinə düşər ki, belə daşlara ərazidəki bəzi ziyarətgahlarda da rast gəlinir. Yerli əhali arasında olan inama görə bu daşlar hərəkət edir, gecələr qəbirin başına dolanırlar. Həmin daşların doğub çoxalması fikrini söyləyənlər də vardır.

Qəbirin üzərində məzar kitabəsi olmadığı üçün onun

mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq abidənin xalq tərəfindən "imamzadə" adlandırılmasından da göründüyü kimi qəbirdə dəfn edilən şəxs şiə imamları ilə əlaqəlidir. Görünür ki, Abbasilər xilafəti hakimlərinin təqibləri üzündən didərgin düşmüş imam övladlarından hansı isə biri Naxçıvana gələrək orada yaşamış, əhali arasında yüksək nüfuza malik olmuşdur. Vəfatından sonra orada da dəfn edilmişdir. Yerli əhali tərəfindən ziyarətgaha çevrilən həmin qəbirin üstündə sonralar türbə inşa edilmişdir.

Keçən yüzilliyin 20-ci illərində "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin göndərişi ilə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun yazdığına görə türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. O, kitabənin mətnini və bəzi səhvlərlə rus dilində tərcüməsini nəşr etdirmişdir **(Азимбеков И., 1929, с. 310-311)**. Kitabənin sonrakı taleyi məlum deyildir. İ.Əzimbəyovun təqdim etdiyi məlumata görə kitabənin mətninin tərcüməsi belə olmuşdur. "Bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir, ərəb və əcəmlərin hakimi, sultan Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr etmişdir".

Kitabədə tarix qeyd olunmamışdır. Ancaq orada qeyd olunan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən inşa ili dəqiq olmasa da abidənin tarixini təxmini müəyyənləşdirmək mümkündür. Kitabədə adı qeyd edilən Əbu Müzəffər şah Təhmasib Bahadur xan Səfəvi şahı Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Kitabədə abidənin onun zamanında tikilməsini qeyd edən xəttat bu vasitə ilə abidənin inşa tarixini çatdırmışdır. Deməli türbə XVIII əsrin 20-ci illərində inşa edilmişdir.

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası və diplomatı N.V.Xanıkov da türbəni Səfəvi şahı II Təhmasibin dövrünə aid edir **(Выдержки из..., 1862, с. 15)**. Yəqin ki, N.V.Xanıkov haqqında bəhs edilən kitabəni görmüş və bu fikri də ona əsasən söyləmişdir. İmamzadə kompleksi müstəqillik illərində bərpa olunarkən həmin kitabənin mətni İ.Əzimbəyovun məqaləsindən götürülərək daş lövhəyə həkk edilmiş və itib-batmış kitabənin yerinə qoyulmuşdur.

Bu türbəyə bitişik, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. V.M.Sısoyevin yazdığına görə kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin şəhadətinə görə burada Abbasqulu xanın hicri 1337-ci il tarixdə (1918-ci il) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbiri var imiş. Ancaq bu və orada olan digər qəbirlər zaman keçdikcə dağılmış və məhv olmuşlar.

Kompleksdən azca aralı, şimal tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpiclə inşa edilən bu türbə aşağıdan kvadrat şəkilli götürülərək üstü günbəzlə örtülmüşdür. Haqqında bəhs edilən abidələr ilə müqayisədə bu türbə nisbətən yaxşı vəziyyətdə qalmışdır. Ancaq onun içərisində heç bir qəbir və ya xatirə kitabəsi qalmamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə 2008-ci və 2017-ci illərdə İmamzadə kompleksində yüksək səviyyədə bərpa və təmir işləri aparılmışdır.

## Nüsnüs (Qırxkimsənə) piri

Naxçıvan Muxtar Respublikası ərazisində geniş miqyasda tanınan və bölgə əhalisi tərəfindən hörmətlə yad edilən ziyarətgahlardan biri Ordubad rayonunun Nüsnüs kəndindəki pirdir. Rayon mərkəzindən (Ordubad şəhəri) 7 km şimal-qərb tərəfdə, dağlar qoynunda yerləşən Nüsnüs kəndi ərazisinin bu

günə qədər gətirib çıxardığı çoxlu maddi mədəniyyət nümunələri – XIV-XVIII əsrlərə aid şirli və şirsiz saxsı nümunələri, şüşə qablar və s. kəndin orta əsrlər zamanındakı yüksək inkişaf səviyyəsindən xəbər verirlər.

Qədim nekropollar, yaşayış yerləri və s. ilə yanaşı, burada diqqəti cəlb edən tarix-memarlıq abidələrindən biri də orta əsrlər zamanı kəndin qərbində, nisbətən hündür ərazidə inşa edilmiş ziyarətgah binasıdır. Ziyarətgahın birinci mərtəbəsində muxtar respublikanın məşhur ocaqlarından biri – pir yerləşir. Bu pirə nəinki muxtar respublika ərazisində həmçinin onun sərhədlərindən kənarda da çox hörmətlə yanaşırlar. Binanın ikinci mərtəbəsi isə ziyarətə gələn zəvvarların ibadətlərini həyata keçirməsi üçün məscid kimi istifadə olunmaqdadır.

Azərbaycanın bir sıra yerlərindən, hətta Cənubi Azərbaycandan zəvvarlar gələn bu pirin nə üçün ziyarətgaha çevrilməsi haqqında dəqiq məlumat yoxdur. El arasında "qırx kimsənə" və ya "çeheltən" ("çeltərən", "çehiltənan") adlanan bu pir-məscid haqqında müxtəlif fikirlər vardır. Kənd ağsaqqallarının verdiyi məlumata görə bu pir Fironun zülmündən qaçmış qırx nəfərin  qeyb olduğu yerdir. Əhalinin fikrincə kəndin adı da bu hadisədən yaranmışdır: həmin qırx nəfəri xilas etmək üçün onları təqib edən adamlara yerli əhali farsca "nist", "nist" ("yoxdur") cavabını vermiş, buradan da kəndin adı yaranmışdır. Əvvəl "Nist-nist" şəklində tələffüz olunan bu söz sonralar "Nis-nis", nəhayət "Nüs-nüs" şəklinə düşmüşdür.

Rus alimi K.N.Smirnov Nüsnüs piri haqqında məlumat verərək yazır ki, monqolların hakimiyyəti dövründə Hülakü xan İsmaililərin xanəgahlarını dağıdaraq onları qırmaq haqqında əmr verdiyi üçün onlardan qırx nəfəri Nüsnüs kəndinə qaçmış və orada öldürülmüşlər **(Смирнов К., 1999, с. 73)**. Fikrimizcə, burada müəyyən yanlışlıqlar vardır. Tarixdən məlumdur ki, islamda İsmaili təriqəti VIII yüzilliyin ortalarında şiəliyin parçalanması ilə əlaqədar meydana gəlmişdir. Şiələrin əksəriy-

yəti altıncı İmam Cəfər əs-Sadiqin oğlu Museyi Kazım yeddinci imam kimi tanıyırdı. Sonralar onları "imami" və ya "on iki imamçı" adlandırmağa başladılar. Lakin şiələrin bir qismi Cəfər əs-Sadiqin böyük oğlu İsmayılı imamlığın varisi adına layiq bildi. Onun adından da yeni bir təriqət – İsmaililər yarandı **(İslam, 1985, s. 71)**. Əgər həqiqətən Nüsnüs kəndinə qaçıb və orada öldürülmüş qırx nəfər İsmaili təriqətinə mənsub adamlar olsa idi, əhalisi hazırda ancaq imamilərdən (on iki imamçılardan) ibarət olan Nüsnüs kəndi, Ordubad bölgəsi və bütövlükdə Naxçıvan bölgəsinin əhalisi İsmaililik təlimini küfr hesab etdiyindən onların qəbirini ziyrətgaha çevirməz və onu ziyarət etməzdilər.

Yerli əhali arasında pirin Dağ Yunus dövrünə, Əshabi-Kəhflə eyni tarixə aid olduğunu söyləyənlər də vardır. Əlimizdə bu fikirləri təsdiq və ya təkzib edəcək elə bir elmi fakt olmadığından bu haqda konkret söz söyləmək fikrindən uzağıq.

Pir-məscidin ortasında daşdan hündürlüyü təxminən 5 m olan bir sütun vardır. Rəvayətə görə, qırx nəfəri təqib edənlər sütunu bir neçə dəfə dağıtmış, ancaq o, yenidən qaynayıb qalxmışdır. Məsciddə ziyarət obyekti bu sütundur.

Birinci mərtəbədə yerləşən pirin giriş qapısı Ordubad ərazisində geniş yayılan və çox möhkəm materialı olan qoz ağacından hazırlanmışdır. Hündürlüyü 1,5, eni 1 metrdir. Qapı üzərində calaq və quraşdırma işi aparılmayan bütöv bir taxtadan ibarətdir. Qapı hazırlanarkən onun üstündə ərəb dilində doqquz sətirlik bir kitabə həkk edilmişdir.

Pir və onun qapısı üzərindəki kitabə XIX əsrin ortalarından tədqiqatçıların diqqətini cəlb etmiş, bu haqda müxtəlif fikirlər söylənmişdir. Bu kitabə haqqında ilk dəfə rus diplomatı və şərqşünası N.V.Xanıkov məlumat vermişdir. O, məscidin qapısı üzərindəki kitabəni oxumuş və fransız dilinə tərcümə edərək Parisdə nəşr etdirmişdir **(Выдержки..., 1862)**.

Seyid Səbri 1926-cı ilin 15 sentyabrında "Şərq qapısı"

qəzetində dərc etdirdiyi məqaləsində Ordubad bölgəsindəki digər tarix-memarlıq abidələri ilə yanaşı, bu pirdən də söhbət açır. O, yazır: "Ordubadın 5 verstliyində olan Nüsnüs kəndində "çeheltən" adlı bir pir vardır. Bu pirin cəviz ağacından bir qapısı vardır. Qapı cızma üsulu ilə yazılıbdır. Qapıda yazılanlar hicri tarixin 726-cı ilində və həmin binanın Azərbaycan Atabəylərinin vaxtında qayırıldığını göstərir"**(Səbri S., 1926)**. Müəllif kitabənin tarixini düzgün təyin etsə də, onun Azərbaycan Atabəyləri dövründə hazırlanmasını söylərkən yanlışlığa yol vermişdir. Məlumdur ki, Azərbaycan Atabəyləri dövləti 1136-1225-ci illərdə mövcud olmuşdur. Qapı isə 1326-cı ildə hazırlanmışdır. Bu isə Elxani hökmdarlarından Əbu Səidin zamanına (1316-1335-ci illər) təsadüf edir.

1926-cı ildə Nüsnüsdə olmuş rus alimi V.M.Sısoyev də bu kitabə haqqında məlumat verir. Ancaq o, pir-məscidi və onun kitabəsini şəxsən görməmiş, məlumatı verərkən N.V.Xanıkova əsaslanmışdır. V.M.Sısoyev bu haqda belə yazır: "N.Xanıkovda bu yerdən (Nüsnüsdən-H.S.) bir kitabə var. O, kitabəni Nasmus kənd məscidinin kitabəsi adlandırır. Yəqin ki, bu Nüsnüsdəndir. Çünki bu yerlərdə oxşar adlı digər kənd yoxdur" **(Сысоев В., 1928, с. 152)**. V.M.Sısoyev kitabənin mətnini N.Xanıkovdan götürərək İ.Əzimbəyovun rus dilinə tərcüməsi ilə birlikdə özünün Naxçıvana ezamiyyətinə dair hazırladığı elmi hesabata daxil etmişdir **(Сысоев В., 1928, с. 152-153)**. Sonralar qəzet və jurnallarda nəşr edilmiş müxtəlif məqalələrdə də bu pirdən və onun kitabəsindən bəhs edilmişdir **(Крачковская В., 1948; Nemətova M., 1975, s. 30; Salehov B., 1990)**.

Ərəb dilində süls xətti ilə yazılmış kitabəni AMEA-nın müxbir üzvü M.Nemət də oxumuşdur: "Peyğəmbər – ona salam olsun! – dedi: Məscidlər Yerlə Allahın əlaqəsidir (Allahın evləridir). Onlar yer sakinlərinə göylərin işığını bəxş edən ulduzlara bənzəyirlər. Allah! Allahdan başqa Allah yoxdur! Məhəmməd Allahın elçisidir! Bu məscid islam padşahı Əbu Səid

Bahadur xanın səltənəti – Allah onun hakimiyyətini əbədi etsin – dövründə uca tanrının rəhmətinə möhtac, zəif qul, katib, Atabəyin candarı Sədr bin Sarim bin Səncər bin Aytəkinin əli ilə bina edilmişdir. Çərşənbə axşamı, 4 ramazan, yeddi yüz iyirmi altıncı ildə (04.08.1326-cı il) yazıldı, mübarək oldu. Allah o kəslərin günahlarını bağışlayır ki, zəif bəndələrə xeyir duası və fatihə ilə kömək edir. Amin! Əbu Bəkr, Ömər, Osman, Əli – Allah onlardan razı olsun" **(Неймат М., 2001, с. 63)**.

Kitabədən aydın olduğuna görə pir-məscid Elxanilərin sonuncu hökmdarlarından Əbu Səid Bahadur xanın zamanında (1316-1335-ci illər) inşa edilmişdir. Kitabədə adı qeyd edilən Əbu Səid Bahadur xan Ulcaytu Xudabəndənin oğludur. Atasının vəfatından sonra hicri 716-cı ildə (1316-cı il) taxta çıxan Əbu Səid gənc yaşlarında böyük hərbi müvəffəqiyyətlər əldə etdiyi üçün "Bahadur" ləqəbi almışdı. Əmir Çobanı övladı ilə birlikdə qətlə yetirdiyi üçün arvadı – Əmir Çobanın qızı Bağdad xatın tərəfindən zəhərlənərək hicri 736-cı (1335-ci il) ildə öldürülmüşdü. Bundan sonra ölkədə hərc-mərclik başlanmış, 8 il ərzində Azərbaycanda səkkiz hökmdar hakimiyyətə gəlmişdi. Ancaq onların heç biri dövləti dağılmaqdan xilas edə bilməmiş, Hülakülər səltənəti Azərbaycanda sona çatmışdı **(Бакиханов А., 1991, с. 75-76; Zeynaloğlu C., 1992, s. 36)**.

Kitabə pir-məscidin inşa tarixi haqqında dəqiq məlumat verməklə, bir sıra tarixi şəxsiyyətlərin adını da özündə əks etdirir. Məscidin Əbu səid Bahadur xanın səltənəti dövründə inşa edilməsinin kitabədə xüsusi vurğulanması göstərir ki, Naxçıvan ərazisi Hülakülər dövlətinin son dövrlərində də həmin dövlətin tərkibində olmuşdur.

Təəssüf ki, kitabədə pirin mahiyyəti haqqında heç bir fikir söylənməmişdir. Pir-məscidin həyətində sadə quruluşlu bir məzar vardır. Üzərində kitabə olmadığı üçün onun mənsubiyyətini və pirlə nə dərəcədə əlaqəli olması haqqında fikir yürütmək çətindir. Ehtimal ki, qəbirdə uyuyan şəxs ziyarətgahın

mücavirlərindən olmuşdur.

1992-1993-cü illərdə pir-məscid kənd camaatının təşəbbüsü və vəsaiti ilə təmir edilmişdir. Həmin vaxt ikinci mərtəbədə yerləşən məscidin divarlarına rənglə Quran ayələri və dini xarakterli kəlamlar yazılmış, müqəddəs yerlərin şəkilləri çəkilmişdir.

Məscidin kənd həyatında rolu böyükdür. Qeyd olunduğu kimi buraya nəinki Ordubad bölgəsindən, həmçinin Naxçıvan ərazisinin başqa yerlərindən də ziyarətə gəlir, əsasən payız vaxtları burada toplanırlar. Müxtəlif yerlərdən ziyarətə gələn adamlar burada nəzir verir, qurban kəsir, ehsan verir, bir süfrə arxasında çörək yeyirlər. Beləliklə, müxtəlif bölgələrdən gəlmiş adamlar burada tanış olur, onların arasında ünsiyyət yaranır. Ziyarətə gələn zəvvarların verdiyi nəzirlərlə bir sıra xeyriyyə işləri görülür. Həmin vəsaitlə pirin təmirə, avadanlığa olan ehtiyacı ödənilir, ehtiyacı olan ailələrə yardım edilir və s. Kəndin mərkəzində yerləşən orta əsrlərə aid məscid binası məhz pirdə toplanan vəsait hesabına bərpa edilmişdir.

## Dərə piri

“Dərə piri” Ordubad rayonunun ucqar dağ kəndlərindən olan Nüsnüs kəndinin şimal tərəfində yerləşir. Yerləşdiyi coğrafi mövqeyə görə “Dərə piri” adlandırılan bu ziyarətgah dördkünc, uzunsov binadan ibarətdir. Daşdan inşa olunmuş pir binasında ziyarət obyekti bir qəbirdir. Qəbirin mənsubiyyəti aydınlaşdırılmamışdır. Qəbirin üstündə epiqrafik sənəd – kitabə olmasa da, giriş qapısının künclərində ilk xəlifələrin (Əbubəkr, Ömər, Osman, Əli) adları yazılmışdır.

Pir haqqında əhalinin fikirlərini, ətrafdan əldə olunan arxeoloji materiallar və qapının üzərində həkk edilən şəxs adlarının yazıldığı xəttin xüsusiyyətlərini nəzərə alaraq ziyarətgahın tarixini təxminən XIV-XV əsrlərə aid etmək olar.

# Düylün piri

Naxçıvan bölgəsində əhalinin hörmət və ehtiramla ziyarət etdiyi ziyarətgahlardan biri də Düylün piridir. Bu pir Ordubad şəhərindən təxminən 20 km qərb tərəfdə yerləşən Düylün kəndinin cənubunda yerləşir. Ətrafı geniş qəbiristanlıq olan pirin binası çiy kərpicdən inşa edilmişdir. Binanın içərisində ziyarət obyekti olan qəbir vardır. Qəbirin üstü təxminən 20 sm hündürlükdə hörülmüş və palçıqla suvanmışdır. Üstündə heç bir yazılı abidə yoxdur. Qəbirin üzərində kitabə olmadığı üçün onun mənsubiyyətini aydınlaşdırmaq mümkün olmamışdır. Ancaq el arasında olan fikirlərə görə bu pirdə şiələrin VII imamı Museyi Kazımın övladlarından Seyyid Şəffan (Səfi) dəfn olunmuşdur. Ehtimal etmək olar ki, ataları Museyi Kazımın zəhərlənib öldürülməsindən sonra canlarını qurtarmaq üçün müxtəlif yerlərə qaçan övladlarından biri olan Seyyid Şəffan (Səfi) bu əraziyə gəlmiş və orada yaşamışdır. Öldükdən sonra isə orada dəfn edilmiş və qəbiri ziyarətgaha çevrilmişdir. Müsəlman dünyasının əksər yerlərində, xüsusilə şiələrin yayıldığı ərazilərdə müqəddəs şəxsiyyətlərin qəbirləri yanında dəfn olunmaq təqdir olunduğundan və böyük şərəf sayıldığından onun da qəbirinin ətrafında sonralar dəfn mərasimləri keçirilmiş və böyük bir qəbiristanlıq əmələ gəlmişdir.

Qəbiristanlıqda indiyədək qalan sənduqə, daş qoç və qoyun, başdaşı formalı qəbirüstü xatirə abidələrinin bir hissəsi zaman keçdikcə təbii qüvvələrin təsirindən aşınaraq məhv olmuş, bir hissəsi isə nisbətən salamat qalmışdır. Bu abidələr üzərindəki məzar kitabələrinin tarixlərindən aydın olur ki, pir ən geci XIV əsrin ortalarından məşhurlaşmağa başlamış və oraya ziyarətə gəlmişlər. Bütün orta əsrlər boyu davam edən bu ənənə indiyədək qalmışdır. Hazırda bu müqəddəs yerə nəinki ətraf kəndlərin, hətta muxtar respublikanın digər rayonlarının da əhalisi ziyarətə gəlir.

## Alməmməd (Ərməmməd) piri

Naxçıvan Muxtar Respublikası ərazisində tanınmış ziyarətgahlardan biri də Alməmməd (Ərməmməd) piridir. Özünəməxsus şöhrətə malik olan bu pir Culfa rayonunun Camaldın kəndindən təxminən 4-5 km şərq tərəfdə, yüksək dağın qərb ətəyində yerləşir. Ətrafı böyük ağaclarla əhatə olunmuş pir böyük bir binadan ibarətdir. Binanın girişi şimal tərəfdəndir. Giriş qapısının sol tərəfində  qəbir vardır. Binanın içərisində, cənub tərəfdə başqa  bir qəbir vardır. Burada əsas ziyarət obyekti həmin qəbirdir. Ziyarətə gələn zəvvarlar pirə girərkən əvvəl qapının ağzındakı qəbiri, sonra isə içəridəki ziyarət obyekti olan əsas qəbiri ziyarət edirlər. Qəbirlərin heç birinin üzərində yazılı abidə – epiqrafik sənəd yoxdur. Ona görə də bu qəbirlərin mənsubiyyəti, dövrləri, pirin mahiyyəti haqqında tutarlı elmi fikir söyləmək çətindir.

Ancaq yerli əhali arasında pir haqqında müəyyən fikirlər, rəvayətlər vardır. Yaşlı adamların söylədiyinə görə ziyarətgah el arasında "Alməmməd piri" və ya "Ərməmməd piri" adlanır. Onların dediyinə görə Zəngəzurda (indiki Ermənistan Respublikasının Sisyan rayonu) yaşayan Səfəralı adlı adama yuxuda deyirlər ki, Əlincəçay sahilində filan yerə get, orada müqəddəs bir qəbir var, onu tap və ona qulluq elə. Həmin adam gəlib çox axtarsa da qəbiri tapa bilmir. İkinci dəfə yenə yuxu görür. Bu dəfə ona kəndin adını da deyirlər. Bu dəfə Səfəralı kişi gəlib həmin qəbiri tapır, onun ətrafını səliqəyə salır, üzərində bina tikir və orada yaşayaraq qəbirə qulluq etməyə başlayır. Bundan sonra həmin qəbir ziyarətgaha çevrilir, oraya zəvvarlar gəlməyə başlayır.

Əslən sünni məzhəbində olan Səfəralı kişi sonralar şiə məzhəbini qəbul edir, şiələrin üçüncü imamı Hüseynin şəhid olub dəfn edildiyi Kərbəla şəhərinə ziyarətə gedir və Kərbəlayi olur. Öldükdən sonra Kərbəlayi Səfəralı vəsiyyətinə əsasən qa-

pının ağzında dəfn olunur. Ziyarətgaha gələnlər isə hörmət əlaməti olaraq onun da qəbirini ziyarət edirlər.

Ancaq ziyarətgahın əsasını təşkil edən içəridəki qəbir haqqında elmi əsaslara söykənən məlumat əldə edə bilmədik. Onu sadəcə olaraq imamlarla, imam övladları ilə, seyyidlərlə və s. əlaqələndirirlər. Yerli əhali arasında olan bir fikrə görə pirdə ziyarət olunan qəbir Alməmməd adlı adama məxsusdur. Sonsuz olan Alməmməd Allaha niyyət edir ki, onun qoyunları əkiz doğarlarsa, erkəklərini kəsib kasıblara ehsan verəcəkdir. Ancaq qoyunlar əkiz doğsalar da Alməmməd kişi sözünə əməl etmir. Ona görə də onun bütün heyvanları yağan leysan yağışından məhv olur, iki qoyun və bir qoç salamat qalır. Bundan sonra Alməmməd kişiyə yuxuda deyirlər ki, sən verdiyin sözü unutmusan. Alməmməd kişi bundan sonra tövbə edir, salamat qalan qoçu kəsib yoxsullara paylayır. Vəfat etdikdən sonra o öz evində dəfn edilir. Sonralar onun qəbiri ziyarətgaha çevrilir **(Bağırov F., 2008, s. 102-103)**. Bu qəbirin ziyarət edilməsi ənənəyə çevrilir və bu ənənə indi də davam etməkdədir. Mənsubiyyəti dəqiq məlum olmasa da bu pir Naxçıvan ərazisində kifayət qədər şöhrətə malikdir. Orada olarkən biz pirə müxtəlif kəndlərdən ziyarətə gələnlərin  şahidi olduq.

Pirin məxsus olduğu Camaldın kəndinin şərq tərəfində yerləşən qəbiristanlıqda bu günə qədər qalan və yüksək sənətkarlıqla hazırlanan daş qoç və qoyun fiquru, sənduqə tipli qəbirüstü xatirə abidələri göstərir ki, kənd orta əsrlər zamanı Əlincəçay mahalının inkişaf etmiş yaşayış məskənlərindən olmuşdur. Qəbiristanlıqda tədqiq edilmiş sənətkarlıq baxımından gözəl hazırlanmış bir ədəd sənduqə tipli xatirə abidəsi bədii daşyonma sənəti nümunəsi kimi diqqəti cəlb edir. Ərazisində indiyədək belə gözəl abidələr qalan Camaldın kəndinin yaxınlığında yerləşən Alməmməd piri orta əsrlərdə müxtəlif bölgələrdən gələn adamların toplanış, ibadət və ziyarət yeri olmuşdur.

Qeyd olunduğu kimi, bu ziyarətgah Camaldın kəndinin

qərbində, yüksək dağın ətəyində yerləşir. Məlumdur ki, orta əsrlərdə bir sıra sufi təriqətlərinə mənsub olan adamlar insanlardan kənar yerlərdə, xüsusilə dağlarda, dağ oyuqlarında, mağaralarda məskən salır, orada tərki-dünya həyat keçirirdilər. Bu ziyarətgahın da ən yaxın yaşayış məskənindən 4-5 km aralı bir yerdə, dağın ətəyində yerləşməsi onun sufilərə məxsus bir mərkəz olması fikrini ortaya qoyur. Fikrimizcə, burada hansı isə sufi təriqətinə mənsub dərvişlər yaşamış və fəaliyyət göstərmişdir. Pirin içərisində ziyarət olunan qəbir isə ehtimal ki, burada fəaliyyət göstərən xanəgahın rəhbər şeyxinin qəbiridir.

## Pirmaşa piri

Pirmaşa piri də Culfa rayonunun Camaldın kəndindədir. Əvvəllər möhrədən inşa edilmiş kiçik bir tikilidən ibarət olan pir binası müstəqillik illərində bərpa olunmuş, bişmiş kərpicdən altı üzlü prizma formalı bir türbə yaradılmışdır. Türbənin içərisində mənsubiyyəti məlum olmayan qəbir vardır. Qəbirin ətrafında keçirilən dəfnlər hesabına orada qəbiristanlıq yaranmışdır.

Pirin tarixini XV-XVI əsrlərə aid etmək olar.

## Azadkənd piri

Naxçıvan Muxtar Respublikası ərazisində orta əsrlər zamanında olduğu kimi indi də əhali tərəfindən böyük hörmət və ehtiramla ziyarət edilən ziyarətgahlardan biri də Azadkənd piridir. Tədqiqatlarımıza əsasən deyə bilərik ki, bu pir də orta əsrlər zamanı Naxçıvan bölgəsində geniş yayılan və fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərlə əlaqədar yaranmışdır. Bu pir Ordubad rayonunun Aşağı Aza (indiki Azadkənd) kəndində yerləşir. Kəndin şərq tərəfində yerləşən pir kiçik bir tikilidən və içəridəki ziyarət obyekti olan qəbirdən ibarətdir. Buraya gələn zəvvarlar həmin qəbiri ziyarət edirlər. Qəbirin üzərindəki bina memarlıq baxımından heç bir əhəmiyyət kəsb etməsə də, pir Ordubad mahalında

özünəməxsus şöhrətə malikdir. Buraya yarandığı vaxtdan nəinki yaxın kəndlərdən, həmçinin uzaq yaşayış məskənlərindən də ziyarətə gəlmişlər. Bu ənənə indi də davam edir.

1926-1927-ci illərdə Ordubadda olan rus alimi V.M.Sısoyev Aşağı Aza (Azadkənd) kəndinə də səfər etmiş və yaşayış məskəni haqqında dəyərli məlumatlar vermişdir. O, kənddə olarkən haqqında bəhs olunan piri də görmüş, elmi hesabatında ondan da bəhs etmişdir. Alim pir haqqında yazır ki, Aşağı Aza kəndində çox da böyük olmayan, ancaq çox hörmətə malik pir-türbə (ölçüsü: 5x3,5x3 m) vardır. İçəridə üzərində ərəb kitabəsi həkk olunmuş daş qoyulan müqəddəs qəbir vardır. Qəbirin yaxınlığında 5 ədəd qara rəngli "müqəddəs" daş vardır **(Сысоев В.,1928, с. 196)**.

Qeyd etmək lazımdır ki, haqqında V.M.Sısoyevin bəhs etdiyi bu qara daşlar indi də qalır. Xalq arasında belə bir inam vardır ki, bu daşlar gecələr hərəkət edir, qəbirin ətrafında fırlanır və balalayaraq çoxalırlar. Ziyarətə gələn zəvvarlar bu daşlara da çox hörmət və ehtiramla yanaşırlar. Buna oxşar vəziyyətə Naxçıvan şəhər imamzadəsində də rast gəlinir.

Pirdə ziyarət obyekti olan qəbirin üstündə böyük həcmli (ölçüsü: 227x66x8 sm) sinədaşı qoyulmuşdur. Ağ mərmərdən hazırlanmış bu sinədaşının mərkəzində enli haşiyə ilə yuxarıdan çatmatağla tamamlanan çərçivə düzəldilmiş və onun içərisində 5 sətirdə ərəb dilində süls elementli nəsx xətti ilə kitabə həkk edilmişdir. Kitabəni vaxtı ilə İ.Əzimbəyov **(Азимбеков И.,1929, с. 307)**, M.S.Nemətova **(Nemət M., 1992, s. 42)** və A.A.Xaçatryan **(Хачатрян А., 1987, с. 117)** tədqiq etmişdir. Sonuncu kitabəni şəxsən görməmiş, mətni V.M.Sısoyevin hesabatlarına daxil edilmiş İ.Əzimbəyovun məqaləsindən götürərək özünəməxsus "düzəlişlərlə" (İ.Əzimbəyovun məqaləsində kitabənin fotosu yoxdur-H.S.) kitabına daxil etmişdir.

Əvvəli Qurani-Kərimin "ər-Rəhman" surəsinin 26-27-ci ayələri ilə başlanan kitabənin mətnindən aydın olur ki, əbədi

pərvərdigar olan Allahın yaxınlığına möhtac, mərhum, xoşbəxt, mömin, rəhmətlik, əzəmətli Mövlana Şəmsəddin Məhəmməd səkkiz yüz doxsan ikinci il zilhiccə ayında (18.11-17.12.1487-ci il) fani dünyadan əbədi dünyaya köçmüşdür **(Nemət M., 1992, s. 42; Неймат М., 2001, с. 65-66)**.

XV əsrə aid olan bu abidə, xüsusilə orada qeyd olunan titullar göstərir ki, Şəmsəddin Məhəmməd dövrünün görkəmli şəxsiyyəti kimi zəmanəsinin sosial-siyasi və mədəni-ideoloji həyatında mühüm nüfuz sahibi olmuşdur. Onun adına əlavə edilən "Mövlana" titulu orta əsrlər zamanı alimlərə, şairlərə, görkəmli din xadimlərinə verilirdi. Bəzi dünyəvi hakimlərə də aid edilən bu tituldan sufi təriqətlərinin başçılarına və şeyxlərinə müraciət zamanı geniş istifadə olunurdu. Bütün bunlara əsasən deyə bilərik ki, Şəmsəddin Məhəmməd zəmanəsinin görkəmli ruhani alimi, sufi şeyxi olmuş, əhali arasında böyük nüfuz qazanmışdır. Ona görə də öldükdən sonra qəbiri ziyarətgaha çevrilmişdir.

Görkəmli alim M.Nemətin fikrincə kitabədəki "əzəmətli mövlana", "mömin" ləqəbləri Şəmsəddin Məhəmmədin görkəmli ruhani alim, qəbirinin indi ziyarətgaha çevrilməsi isə vaxtilə xalq arasında böyük nüfuza malik olmasından xəbər verir. Onun məzarının yaxınlığında fəxri dəfnlərin keçirilməsi bir daha sübut edir ki, ticarət yolu üzərində yerləşmiş ictimai-iqtisadi-siyasi və mədəni mərkəzlərdən biri həmin pirin yerində olmuşdur **(Nemətova M., 1990-1, s. 3)**.

Pirdən azca aralı, şərq tərəfdə böyük bir qəbiristanlıq vardır. Təxminən 2 hektar sahəni əhatə edən bu qəbiristanlıqda orta əsrlər dövrünə aid çoxlu sənduqə, başdaşı, qoç və qoyun heykəli tipli qəbirüstü xatirə abidələri qalmışdır. Bu abidələrin üzərində qalan kitabələrin verdiyi məlumatlara əsasən orta əsr Azad şəhərinin yerləşdiyi ərazi müəyyənləşdirilmişdir. Tədqiq olunan bu epiqrafik abidələr və orta əsr qaynaqları təsdiq edirlər ki, pirin yerləşdiyi Azadkənd – orta əsr Azad şəhəri nəinki kiçik bir ərazinin, bütövlükdə Naxçıvan bölgəsinin və Azərbaycanın sosial-

siyasi, ticarət-iqtisadi həyatında mühüm yeri olan bir yaşayış məskəni olmuşdur. Şübhəsiz ki, orta əsrlər zamanı Azad şəhərinin – indiki Azadkəndin sosial-siyasi və mədəni-ideoloji həyatında haqqında bəhs olunan pirin də özünəməxsus yeri olmuşdur.

## Ərəfsə piri

Naxçıvan Muxtar Respublikasının Culfa bölgəsində orta əsrlər zamanı olduğu kimi indi də fəaliyyət göstərən müqəddəs yerlərdən biri də el arasında "Ərəfsə piri" adı ilə tanınan ziyarətgahdır. Naxçıvan Muxtar Respublikası əhalisi arasında kifayət qədər nüfuza malik olan bu pir rayon mərkəzindən 65 km şimalda, dağlıq və ucqar bir ərazidə yerləşən Ərəfsə kəndindədir. Bu pir muxtar respublikada çox məşhurdur və böyük şöhrət qazanmışdır.

Pir Ərəfsə kəndinin şimalında, Əlincəçayın sol sahilində təpə üzərində yerləşir. İki böyük otaq, cənub və şərq tərəfə balkonları olan bir tikilidən ibarət olan bina memarlıq baxımından çox da diqqətəlayiq deyildir. Burada əsas ziyarət obyekti nisbətən böyük ölçüyə malik mərkəzi otaqda olan qəbirlərdir. Əslində burada neçə nəfərin dəfn olunmasını təyin etmək mümkün deyil. Çünki qəbirlərin üzərində bir ədəd də olsun başdaşı və ya başqa yadigar xatirə abidəsi yoxdur.

Yaşlı adamların söylədiyinə görə nə vaxtsa buraya üç nəfər ərəb gəlib orada məskən salıb yaşamışlar, Sonradan burada kənd meydana gəlmişdir. Onlar öldükdən sonra isə yanaşı dəfn edilmişlər və qəbirləri ziyarətgaha çevrilmişdir. Yerli əhali elə kəndin adının da onlarla əlaqəli, "ərəb" və farsca "sə" (üç) sözlərinin birləşməsi ilə "üç ərəb" mənasında olduğu fikrini irəli sürürlər. Kəndin adının bu şəkildə izahının elmi əsası yoxdur. Fikrimizcə, yaşayış məskəninin adı qədim türk tayfalarından biri, Azərbaycanın sosial-siyasi, mədəni və hərbi həyatında mühüm rol oynayan Kəngərli tayfasının bir qolu olan Ərəfsaklılarla əlaqədar yaranmışdır **(Шопен И., 1852, с.538).**

Kənd çox ucqar olduğundan və əvvəllər gediş-gəliş çətin

olduğundan buraya tədqiqatçılar çox az gəlmiş və Ərəfsə kəndinin digər maddi mədəniyyət nümunələri tədqiq edilmədiyi kimi bu pir də diqqətdən kənarda qalmışdır. M.Mirheydərzadə pir haqqında kiçik bir fikir söyləmişdir. O, yazmışdır ki, Ərəfsə kəndində təpənin üstündə "Seyyid Hüseyn piri" adlı bir pir vardır **(Mirheydərzadə M., 1930, s. 78)**. M.Mirheydərzadə bu fikri yazarkən ehtimal ki, yerli əhalidən aldığı məlumatlara söykənmişdir. Çünki Ərəfsə kəndinin əhalisi arasında belə bir fikir vardır ki, pirdə ziyarət olunan qəbirlərdən biri Seyyid Hüseynin, o biriləri isə onun oğlanlarının məzarlarıdır. Onların fikrincə, Seyyid Hüseyn kəndə Cənubi Azərbaycandan gəlmişdir (bax: "Göynük piri" məqaləsinə). 1934-cü ildə Naxçıvanda tarixi-etnoqrafik tədqiqat aparan rus alim-şərqşünası K.N.Smirnov bu pir haqqında qeyd edir ki, Ərəfsə kəndində "Pir Seyyid Hüseyn" ziyarətgahı vardır. Alimin akademik Əziz Mirəhmədov tərəfindən çapa hazırlanan əsərinin iki yerində xatırlanan bu pirin adında "Pir" sözü titul kimi adın əvvəlində qeyd olunmuşdur **(Смирнов К.,1999, с. 104, 110)**. Təsəvvüfdə ən yüksək məqam olan bu titula əsasən pirin yerində əvvəllər sufi təriqətlərindən birinə mənsub xanəgahın olmasını ehtimal etmək olar.

XX yüzilliyin 70-ci illərinin sonlarında biz pirdə olarkən orada qəbirlərin üstünə atılıb qalmış üç ədəd kiçik mərmər parçası aşkar etdik. Üzərində kitabə olan bu daşlar eyni başdaşının müxtəlif hissələri idi. Həmin daşların üzərində gözəl süls xətti ilə həkk edilmiş kitabədə "alim", "şeyx" sözləri aydınca oxunurdu. Təəssüf ki, bizim oraya sonrakı səfərimiz zamanı (80-ci illərin ortaları) həmin daşlar yerində qalmamış, itib yox olmuşdular.

Mərmər parçalarında qeyd edilən və orta əsrlər zamanı sufi şeyxlərinə, təriqət başçılarına verilən "şeyx" və "alim" titulları, həmçinin K.N.Smirnovun məlumatlarında ziyarətgahın "Pir Seyyid Hüseyn" adlandırılması pirin yerində keçmişdə xanəgah olması fikrini gücləndirir. Pir Seyyid Hüseyn isə yəqin ki, bu xanəgahın rəhbər şeyxlərindən olmuş, öldükdən sonra

orada dəfn edilmişdir. Qəbiri isə müridləri və əhali tərəfindən ziyarətgaha çevrilmişdir.

Ziyarətgahın Zəngəzur bölgəsindən Naxçıvan ərazisinə gələn ticarət-karvan və köç yolunun, həmçinin Culfa bölgəsinin Xanağa kəndindəki xanəgahla eyni xətt üstündə yerləşməsi faktı da onun vaxtilə xanəgah olması fikrini möhkəmləndirir. Görünür, vaxtilə sufi mərkəzi olan və şeyxinin – pirinin qəbiri hesabına ziyarətgaha çevrilən bu xanəgah zaman keçdikcə unudulmuş, adamların yaddaşında pir kimi qalmışdır.

Pirin yaranma tarixini XVI əsrə aid etmək olar.

## Göynük piri

Naxçıvan Muxtar Respublikası ərazisində yerli xarakter daşıyan ziyarətgahlardan biri də Göynük piridir. Bu pir Babək rayonunun Göynük kəndində (kənd Azərbaycan Respublikası Milli Məclisinin 28 noyabr 2014-cü il tarixli qərarı ilə Culfa rayonundan alınaraq inzibati cəhətdən Babək rayonuna verilmişdir) yerləşir. Kəndin şimal tərəfində yerləşən pir el arasında "Seyyid Həsən piri" adlandırılır. Pirin binası dağ daşından hörülmüş kiçik bir tikilidən ibarətdir. Pirdə ziyarət obyekti bu tikilinin içərisindəki qəbirdir. Əsasən Göynük kəndinin əhalisi tərəfindən ziyarət edilən bu qəbirin üstündə epiqrafik abidə olmadığı üçün onun kimə məxsus olduğunu aydınlaşdırmaq mümkün olmamışdır. Ancaq əhalinin fikrincə bu qəbirdə Seyyid Həsən adlı müqəddəs şəxsiyyət dəfn olunmuşdur. Onların dediyinə görə Cənubi Azərbaycandan Naxçıvandakı Əshabi-Kəhfə ziyarətə gəlmiş Seyyid Hüseyn və Seyyid Həsən adlı qardaşlar təbiətini xoşladıqları üçün Naxçıvanda qalmış, Seyyid Hüseyn Culfa bölgəsinin Ərəfsə (bax: "Ərəfsə piri" məqaləsinə), Seyyid Həsən isə Göynük kəndində məskunlaşmışlar. Onlar bu kəndlərdə yaşamış, islam ehkamlarını təbliğ etmiş, əhali arasında böyük nüfuz qazanmışlar. Bu səbəbdən də öldükdən sonra dəfn olunduqları qəbirlər ziyarətgaha çev-

rilmişdir.

Göynük pirinin yaranma tarixini Ərəfsə piri ilə eyni dövrə, XVI əsrə aid etmək olar.

## Əmin xəlifə piri

Naxçıvan Muxtar Respublikası ərazisindəki ziyarətgahlardan biri də Şərur bölgəsinin Yengicə kəndindəki "Əmin xəlifə" adlı pirdir. Pirin yerləşdiyi Yengicə kəndi 1728-ci ildə tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə belə xatırlanır: "Qazançılı kəndi. Kəndin başqa adı Yengicədir. Gəlir 3000 ağca" **(İrəvan əyaləti…, 1996, s. 37)**. Pirdə və ətrafında heç bir epiqrafik sənəd qalmadığı üçün onun mahiyyəti haqqında əsaslı fikir söyləmək mümkün deyildir. Əhali tərəfindən hörmətlə ziyarət edilən bu pirin mənşəyi haqqında sakinlər arasında da dəqiq məlumat yoxdur. İndiyədək tədqiqatçıların diqqətindən kənarda qalan bu pir barədə "Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin ("Naxçıvani tədqiq edən və öyrənən cəmiyyət"in) elmi katibi M.Mirheydərzadə özünün Şərur dairəsinə ezamiyyətinin nəticələrinə aid hazırladığı və Cəmiyyətin 1928-ci il tarixli 40 saylı protokoluna daxil edildiyi məruzəsində qısa məlumat vermişdir: "Yengicə kəndində asari-ətiqədən sayılan "Əmin xəlifə" adlı bir pir vardır. Bunun kim olub və nə zamandan qaldığı bəlli edilməmişdir" **(Mirheydərzadə M., 1989)**. Bu məlumat adı çəkilən Cəmiyyətin üzvü M.Rasizadənin 1930-cu ildə nəşr etdirdiyi məqaləsində də cüzi fərqlə öz əksini tapmışdır. M.Rasizadə ziyarətgah haqqında yazır: "Şərur dairəsi Yenicə (Yengicə-H.S.) kəndində əski əsərlərdən yalnız bir pir vardır ki, xalq arasında ona "Əmin xəlifə" namı verilir. Məqbərənin lövhəsi olmadığından hələlik geniş məlumat əldə edilməmişdir" **(Rasizadə M., 1930, s. 81)**.

Göründüyü kimi M.Mirheydərzadə və M.Rasizadə pir haqqında əsaslı fikir söyləməmişlər. Fikrimizcə, pirin adına

əsaslanaraq onun mənşəyi haqqında müəyyən fikir söyləmək olar. Pirin adı (Əmin xəlifə) iki hissədən – "Əmin" şəxs adından və "xəlifə" titulundan ibarətdir. "Xəlifə" orta əsrlərdə sufi təriqəti rəhbərlərinə, xanəgah başçılarına verilən bir titul olmuşdur. Daşıdığı "xəlifə" titulu Əmin xəlifənin vaxtilə bu ərazidə fəaliyyət göstərən xanəgahın rəhbəri və ya üzvü olduğunu göstərir. Görünür, Əmin xəlifə orta əsrlərdə Yengicə kəndində fəaliyyət göstərən sufiliklə bağlı mərkəzə rəhbərlik etmiş, böyük hörmət və nüfuz sahibi olmuşdur. Ona görə də öldükdən sonra onun dəfn edildiyi qəbir ziyarətgaha çevrilmiş və mərhumun adı ilə "Əmin xəlifə" piri adlandırılmışdır.

Orta əsrlər zamanı Yengicə kəndində kənar yerlərdən gəlmiş tacirlərin alver etməsi üçün çarşıbazarın və digər möhtəşəm abidələrin, o cümlədən məscidin, hamamın, buzxananın və s. olması kəndin keçmişdə inkişaf etmiş yaşayış məskənlərindən biri olduğunu təsdiq edir. Belə inkişaf etmiş yerdə xanəgahın fəaliyyət göstərməsi təbii idi.

## Şeyx Xorasan piri

Orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən ziyarətgah-pirlərin içərisində Culfa bölgəsinin Xanəgah kəndində bu günə qədər nisbətən salamat vəziyyətdə gəlib çatmış xanəgahın özünəməxsus yeri olmuşdur. Adını ərazidə fəaliyyət göstərən sufiliklə bağlı mərkəzdən götürərək, bu səbəbdən də qaynaqlarda "Xanəgah" kimi xatırlanan **(Naxçıvan sancağı..., 1997, s. 26, 79)** bu kəndin ərazisində indiyədək orta əsrlər dövrünə aid bir neçə qəbiristanlıq, memarlıq abidələri, çoxlu epiqrafik sənədlər – müsəlman kitabələri gəlib çatmışdır. Bu abidələr arasında Əlincəçayın sol sahilində, kənddən təxminən 1 km aralı, şimal-şərq tərəfdə yerləşən xanəgah kompleksi xüsusi yer tutur.

Mühüm ticarət yollarının keçdiyi Culfa ərazisində,

Əlincəçay sahilində inşa edilən xanəgah uzun müddət fəaliyyət göstərmişdir. Orta əsrlər dövründə əhalinin müxtəlif təbəqələri arasında böyük təsirə malik olan bu xanəgah Naxçıvandakı digər xanəgahlarla yanaşı, böyük şöhrət qazanmış, şərq ölkələrində mövcud olan iri xanəgahlarla bir sırada durmuşdur. Azərbaycanda sufizm bayrağı altında xarici işğalçılara qarşı baş vermiş xalq hərəkatlarının tarixinə nəzər saldıqda aydın olur ki, bu xanəgah xarici müdaxiləçilərə, o cümlədən monqol işğalçıları və Teymurilərə qarşı baş vermiş mübarizələrdə mühüm mövqe tutmuşdur **(Nemətova M., 1990-2, № 5, s. 17)**.

Hazırda yerli və ətraf kəndlərin əhalisi tərəfindən hörmətlə ziyarət edilən xanəgah kompleksi son yüzillikdə baxımsız qaldığından bir sıra binalar məhv olmuş, bəzi tikintilər yarımuçuq vəziyyətə düşmüşdü. Sovet hakimiyyəti illərində aparılan bərpa işləri isə tələsik və keyfiyyətsiz yerinə yetirildiyindən burada əsaslı bərpa işlərinə böyük ehtiyac var idi. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və himayəsi ilə xanəgah son illərdə yenidən əsaslı şəkildə bərpa edilmişdir. Bərpa zamanı xanəgah-pirdə oraya gələn turistlər və zəvvarlar üçün lazımi şərait yaradılmış, abidəyə gedən yola asfalt örtük salınmışdır.

Kompleksdən zəmanəmizədək ancaq türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Kompleksdə vaxitilə çoxlu kitabələr olmuş, ancaq zaman keçdikcə onların müəyyən hissəsi məhv olmuş, bu günədək bir neçəsi gəlib çatmışdır. Burada qeydə alınan ən qədim kitabə kompleksin əsasını təşkil edən türbənin cənub tərəfdən olan giriş qapısının baş tərəfində qoyulan kitabədir. Səkkiz sətirdə nəsx xətti ilə ərəb dilində həkk edilən kitabənin mətninin tərcüməsi belədir: "Bu müqəddəs, mübarək türbənin tikilməsinə öz xüsusi malı hesabına əmir, isfəhsalar (baş komandan-H.S.), hörmətli, qüdrətli, böyük alim, adil, dinin və dövlətin xoşbəxtliyi, islam və müsəlmanların gözəlliyi, hökmdarların və sultanların qılıncı, hər iki

müqəddəs yerin (Məkkə və Mədinə şəhərləri-H.S.) şöhrəti, Həccə gedən zəvvarın və iki müqəddəs, mübarək məkanın dayağı Uluğ Qutluğ Lələ bəy–Allah onun kölgəsini əsirgəməsin – əmr etdi. Bu imarətin memarı hörmətli və alicənab Xacə Cəmaləddindir…” **(Неймат М., 2001, с. 60-61)**.

Kitabənin axırıncı sətri tamamilə ovulub töküldüyü üçün, tarixlər isə adətən mətnin sonunda yazıldığından onun tarixini dəqiq müəyyən etmək mümkün deyildir. Bəzi tədqiqatçılar türbəni memarlıq-konstruktiv formasına əsasən XII-XIII əsrlərə aid edirlər.

Kitabədə türbəni tikdirən şəxsin adına əlavə edilən titullar göstərir ki, o yüksək vəzifə sahibi (baş komandan) və böyük alim olmuşdur. Lakin türbənin kimin şərəfinə inşa edildiyi kitabədə qeyd olunmamışdır. Bu cəhət elm aləminə qaranlıq olduğu kimi onun haqqında konkret fikir yürütmək də mümkün deyildir.

Türbənin içərisində, cənub divarda, giriş qapısının sağ və sol tərəflərində 2 ədəd mehrab vardır. Sütun, tağ, haşiyə və s. memarlıq ünsürləri ilə zəngin olan mehrabların üstü Quran ayələri, dini xarakterli kəlamlar və ornamentlərlə gözəl bəzədilmişdir.

Türbənin içərisində bir qəbir vardır. Üstündə mənsubiyyətini bildirən kitabə olmadığı üçün qəbirin haqqında sanballı elmi fikir söyləmək mümkün deyildir. Qəbirdə kimin dəfn edilməsi haqda əlimizdə dəyərli elmi-tarixi fakt olmasa da yerli əhali arasında belə bir fikir vardır ki, həmin qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan Hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəimi dəfn edilmişdir.

Bir sıra orta əsr müəllifləri və müasir tədqiqatçılar F.Nəiminin 1394-cü ildə Teymurun oğlu Miranşah tərəfindən Naxçıvanda və ya Əlincədə qətlə yetirilməsini birmənalı şəkildə təsdiq edirlər **(Musəvi T., 1969; Rəhimov Ə., 1975, s. 92; Сеидзаде А.,1947, с. 282)**. Bu fikri Azərbaycan ədəbiyyatının

gözəl bilicisi, Cənubi azərbaycanlı alim Məhəmmədəli Tərbiyyət də təsdiq edir **(Tərbiyyət M., 1987, s. 246)**.

Xanəgah yerli əhali arasında sadəcə olaraq “Şıx” və ya bütövlükdə “Şeyx Xorasan” adlanır. Bu haqda abidəni tədqiq edən bir çox tədqiqatçılar da öz əsərlərində məlumat vermişlər. Abidəni 1930-cu ildə tədqiq edən M.Mirheydərzadə isə onun adını “Şeyx Mələk Xorasanı” kimi qeyd edir **(Mirheydərzadə M., 1930, s. 79)**. Bəzi tədqiqatçılar bu sözün əslində “Şeyx Xurasa” (“Günəşə oxşar”, “Nurani Şeyx”) olduğunu və F.Nəiminin ləqəblərindən olduğu fikrini irəli sürürlər **(Ciddi H., Seyfəddini M., 1984)**.

Fikrimizcə, “Şeyx Xorasan” sözünü F.Nəiminin anadan olduğu və təhsil aldığı yerin adı ilə izah etmək olar. Orta əsr qaynaqlarında F.Nəiminin Təbriz, Şiraz, Astrabad və Məşhəddə doğulduğu haqqında fikirlər vardır. Görünür, F.Nəimi hələ erkən vaxtlardan sufizmin mərkəzinə çevrilmiş Xorasan vilayətinin Məşhəd şəhərində anadan olmuş və ya orada təhsil alaraq kamilləşmiş, sufizm ideyalarını mənimsəmiş və öz ideyalarını yaymaq üçün Azərbaycana gəlmişdir. Teymurilər tərəfindən təqib olunduğundan Naxçıvana qaçmış, orada Miranşah tərəfindən tutularaq Əlincədə edam edilmişdir. Tərəfdarları isə onun cənazəsini Əlincəqalanın yaxınlığında dəfn edərək qəbirini ziyarətgaha çevirmişlər. Yerli əhali isə qəbiri onun gəldiyi yerin adı ilə “Xorasanlı Şeyxin qəbiri”, “Xorasandan gəlmiş Şeyxin qəbiri” kimi tanımışdır. Sonralar isə bu ad dəyişilərək “Şeyx Xorasan” şəklinə düşmüşdür.

Məşhur alim, Azərbaycan MEA-nın müxbir üzvü M.Nemətin 2001-ci ildə nəşr etdirdiyi “Корпус эпиграфических памятников Азербайджана” kitabının III cildində üç ədəd mərmər kitabə parçaları haqqında məlumata rast gəlirik. Alim yazır ki, bu kitabə parçaları vaxtilə filoloji elmlər namizədi Ə.Hüseyni tərəfindən Əlincəqala ətrafında qeydə alınmışdır. Mərhum Ə.Hüseyni bu kitabə parçalarının hürufilik təlimi-

nin banisi F.Nəimiyə məxsus başdaşının parçaları olması fikrində olmuşdur. Sonralar Bakı şəhər tarix-memarlıq abidələrinin bərpası və mühafizəsi idarəsinin əməkdaşları bu kitabə parçalarının fotosunu tarix elmləri doktoru M.Nemətə təqdim etmiş, o isə həmin kitabələri oxuyaraq nəşr etdirmişdir **(Неймат М., 2001, с. 66)**.

Kitabə bütöv olmadığı və bir hissəsi itdiyi üçün onun mətnini tam oxumaq mümkün olmamışdır. Süls xətti ilə ərəb dilində həkk edilmiş kitabənin qalan hissəsinin mətni belədir: "Hər kəs ölümü dadacaqdır! (Qurani-Kərim XXIX – 57). Bu bağça mərhum, günahları bağışlanmış, kamil və fəzilət sahibi alim, təriqət yolu ilə gedənlərə ("salik əl-məsalik") doğru, aşkar yol göstərən, dinin Günəşi (Şəms əd-Din), padşah… – Allah onun qəbirini nurlandırsın – çərşənbə axşamı günündə öldü…" **(Неймат М., 2001, с. 66)**.

Kitabənin tarixi qalmamışdır. Mətndə mərhumun adına əlavə edilən və sufi təriqəti başçılarına, xanəgah rəhbərlərinə verilən "Şeyx" titulu, həmçinin, kitabədə qeyd olunan "təriqət yolu ilə gedənlərə (salik əl-məsalik) doğru, aşkar yol göstərən" sözləri mərhumun görkəmli sufi şeyxi olduğunu söyləməyə əsas verir. Heç də hər bir təriqət başçısının bu mərtəbəyə yüksələ bilməməsini, eyni zamanda qaynaqların da təsdiq etdiyi kimi F.Nəiminin çoxlu ardıcılı – müridi olduğunu nəzərə alsaq, başdaşının mərhum Ə.Hüseyninin ehtimal etdiyi kimi F.Nəimiyə aid olması fikrindən yayınmaq olmur.

Xanəgah kompleksində müstəqillik illərində aparılan bərpa işləri zamanı bu qəbir səliqəli şəkildə bərpa olunmuş və əvvəldə haqqında bəhs etdiyimiz üç ədəd kitabə parçası Bakı şəhərindən gətirilərək başdaşı şəklində qəbirin üstündə qoyulmuşdur. Həmçinin, qəbirin üstünə qoyulan sinədaşının üstündə belə bir kitabə yazılmışdır: "Şeyx Fəzlullah Nəimi. 1338-1394".

Xanəgah kompleksinə daxil olan türbə-məscidin mehrabının baş tərəfində iri həcmli daşa həkk edilmiş kitabə vardır (kitabə

son bərpa zamanı yerindən götürülərək xanəgah kompleksinə qərbdən giriş qapısının baş tərəfinə qoyulmuşdur). Ərəb dilində iki sətirdə incə və gözəl xətlə həkk edilmiş kitabənin mətni belədir: "Bu məqbərə mükəmməl, kamil, fəzilət sahibi alim, şeyx, hacıların və hər iki müqəddəs yerin (Məkkə və Mədinə) iftixarı, xalqlar içərisindəki tayfaların mürşidi, Allahı tanıyanların şeyxi Hacı Lələ Məlikindir. Tikinti kəramətli, əzəmətli xatın Həvva Bədr Bikə xatının – onun isməti artıq olsun – səyi ilə doqquz yüz birinci ildə (21.9.1495 – 8.9.1496-cı il) tamam oldu" **(Неймат М., 2001, с. 70; Сафаров Ф.,1987, с. 118)**.

T.e.n. Ə.Ələsgərzadə kitabəni tədqiq edərkən türbəni tikdirən qadının adını oxuya bilmədiyi üçün yerini boş qoymuş və onu nöqtələr ilə əvəz etmişdir **(Алескерзаде А.,1947, с. 381)**.

Bu qadının adı ətrafında alimlərin müxtəlif fikirləri vardır. T.e.n. S.Kərimzadə həmin qadının adını "Bədir Həvva Biki xatın" kimi oxumuşdur **(Kərimzadə S. 1980, s. 39)**. T.e.n. A.A.Xaçatryan isə kitabənin orijinalını görmədiyi üçün onun haqqında danışarkən ciddi səhvlərə yol vermişdir. O, kitabənin oxunuşunu Ə.Ələsgərzadədən götürmüş (Ə.Ələsgərzadə öz tədqiqatında kitabələrin fotosunu və ya qrafik təsvirlərini verməmiş, oxunuşunu verməklə kifayətlənmişdir), ona öz bildiyi şəkildə "düzəlişlər" etmişdir. Əvvələn o, Ə.Ələsgərzadənin oxunuşundakı nöqtələri atmış və ad yazılan hissəni "Xatun, [чистейшей из] xatun" kimi tərcümə etmişdir. Sonra müəllif birinci türbənin kitabəsində adı qeyd edilən əmir, isfəhsələr Uluğ Qutluğ Lələ bəy ilə ikinci türbənin kitabəsində adı çəkilən Şeyx Hacı Lələ Məliyi eyni adam kimi qəbul edir və xatirəsinə ikinci türbənin inşa edildiyi adamın adının mətndə necə yazılmasından xəbərsiz olduğu üçün onu birinci türbənin kitabəsinə əsasən "təshih" edir və adın yazılışını Lələ bəyin adı ilə eyniləşdirərək Ə.Ələsgərzadənin "səhvini düzəldir" **(Хачатрян А.,1987, с. 78)**.

Qaynaqlar təsdiq edirlər ki, orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən sufi təriqətlərinə rəhbərlik edən

adamlar içərisində sufilikdə ən yüksək məqama çatmış şəxsiyyətlər də olmuşdur. Belə şəxsiyyətlərdən biri kitabədə adı xatırlanan Şeyx Hacı Lələ Məlikdir. Kitabədə adına əlavə edilən titullar təsdiq edirlər ki, Şeyx Hacı Lələ Məlik sufiliklə ən yüksək məqama yüksəlmiş, bir müddət Əlincəçay sahilindəki xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbər-şeyxi olmuş, onlar vasitəsilə mənsub olduğu təriqətin ideyalarını yaymışdır.

Təriqət başçıları, xanəgah rəhbərləri olan şeyxlər ailə üzvləri ilə birlikdə xanəgah komplekslərinə daxil olan xüsusi yerlərdə yaşamışlar. Bu faktı əsas götürərək ehtimal etmək olar ki, ölümündən sonra onun xatirəsinə belə möhtəşəm bir türbə-məscid inşa etdirən Həvva Bədr Bikə xatın Şeyx Hacı Lələ Məliyin arvadı olmuş və onunla birlikdə xanəgahda yaşamışdır. Həvva Bədr Bikə xatın öldükdən sonra xanəgahın şərq divarının yanında dəfn olunmuşdur. Onun xatirəsinə hazırlanmış sənduqə tipli qəbirüstü abidə zaman keçdikcə torpağın altında qalmış və keçən yüzilliyin sonlarında xanəgah ətrafında abadlıq-bərpa işləri aparılarkən aşkar olunmuşdur. Həmin qəbirüstü xatirə abidəsi üzərindəki kitabə ilk dəfə tərəfimizdən tədqiq olunmuş və elmi dövriyyəyə daxil edilmişdir **(Сафаров Ф., 1987, с. 44-45; Səfərli H., 2013, s. 63)**.

Mehrabın kitabəsinə və bu kitabənin məlumatlarına əsasən ehtimal etmək olar ki, xanəgahın şeyxlərindən və orada fəaliyyət göstərən sufi cəmiyyətinin rəhbərlərindən olan Şeyx Hacı Lələ Məlik ailəsi ilə birlikdə xanəgahda yaşamışdır. O, arvadından tez, hicri 901-ci (1495-1496-cı illər) ildə vəfat etmiş, arvadı Həvva Bədr Bikə xatın isə onun xatirəsinə əzəmətli abidə tikdirmişdir və bu haqda mehrabın kitabəsində məlumat verilmişdir. Deməli kitabədə qeyd edilən ildə – XV əsrin sonlarında Həvva Bədr Bikə xatın sağ imiş. O, ərindən sonra da xanəgahda yaşamış, vəfat etdikdən sonra isə hörmət əlaməti olaraq orada dəfn olunmuşdur.

Şeyx Hacı Lələ Məlik kimi məşhur bir sufi şeyxinin ar-

vadı olan Həvva Bədr Bikə xatın əsil-nəcabətli ailədən çıxmış, Qazı Məcd əd-Din adlı bir şəriət hakiminin qızı olmuşdur.

Yekun olaraq deyə bilərik ki, Xanəgah kəndinin və ətraf kəndlərin əhalisi Xanəgah kompleksinə daxil olan və Hürufilik təliminin banisi Fəzlullah Nəimiyə aid edilən bu qəbiri orta əsrlər dövründə olduğu kimi indi də hörmət və ehtiramla ziyarət edir.

## Pir Ömər Naxçıvani ziyarətgahı

Bütün Azərbaycan ərazisində olduğu kimi Naxçıvan bölgəsində də mövcud olan müqəddəs yerlərdən bir qismi orta əsrlər zamanı ərazidə fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub sufi şeyxlərinin qəbiri ilə əlaqədar yaranmış ziyarətgahlardır. Belə ziyarətgahlardan biri də Naxçıvan şəhərindəki Pir Ömər Naxçıvani ziyarətgahıdır. Bu ziyarətgah Naxçıvan şəhərinin Sarvanlar məhəlləsinə daxil olan İslam Səfərli küçəsindəki 24 nömrəli evin həyətindədir. Burada ziyarət obyekti romb formalı iri daş parçasından ibarətdir. Ancaq məhəllə sakinlərinin dediklərinə görə əvvəllər burada sərdabə, sərdabədə isə məzar olmuşdur. Bu məzar isə Naxçıvanda sovet hakimiyyətinin qurulmasınadək ziyarətgah olmuşdur. Deyilənə görə pirdə ziyarət obyekti olan qəbirdə dəfn olunan şəxsin hörməti xatirinə burada keçirilən dəfnlər hesabına ziyarətgahın ətrafında qəbiristanlıq yaranmış və orada məscid də inşa olunmuşdur. Ancaq sovet hakimiyyətinin ilk illərində Azərbaycanın digər yerlərində olduğu kimi burada da ziyarətgah dağıdılmış və xalqa unutdurulmuşdur. Buna baxmayaraq əhali həmin ziyarətgahı gizli də olsa ziyarət etmiş, indi də məhdud çərçivədə olsa da ziyarət etməkdədir.

Daşıdığı "Pir" titulu göstərir ki, Ömər Naxçıvani sufi şeyxi olmuşdur. Sufilikdə "Pir" səviyyəsinə yüksəlməsi onun çox böyük şəxsiyyət, sufi şeyxi olduğunu göstərir. Fikrimizcə, Pir Ömər Naxçıvaninin bu ərazidə xanəgahı olmuş, o xanəgahda ətra-

fina müridlər toplamış, mənsub olduğu təriqətin ideyalarını onlara mənimsətmiş və onlar vasitəsi ilə yaymışdır. Xanəgahda yaşadığı orta əsrlər zamanı isə adətən sufi şeyxləri öz xanəgahlarında və ya xanəgahları yanında dəfn olunduqları üçün o vəfat etdikdən sonra öz xanəgahında dəfn olunmuşdur. Müridləri, həmçinin əhali arasında böyük hörmət və nüfuz sahibi olduğundan onun qəbiri müridləri və əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Bu adət ənənə şəklini alaraq indiyə qədər gəlib çatmışdır.

Pir Ömər Naxçıvani XI əsrdə Naxçıvanda fəaliyyət göstərmiş "Qələndəriyyə" sufi təriqətinə məxsus dərvişlərə rəhbərlik etmiş, onların şeyxi olmuş Əbu Ömər Naxçıvani ilə eyni adamdır. Şeyx Əbu Səid Əbül-Xeyr Xorasaninin davamçılarından olmuş Əbu Ömər Naxçıvani Əlincəçay sahilindəki xanəgaha rəhbərlik etmişdir **(Nemət M., 2010, s. 90)**.

Bizə qədər gəlib çatmış orta əsr mənbələrində bu ziyarətgah haqqında qısa şəkildə olsa da məlumata rast gəlirik. Orta əsr tarixçisi və coğrafiyaşünası Həmdullah Qəzvininin oğlu Zeynəddinin Azərbaycanda 1341-1392-ci illərdə baş verən hadisələrdən bəhs edən "Zeyl-e tarix-e qozide" ("Seçilmiş tarix"ə əlavə) əsərində bu ziyarətgahın adı xatırlanır. Azərbaycanda, İranda və İraqda qeyd olunan 50 ildən bir az artıq zaman çərçivəsində baş verən hadisələrdən bəhs edən müəllif əsərdə arabir Naxçıvanın da adını çəkir, fraqment şəklində olsa da müəyyən məlumatlar verir. Tarixçinin verdiyi məlumata görə, Cəlairi Şeyx Üveysin oğlanları, Cəlairi şahzadələri Sultan Əhmədlə (Qiyasəddin Əhmədlə) Şeyx Əlinin arasında hakimiyyət uğrunda mübarizədə baş verən hadisələr zamanı Naxçıvan şəhərində Pir Ömər Naxçıvaninin ziyarətgahı qarət olunmuşdur **(Zeynəddin..., 1990, s. 45-46)**.

Məlum olduğu kimi orta əsrlər zamanı ziyarətgahların çoxlu vəqfləri, mülkləri, malı, əmlakı, hətta qızıl-gümüş zinət əşyaları olurdu. Əgər həmin hadisələr zamanı Pir Ömər Naxçıvani ziyarətgahı qarət olunmalı çoxlu sərvətə malik olmuşdur-

sa, bu vəziyyət Naxçıvan şəhərinin yüksək inkişaf səviyyəsindən, əhalisinin isə firavan yaşayışından xəbər verən əlamət kimi qiymətləndirilə bilər.

## Pir Yaqub xanəgah-piri

Naxçıvan şəhərindəki ziyarətgahlardan biri də Pir Yaqub xanəgah-piridir. Buxanəgah-pir Naxçıvan şəhərinin mərkəzində yerləşməsinə baxmayaraq uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Pir Yaqub xanəgahı XX yüzilliyin 30-cu illərində K.N.Smirnovun diqqətini cəlb etmiş və alim onun haqqında yazmışdır ki, Möminə xatın türbəsinin yaxınlığında Pir Yaqubun qəbiri vardır. Bu sitayiş yeri olan unudulmuş qəbir hansı isə bir dərvişə məxsusdur **(Смирнов К.,1999, с. 100)**. Adı başqa mənbələrdən məlum olmayan Pir Yaqub orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət göstərən hansı isə sufi təriqətinə mənsub xanəgahın rəhbər şeyxi olmuşdur.

Məlum olduğu kimi Naxçıvanda fəaliyyət göstərən sufi dərviş qruplarından biri də nöqtəvilər olmuşlar. Naxçıvan bölgəsinin bir sıra yerlərində yaşayan nöqtəvilər XIX yüzilliyin ikinci yarısı-XX yüzilliyin əvvəllərindən etibarən Avropa xasiyyəti kəsb etməyə və özlərini frank-masonlar və ya Naxçıvanda deyildiyi kimi “Farmasiyon”lar adlandırmağa başlamışlar **(Смирнов К.,1999, с.79)**.

Naxçıvanda farmasiyonluqdan bəhs edərkən professor H.Həşimli qeyd edir ki, bir fikir cərəyanı olmaq etibarilə farmasiyonluq daha çox şərq zəminində təşəkkül tapmış, kökü XVI əsrə gedib çıxan Nöqtəvilik təriqəti ilə bağlı olmuşdur. Farmasiyonların ideya-fəlsəfi qaynaqları sırasında məzdəkilik və xürrəmiliyin də bəzi izləri müşahidə edilməkdədir. XIX əsrin sonları-XX əsrin əvvəllərində Naxçıvanda yayılan farmasiyonluq təriqətinin nümayəndələri məişət və davranışda müasir-

lərindən seçilirdilər. …Yeniliyin alovlu təbliğatçısı olub, köhnəliyə, cəhalətə qarşı mübarizə aparan farmasiyonlar Avropasayaq geyinir, dünyəvi mədəniyyətin qabaqcıl nailiyyətlərindən faydalanmağa can atırdılar. Onlar bir çox mətləbləri zarafat, gülüş donunda əks etdirirdilər **(Həşimli H., 1996, s. 122-123)**.

Rus alimi K.N.Smirnov yazır ki, üzvləri əsas etibarilə eyş-işrətə həvəsli olan, özünəməxsusluğu ilə fərqlənən Naxçıvan farmasiyonları xan evinin yaxınlığındakı müqəddəs Pir Yaqubun məqbərəsini özləri üçün yığıncaq yeri seçmişlər. Burada özlərinin müqəddəs mürşidlərinin dəfn olunduğunu bilsələr də nə üçünsə bu sitayiş yeri Naxçıvan sərxoşlarını və tiryək çəkənlərini cəlb etmişdir **(Смирнов К.,1999, с. 79)**.

Həqiqətən də şərq zəminində təşəkkül tapan və Nöqtəvilik sufi təriqətindən qaynaqlanan Naxçıvan farmasiyonlarının əhalinin hörmət və ehtiram bəslədiyi, ziyarət etdiyi Pir Yaqub məqbərəsinə şərab içmək və tiryək çəkmək üçün toplanmaları təəccüb doğurur.

Qeyd etmək lazımdır ki, bəzi sufi təriqətlərinə mənsub olan dərvişlər şərabdan istifadə etmişlər. Məsələn, "bir quyuya bir damla murdar bir şey düşərsə və o quyunun suyunu çəkib kənara töksələr, həmin yerdə bitən otu bir qoyun yeyərsə, o qoyunun əti haramdır" – deyən, ömrü boyu ağzına bir damla içki almayan Hacı Bektaş Vəlinin yaratdığı "Bektaşiyyə" təriqətinin üzvlərindən bir qrupu içkidən istifadə etmişdir **(Kaya H., 1996, s. 490-495)**.

"Bektaşiyyə" təriqətinin Naxçıvan bölgəsində geniş yayılması faktına əsasən "Pir Yaqub" xanəgahının vaxtilə Bektaşilərin içkiyə meyilli qrupuna mənsub dərvişlərə məxsus olması fikrindən yan keçmək olmur. Görünür, burada yaşayan dərviş qrupu özlərinin içkiyə olan münasibətlərini ardıcıllarına miras buraxmış və bu adət XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində də davam etmişdir.

Artıq bu zaman Naxçıvan şəhərində formalaşan və is-

lam şəriətinin bir sıra ehkamlarına qarşı çıxaraq, şəxsiyyət azadlığını və sərbəst düşüncəni hər şeydən üstün tutaraq… bəzi məqamlarda ifrat ateizmə qapılaraq dünyagörüşlərinin məhdudluğu ucbatından müəyyən səhv hərəkətlərə yol verərək **(Həşimli H., 1996, s. 122-123)** içkidən istifadə edən Naxçıvan farmasiyonları da məhz bu səbəbdən həmin yeri özləri üçün məskən seçmişlər.

Burada bir cəhətə diqqəti cəlb etmək istərdik. Türk alimi A.Gürkanın fikrincə müsəlman ölkələrində yaradılan mason lojaları islam dini əleyhinə fəaliyyət göstərmək, ona zərbə vurmaq məqsədini daşıyırdı və müsəlmanlıq əleyhinə aparılan işlər xristian missionerlərin yaratdığı mason lojalarının təşviq və yardımlarıyla idarə edilirdi **(Gürkan A., s. 16)**. Görkəmli dövlət xadimi və sərkərdə Kazım Qarabəkir paşa "Müsəlmançılığın qarşılaşdığı təhlükələrdən Masonluq" adlı məqaləsində bu haqda yazır ki, XVII əsrdən bəri Masonluğun məqsədi və Masonluq təşkilatı tamamilə dəyişmişdi. Buna səbəb mütərəqqi dövlətlərin müstəmləkəçilik siyasətinə atılmış olmaları idi. Müəyyən əraziləri işğal edə bilmək üçün onlar masonluğun elmi və insani göstərilən şüarını bir maska olaraq istifadə etməyi faydalı hesab etmişdilər **(Gürkan A., s. 22)**.

Əvvəldə söylədiyimiz fikirləri qəbul etməklə yanaşı bu fikri də əsas tutaraq deyə bilərik ki, Naxçıvan formasiyonlarının fəaliyyətində ateizm, islama qarşı mübarizə də əsas yer tutmuş, müqəddəs Pir Yaqubun məqbərəsinin onlar tərəfindən yığıncaq yeri seçilməsi heç də təsadüfi olmamışdır.

Naxçıvan farmasiyonlarının yığıncaq yeri olan bu müqəddəs yer – sufi şeyxi Pir Yaqubun məqbərəsi sovet hakimiyyəti illərində baxımsız qaldığından dağılmış, bərbad vəziyyətə düşmüşdü. Ateizm ideologiyasını bayraq edən sovet cəmiyyətində bu abidə dövlət səviyyəsində bərpa olunmamış, imkanlı, xeyriyyəçi adamlar isə onu bərpa və ya təmir etdirməyə cürət etməmişlər. Həmçinin, aparılan ateizm təbliğatı nəticəsində yaşlı nəsil istisna

olmaqla əhalinin əksəriyyəti orta əsr Naxçıvanının sosial-siyasi və ideoloji həyatında mühüm yeri olan bu sufi məskəni haqqında heç nə bilməmiş və o, tədricən unudulmuşdur.

Azərbaycan öz müstəqilliyini qazandıqdan və insanlara dini etiqad azadlığı verildikdən sonra bu məqbərədə yenidənqurma işləri aparılmış, türbə yenidən inşa edilmişdir. Türbənin içərisində iki qəbir vardır. Qəbirlər səliqəli şəkildə düzəldilmiş, üstünə sinədaşı və başdaşı qoyulmuşdur. Bərpanı aparan inşaatçıların dediyinə görə türbədə bu iki qəbir əvvəldən mövcud olmuş, onlar həmin qəbirlərin üstünə beton örtük salmış və hər birinə ayrılıqda sinədaşı və başdaşı qoymuşlar.

Ancaq əvvəldən bu qəbirlərin üstündə epiqrafik sənəd – məzar kitabəsi olsa da o, sonralar itib batmış, yaxud da ateistlər tərəfindən qəsdən məhv edildiyindən bizədək gəlib çatmamışdır. Ona görə də qəbirlərdə uyuyan mərhumların şəxsiyyətini dəqiq müəyyənləşdirmək mümkün deyildir. Ancaq Naxçıvan şəhəri əhalisi arasında olan fikrə görə bu qəbirlərdə İraqın Kərkük əyalətindən Əshabi-Kəhfə ziyarətə gəlmiş Mir Əli və Mir Yaqub geri qayıtmamış, Naxçıvan şəhərində qalaraq orada yaşamışlar. Onlar paklıqları, əməlisalehlikləri və xeyirxah əməlləri ilə şəhər əhalisi arasında böyük hörmət və nüfuz qazanmışlar. Yaşca böyük olan Mir Əli vəfat etdikdən sonra şəhər qəbiristanlığında dəfn olunur. Müəyyən vaxtdan sonra vəfat edən Mir Yaqubu isə öz evinin – xanəgahının yanında dəfn edirlər. Sonradan Mir Əlinin də cənazəsi şəhər qəbiristanlığından gətirilib burada dəfn edilir **(Bağırov F., 2008, s. 36-37)**.

Türbə bərpa olunarkən onun ətrafına bişmiş kərpicdən divar çəkilmiş və həyətə giriş qapısı qoyulmuşdur. Bərpa zamanı giriş qapısının baş tərəfində kiril əlifbası ilə “Pir Əli və Mir Yaqub piri” sözləri yazılmışdır. Yerli əhalinin fikrincə türbənin içərisindəki qəbirlərdə dəfn olunan adamlar iki qardaş olmuşlar. Görünür, bu xanəgahda fəaliyyət göstərən təriqətin rəhbər şeyxi

Pir Yaqub öldükdən sonra xanəgahın yanında dəfn edilmiş, onun işini qardaşı Pir Əli davam etdirmişdir. O da vəfat etdikdən sonra qardaşının məzarı yanında dəfn edilmiş və bundan sonra onların qəbirləri müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmiş, el arasında bu ziyarətgah "Pir Yaqub və Pir Əli piri" adlandırılmışdır. Zaman keçdikcə Pir Yaqubun adının əvvəlindəki "Pir" titulu təhrif olunaraq seyyidlərə məxsus "Mir" titulu ilə əvəz olunmuşdur. Burada şiə imamlarının nəslindən olan seyyidlərə inam və hörmət, ərazidəki qəbir-ziyarətgahların əksəriyyətinin seyyidlərə məxsus olması amili də həlledici rol oynamışdır. "Pir" sözünün sufi anlamını bilməyən, onu ancaq "pir" – "müqəddəs yer", "ziyarətgah" kimi qiymətləndirən inşaatçılar və bu işə cavabdeh olan adamlar da onu əhalidən eşitdikləri şəkildə giriş qapısının baş tərəfində yazmışlar.

"Pir Yaqub" xanəgahı orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət göstərən və qaynaqlarda da dəfələrlə xatırlanan çoxlu xanəgahlardan biri olmuşdur. Yerləşdiyi coğrafi mövqe, şəhərin mərkəzində qurulması onun əhəmiyyətli xanəgahlar sırasında olması və orta əsrlər zamanı şəhərin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynadığını söyləməyə əsas verir.

## Xudu-Divanə xanəgah-piri

Orta əsrlər zamanı Naxçıvan şəhəri yaxınlığında fəaliyyət göstərən ziyarətgahlardan biri də "Xudu-Divanə" adlı pirdir. Bu pir Naxçıvan Muxtar Respublikası ərazisində orta əsrlər zamanı fəaliyyət göstərən və sonralar ziyarət obyektinə çevrilmiş sufiliklə bağlı mərkəzlərdən biri ilə əlaqədar yaranmışdır. "Xudu-Divanə piri" Naxçıvançayın sol sahilində, indiki Babək rayonuna daxil olan Hacıvar kəndində, Naxçıvan şəhərinə tərəf ərazidə yerləşir. Bu pir haqqında ilk məlumata biz rus alimi İ.P.Zelinskinin 1882-ci ildə SMOMPK məcmuəsində nəşr

etdirdiyi məqaləsində rast gəlirik **(Зелинский С.,1882, с. 46)**.

XX yüzilliyin 20-ci illərində Naxçıvanda olmuş rus alimi V.M.Sısoyevin Naxçıvana ezamiyyətinin yekunlarına həsr etdiyi və 1929-cu ildə nəşr etdirdiyi hesabatda da bu pir haqqında məlumat verilir. Alim pir haqqında yazır ki, Naxçıvan şəhəri yaxınlığında, Hacıvarda bir-birindən 300-400 addım məsafədə iki qaraağac ağacı vardır. Onları ekiz sayırlar. Belə hesab edirlər ki, onlar yeraltı köklər vasitəsilə bir-biri ilə birləşmişdir. Bu ağaclarda əmələ gəlmiş qabarmaları onların hamiləliyilə izah edirlər. Onlardan birinin, Yarımca yolunun yaxınlığında olanın yanında cavan qaraağac yetişib. Onu qoca qaraağacın oğlu hesab edirlər. Sonuncunun altında gildən balaca otaq tikilib. Bu yerlərin sahibləri orada öz ölülərini dəfn edirlər. Buna görə də ağacın ətrafında müsəlman qəbiristanlığı əmələ gəlib. Buranın adı ağaclarla birlikdə Xuda Divan ("Allahın məhkəməsi") adlanır. Belə bir rəvayət mövcuddur ki, əgər kimsə oradan qaraağacdan qopmuş quru bir çırpı belə aparsa qızdırma xəstəliyinə düçar olar. Belə fikirləşirlər ki, orada hansı isə müqəddəs güc, qüvvə var. Bu qüvvə qızdırma xəstəliyinə tutulmuş adamları və heyvanları xilas edir. Buna görə də vaxtilə xəstə qoyun sürülərini qovub buraya gətirirdilər. Qızdırmalı adamlar da buraya pənah gətirir. Xəstəliyə tutulmuş adamlar bir-iki yumaq pambıq sap və bir neçə yumurta şəklində nəzir verirlər. Gətirdikləri nəziri qəbir otaqlarının (sərdabələrinin-H.S.) qapısının ağzına qoyurlar ki, buradan ötüb keçən, qızdırmadan qorxmayanlar faydalansın. Bundan başqa buraya gələn xəstələr bardaqda gətirdikləri su ilə hər hansı bir qəbirin üstündə əl-ayaqlarını yuyur, sonra bardağı başları üstündən fırladaraq qəbir daşına çırpıb sındırırlar **(Сысоев В.,1929, с. 108-109)**.

Rus alimi, şərqşünas-etnoqraf K.N.Smirnov Naxçıvan bölgəsindəki müqəddəs yerlərdən danışarkən bu ziyarətgah haqqında da qısa şəkildə bəhs edir. O, yazır: "Hacıvar kəndi is-

tiqamətində qadınların Novruzun altıncı günü getdiyi ziyarətgah vardır. Bu ziyarətgah "Xudu-Divanə" adlanır. Görünür bu Səfəvi dərvişlərindən birinin qəbiridir. Burada qadınların parça (cındır) asdıqları iki ağac vardır" **(Смирнов К.,1999, с. 102)**.

K.N.Smirnovun məlumatında V.M.Sısoyevin qeydlərində rast gəlinməyən bir məqam diqqəti cəlb edir. Bu onun ziyarətgahda bir qəbirin olması haqqında verdiyi məlumat və bu qəbirin Səfəvi dərvişlərindən birinə məxsusluğunu ehtimal etməsidir. Qeyd etmək yerinə düşər ki, K.N.Smirnov Naxçıvanda tarixi-etnoqrafik material toplayarkən Naxçıvan diyarı tarixinin gözəl biliciləri, bu haqda bir sıra elmi məqalələrin müəllifi Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvlərindən Şeyx Məhəmməd Rasizadə, Mirbağır Mirheydərzadə (həm də cəmiyyətin elmi katibi olmuşdur) kimi adamlar bələdçilik etmiş **(Смирнов К., 1999, с. 21)**, material toplanmasında ona yardımçı olmuşlar. Ona görə də K.N.Smirnovun yazdıqları yerli əhalidən toplanılan materiallarla bərabər, hər hansı bir məsələ və ya abidə haqqında belə görkəmli ziyalı-alimlərin söylədiklərinə əsaslanır. Bu baxımdan da onun "Xudu-Divanə" ziyarətgahındakı qəbirin dərvişə məxsus olmasını söyləməsini təsadüfi, gəlişi gözəl söz kimi qəbul etmək olmaz.

Tarixçi alimlərdən H.Quliyev və A.Bəxtiyarov da ziyarətgah haqqında təxminən V.M.Sısoyevin qeydlərinə oxşar məlumat vermişlər **(Quliyev H., Bəxtiyarov A., 1968, s. 49)**.

Ziyarətgahın adındakı "divanə" (dəli) sözü diqqəti cəlb edir. Səslənməsindən aydın olur ki, ziyarətgahın adı Xudu adlı adamın adından götürülmüşdür. Ehtimal ki, bu adam hansı isə sufi təriqətinə mənsub dərviş olmuşdur. O əhali arasında hərəkətlərinə, danışıqlarına görə dəli kimi tanınmış, bu səbəbdən də ona "divanə" ləqəbi verilmişdir.

Dərvişlər adətən savadlı, yüksək elmə malik, pak, ağıllı adamlar olmasına baxmayaraq bəzən ətrafdakılar onların danışıqlarını başa düşmür, onları "dəli", "divanə" adlandırırdılar.

Bu adlar nəinki siravi dərvişlər, hətta övliyalar sırasında özünə məxsus yeri olan, müstəqil təriqətlər yaratmış sufi şeyxlərinə də aid edilmişdir. Məsələn, II Xəlifə Ömər ibn əl-Xəttab yanına gəlmiş qərnlilərdən əslən Yəməndən olan, ancaq qəbirinin Azərbaycanın Zərdab rayonunda olması ehtimal edilən, sufizmin banilərindən Veysəl Qərani haqqında soruşduqda onlar "ağılsızdır və insanlardan qaçar bir halı vardır, divanədir" – deyə cavab vermişdilər **(Dikici R., 1993, s. 104)**.

Tədqiqatçıların fikrincə, sufizm iki qola – sərxoşlar və təmkinlilərə bölünür. Sonralar ifrat sufizm kimi tanınan sərxoşlar qolunun ən məşhur nümayəndələrindən biri, Güneyd Bağdadinin "Əbu Yəzidin bizim aramızda yeri Cəbrailin başqa mələklər arasında yeri kimidir" deyə qiymətləndirdiyi **(Bünyadzadə K., 2003, s. 63-64)** Əbu Yəzid Bistami də özündə-sözündə olmayan, vəcd halında hiss etdiklərini, "gördüklərini" dilə gətirdiyinə, danışdığına, mənası yalnız özünə aydın ifadə və kəlamlar söylədiyinə **(Bünyadzadə K., 2004)** görə bəziləri tərəfindən "dəli-divanə" hesab edilmişdir.

Orta əsrlərdə Naxçıvan bölgəsində geniş yayılmış sufi təriqətlərindən biri "Qələndəriyyə" olmuşdur. Özünəməxsus xüsusiyyətləri olan bu təriqətə mənsub olan dərvişlər öz davranışları ilə hamının məzəmmətini qazanmağa çalışır, gödək xirqələr geyinir, konusa bənzər papaqlar qoyur, boyunlarına ağır dəmir boyunbağılar asır, barmaqlarına üzük, qollarına qolbaq salır, qiymətli olan hər şeyə nifrət edir, adamlardan uzaq qaçır, daim yolda, səfərdə olur, gəzərgi həyat keçirir, bir paltar, bir parça çörəklə kifayətlənir, saçlarını, saqqallarını, hətta qaşlarını ülgüclə qırxdırırdılar. Camaat arasına bu vəziyyətdə çıxan adamı şübhəsiz ki, əhali normal qarşılamır, onu dəli, divanə, sərsəri adlandırırdılar. Qeyd etmək yerinə düşər ki, bu təriqətin üzvləri sabit məskənləri və müəyyən qaydaları olmayan, dini təlimatlarla ictimai vərdişlərdən tamamilə ayrılmış gəzəyən sərsəri dərvişlər olmuşlar. Akademik Z.Bünyadov həmədanlı Baba Ta-

hir Üryanın “Mən qələndər deyilən sərsəri sufiyəm, nə atəşim, nə yerim, nə yuvam var. Gündüz dünyanı gəzirəm, gecələr də başımın altında bir kərpic ilə yatıram” – sözlərini misal göstərməklə qələndəri dərvişlərinin bu xüsusiyyətini gözəl açıqlamışdır **(Bünyadov Z., 1997, s. 67)**.

Əlbəttə, biz bununla Hacıvarda “Xudu-Divanə” adı ilə tanınan dərvişi heç də adlarını çəkdiyimiz məşhur övliyalarla müqayisə etmək fikrində deyilik. Ancaq tam qətiyyətlə demək olar ki, Xudu-Divanə yaşadığı və fəaliyyət göstərdiyi regionda tanınmış bir şəxsiyyət olmuşdur. Fikrimizcə, əhali arasında “Xudi-Divanə” adı ilə tanınmış dərviş Xudu orta əsrlərdə Naxçıvan bölgəsində geniş yayılan və fəaliyyət göstərən Qələndəriyyə təriqətinə mənsub dərviş olmuş, bu ərazidə öz xənagahını qurmuş, orada yaşayıb ideyalarını yaymışdır.

Orta əsrlər zamanı sufi şeyxləri öz ideyalarını daha çox adama mənimsətmək, ətraf ölkələrdə yaymaq məqsədi ilə öz xanəgahlarını əsasən gediş-gəlişin çox olduğu ticarət yollarının üzərində inşa edirdilər. Xudi-Divanə ziyarətgahının yerləşdiyi ərazi də Naxçıvançayın sol sahilində, Ordubad-Sədərək ticarət yolunun üzərində yerləşdiyindən, bu yol üzərində bir neçə xanəgahın fəaliyyət göstərməsinə əsasən bu ərazidə də xanəgahın yaradılmasını təbii hal kimi qəbul etmək olar.

XX yüzilliyin ortalarında Naxçıvanda olmuş, K.N.Smirnovun yazdığına görə ziyarətgah dərviş qəbirindən ibarət olmuşdur. Görünür, Xudu-Divanə vəfat etdikdən sonra müridləri tərəfindən adətə uyğun olaraq öz xanəgahı yanında dəfn olunmuşdur. Müridləri həmin qəbiri ziyarət etdiklərindən zaman keçdikcə bu ümumi hala çevrilmiş və əhali tərəfindən ziyarət olunmağa başlamışdır. Ziyarətgah isə mənsub olduğu adamın adı ilə “Xudu-Divanə” adlanmışdır.

Bu ziyarətgah haqqında Naxçıvan şəhərinin yaşlı əhalisinin məlumatları da maraq doğurur. Naxçıvan tarixinin gözəl bilicisi, keçən yüzilliyin 20-30-cu illərində Naxçıvanda tədqi-

qat aparan elmi ekspedisiyaların iştirakçısı olan 105 yaşlı filologiya elmləri namizədi, dosent Lətif Hüseynzadənin verdiyi məlumata görə (məlumat 2006-cı ilin yayında alınmışdır) Xudu-Divanə orta əsrlərdə Naxçıvanda fəaliyyət göstərən dərvişlərdən biri olmuşdur. Onun xanəgahı – zaviyəsi Naxçıvan şəhərinin Qala məhəlləsində olmuşdur. Lətif müəllimin söylədiyinə görə həmin məhəllənin adamları əsasən bu xanəgahın – zaviyənin ardıcılları olmuş, bu səbəbdən də onlar el arasında məcazi mənada “divanələr” kimi tanınmışlar. Həmin adamların törəmələri hazırda Naxçıvan şəhərində yaşamaqdadırlar.

Alimin şəhadətinə görə Xudu-Divanə adlı dərvişin özünün şəxsən gördüyü zaviyəsi və qəbiri Möminə xatun məqbərəsi yaxınlığında keçən yüzilliyin 30-cu illərinədək qalmış, şəxsiyyətə pərəstiş illərində dağıdılmışdır.

Ehtimal etmək olar ki, Yarımca kəndi yaxınlığında, Hacıvar kəndində, Naxçıvançayın sahilində fəaliyyət göstərən xanəgahın rəhbər şeyxlərindən biri gəlib bu ərazidə, Naxçıvan şəhərinin ən izdihamlı guşələrindən birində zaviyə yaratmış, ancaq yeni ad qəbul etməmiş, mənsub olduğu xanəgahın adını özündə saxlamışdır. Ona görə də bu zaviyə də el arasında Xudu-Divanə xanəgahı kimi tanınmışdır.

Qeyd olunduğu kimi bu ziyarətgahda əhalinin böyük inam və ehtiramla yanaşdığı, hörmət bəslədiyi iki qaraağac ağacı da vardır. Tədqiqatçıların fikrincə, Naxçıvan bölgəsində Qaraağaca qədim zamanlardan çox hörmət və ehtiramla yanaşılmışdır. Hətta bir sıra yerlərdə yer üzündə “Allahın evləri” hesab olunan məscidlərin qarşısında qaraağac ağacları əkilmiş, onlar yüksək səviyyədə qorunmuşlar. Məsələn, Babək bölgəsinin Cəhri kəndində mövcud olan altı məscidin hamısının qarşısında nalbənd (qaarağac fəsiləsinin qaarağac cinsinə aid bitki) ağacı var idi. Kənd əhalisi bu ağaclara yüksək ehtiramla yanaşır, onun budaqlarının qırılmasını günah hesab edərdilər.

Qaraağaca, ümumiyyətlə, ağaca inam bütün türk xalqları yaşayan ərazilərdə olduğu kimi Naxçıvanda da geniş yayılmışdır. Bu məsələyə xüsusi tədqiqat həsr etmiş etnoqraf-alim, AMEA-nın müxbir üzvü H.Q.Qədirzadənin fikrincə, Naxçıvanda ağac inamı genetik cəhətdən ümumi türk xarakteri daşımaqla, çox qədim zamanlarda formalaşmışdır. Qədim türk soyu ağaca həyatverici, yaşadıcı qüvvə kimi baxmaqla onunla bağlı inamları günümüzə qədər qoruyub saxlamışdır **(Qədirzadə H.Q., 2003, s. 274)**. Həmçinin, ağaclar müxtəlif tikinti materialları üçün xammal olduğundan, müalicəvi xarakter daşıması baxımından da müqəddəsləşdirilmiş, inam və etiqad obyektinə çevrilmişlər. Xudu-Divanə ziyarətgahındakı qaraağac ağacları da bu səbəbdən müqəddəsləşdirilmişlər.

Bütün bunlara əsasən deyə bilərik ki, hazırda Naxçıvan bölgəsində böyük ehtiramla ziyarət edilən pirlərin bir qismi, o cümlədən Xudu-Divanə ziyarətgahı orta əsrlərdə Naxçıvanda fəaliyyət göstərən müxtəlif sufi təriqətləri rəhbərlərinin qəbirləri ilə əlaqədar yaranmış və nəsildən-nəslə keçərək indi də ziyarət edilməkdədir.

## Dəli pir

Orta əsrlər zamanı Naxçıvan bölgəsində mahiyyət etibarilə Xudu-Divanə pirinə bənzəyən digər pirlər də fəaliyyət göstərmişdir. Belə pirlərdən biri də Babək rayonunun Çalxanqala kəndindən təxminən 3 km cənub-şərq tərəfdə, yaşayış məskənindən bir az uzaqda yerləşən və el arasında "Dəli pir" adlanan ziyarətgahdır. Bu pir haqqında ilk dəfə rus alimi V.M.Sısoyev məlumat vermişdir: kənddən 2,5 km cənub-şərqdə, çox da böyük olmayan qurşaqvari dağda "Dəli pir" yerləşir. ...Deyirlər ki, vətəndaş müharibəsi zamanı (1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım nəzərdə tutulur-H.S.) bütün ətraf yerlər dağıdılsa da, bu müqəddəs yerə heç kəs toxunmamış-

dır. Nə vaxtsa bir erməni bu pirdən bir ağac aparmış, 2 gündən sonra onun qardaşı xəstələnmiş və tezliklə ölmüşdü. O, bundan qorxmuş və ağacı yerinə qaytarmışdı.

Pirin binası daxildən 3,5x12 metrdir. ...Bir-birinin davamı olan iki otaqdan ibarətdir. Bu tikinti Dəli pir adlanır. Ona görə ki, burada hansı isə müqəddəs sayılan, ancaq anormal və heç kimə görünməyən müqəddəs insan yaşamışdır **(Сысоев В.,1929, с. 130-131)**.

Bu müqəddəs adamın başqalarından gizlənməsi, adamların gözünə görünməməsi fikrimizcə, onun orta əsrlərdə bütün Müsəlman Şərqində olduğu kimi Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində geniş yayılan və fəaliyyət göstərən sufi təriqətlərindən birinə mənsub olması ilə əlaqədardır. Sufi təriqətləri mənsubları arasında müəyyən məqama yüksəlmiş elə adamlar olmuşdur ki, onlar insanların arasında olmaqdan, onlarla ünsiyyətdən daha çox xanənişin həyat sürməyə, öz xanəgahında – hücrəsində oturub gününü ibadət və zikr etməklə sakit həyat keçirməyə daha çox üstünlük vermişdir. Orta əsrlər zamanı sufi təriqəti mənsubları olan bəzi adamların dağlara çəkilib tənha həyat keçirmələri, ibadət və zikrlə məşğul olmaları, zahid kimi  yaşamaları haqqında faktlar çoxdur. Təriqət mənsubları olan dərvişlərin bəzilərinin isə əvvəldə qeyd olunduğu kimi öz hərəkətləri, davranışları, geyimləri və s. əlamətlərinə görə dəli adlandırılması, onların dəli hesab olunması faktları da vardır.

Dəli pirdə dəfn olunan dərvişin də iqamətgahının dağda olmasına və onun qəbirinin ziyarətgaha çevrilməsinə əsasən onun ərazidə fəaliyyət göstərən sufi təriqətlərindən birinə mənsub olduğunu və müəyyən məqam sahibi olmasını söyləmək olar. Görünür bu dağda yaşayan, ibadət və zikrlə məşğul olan dərviş müqəddəs hesab olunmuş və bu səbəbdən də öldükdən sonra onun qəbiri ziyarətgaha çevrilmişdir. Dərvişin adı bilinmədiyi və dəli kimi tanındığı üçün onun qəbiri əsasında yaranmış ziyarətgaha “Dəli pir” deyilmişdir.

## Malik İbrahim piri

Müasir dövrdə Naxçıvan Muxtar Respublikası ərazisində hörmətlə ziyarət edilən müqəddəs yerlərdən biri də Ordubad şəhərindəki "Malik İbrahim piri"dir. Müşahidələrimiz göstərir ki, insanlar bəzən müqəddəsləşdirdikləri və ziyarət etdikləri yerlər haqqında geniş və dəqiq məlumata malik olmayaraq, onların mahiyyətini aydınlığı ilə bilmirlər. Sadəcə olaraq həmin yerlərə əsrlərin süzgəcindən keçib gələn inamları hesabına ziyarətə gedirlər.

Ərazimizdəki ziyarətgahlarda ziyarət obyekti olan bəzi qəbirlərin üzərində yazılı xatirə abidəsi olmadığı üçün onların mənsubiyyətini aydınlaşdırmaq mümkün deyildir. Vaxtı ilə əhali tərəfindən ziyarət edilən bu ocaqlar haqqında əhali arasında yayılan rəvayət-söhbətlər bizim zəmanəmizədək gəlib çatmış, buna əsasən də onların ziyarət edilməsi indi də davam etdirilməkdədir. Belə ziyarətgahlardan biri də Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığındadır. Ərazisində yerləşdiyi qəbiristanlığın adı ilə "Malik İbrahim piri" adlanan bu ziyarətgah haqqında vaxtilə rus alimi V.M.Sısoyev **(Сысоев В.,1928, с. 142)** və t.e.d. Məşədixanım Nemət **(Nemət M., 1992, s. 28-29)** bəhs etmişlər.

Ziyarətgah Ordubad şəhərinin şərq tərəfində yerli əhali arasında "Malik İbrahim" adlanan qəbiristanlığın mərkəzində, böyük bir binada yerləşir. Bu binanın təyinatı Sovet hakimiyyəti illərində müxtəlif şəkildə təqdim edilmişdir. Əvvəllər onun üzərində "Qaradağ məscidi", sonralar "Malik İbrahim məscidi", "Matəm evi" sözləri yazılmış lövhə vurulmuşdu. Rus alimi V.M.Sısoyev binanın ətrafındakı qəbiristanlığın Qaradağın ətəklərində yerləşdiyini və XX yüzilliyin əvvəllərində "Qaradağ qəbiristanlığı" adlandığını qeyd etmişdir **(Сысоев В.,1928, с. 142)**.

Binanın otaqlarından birinin içərisində qəbir vardır. Qəbirin üzərində məzar kitabəsi – epitafiya olmadığı üçün onun

mənsubiyyətini dəqiq aydınlaşdırmaq mümkün deyildir. Ordubad şəhərindən və başqa yerlərdən buraya ziyarətə gələn dindarların fikrincə qəbirdə şiələrin üçüncü imamı Hüseynin Kərbəlada şəhid olmasından sonra onun qisasını almaq üçün VII əsrin sonlarında başlayan hərəkatın rəhbərlərindən biri olan sərkərdə İbrahim Əjdərin oğlu Malik dəfn edilmişdir.

Dini ədəbiyyatdan və el arasındakı rəvayətlərdən məlum olduğu kimi İbrahim Əjdər həlak olduqdan sonra onun övladları vətənlərindən didərgin düşmüş, bəziləri Azərbaycana gələrək orada məskən salmış, oğlanlarından Malik Ordubadda, Malik Əjdər isə Laçın rayonunun Cicimli kəndində dəfn edilmişlər. Cicimli kənd qəbiristanlığında erməni işğalınadək salamat vəziyyətdə qalan və inşası tədqiqatçılar tərəfindən XI-XII əsrlərə aid edilən "Malik Əjdər türbəsi" müqəddəs hesab olunur və əhali tərəfindən ziyarət edilirdi **(Мамедов Ф.,1976, с. 46)**. Ancaq bu qəbirlərin heç birinin üzərində mərhumlar haqqında dəqiq məlumat verə biləcək kitabə qalmamışdır. Ona görə də bu fikrin elmi həqiqətə nə dərəcədə uyğun olduğunu söyləmək çətindir.

Görünür vaxtı ilə binanın qərbdən giriş qapısının baş tərəfində gəc üzərində qara rənglə, ərəb əlifbası ilə yazılmış "Malik ibn İbrahim" sözləri də xalq arasında yayılan bu fikrin nəticəsi kimi meydana gəlmişdir. Təəssüf ki, XX yüzilliyin 80-ci illərində bina təmir edilərkən bu kitabə təmirçilər tərəfindən qaşınıb tökülmüş, məhv edilmişdir. Bina təmir edilərkən qəbir olan otağın pəncərəsinin bayırdan baş tərəfində, gəc üzərində fars dilində yazılmış, üçüncü imam Hüseynə aid olan beyti də məhv etmişlər. Biz vaxtı ilə həmin kitabəni tədqiq etmiş, foto surətini götürmüşük. Farsca şeirlə yazılmış həmin kitabənin mətninin tərcüməsi belədir:

Bu Hüseyn kimdir ki, dünya onun divanəsidir?

Bu necə şamdır ki, ürəklər onun pərvanəsidir? **(Сафаров Ф.,1987, с. 39)**.

Bu beytlə başlanan şer şiə dünyasında çox məşhurdur. Tarixi romanlar müəllifi M.S.Ordubadinin yazdığına görə Təbrizdə imam təziyələri keçirilən evlərin küçə qapısının başında təziyə əlaməti olaraq qara bayraq vurulurdu. Bayrağın üstündə isə ağ xətlə yuxarıda qeyd olunan beyt yazılırdı **(Ordubadi M., 1985, s. 368)**.

“Bu Hüseyn kimdir ki, dünya onun divanəsidir?” misrası ilə başlayan mətn I Şah Təhmasib vaxtı Səfəvilər sarayında yaşamış şair Möhtəşəm Kaşaninin İmam Hüseynə yazdığı mərsiyədəndir. Mərsiyənin dörd misrası Ordubad şəhər Təkeşiyi məscidinin və Ordubad rayonunun Nüsnüs kəndindəki məscidin iç divarında **(Сафаров Ф.,1987, с. 39)**, tam mətni isə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondundakı mis şərbət qabları üzərində yazılmışdır **(Nemət M., 2000, s. 15)**.

Son illərdə vaxtı ilə binanın giriş qapısı ağzında atılıb qalmış, səthi nəbati və həndəsi ornamentlərlə nəfis şəkildə bəzədilmiş, mərmərin xüsusi növü olan oniksdən hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsi kimin isə tərəfindən “xeyirxahlıq” edilərək gətirilib binanın içərisində ziyarət olunan qəbirin üstünə qoyulub sementlə bərkidilmişdir.

Sənduqənin səthində, baş tərəfdəki düzbucaqlıda “Quran-i Kərim”in “ər-Rəhman” surəsindən bir ayə (26-cı ayə), yanlarında isə 14 məsumun (Məhəmməd peyğəmbər, qızı Fatimə, 12 imam) adları həkk edilmişdir. Abidənin kəllə tərəfində isə mərhum haqqında məlumatlar yazılmışdır: “Bu bağça Fərruxzad bəyin oğlu mərhum, günahları bağışlanmış Məhəmməd bəyindir. 962-də (26.11.1554 – 15.11.1555-ci il)” **(Сафаров Ф.,1987, с. 46-47)**.

Bu abidənin ziyarətgahdakı qəbirin üstünə qoyulması böyük elmi yanlışlığa səbəb olmuş, tədqiqatçılar pirdə ziyarət olunan qəbiri sonradan onun üzərinə qoyulan sənduqə tipli qəbirüstü xatirə abidəsinin üstündə adı yazılmış şəxsə – Fərruxzad bəyin oğlu

Məhəmməd bəyə aid etmişlər **(Nemət M., 2010, s. 52-53)**.

Qəbirin ziyarətgaha çevrilməsinin bu kitabə ilə heç bir əlaqəsi yoxdur. Ehtimal ki, kitabədə adı qeyd olunan Məhəmməd bəy dövrünün həyatında iz buraxan şəxsiyyətlərdən olmuşdur. Ancaq yuxarıda da qeyd olunduğu kimi abidə bu qəbrə aid deyildir və səhv olaraq qəbirin üstünə sonralar qoyulmuşdur.

Bəs bina nə məqsədlə tikilmişdir və nə üçün oraya ziyarətə gəlirlər? Bu vaxtı ilə "Malik İbrahim qəbiristanlığı"nda dəfn olunmuş başqa bir şəxsiyyətin qəbiri ilə bağlıdır. Qəbiristanlığın mərkəzində yerli əhalinin hörmətlə yanaşdığı, ziyarət etdiyi bir məzar vardır. Üzərində böyük başdaşı qoyulmuş məzar xalq arasında "Şeyxin qəbiri" kimi tanınır.

Vaxtı ilə görkəmli alim və şərqşünaslardan N.V.Xanıkovun **(Выдержки из…,1862)**, V.M.Sısoyevin və İ.Əzimbəyovun **(Сысоев В.,1928, с. 142-144)** diqqətini cəlb etmiş bu kitabənin mükəmməl oxunuşunu ilk dəfə AMEA-nın müxbir üzvü M. Nemət həyata keçirmişdir **(Нейматова М.,1981, s. 15)**. Boz daşdan hazırlanmış başdaşı üzərində ərəb dilində nəxs xətti ilə yazılmış kitabənin mətnindən aydın olur ki, bu qəbir xalqın mürşidi, həqiqət sahiblərinin nümunəvisi, dünya və dinin tacı, Şeyx Əbu Səid adı ilə tanınmış, xorasanlı Əbu Səid Əbül Xeyrin – Allah onun əziz ruhunu müqəddəsləşdirsin – yeddi arxa övladlarından olan şeyxülislamındır. Həmçinin kitabədən bu da bəlli olur ki, Şeyx Əbu Səid hicri-qəməri təqvimi ilə yeddi yüz əlli doqquzuncu ilin, məhərrəm ayının səkkizi, cümə axşamı (21.12.1357-ci il), günortadan sonra bu dar dünyadan köçmüş və cənnətdə babasının ruhuna qovuşmuşdur.

XIV yüzilliyin ortalarına aid olan bu kitabənin mətnindən aydın olur ki, məzarda uyuyan şəxs müsəlman Şərqində sufizmin banilərindən biri olan və bir müddət Nişapurda dərviş cəmiyyətinə rəhbərlik edən, ətrafında müxtəlif ölkələrdən gəlmiş başqa görkəmli şəxsiyyətlərlə yanaşı bir sıra azərbaycanlı müridlər də toplaşan Şeyx Əbu Səid Əbül Xeyr Xorasaninin

yeddinci nəslindən olan Şeyx Əbu Səiddir.

Şeyx Əbu Səidin dəfn olunduğu "Malik İbrahim" qəbirstanlığında, hazırda əhali tərəfindən ziyarətgaha çevrilən binanın yerində onun xanəgahı olmuşdur. O ətrafına müridlər toplayaraq bu xanəgahda öz ideyalarını onlara mənimsətmiş və ətraf yerlərdə yaymışdır. Vəfat etdikdən sonra isə xanəgahı yanında dəfn olunmuş, qəbiri müridləri və əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Binanın içərisindəki ziyarət olunan qəbir isə ehtimal ki, bu xanəgaha sonralar rəhbərlik etmiş şeyxlərdən birinə məxsusdur.

## Pir Eyvaz xanəgah-piri

Vaxtilə Ordubad şəhərinin cənub-qərb tərəfində təxminən 2 hektar sahəni əhatə edən və el arasında "Pir Eyvaz qəbiristanlığı" adlanan bir qəbiristanlıq var idi. Bu qəbiristanlığın belə adlanmasının səbəbini Ordubad şəhərinin yaşlı əhalisi belə izah edir: Bu qəbiristanlığın yerləşdiyi ərazidə əvvəllər böyük bir bağ var imiş. Bu bağ Pir Eyvaz adlanan bir adama məxsus imiş. Pir Eyvaz sonsuz olmuş və sağlığında vəsiyyət edibmiş ki, öldükdən sonra onu öz torpağında, yəni bağ olan ərazidə dəfn etsinlər. Bir müddətdən sonra Pir Eyvaz vəfat etmiş və vəsiyyətinə əməl olunaraq onu qeyd olunan yerdə dəfn etmişlər. Bundan sonra orada dəfnlər keçirilmiş və həmin vaxtdan ərazi qəbiristanlığa çevrilmişdir. Sonralar Pir Eyvazın qəbiri ziyarətgaha çevrilmiş, hətta qəbirin üzərində möhtəşəm memarlıq abidəsi – türbə ucaldılmışdır. Həmin türbə sovet hakimiyyəti illərində dağıdılsa da onun rus rəssamı İ.Şeblikin tərəfindən çəkilmiş rəsmi qalmaqdadır.

Pir Eyvaz türbəsi dağıdılsa da oradakı qəbir 1981-ci ilədək qəbiristanlığın şimal-şərq hissəsində qalmaqda idi və pir kimi ziyarət edilirdi. Hətta qəbirin üstündə kiçik bir tikili də inşa olunmuşdu. Çox da böyük olmayan bu tikilidən ibarət olan pir binası sovet hakimiyyəti illərində, ateizmə geniş meydan verildiyi zamanlarda baxımsız qalmış, yarımuçuq vəziyyətə

düşmüşdü. Yerli əhali isə bu müqəddəs yeri gizlicə ziyarət etsə də qorxudan binanı təmir və ya yenidən bərpa edə bilməmişdi.

Yerli əhalinin fikrincə Pir Eyvaz pirin içərisindəki qəbirdə dəfn olunmuşdur. Qəbirin üstündə bir neçə yerə bölünmüş, ancaq sonradan sementlə kobud şəkildə bir-birinə birləşdirilmiş başdaşı var idi. Başdaşının üzərində olan kitabədə mərhumun adını müəyyənləşdirmək mümkün olmasa da, orada bəzi sözləri oxumaq mümkün olmuşdu.

Qəbiristanlıq bizədək tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Yalnız jurnalist Cəlil Rəfiyev 1967-ci ildə “Yeni Ordubad” qəzetində nəşr etdirdiyi məqaləsində qəbiristanlıqdan qısa bəhs etmiş, onun nə üçün “Pir Eyvaz” qəbiristanlığı adlanması haqqında yerli əhali arasında mövcud olan fikri nəşr etdirməklə kifayətlənmişdir **(Rəfiyev C., 1967)**.

Biz, 1980-ci ildə bu qəbiristanlıqda tədqiqat aparmış, bir neçə kitabənin estampını və fotosunu götürmüşdük. Çox təəssüflər olsun ki, 1981-ci ildə bu qəbiristanlıq və qeyd olunan pir dağıdılmış, yerində avtovağzal və park salınmışdır. Bu zaman qəbirlərin üstünə qoyulmuş, üzərində kitabə, olan sənduqə və başdaşı formalı qəbirüstü xatirə abidələri də dağıdılmış, it-bat olmuşdur. Onlardan yalnız biri Ordubad rayon Tarix-Diyarşünaslıq muzeyinə aparılmış və orada saxlanmaqdadır.

Qeyd olunduğu kimi, şəhərin əhalisi qəbiristanlığın “Pir Eyvaz qəbiristanlığı” adlanmasını mərhum Pir Eyvazla əlaqələndirirlər. Ancaq onlar mərhumun adına əlavə olunmuş “pir” titulunun “qoca” anlamını əsas götürərək onu “Qoca Eyvaz” adlandırırlar. Fikrimizcə, bu belə deyildir. Mərhum Eyvazın adına əlavə olunan “pir” titulu heç də onun qocalığını bildirmək üçün deyil, onun sufilikdə ən yüksək məqama çatmış bir adam olduğunu göstərmək üçün verilmişdir.

Təsəvvüfdə ən yüksək dərəcə olan bu titul heç də hamıya deyil, sufi rəhbərlərindən ən yüksək mərtəbəyə çatmış

adamlara verilirdi. Orta əsrlər zamanı təsəvvüfdə ən yüksək məqam olan "Pir" titulunu təriqət başçıları daşıyır, onların xanəgahları olurdu. Xanəgahda yaşayan təriqət başçısı – "pir" öz ətrafında çoxlu müridlər toplayır, onların təlim-tərbiyəsi ilə məşğul olur, ideyalarını mənimsədir və onlar vasitəsilə yayırdı.

Bu titulu almaq dərəcəsinə yüksəlmiş Pir Eyvazın Ordubad şəhərinin girəcəyində (XVII-XVIII yüzilliklərdə hələ şəhər böyüyüb genişlənərək bu ərazilərə çatmamışdı), 1981-ci ilə qədər mövcud olmuş qəbiristanlığın ərazisində xanəgahı olmuşdur. Digər təriqət başçıları kimi Pir Eyvaz da müridləri ilə birlikdə öz xanəgahında yaşamış, öldükdən sonra isə adətə uyğun olaraq xanəgahın yanında dəfn olunmuşdur Bundan sonra, onun qəbiri müridləri tərəfindən ziyarətgaha çevrilmiş, sağlığında yerli əhali arasında böyük nüfuza malik olduğundan şəhər camaatı da həmin qəbrə hörmətlə yanaşmışdır.

Qeyd etmək lazımdır ki, əgər burada dəfn olunan adam adi bir vətəndaş, sonsuz bir qoca olsaydı, onun qəbiri heç bir vəchlə ziyarətgaha çevrilə bilməzdi. Belə bir hala Azərbaycanda və Naxçıvanın heç bir yerində təsadüf edilməmişdir. Ərazimizdə tədqiq etdiyimiz müqəddəs yerlərə – ziyarətgahlara əsasən deyə bilərik ki, Naxçıvan ərazisində indiyədək qalan ziyarətgahların böyük bir hissəsi orta əsrlər zamanı burada fəaliyyət göstərmiş və əhali arasında böyük hörmət qazanmış sufi təriqətləri başçılarının qəbirləri ilə əlaqədardır **(Nemət M., 1992; Səfərli H., Cəfərov H., 1998)**. Buna əsasən demək olar ki, öldükdən sonra qəbiri ziyarət obyektinə çevrilən mərhum Pir Eyvaz da məşhur xanəgah rəhbəri olmuşdur.

Pir Eyvazın sufi təriqəti başçısı olmasını təsdiq edən ən mühüm qaynaqlardan biri vaxtilə onun qəbiri üstündə qoyulan başdaşı parçaları üzərində olan kitabə fraqmentləridir. Bu kitabələrdə mərhumun təriqət başçısı olmasını təsdiq edən "şeyx", "mürşid", "zahid" kimi sözləri oxumaq mümkün olmuşdu. Vaxtilə bizim tərəfimizdən tədqiq edilmiş kitabədə sufiliyə aid

qeyd olunan titulların həkk edilməsi də Pir Eyvazın sağlığındakı məqamından və fəaliyyətindən xəbər verirlər.

Qeyd olunduğu kimi, Pir Eyvaz dəfn olunduqdan sonra həmin ərazi qəbiristanlığa çevrilmişdir. Orta əsrlər zamanı əhali arasında müqəddəs şəxsiyyətlərin qəbirlərinin ətrafında dəfn olunmağın təqdir olunması səbəbindən nüfuzlu və müqəddəs şəxsiyyət olan Pir Eyvazın da qəbirinin ətrafında dəfnlər keçirilməyə başlamışdır. Beləliklə, XVII əsrdən etibarən Ordubad şəhərində "Malik İbrahim qəbiristanlığı" ilə yanaşı yeni bir qəbiristanlıqda da dəfn mərasimləri keçirilir. Həmin qəbiristanlıq sufi şeyxinin adı ilə "Pir Eyvaz qəbiristanlığı" adlanır. Əslində həmin vaxt Ordubad kimi çox da böyük olmayan bir şəhərdə əlavə qəbiristanlığa ehtiyac olmamışdır. Burada keçirilən fəxri dəfnlər məhz Pir Eyvazın müqəddəs bir şəxsiyyət olması ilə əlaqədardır.

Pir Eyvaz haqqında əhali arasında yayılan rəvayətdə belə bir məqam diqqəti cəlb edir: o, sonsuz kimi qələmə verilir. Məlumdur ki, bəzi sufi təriqətləri ehkamına görə evlənmək, ailə qurmaq haram hesab edilirdi. Bu cəhət XIII əsrdə Anadoluda Hacı Bektaş Vəli tərəfindən yaradılan, sonralar isə bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda və onun ayrılmaz, tərkib hissəsi olan Naxçıvanda geniş yayılan "Bektaşiyyə" təriqətində özünü daha qabarıq büruzə verir.

"Bektaşiyyə" təliminə görə təriqətin hər bir üzvü mürşidin qarşısında təntənəli surətdə and içərək, evlənməyərək subay qalacağına söz verməli idi **(İslam, 1985, s. 35)**. Bütün dünyəvi işlərdən imtinanın simvolu kimi sırğa daşıyan Bektaşilər **(Atalay B., 1340, s. 24)** bundan sonra ölənəcən evlənmirdilər. Mərhum Pir Eyvazın da sonsuz olaraq ölməsi onun "Bektaşiyyə" təriqətinə mənsub olmasını və evlənməyərək bu təriqətə xidmət etməsi fikrini söyləməyə əsas verir.

Yerli əhali arasında böyük nüfuz qazandığına, öldükdən sonra isə qəbirinin ziyarətgah olmasına, həmçinin

müqəddəsliyi xatirinə onun ətrafının qəbiristanlığa çevrilməsinə əsasən deyə bilərik ki, Pir Eyvazın rəhbərlik etdiyi sufi təriqətinə mənsub xanəgah Ordubaddakı digər xanəgahlarla birlikdə uğurla fəaliyyət göstərmişdir.

Azərbaycanda, eləcə də Naxçıvanda fəaliyyət göstərən və şiəliklə bağlı olan sufi təriqətləri, o cümlədən Bektaşi dərvişləri Səfəvi şahları tərəfindən himayə olunduqları üçün onlar Naxçıvanda, o cümlədən Ordubadda sərbəst hərəkət edir, öz xanəgahlarını yaradır, ideologiyalarını yayırdılar. Səfəvi şahlarının Ordubad şəhərinə xüsusi rəğbətlə yanaşması, hətta onu xəzinəyə veriləcək bir sıra vergilərdən azad etməsi faktının özü də təsdiq edir ki, Səfəvilərə xidmət edən və ardıcılları ilə birlikdə onların da ideologiyasını yayan Bektaşilərin Ordubadda fəaliyyət göstərməsi və öz xanəgahlarını yaratması problem deyildi. Ona görə də Bektaşi dərvişləri Naxçıvan ərazisində özləri üçün əlverişli şərait yaranmasından məharətlə istifadə etmiş, bir sıra yerlərdə öz xanəgahlarını yaratmışlar. XVII əsrdə Ordubad şəhəri Səfəvilərin əlində olarkən Pir Eyvazın orada yaratdığı xanəgah da onlardan biri olmuşdur.

## Baba Yaqub xanəgah-piri

Ordubad şəhərinin şimal hissəsində Ordubad-Nüsnüs şose yolunun sol tərəfində, Dübəndi çayının sol sahilində, çayın yatağından təxminən 15 metr yüksəklikdə bir məscid vardır. Məscid el arasında "Baba Yaqub məscidi" adlanır. Yerli əhalinin söylədiyinə görə bu yer əvvəllər ziyarətgah olmuş, insanlar buraya ziyarətə gəlmiş, qurbanlar kəsmiş, nəzir vermişlər. Sonralar bu ibadət yerindən məscid kimi istifadə olunsa da, əhali yenə də buraya ziyarətə gəlməkdə davam edir. Şəhərin Usta Həşim məhəlləsi ilə Sərşəhər məhəlləsi arasında yerləşən məscidin daxildən uzunluğu 9,5 metr, eni 5 metrdir. 2003-cü ildə bərpa olunan bu məscid-ziyarətgah Ordubad şəhərinin əsas

ziyarətgahlarından biridir. Şəhər sakinləri arasında belə bir fikir vardır ki, bu ziyarətgah çox müqəddəs yerdir, hətta natəmiz adam onun yanından keçsə xəstələnər.

Ziyarətgah-məscidin adı diqqəti cəlb edir. Yaqubun adına əlavə olunan "Baba" tituldur. Məlumdur ki, adı məscidə verilən Yaqubun adına əlavə olunan "Baba" titulu bir sıra sufi təriqətlərində, xüsusilə "Bektaşiyyə" sufi təriqətində görkəmli dərvişlərə, xanəgah rəhbərlərinə verilən titul olmuşdur. Ona görə də, fikrimizcə, bu məscidin yerində vaxtilə "Bektaşiyyə" sufi təriqətinə mənsub xanəgah fəaliyyət göstərmiş, Baba Yaqub isə onun rəhbər şeyxi olmuşdur. O, nüfuzlu şəxsiyyət olmuş, sufilikdə "Baba" titulunu qazanmağa qədər yüksəlmişdir.

Orta əsrlərdə xanəgahların ticarət-karvan yollarının kənarında, çayların sahilində salınması faktını əsas götürərək bu məscidin vaxtilə həqiqətən xanəgah olmasını düşünmək olar. Ordubad şəhərindən cənubda, Arazın sağ sahilində, Cənubi Azərbaycanın Siyah-Rud kəndində də bu adda xanəgah-ziyarətgah vardır. Deyilənə görə Siyah-Ruddakı pirdə bir qadın qəbiri vardır. Həmin xanəgahın yanından axan çay xanəgahın adı ilə "Baba Yaqub çayı" adlanır.

Ordubad şəhərindəki xanəgahla Siyah-Rud kəndindəki xanəgah arasında əlaqələr olmuşdur. Deyilənlərə görə bəzən gecələr Siyah-Rud kəndindəki xanəgahdan bir nəfər çıxaraq Ordubad şəhərindəki xanəgaha gələr, orada kiminləsə görüşər, söhbət edər və geri qayıdarmış.

Ordubad şəhərindən 11 km qərb tərəfdə yerləşən Dəstə kəndinin cənub-qərbində, Araz çayının sol sahilində də eyni adlı pir-ziyarətgah vardır. Yaşayış məskənindən aralı, çay sahilində, ərazidən keçən ticarət karvan yolunun yaxınlığında yerləşən bir pir-ziyarətgah da ehtimal ki, haqqında bəhs olunan eyni adlı xanəgahlarla sıx bağlı fəaliyyət göstərən sufiliklə bağlı mərkəz olmuşdur (bax: "Baba Yaqub piri" məqaləsinə).

Ehtimal etmək olar ki, bu xanəgahlar eyni təriqətə mənsub olmuş, həmin təriqətin ideyalarını yaymışlar. Görünür Ordubad şəhərindəki xanəgahın rəhbəri – piri daha mötəbər şəxs olmuş, Siyah-Rud kəndindəki xanəgahın rəhbəri ondan məsləhət və tapşırıqlar almaq üçün arabir onunula görüşərmiş.

Füzuli rayonunun Horadiz dəmiryol stansiyasının 6 kilometrliyindəki Babı kəndində indiyədək qalan və təxminən 700 il bundan əvvələ aid olan xanəgahın adına ("Şeyx Babi Yəqub xanəgahı") **(Nemət M., 1992, s. 13-16)** əsasən Ordubad bölgəsindəki sufiliklə bağlı bu mərkəzlərin adı haqqında (Baba, yaxud Babi) düşünmək olar. Ancaq mərkəzlərin heç birinin üzərində bu barədə məlumat verəcək epiqrafik sənəd – kitabə olmadığı üçün bu haqda konkret fikir söyləmək mümkün deyildir.

Ziyarətgah-məscidin binasının inşa tarixini XVII əsrə aid etmək olar.

## Xanağa xanəgah-piri

Naxçıvan Muxtar Respublikasının Ordubad bölgəsində əhalinin böyük inam bəslədiyi müqəddəs yerlərdən – ziyarətgahlardan biri də Xanağa piridir. Bu pir də Naxçıvan ərazisində orta əsrlər zamanı fəaliyyət göstərən sufi təriqətləri ilə əlaqədar yaranmış ziyarətgahlardandır. Bu pirin yerləşdiyi Xanağa kəndi Ordubad şəhərindən təxminən 10-12 km qərb tərəfdə Vənəndçayın sol sahilində yerləşir. Adından göründüyü kimi, kənd sufi məskənləri olan xanəgahlarla əlaqədar yaranmışdır.

Qeyd etmək lazımdır ki, 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu kəndin adı "Yuxarı Xanəgah" kimi göstərilmişdir. Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində bu qəbil kəndlər Yuxarı və Aşağı olmaqla iki olduğundan (məsələn, Aşağı Əylis, Yuxarı Əylis, Aşağı Uzunoba, Yuxarı Uzunoba və s.) deyə bilərik ki, Yuxarı Xanəgah kəndindən coğrafi cəhətdən aşağıda – cə-

nubda, ehtimal ki, indi el arasında Dəstəbaşı adlanan ərazilərdə Aşağı Xanəgah kəndi olmuşdur. Ancaq bu kənd zəmanəmizədək qalmamışdır.

Sovet hakimiyyəti illərində kəndin tarixi adı dəyişilmiş, kəndlə heç bir əlaqəsi olmayan Çapayevin adı ilə "Çapayevka" qoyulmuşdu. Yaxşı ki, müstəqillik illərində bu səhv düzəldilmiş, kəndin tarixi adı özünə qaytarılmışdır.

Kəndin şərq tərəfində, Vənəndçayın sol sahilində yerli əhalinin pir adlandırdığı bir bina vardır. İki otaqdan ibarət olan binanın cənub tərəfindəki böyük otağın mərkəzində qəbir vardır. Üstünə qara örtük çəkilmiş qəbirin üstü daşla təxminən 20 sm hündürlükdə hörülmüş və sementlə suvanmışdır. Pirdə əsas ziyarət obyekti bu qəbirdir. Qəbirin üstündə xatirə abidəsi və məzar kitabəsi yoxdur.

Pirin cənub divarındakı pəncərənin sağ və sol tərəflərində, yerdən təxminən 1 metr yüksəklikdə iki taxça vardır. Taxçaların içərisində yazılı başdaşılar qoyulmuş, gəclə suvanaraq divara bərkidilmişdir. Sağ tərəfdəki taxçada olan başdaşı yaşılımtıl rəngli daşdan hazırlanmışdır (ölçüsü: 70x40 sm). Üzərində ərəbcə həkk edilmiş kitabənin mətninin əvvəli dini kəlam və Quran ayəsindən ibarətdir: LV-26-27. Sonra isə mərhumun adı və vəfat tarixi yazılmışdır: "Bu qəbir Seyyid Həmidin oğlu mərhum Seyyid Tahirindir. Yeddi yüz yeddi tarixdə (1308-ci il)".

Sol tərəfdəki başdaşı da Ordubad ərazisi üçün xarakterik olan yaşılımtıl rəngli daşdan hazırlanmışdır (59x37 sm). Üzərində 7 sətirdə ərəb dilində kitabə yazılmışdır. Mətni belədir: "Ey bütün qəriblərin dostu! Bu bağça xoşbəxt şəhid, Allahın yaxınlığına qovuşmuş Şeyx Nurəddinin oğlu, mərhum, günahları bağışlanmış, şeyxlər nəslindən olan Şeyx İslamındır, 1010-cu il (1601-1602-ci il)".

Hər iki kitabəni ilk dəfə t.e.d. M.Nemət tədqiq etmişdir **(Nemət M., 1992, s. 27-28; Неймат М., 2001, c. 62, 80)**.

Pirin yerində vaxtı ilə hansısa sufi təriqətinə mənsub

xanəgah olmuşdur. İkinci kitabədə nəzərə çarpdırılan "Şeyxlər nəslindən olan" sözü, həmçinin ata və oğulun "şeyx" titulu ilə tədqim edilməsi fikrimizi bir daha qüvvətləndirir. Məlumdur ki, orta əsrlər zamanı "şeyx" titulu görkəmli şəxsiyyətlərə, xüsusilə sufi təriqəti başçılarına verilirdi. Mənbələrdə şeyxlər xanəgah başçıları kimi təqdim edilirlər. Çoxlu müridləri olan şeyxlər öz ailələrilə birlikdə bu xanəgahlarda yaşayır, öldükdən sonra da orada dəfn edilirdilər. Sufilikdə şeyxlik bir müddət irsi olaraq atadan oğula keçmişdir. Bu kitabədə ata və oğlunun "şeyx" titulu ilə təqdim edilməsi göstərir ki, Şeyx İslam atasından sonra onun yerini tutmuş və xanəgahda fəaliyyət göstərən sufi təriqəti üzvlərinə – dərvişlərə rəhbərlik etmişdir.

Azərbaycan MEA-nın müxbir üzvü, tarix elmləri doktoru M.Nemət yazır ki, Şeyx İslamın tanınmış şeyx nəslindən olması, müqəddəs mübarizədə öldürülməsi, kəndin Xanağa adlanması, qəbirlərin müqəddəs şəxsiyyətlərə aid pir yeri kimi ziyarətgaha çevrilməsi, kitabələrdə sufizmin nəzəri əsasını təşkil edən "Qurani-Kərim"dən 55-ci surənin 26-27-ci ayələrinin yazılması və s. dəlillər göstərir ki, bu pirin yerində xanəgah olmuşdur. Onun fəaliyyətini XIII əsrdən əvvələ aid etmək olar **(Nemətova M., 1990-2, s. 18)**.

Yəqin ki, XIII-XIV əsrlərdə və sonrakı dövrlərdə bu pirin yerində xanəgah olmuş, kitabədə adı çəkilən Şeyx İslam Şeyx Nurəddin oğlu da onun rəhbərlərindən olmuşdur. Öldükdən sonra isə orada dəfn edilmişdir. Kitabədə qeyd olunan "Şeyxlər nəslindən olan" sözlərinə əsasən demək olar ki, bu xanəgahı Şeyx İslamın atası, babaları və ondan sonra gələn övladları idarə etmişlər. Çünki bu söz birləşməsi onların nəsillikcə şeyx olmasını təsdiq edir.

Bu başdaşılara əsasən demək olar ki,pirin içərisində hazırda üstü hörülüb suvanaraq vahid şəklə salınmış qəbir əslində iki qəbirdən ibarət olmuşdur. Onlardan birində Şeyx Nurəddinin oğlu Şeyx İslam, digərində isə Seyyid Həmidin oğlu Seyyid Tahir dəfn

olunmuşdur. Divardakı başdaşılar isə qəbirlərin üstündə olmuşdur. Sonralar qəbirlər dağılmış, başdaşılarının məhv olmaq təhlükəsi yaranmışdır. Ona görə də bina inşa edilərkən (qeyd edək ki, bina qədim deyil) qəbirlərin üstü də düzəldilmiş, başdaşıları isə məhv olmasın deyə divarda taxçalar düzəldib oraya nəsb etmişlər.

Ordubad ərazisində sufizmin geniş yayılmasını nəzərə alaraq söyləmək olar ki, bu Xanəgah da dövrünün tanınmış sosial-siyasi mərkəzlərindən biri olmuşdur. Rus alimi V.M.Sısoyevin verdiyi məlumatlar da bu fikri təsdiq edir. O, Ordubada səfəri zamanı Xanağa kəndinə də getmiş, bu piri tədqiq etmiş, özünün elmi hesabatında onun təsvirini və ölçülərini vermişdir. Onun yazdığına görə pirin böyük otağında bir-birindən 20 sm aralı, ölçüləri 3,25x1,25 m olan iki qəbir olmuşdur. Hündürlükləri təxminən 40 sm olan qəbirlər sadə olmuş və gillə suvanmışdır. Alimin yazdığına görə haqqında bəhs edilən başdaşılar həmin vaxt da divarda olmuşlar **(Сысоев В.,1928, с. 182)**.

## Pir-i Süleyman xanəgah-piri

Orta əsrlərdən bəri Naxçıvan bölgəsində ziyarət olunan müqəddəs yerlərdən biri də Şərur bölgəsində Pir-i Süleyman adı ilə məşhur olan ziyarətgahdır. Bu ziyarətgah orta əsrlər zamanı Naxçıvan bölgəsində fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərlə əlaqədar yaranmış müqəddəs yerlərdəndir. Qaynaqlar təsdiq edir ki, orta əsrlər zamanı Naxçıvan bölgəsində sufi təriqətlərinin geniş fəaliyyət göstərdiyi və xanəgahlar qurulduğu ərazilərdən biri də Şərur torpağıdır. Ərazisində təsəvvüflə əlaqədar bir neçə kənd olan (Dərvişlər, Zeyvə və s.) Şərurda fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərdən biri də Pir-i Süleyman xanəgahı olmuşdur. Pir-i Süleyman Şərur rayonunun Tənənəm kəndində yerləşir.

Kəndin şimal-şərq tərəfində yerləşən Qazma adlı mağarada 1987-90-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı aş-

kar edilən çoxlu maddi-mədəniyyət nümunələri Naxçıvan ərazisində daş dövründən yaşayış olmasını sübut etməklə kəndin zəngin tarixi keçmişindən xəbər verirlər **(Джафаров А.,1992, с. 270-274; Novruzlu Ə., Baxşəliyev V., 1993, s. 67)**.

Həmçinin, Tənənəm kəndinin yaxınlığında Qarabağlar kimi qədim yaşayış məskəninin yerləşməsi, orada indiyədək qalan çoxlu maddi-mədəniyyət nümunələri, xüsusilə qoşa minarəli baştağ, türbə və bir sıra dini tikililərdən ibarət olan kompleks bu bölgənin zəngin tarixi keçmişindən xəbər verirlər. Ərazisində indiyədək qalan bir sıra tarix-memarlıq abidələri Tənənəm kəndinin orta əsrlər zamanı mühüm yaşayış məskənlərindən olduğunu sübut edir. Belə abidələrdən biri də yerli və ətraf kəndlərin əhalisi tərəfindən hörmətlə ziyarət edilən Pir-i Süleymandır. Əvvəllər olduğu kimi buraya indi də çoxlu zəvvarlar gəlir, qurbanlar kəsilir, nəzir verilir.

Pir memarlıq baxımından o qədər də möhtəşəm olmayan bir binadan ibarətdir. Binanın içərisində qəbir vardır. Pirdə əsas ziyarət obyekti bu qəbirdir. Ancaq qəbirin və binanın üstündə epiqrafik sənəd – kitabə olmadığı üçün onların tarixi, mənsubiyyəti və təyinatı haqqında sanballı elmi fikir söyləmək mümkün deyildir.

Kəndin yuxarı hissəsində yerləşən bu pirin haqqında mənbələrdə elə bir məlumat yoxdur. Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 1928-ci il 40 saylı protokolunda, Cəmiyyətin elmi katibi Mirbağır Mirheydərzadənin Şərur dairəsinə elmi ezamiyyətinin nəticələrinə aid hazırladığı məruzədə pir haqqında qısa bir fikrə rast gəlinir: "Asari ətiqədən bu kənddə (Tənənəm kəndində-H.S.) Pir-i Süleyman adlı qədim bir pir vardır" **(Xəlilov F., 2005, s. 67,185)**. M.Rasizadənin 1930-cu ildə nəşr olunmuş "Şərur dairəsində səyahət haqqında qeydlər" adlı məqaləsində də pir haqqında qısaca məlumat verilir. Müəllif yazır ki, Tənənəm kəndində asari ətiqədən yalnız "Pir-i Süleyman" adlı bir yer vardır **(Rasizadə M., 1930, s. 82)**.

1934-cü ildə Naxçıvanda olmuş rus alimi K.N.Smirnov da ziyarətgahın adını "Pir-i Süleyman" kimi qeyd etmişdir **(Смирнов К.,1999, с. 104)**. Ziyarətgah hazırda Şərur rayonu əhalisi arasında "Pir-i Süleyman" kimi tanınır.

Yaşlı əhalinin söylədiyinə görə pirin tarixi Tənənəm kəndinin tarixindən qədimdir. Deyilənə görə kəndin ərazisi vaxtilə qarağaclıq olmuşdur. Həmin dövrdə pir də mövcud imiş. El arasında yayılan fikrə görə hələ kənd salınmamışdan əvvəl bu qarağaclıq ərazisindən bir erməni atlısı keçirmiş. Güclü yağışa düşən həmin adam daldalanmaq üçün meşədə yer axtarır və bu pirə rast gəlir. Atını ağaca bağlayıb yağışdan daldalanmaq üçün pirə girir. Bu vaxt qeybdən bir səs eşidilir: "Buranı tərk et!". Atlı deyir ki, yağışın kəsməsini gözləyirəm. Qeybdən təkrar səs gəlir ki, yağış kəsib, Günəş çıxıb. Atlı bayıra çıxıb doğrudan da yağışın kəsdiyini və Günəşin çıxdığını görüb oranı tərk edib gedir.

Pirin nə üçün "Pir-i Süleyman" adlanması haqqında dəqiq məlumat yoxdur. Bəzi adamlar bu ziyarətgahın adında iki dəfə işlənən "pir" (Pir-i Süleyman piri) sözünü "ziyarətgah", "ocaq", "pir" mənasında qəbul edirlər. Bu fikrin heç bir elmi əsası yoxdur. Çünki üç kəlmədən ibarət söz birləşməsində ziyarətgah mənasında olan "pir" sözünün iki dəfə işlənməsi məntiqi cəhətdən düzgün deyildir. Ona görə tam qətiyyətlə demək olar ki, ziyarətgahın adındakı birinci "Pir" sözü sufi təriqəti rəhbərlərinə verilən ən yüksək tituldur. Sufi pirlərinə məxsus bütün keyfiyyətlər Pir Süleymana da aid olmuş və o, Tənənəm kəndi ərazisində fəaliyyət göstərən xanəgahın rəhbər şeyxi olmuşdur.

Yerli əhali içərisində bəzi adamlar "Pir Süleyman" ziyarətgahını "Birinci Süleyman" adlandırırlar. "Pir" sözünün mənşəyi haqqında danışarkən t.e.d. M.S.Nemət yazır ki, bu istilahı türk sözü "Bir"lə bağlayırlar. Bəzi kitabələrdə və orta əsr mənbələrində bu söz "Birə" formasında işlənib. "Pir", "Bir" və yaxud "Birə" sözü güman ki, birinci, yəni öndə gedən, mürşid mənasını bildirir **(Nemət M., 1992, s. 6)**. Alimin sözlərinə

əsasən deyə bilərik ki, Pir-i Süleymanla "Birinci Süleyman" sözləri də eyni kökdəndir və ayrı-ayrı adamlar tərəfindən müxtəlif deyiliş formasıdır. Ehtimal ki, burada hansı isə təriqətə məxsus xanəgah fəaliyyət göstərmiş, Süleyman isə oranın rəhbər şeyxlərindən olmuşdur. Müridləri və əhali arasında böyük nüfuza və hörmətə malik olan bu şeyx öldükdən sonra öz xanəgahında dəfn olunmuş, qəbiri ziyarətgaha çevrilmişdir.

Tənənəm piri haqqında əhali arasında yayılan rəvayətdə qeyd olunduğu kimi kənd yaranmamışdan əvvəl, ərazidə pirin – xanəgahın olması sufi məskənləri üçün xarakterik haldır. Məlum olduğu kimi, orta əsrlərdə sufi təriqəti üzvlərinin yaşayış, ibadət və zikr məskəni olan və adətən ticarət-karvan yollarının üzərində, gediş-gəliş çox olan yerlərdə qurulan xanəgahlar əsasən yaşayış məskənlərindən kənar yerlərdə inşa edilirdi. Sonradan bu mərkəzlərin ətrafında insanlar məskən salır, beləliklə, yeni yaşayış məskənləri əmələ gəlirdi.

## İsfəndiyar (Qaş) piri

Orta əsrlər zamanı Naxçıvan şəhərinin yaxınlığında, fəaliyyət göstərən müqəddəs yerlərdən biri də İsfəndiyar (Qaş) piridir. Bu pir Naxçıvan şəhərindən təxminən 15 km aralı bir ərazidə fəaliyyət göstərən İsfəndiyar zaviyəsi əsasında yaranmışdır. Yerli əhali arasında çox vaxt "Qaş piri" də deyilən, ancaq "İsfəndiyar piri" adı ilə tanınan (Ordubad rayonunun Üstüpü kəndinin şərq tərəfində, yüksəklikdə yerləşən pirin də adlarından biri "İsfəndiyar piri"dir) bu ziyarətgah Babək bölgəsinin Cəhri kəndindən təxminən 2 km qərb tərəfdə, dağlıq ərazidəki mağarada yerləşir. Cəhri kəndini qərbdən səd kimi əhatə edən dağın (yerli əhali tərəfindən "Qaş" adlandırılır) şərq yamacında bir mağara vardır. Girişi cənubdan olaraq şimala doğru uzanan mağaranın uzunluğu 30 metrdən artıqdır. Bundan sonrakı hissə tavandan uçub tökülən torpaqla dolduğundan mağaranın dərinliklərinə qədər getmək

mümkün deyildir. Uzun illərdən bəri yağan yağış və qar sularının yuxarıdan yuyub gətirdiyi torpaq və lil mağaranın girişini tutmuş və oraya daxil olmağı çətinləşdirmişdi. Son illərdə mağaranın girişi təmizlənib açılmışdır. Hazırda oraya girmək və irəliyə doğru hərəkət etmək ancaq əyilmiş vəziyyətdə mümkündür.

Mağaranın içərisində, girişdən təxminən 15 metr daxildə qara rəngli bir daş vardır. Pirdə ziyarət obyekti bu qara daşdır. Cəhri kənd əhalisinin fikrincə bu qara daşı iki ilan qoruyur. Onlar ziyarətə gələn zəvvarlara heç bir zərər yetirmir, ziyarət vaxtı çəkilib gedirlər. Buraya ziyarətə əsasən yaxınlıqdakı Cəhri kəndinin əhalisi gəlir. Maraqlıdır ki, buraya ziyarətə gələnlər özləri ilə qurban kimi xoruz gətirirlər. Bu adətə muxtar respublika ərazisindəki bəzi ziyarətgahlarda, o cümlədən Şahbuz bölgəsinin Badamlı kəndindəki pirdə, Zəngəzurun Ələyaz kəndindəki Əxi Təvəkkülün türbəsində, Daşkəsəndə və s. yerlərdə də təsadüf edilir.

Pirin mahiyyəti və nə üçün ziyarətgaha çevrilməsi haqqında yerli əhali arasında vahid bir fikir yoxdur. Onun haqqında Cəhri kənd əhalisi arasında bir neçə rəvayət yaşamaqdadır. Rəvayətlərdən birinin qısa məzmunu belədir: Cənubi Azərbaycanın kəndlərindən birində bir hacı və onun da bir qızı varmış. Kənd əhalisinin əksəriyyəti müsəlman-türk, az bir qismi isə erməni imiş. Əhali kəndin kənarındakı yeganə kəhrizdən istifadə edərmiş. Müsəlman-türk əhali yağışlı günlərdə torpağı və bulağı murdarlamasınlar deyə erməniləri kəndin mərkəzinə və bulağa getməyə qoymazmışlar.

Bir gün hacının qızı su gətirmək üçün bulağa gedir və örpəyini açıb üzünü yuyarkən kənarda dayanan erməni oğlan onu görür və ona aşiq olur. Bundan sonra erməni oğlan qızı izləməyə başlayır. Bir neçə gündən sonra erməni oğlan öz məqsədini qıza desə də, qız onu rədd edir və bildirir ki, bu heç bir vəchlə baş tutan iş deyil. Ortaya qan düşməsin deyə qız bu məsələni açıb-ağartmır və evdə bu haqda heç nə demir. Oğlan isə ondan əl çəkmir.

Qız ailələrinin şərəfinə ləkə gəlməsini istəmir. Çox düşünür. Nəhayət, çıxış yolunu kəndi tərk edib qaçmaqda görür və gecə ikən ata minib şimala doğru hərəkət edir. Qız bir neçə yerdə namaz qılaraq dua edir və Allahdan ölüm istəyir. Arazı şimala doğru adlayıb Qaraçuq kəndini, Duzdağı arxada buraxır. Cəhri kəndi yaxınlığında, dağın yamacında qız namaz qılıb Allahdan bir daha ölüm istəyir. Allah onun duasını qəbul edir və qız qara daşa çevrilir. Sonra əhali bu hadisədən xəbər tutur və həmin yer pirə çevrilir.

Pir haqqında əhali arasında ziyarətgahın mahiyyəti ilə daha çox əlaqələndirilən başqa bir rəvayət də dolaşmaqdadır. Rəvayətdə deyilir ki, bir zamanlar Qaşın ətəkləri meşəlik imiş. Arazın o tayında, Cənubi Azərbaycan kəndlərinin birində İsfəndiyar adlı mərd, cəsur bir oğlan ağasının qızına aşiq olur. Qız da oğlanı sevir. Lakin bilirlər ki, qızın atası onların evlənməyinə icazə verməyəcək. Ona görə də onlar öz məmləkətlərindən qaçıb bu dağlara, meşəyə və mağaraya sığınırlar. Qızın atası bundan xəbər tutur. Onun adamları axtara-axtara gəlib mağaranı tapır və İsfəndiyar onlarla döyüşərək həlak olur. Qız isə mağaraya girib Allaha yalvarır ki, onu daşa çevirib İsfəndiyara yoldaş etsin. Allah onun arzusunu eşidib qızı qara daşa döndərir. Bu hadisədən qorxuya düşüb İsfəndiyarı öldürüldüyü yerdə dəfn edirlər. Olanları eşidən xalq mağaranı ziyarətgaha çevirir **(Qədirzadə H.Q., 2007, s. 118)**.

Cəhri kəndinin bəzi sakinlərinin yaddaşında bu müqəddəs yerlə bağlı başqa fikirlər də vardır. Ancaq haqqında bu cür müxtəlif rəvayətlər söylənilən pir haqqında orta əsr qaynaqlarında hələlik heç bir məlumata təsadüf edilməmişdir. Yeganə olaraq "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu pir haqqında qısa məlumatla rastlaşırıq. "Dəftər"də oxuyuruq: "Cəhri kəndi ərazisindəki İsfəndiyar zaviyəsinin vəqfi. Bu zaviyə İbadullanın ziyarətgahıdır. Yay günləri buraya qurbanlıq gətirilib kəsilərək, kasıb camaata sədəqə edildiyini kənd əhalisi xəbər

verdi. Bu qayda dəftərdə qeyd olundu” **(Naxçıvan sancağının…, 1997, s. 122-123)**.

1727-ci ilə aid olan qaynağın verdiyi məlumatdan aydın olur ki, “pir” kimi tanınan bu yer əslində zaviyə olmuşdur. Ərəb dilindən alınan “zaviyə” isə sufilərin yaşayış məskənlərindən olan və əksər yerlərdə “xanəgah”, “təkkə”, bəzən isə “təkyə” adlanan yerlərə verilən addır.

Qaynaqlarda, folklor nümunələrində orta əsrlər zamanı “abid”, “zahid”, “dərviş” adı ilə tanınan sufilərin mağaralarda və digər sufi mərkəzlərində öz müridləri ilə yaşayıb ideyalarını yayması barədə kifayət qədər məlumatlar vardır. Həmçinin orta əsr müəlliflərinin əsərlərində və folklor nümunələrində bizədək bəzən bu adamların ümumi əhalidən təcrid olunaraq yaşayış məskənlərindən kənar bir yerdə, xüsusilə mağaralarda tək-tənha yaşayaraq tərki-dünya həyat keçirmələri, ancaq Allaha ibadətlə, zahidliklə ömür sürdükləri haqqında çoxlu faktlar gəlib çatmışdır.

Bütün bunlara əsasən ehtimal etmək olar ki, burada da ya bir sufi təriqəti başçısı öz müridləri ilə yaşamış və yaxud da bir zahid-abid oraya sığınaraq tərki-dünya həyat keçirmişdir. Yuxarıda qeyd olunan əlamətlər ən çox Qələndəriyyə sufi cəmiyyətinə mənsub olan dərvişlərə aid olduğundan İsfəndiyar zaviyəsində yaşayan dərvişin və ya dərvişlər qrupunun həmin təriqətə mənsub olduğunu söyləmək olar.

Ancaq çox təəssüf ki, el arasında adlandığı və “Müfəssəl dəftər”də də qeyd olunduğu kimi zaviyənin məxsus olduğu İsfəndiyarın şəxsiyyətini aydınlaşdırmaq mümkün olmamışdır. Həmçinin “Dəftər”də “Bu zaviyə İbadullanın ziyarətgahıdır” deyə anılan İbadullanın şəxsiyyəti haqqında konkret fikir söyləmək mümkün deyildir.

“Dəftər”in məlumatında bir cəhət diqqəti cəlb edir ki, bu da XVIII əsrdə zaviyəyə – ziyarətgaha gedən zəvvarların qurbanlıq üçün buraya heyvan gətirmələri və onu kəsib ətini kasıb adamlara paylamasıdır. Göründüyü kimi, əvvəllər burada

heyvan kəsilməsi adəti olmuş, ancaq sonralar bu adət dəyişilmiş və xoruz kəsilməsi (islam dinində qurban üçün ancaq dəvə, inək, qoyun, keçi nəzərdə tutulmuşdur) ilə əvəz olunmuşdur.

## Pir Məqsud piri

Bu ziyarətgah-pir Ordubad rayonunun Vənənd kəndinin şimal tərəfində, Abidin məscidinin cənub-qərb hissəsində ona bitişik vəziyyətdə yerləşir. Hazırda yerli əhali tərəfindən ziyarət edilən bu pir düzbucaqlı formalı kiçik binadan ibarətdir. Binanın içərisində bir qəbir vardır. Qəbirin üstü son zamanlar betonlanmış və kiçik başdaşı qoyulmuşdur. Ancaq başdaşının üzərində epiqrafik sənəd, kitabə olmadığı üçün mənsubiyyətini təyin etmək mümkün olmamışdır. Ona görə də bu qəbirin nə üçün ziyarətgaha çevrilməsi haqqında dəqiq məlumat yoxdur.

Yerli əhali arasında da bu ziyarətgah-pir haqqında qaneedici bir fikrə rast gəlinmir. Ziyarətgahı el arasında bəzi adamlar məscidin yanında olduğu üçün "Abidin məscidinin piri", bəziləri isə "Pir Məqsud piri" adlandırır. Fikrimizcə ziyarətgahın xalq arasında adlandırıldığı birinci variantın ("Abidin məscidinin piri") elmi əsası yoxdur. Çünki Naxçıvan bölgəsində apardığımız tədqiqatlar və başqa tədqiqatçıların fikirləri də göstərir ki, orta əsrlər zamanı məscidlər yanında ziyarətgahların yaranması faktı yoxdur. Əksinə müqəddəs şəxslərin, sufi şeyxlərinin, övliyaların, seyyidlərin və s. qəbirləri yanında məscidlərin və s. bu tipli binaların inşa olunması, nəticədə böyük ziyarətgah komplekslərinin əmələ gəlməsi faktı onlarladır. Bu baxımdan Parçı imamzadəsini, Naxçıvan imamzadəsini, Nehrəm imamzadəsini, Düylün pirini, Tiri pirini və s. Müqəddəs yerləri göstərmək olar. Deməli pirə verilən birinci adın elmi əsası yoxdur.

Ancaq pirin əhali arasında yaşanan ikinci adı (Pir Məqsud piri) ziyarətgah və onun mahiyyəti haqqında müəyyən fikir

söyləməyə əsas verir. Ziyarətgahın bu variantda olan adında iki dəfə "pir" sözü işlənmişdir. Bir adda "ziyarətgah", "ocaq" anlamında işlənən pir sözünün iki dəfə – həm adın əvvəlində, həm də sonunda ifadə olunması mümkün deyil. Pir Məqsud piri ziyarətgahında adı (Məqsud) ilə əlaqədar ziyarətgah yaranmış Məqsudun adının əvvəlinə əlavə edilmiş, birinci "pir" titul, adın sonuna əlavə edilmiş "pir" isə "ziyarətgah", "ocaq", "müqəddəs yer" mənasını ifadə edir.

"Pir" titulu orta əsrlərdə Azərbaycanda geniş yayılmış dini-fəlsəfi və siyasi cərəyan olan sufi təriqətləri ilə bağlıdır. Sufilikdə ən yüksək hesab olunan bu titul dörd idrak mərhələsini (şəriət, təriqət, mərifət, həqiqət) uğurla başa vurmuş təriqət mənsublarına verilirdi. Bu titulu daşıyan adamlar – şeyxlər öz xanəgahlarını yaradır, orada oturur, ətrafına müridlər toplayır, onlara öz ideyalarını mənimsədir, ardıcıllarını yetişdirir, ideyalarını yayırdılar. Bu qəbildən olan adamlar adətən öz ailələri ilə birlikdə xanəgahda yaşayır, öldükdən sonra da orada dəfn olunurdular. Həmin pirlərin, övliyaların, şeyxlərin qəbiri çox vaxt müridləri və əhali tərəfindən ziyarətgaha çevrilirdi. Fikrimizcə, Şəmsəddin Məhəmməd Cüveyninin XIII əsrdə Vənənddə inşa etdirdiyi xanəgah **(Piriyev V., 2004, s. 27)** bu ziyarətgahın yerində olmuşdur. Orada sufi təriqətinə mənsub dərvişlər qrupu fəaliyyət göstərmiş, sufilikdə pir dərəcəsinə çatmış Pir Məqsud da onun rəhbər şeyxi olmuşdur. Pirdə müqəddəs hesab olunan və ziyarət edilən qəbir də onun qəbiridir. Bu qəbir ziyarətgaha çevriləndən sonra buraya gələn zəvvarların sayı artmış, ona görə də onlara ibadət etmək üçün məscid inşa edilmişdir. Məscid Abidin adlı şəxs tərəfindən tikdirildiyi üçün onun adı ilə adlanır (bax: "Abidin məscidi" məqaləsinə). Xanəgah-ziyarətgahın qərb tərəfində indi məscidin həyəti hesab olunan ərazidə kiçik qəbiristanlıq olmuşdur. Hazırda itib batmış qəbiristanlıq ziyarət obyekti olan qəbirin – Pir Məqsudun məzarının ətrafında keçirilən fəxri dəfnlər sayəsində meydana gəlmişdir.

## Sır Xanağa piri

Ordubad rayonunun Vələver kəndində əhalinin ziyarət etdiyi başqa bir pir də vardır. Bu pir kəndin cənubunda, Sır Xanağa məhəlləsində yerləşir. El arasında "Sır Xanağa piri" ("Sirri-Xanağa piri") adlanan pirin üstü dörd ədəd sütun üstündə qərar tutan çardaqla örtülmüşdür. Bu pirdə uyuyan mərhumun kimliyi bəlli deyildir. Ancaq kənd əhalisinin fikrincə bu qəbirdə uyuyan şəxs Ordubad rayonunun Xanağa kəndindəki pirdə dəfn olunan şəxsin əmisi qızıdır. Pirin ətrafında dağdağan və çinar ağacları vardır.

Pirin yaranma tarixini XVI əsrə aid etmək olar.

## Baba Yəqub piri

Yerli xarakter daşıyan və əsasən yerləşdiyi ərazinin əhalisi tərəfindən ziyarət edilən bu ziyarətgah-pir Ordubad rayonunun Dəstə kəndinin cənub-qərb tərəfində, Zündün massivində, Arazın sol sahilində, çay yatağından, təxminən 15 metr yüksəklikdə yerləşir. Ziyarətgah-pir girişi şimaldan olan kiçik bir binadan ibarətdir. Binanın içərisində ziyarət obyekti olan iki qəbir vardır. Qəbirlərin üstündə adi çay daşından başdaşı vardır. Ancaq başdaşıların üzərində epitafiya (məzar kitabəsi) olmadığı üçün orada kimlərin uyuduğunu təyin etmək mümkün olmamışdır. Qəbirlərin üstü daşla 30 sm hündürlüyündə hörülmüş, gəclə suvanmışdır. Qəbirlərdən birinin üstünə iki başdaşı qoyulmuşdur. Yerli əhalinin fikrincə cənubda olan bu qəbir uşaq qəbiridir.

Böyük qəbirin üstündə kiçik daş parçası vardır. Daşın üstündə ərəb dilində "lə ilahə illəllah" ("Allahdan başqa Allah yoxdur") sözləri yazılmışdır. Ziyarətgahın şimal tərəfi orta əsrlərə aid qəbiristanlıqdan ibarətdir. Maraqlıdır ki, bu ziyarətgahdan təxminən 10 km şimal-şərqdə yerləşən Ordubad şəhərində və elə bir o qədər aralı, cənub-şərq tərəfdə, hazırda İran İslam

Respublikasına aid olan Siyah-Rud kəndində də eyni adlı ziyarətgah-pirlər vardır.

Ordubad şəhərində hazırda məscid kimi istifadə olunan, eyni zamanda pir kimi ziyarət edilən Baba Yəqub məscidi şəhərin şimalında yerləşir (bax: “Baba Yaqub xanəgah-piri” məqaləsinə). Ordubad şəhərindəki, Dəstə və Siyah-Rud kəndlərindəki Pir Yəqub piri və ya Baba Yəqub piri adı ilə tanınan bu yerlərin nə üçün müqəddəsləşdirildiyinə, ziyarətgaha çevrildiyinə aid xalq arasında elə bir tutarlı fikir yoxdur. Ancaq hər üç ziyarətgahın daşıdığı ada əsasən onların mahiyyəti haqqında müəyyən fikir söyləmək olar. Adlarından göründüyü kimi bu müqəddəs yerlər – ziyarətgahlar Yəqub adlı adamla əlaqədardır. Bəs Yəqub özü kimdir? Onun adının əvvəlində deyilən “Baba” sözü tituldur və bu titul hər üç ziyarətgah haqqında müəyyən fikir yürütməyə əsas verir. “Baba” titulu müsəlman şərqində geniş yayılan bir sıra sufi təriqətlərində, xüsusilə “Bektaşiyyə” təriqətində ən yüksək titullardan biri olmuşdur. Bu təriqətə məxsus olan xanəgahların rəhbərləri bir sıra digər yüksək titullarla yanaşı “Baba” titulu da daşıyırdılar.

“Baba” titulunu daşımasına əsasən demək olar ki, Baba Yəqubun adı ilə bağlı olan və haqqında qısa şəkildə bəhs olunan hər üç ziyarətgah orta əsrlərdə Naxçıvanda geniş yayılan “Bektaşiyyə” sufi təriqəti ilə əlaqədar yaranmışdır. Fikrimizcə, Baba Yəqub məşhur sufi şeyxi olmuş, bu ziyarətgahların yerində ona məxsus xanəgahlar fəaliyyət göstərmiş, həmin xanəgahlara onun ideyalarını yayan adamlar rəhbərlik etmişlər. Həmin adamlar öldükdən sona öz xanəgahlarında, yaxud da xanəgahları ətrafında dəfn olunmuş, qəbirləri isə müridləri və əhali tərəfindən ziyarət edilmişdir. Sonralar bu ziyarətlər ənənəyə çevrilmiş və nəsildən-nəsilə keçərək indi də ziyarət olunmaqdadırlar. Ziyarətgahların ətrafındakı qəbiristanlıqlar isə sonralar orada mərhumların arzusuna uyğun olaraq keçirilən fəxri dəfnlər hesabına yaranmışdır.

## Binamaz Əhməd piri

Binamaz Əhməd piri Şərur rayonunun Dəmirçi kəndindədir. Kəndin mərkəzində yerləşən bu pirin binası əvvəllər möhrədən inşa olunmuş kiçik bir binadan ibarət idi. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra pirin binası yenidən qurulmuş, daşdan inşa edilmişdir. Pirdə ziyarət obyekti binanın daxilində olan qəbirdir. Qəbirin üstündə epiqrafik sənəd – kitabə olmadığı üçün onun mənsubiyyətini aydınlaşdırmaq mümkün olmamışdır. Yerli əhali arasında yayılan fikrə görə bu qəbir Əhməd adlı bir adama məxsusdur. Əhməd namaz qılmadığı üçün əhali arasında "Binamaz Əhməd" kimi tanındığından onun qəbiri əsasında yaranan ziyarətgaha "Binamaz Əhməd piri" deyilir. Pir haqqında yerli əhali arasında bir neçə rəvayət vardır.

Kənd əhalisi arasında geniş yayılmış bir rəvayətə görə keçmişdə Dəmirçidə hamı islam dininin bütün qayda-qanunlarına sözsüz əməl edirdi. Hamı oruc tutar, namaz qılar, axirət dünyası üçün savab qazanardı. Ancaq Əhməd kişidən heç kimin xoşu gəlməz, namaz qılmadığı üçün ona Binamaz Əhməd deyər, xeyirdə-şərdə sayıb-saydırmazdılar. Əslində Əhməd kişinin namaz qılmağı bir sirr imiş. Vaxtı gələndə bir göy yallı, göy yəhərli at Əhmədin qapısında zühur edər, onu götürüb bir an içində Məkkə şəhərinə – Kəbəyə apararmış. Binamaz Əhməd də beləcə Kəbədə namazını qılar, el qınağına, el töhmətinə fikir verməz, öz əməlinə, öz etiqadına sadiq qalardı.

O, bir gün Kəbədə yenə də namaz qılıb geri qayıtmaq istəyirdi ki, yaycılı bir zəvvara rast gəlir. Zəvvar Əhməd kişini tanıyıb deyir ki, neçə gündür mənimlə ziyarətə gələnlər qayıdıblar. Mən xəstələndiyim üçün qayıda bilməmişəm. İndi də naəlac qalmışam. Yolları tanımıram. Allah xatirinə mənə kömək et! Əhməd kişi həmin zəvvarı atın tərkində oturdub deyir ki, gözlərini yum, mən deyəndə açarsan. O, "ya Allah" deyib ata bir qamçı vuranda, at ildırıma dönür. Kişi gözünü açanda

inana bilmir ki, Arpaçayın sahilindədir. Binamaz Əhməd Dəmirçiyə, o isə evlərinə gedir. Hələ Kəbədən çıxmış zəvvarlardan xəbər yox idi. Kişi əhvalatı olduğu kimi camaata danışır. Bütün kənd əhalisi qurbanlıq qoyunlar götürüb Dəmirçiyə, Binamaz Əhmədin ziyarətinə gedirlər. Kəndə çatdıqda görürlər ki, sirr açıldığından Binamaz Əhməd öz dünyasını dəyişib. Onu son mənzilə yola salırlar. Yaycılı zəvvar Əhməd kişinin məzarı üstündə türbə tikdirməyi qərara alır. Elə o vaxtdan da heç kim Binamaz Əhmədin namaz qılmağına şəkk eləmir, ona rəhmət oxuya-oxuya bu müqəddəs ocağa and içir, ziyarətə gəlirlər **(Qurbani A., 1994, s. 112)**.

Hazırda bu ziyarətgah Dəmirçi kəndinin əhalisi və ətraf kəndlərdən gələn zəvvarlar tərəfindən böyük hörmət və ehtiramla ziyarət edilir, orada qurbanlar kəsilir, nəzir verilir, dini mərasimlər icra olunur.

Qeyd olunduğu kimi pirin içərisindəki qəbirin üzərində epiqrafik sənəd – kitabə olmadığı üçün onun dövrü haqqında qəti fikir söyləmək mümkün olmasa da, ətrafda aşkar olunan arxeoloji maddi-mədəniyyət nümunələrinə əsasən onun tarixini XVI əsrə aid etmək olar **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 46)**.

## İmminin ocağı

Şərur rayonunun Zeyvə kəndində, el arasında “İmminin ocağı” adlanan ziyarətgah vardır. Bu ziyarətgah yerli xarakter daşıyır. Vaxtilə möhrədən tikilmiş kiçik bir tikilidən ibarət olan bu pirin binası sonralar bərpa olunmuş, yenidən tikilmişdir. Pirin içərisində sənduqə tipli üç qəbirüstü xatirə abidəsi vardır. Sənduqələrin bəzisinin üzərində kitabə həkk edilsə də, zaman keçdikcə güclü aşınması səbəbindən oxunması mümkün olmamışdır.

Ziyarətgahın tarixini XV-XVI əsrlərə aid etmək olar.

## Şəfa piri

Şərur rayonunun əhalisi arasında kifayət qədər tanınan ziyarətgahlardan biri də el arasında "Şəfa piri" kimi məşhur olan müqəddəs yerdir. Bu ziyarətgah rayonun Zeyvə kəndindədir. Pirin binası əvvəllər möhrədən tikilmiş kiçik bir tikili olmuş, sonralar yenidən qurularaq bişmiş kərpicdən inşa olunmuşdur.

Pirdə ziyarət obyekti binanın daxilindəki qəbirdir. Qəbirin üstündə üstü nəbati və simvolik ornamentlərlə nəfis şəkildə bəzədilmiş sənduqə tipli qəbirüstü xatirə abidəsi vardır. Pirə əsasən müxtəlif xəstəliyə düçar olmuş adamlar gəlir. Xəstələr burada şəfa tapdığı üçün ziyarətgaha "Şəfa piri" adı verilmişdir.

Qəbirin üstündəki sənduqənin hazırlanma texnikasına əsasən onun tarixini oxşar abidələrlə müqayisə edərək XVI-XVII əsrlərə aid etmək olar.

## İmam ayağı piri

"İmam ayağı piri" Ordubad rayonunun Dəstə kəndinin cənub-şərq tərəfində yerləşir. Arazın sol sahilində, Zündün massivinin ayağında yerləşən və çiy kərpicdən inşa edilən pir binası iki otaqdan ibarətdir. Qərb tərəfdəki otaqda iri bir qaya vardır. Uzunluğu 120, eni 90, hündürlüyü 50-60 sm olan həmin qayanın üstündə ayaq izi var. Bu iz sağ ayağın izidir. Pirin şərq tərəfində nisbətən sonralar inşa edilən otaq ziyarətə gələnlərin ibadəti və istirahəti üçün nəzərdə tutulmuşdur.

Pirin tarixini XVI-XVII əsrlərə aid etmək olar.

## Pir Baba xanəgah-piri

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisindəki müqəddəs yerlərdən biri də Pir Baba ziyarətgahıdır. Yerli əhali tərəfindən ziyarətgaha çevrilən bu yer orta əsrlər zamanı orada fəaliyyət göstərən xanəgahla əlaqədar yaranmışdır. Bu ziyarətgah-pir Ordubad rayonunun Qoşa Dizə kəndindən

təxminən 1 km aralı, orta əsr Xaraba Gilan şəhər yerinin şimal tərəfində, Cüpey dərədə, Gilançayın sol qolu Xalıkeşan çayının sahilində olan təpənin yamacında yerləşir. Pir binası təpənin yamacında qazma yolu ilə mağara tipli düzəldilmiş iki otaqdan ibarətdir. Yerli əhalinin dediyinə görə birinci otaq məscid, ikinci otaq ziyarətgahdır. Otaqlar o qədər də hündür deyildir (təxminən 2 metr). Divarlarında şam və çıraq yandırmaq üçün taxçalar düzəldilmişdir. Pirin ikinci otağında ziyarət obyekti olan qəbir vardır. Qəbirin üstündə epiqrafik sənəd – kitabə olmadığı üçün mənsubiyyətini aydınlaşdırmaq mümkün deyildir. Culfa rayonunun Camaldın kəndi yaxınlığındakı Alməmməd (Ərməmməd) pirində olduğu kimi bu binada da ikinci otağa – ziyarət yerinə birinci otaqdan daxil olunur. Pirin ətrafı qəbiristanlıqdır. Orta əsrlərə aid olan bu qəbirlərin bəzisinin üstünə uzunsov, dairəvi (oval) formada çay daşları düzülmüşdür. Qəbirlərin üstündə üzərində kitabə olan xatirə abidəsi qalmamışdır. Ancaq Qoşa Dizə kəndi əhalisinin dediyinə görə vaxtilə burada mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidələri var imiş.

Ətraf kəndlərin (Qoşa Dizə, Kələntər Dizə, Sabirkənd və s.) əhalisi tərəfindən müqəddəs sayılan bu yerin nə üçün ziyarətgaha çevrilməsi haqqında xalq arasında elə bir məlumat yoxdur. Fikrimizcə, bu ziyarətgah orta əsrlərdə Azərbaycanda, o cümlədən Naxçıvanda geniş yayılan dini-siyasi və fəlsəfi cərəyan olan sufiliklə əlaqədar yaranmışdır. Orta əsrlər zamanı sufi təriqətlərinə məxsus xanəgahlar əsasən ticarət-karvan yollarının üstündə, gediş-gəlişin sıx olduğu yerlərdə inşa edilirdi. Bu ziyarətgah da Ordubad-Sədərək və əks istiqamətdə hərəkət edən ticarət karvanlarının yolu üstündədir.

Digər tərəfdən ziyarətgahın adı (Pir Baba) da fikrimizi möhkəmləndirən əsas amillərdəndir. Orta əsrlər zamanı "Pir" sufilikdə ən yüksək titul sayılır və şəriət, təriqət, mərifət, həqiqət mərhələlərini uğurla başa vuran adamlara verilirdi. Ziyarət-

gahın adındakı Baba isə şəxs adı kimi qəbul edilə bilər. Həmçinin, “Baba” bir sıra sufi təriqətlərində, xüsusi ilə Bektaşilikdə yüksək titul idi.

Ehtimal ki, orta əsrlərdə bu ziyarətgahın yerində Pir Babanın xanəgahı olmuş, o buradan öz ideyalarını yaymışdır. Sufi şeyxlərinin bəzilərinin insanlardan kənar, dağlarda – mağaralarda yaşayaraq günlərini ibadət və zikrlə keçirmələri faktına, bu xanəgahın da yaşayış məskənlərindən aralı, dağ döşündə mağara tipli yerdən ibarət olması faktına söykənərək ziyarətgahın xanəgah yerində meydana gəlməsi fikrində israrlı olmaq olar. Fikrimizcə, burada yaşayaraq fəaliyyət göstərən Pir Baba vəfat etdikdən sonra adətə uyğun olaraq (orta əsrlərdə sufi şeyxləri əsasən xanəgahlarda, yaxud da xanəgah ətrafında dəfn olunurdular) öz xanəgahında dəfn olunmuş, yerli əhali arasında sağlığında öz paklığı, müqəddəsliyi və s. müsbət keyfiyyətləri ilə müridləri və yerli əhali arasında böyük nüfuz qazanmasına görə qəbiri ziyarətgaha çevrilmişdir. Ətrafdakı qəbiristanlıq isə onun qəbirinin xatirinə burada keçirilən fəxri dəfnlər hesabına yaranmışdır.

## Miranşah piri

Miranşah piri Babək rayonunun Qaraqala kəndində yerləşir. Kəndin şərqində hündür təpənin ətəyində, qayanın oyuğunda yerləşən pir e.ə. III-II minilliklərdə insanların qədim daş inamları ilə əlaqədar yaransa da **(Naxçıvan abidələri ensiklopediyası, 2008, s. 304)** sonralar, orta əsrlər zamanı islami xarakter daşımağa başlamışdır. Hazırda pirdə iki qəbir vardır. Pirdə ziyarət obyekti bu qəbirlərdir. Qəbirlərin üstündə məzar kitabəsi olmadığı üçün orada dəfn olunanların mənsubiyyəti məlum deyildir. Ziyarətgahın nə üçün “Miranşah piri” adlandırılması da indiyədək aydınlaşdırılmamışdır.

Son vaxtlar pirin üzərində böyük bir bina inşa olunmuşdur.

## Sancı daşı

Kəngərli rayonunun Xıncab kəndinin şimalında yerləşən orta əsr qəbiristanlığında yerli əhali tərəfindən hörmət və ehtiramla ziyarət edilən, bir sıra xəstəliklərin, xüsusilə sancılanmanın dəf olunmasında, müalicə edilməsində müstəsna əhəmiyyəti olduğuna inanılan, el arasında “Sancı daşı” adlandırılan bir qəbirüstü daş vardır. Açıq havada olduğundan uzun illərdən bəri təbii qüvvələrin (yağış, qar, isti, soyuq, külək və s.) təsirinə məruz qalmış sənduqə tipli qəbirüstü xatirə abidəsindən ibarət olan bu daşın üzərində olan müxtəlif təsvirlər və kitabələr zaman keçdikcə güclü aşınmaya məruz qalmış, özü isə ortadan iki yerə bölünmüşdür.

Abidə indiyədək konkret tədqiqat obyektinə çevrilməmiş, ətraflı öyrənilməmişdir. Ancaq keçən yüzilliyin 20-30-cu illərində bəzi tədqiqatçılar müxtəlif ədəbiyyat materiallarında onun haqqında qısa, təxminən eyni məzmunlu məlumatlar verməklə kifayətlənmişlər. Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi M.Mirheydərzadə Şərur dairəsinə etdiyi səyahət haqqında adı çəkilən cəmiyyətin heyət iclasındakı (13 may 1928-ci il, protokol № 40) hesabat məruzəsində bu daş haqqında belə bir fikir söyləmişdir: “Xıncov (Xıncab-H.S.). Bu kənddə asari-ətiqədən mədud kəndin civar şimalisindəki qəbiristanlıqda “Sancı daşı” adlı bir daş vardır. Bu daşın uzunluğu təxmini surətdə bircə metro yarım, ucalığı 60 santimetro olub üzərində ölən şəxsin heykəl və surəti həkk edilmişdir. Bir tərəfdən at şəkli üstündə insan, əlində kaman, əlində yazılar ki, oxumaq mümkün olmadı. Daşın bir tərəfində şir, maral və dağ kələsi şəkilləri həkk edilmişdir. Baş tərəfində cocuq şəkli vardır və bu tərəfin yerə yapışan ucu dəlikdir. Tərəfi-şərqisi olan ayaq tərəfində keçmiş sənələrdə yazılar olduğu söylənilir. Burada yazı olduğu əsərlərindən bilinir. Hər halda daşın fotoqrafı alınması lazımdır.

Mümkün olsa nəql edilib muzeyə qoyulması daha yeyraqdır **(Xəlilov F., 2005, s. 68; Mirheydərzadə M., 1989)**.

Adı qeyd olunan Cəmiyyətin üzvü M.Rasizadə də M.Mirheydərzadənin hesabatından 2 il sonra orada qeyd olunanları müəyyən fərqlərlə "Azərbaycanı öyrənmə yolu" jurnalında nəşr etdirmişdir. "Şərur dairəsində səyahət haqqında qeydlər" adlanan həmin məqaləsində "Sancı daşı"ndan da bəhs edən müəllif yazır: "Çinincab (Xıncab-H.S.) kəndi: bu kəndin şimal qəbiristanlığında "Sancı daşı" adlanan bir daş vardır. Uzunu bir yarım metro, eni 60 santimetrodur. Daşın üzərində ön tərəfdə ölünün heykəli, at üstündə əlində kəmənd şəkli əks edilmişdir. Daşın altındakı yazılar oxunmamışdır. Digər tərəfində: şir, maral, dağ keçisi, baş tərəfində də bir çox incə şəkillər vardır. Daşın yerə yapışan tərəfi suraxdır" **(Rasizadə M., 1930, s. 82)**.

1934-cü ildə Naxçıvanda elmi ezamiyyətdə olmuş rus alimi K.N.Smirnov da bu daşı görmüş və Naxçıvana həsr etdiyi kitabında onun haqqında qısa şəkildə bəhs etmişdir: "Xıncab kəndində "Sancı daşı" adlandırılan bir daş vardır. Bu daşın uzunluğu bir metrə, eni 60 santimetrə yaxındır. Xəstələr bu daşın üstündə uzanaraq sağalacaqlarına ümid bəsləyirlər" **(Смирнов К.,1999, с. 105)**. Əsərinin başqa bir yerində alim bu məsələyə yenidən qayıdaraq yazır: "Xıncab suyu az olan yerdir. Qədim qəbiristanlıq vardır. "Sancı daşı" adlandırılan daş buradadır. Daşın üzərində təsvir olunmuş bahadırın əlində yay-kaman və hansısa qədim dildə yazı vardır. Daşın o biri tərəfində şir, maral, tur və kiçik heyvan təsvirləri vardır" **(Смирнов К.,1999, с. 118)**.

Yerli əhalinin fikrincə müxtəlif xəstəliklərə düçar olan, xüsusilə sancılanan adamlar bu daşı ziyarət etməklə, qarınlarını ona sürtməklə şəfa tapırlar. Həmçinin, yaşlı adamların söylədiyinə görə istək və diləklərinin qəbul olunması və yerinə yetməsi məqsədilə bu daşa müraciət edənlərin əksəriyyəti öz arzularına çatırlar. Ancaq görünür, daşın Xıncab kəndi və ətraf kəndlərin əhalisi tərəfindən

"Sancı daşı" kimi adlandırılması və tanınması onun daha çox sancının dəf olunması ilə şöhrət tapmasından irəli gəlmişdir.

Fikrimizcə, daşın üzərində indiyədək qalan, ancaq tədqiqatçıların da yazdığı kimi güclü aşınmaya məruz qaldığından oxunması mümkün olmayan kitabələr onun mahiyyətini aydınlaşdırmaq üçün açar ola bilər. Daşın şir, öküz və öküzün belində qartal təsviri həkk edilmiş yanında, təsvirdən yuxarıda ərəb əlifbası ilə ərəb dilində bir sətirdə oyma üsulu ilə həkk edilmiş kitabədən çətinliklə də olsa bəzi sözləri oxumaq mümkün olmuşdur. "Seyyid Mürtəza" sözü ilə başlanan kitabədən aydın olur ki, bu məzarüstü abidə Pir Hüseyn adlı şəxsiyyətin oğlunun xatirəsinə hazırlanmış və onun qəbirinin üzərində qoyulmuşdur. Adının oxunması hələlik mümkün olmayan mərhumun atasının adı kitabədə "pir" titulu ilə – Pir Hüseyn kimi qeyd olunmuşdur.

"Pir" kəlməsi Azərbaycan dilində və ədəbiyyat materiallarında üç anlamda işlədilir. Birinci anlamda bu söz "qoca", ikinci anlamda "ziyarətgah", "pir", "müqəddəs yer" kimi başa düşülür. Bu zaman "pir" kəlməsi məxsus olduğu yaşayış məskəninin adının sonuna əlavə edilir və onun adı ilə səsləndirilir. Məsələn, Ərəfsə piri, Düylün piri, Nüsnüs piri, Yuxarı Buzqov piri və s. Bəzi hallarda qəbiri ziyarətgaha–pirə çevrilmiş görkəmli adamların adı ilə adlandırılan müqəddəs yerlərə də rast gəlinir: Seyyid Hüseyn piri, Baba Yəqub piri, Əli daşı piri və s.

"Pir" sözünün üçüncü mənası isə onun orta əsrlərdə müsəlman dünyasında, o cümlədən Azərbaycanda geniş yayılan və fəaliyyət göstərən sufi təriqətləri ilə əlaqədardır. "Pir" həmin vaxt sufi təriqətlərinə, bu təriqətlərə məxsus xanəgahlara rəhbərlik edən adamlara verilən titul olmuşdur. AMEA-nın müxbir üzvü M.Nemətə görə pir böyük ruhani alimlərə, sosial-siyasi, ideoloji mərkəzlərin rəhbərlərinə verilən ləqəb **(Nemət M., 1992, s. 6)**, akademik Z.Bünyadovun fikrincə Allah yolunda gedən, qorxulu və təhlükəli yerləri bilib müridə doğru yolu, faydalanacağı və ya zərər görəcəyi şeyləri göstərən kimsə

**(Bünyadov Z., 1997, s. 187)**, türk alimi H.Aktüccarın təbirincə "doğru yola dəlalət edən zat" **(Aktüccar H., 1984, s.157)** olmaqla sufilikdə ən yüksək məqam sayılmışdır. Bu titul dörd idrak mərhələsini (şəriət, təriqət, mərifət, həqiqət) uğurla keçmiş, sufilikdə ən yüksək mərtəbəyə yüksəlmiş təriqət mənsublarına verilirdi və şəxsi adın əvvəlinə əlavə olunurdu. Məsələn, Pir Xamuş, Pir Yaqub, Pir Süleyman, Pir Hüseyn və s.

"Sancı daşı" üzərində adı qeyd olunan Pir Hüseyn də orta əsrlərdə Xıncab kəndində fəaliyyət göstərən sufi xanəgahına rəhbərlik etmiş, "pir" titulu almağa qədər inkişaf yolu keçmişdir. Orta əsrlərdə sufi şeyxlərinin – pirlərinin övladlarının da atalarının yolu ilə getməsi, atalarından sonra xanəgah rəhbərliyinin irsən övlada keçməsinə dair çoxlu faktlar vardır. Fikrimizcə, bu qəbirüstü xatirə abidəsinin – "Sancı daşı"nın xatirəsinə hazırlandığı mərhum Pir Hüseynin oğlu da atasından sonra onun xanəgahının, ərazidə fəaliyyət göstərən sufiliklə bağlı mərkəzin rəhbəri olmuşdur. Fəaliyyəti dövründə qazandığı hörmət və nüfuza görə öldükdən sonra qəbiri və xatirəsinə hazırlanan abidə ziyarət olunmuşdur.

Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsindəki ziyarətgahların böyük bir hissəsinin sufi təriqətləri və onlara məxsus xanəgah rəhbərlərinin qəbirləri ilə əlaqədar olması faktını **(Nemət M., 1992; Səfərli H., 2003)** əsas götürərək, həmçinin üzərindəki kitabəyə söykənərək demək olar ki, keçmişdə Şərur, indi isə yeni inzibati-ərazi bölgüsünə görə Kəngərli bölgəsinə daxil olan Xıncab kəndindəki "Sancı daşı" adlı sənduqə tipli qəbirüstü xatirə abidəsinin ziyarətgaha çevrilməsi də onun vaxtilə bölgədə fəaliyyət göstərən sufi təriqətinə mənsub xanəgah rəhbərinin qəbiri üzərində qoyulması ilə əlaqədardır.

## Yaralı Sultan ocağı

Yaralı Sultan ocağı Kəngərli rayonunun Xıncab kəndinin mərkəzində yerləşir. Hazırda bərpa olunan pirin binası üzərində yerli əhalinin dediyinə görə vaxtilə kitabə olmuşdur.

1934-cü ildə Naxçıvan Muxtar Respublikasında olan rus alimi K.Smirnov yazır ki, Xıncab kəndində "Yaralı Sultan" adlanan günbəz olan köhnə qəbiristanlıq vardır. Ancaq ziyarətgah yoxdur **(Смирнов К., 1999, с. 105, 118)**. Çox ehtimal ki, K.Smirnovun Naxçıvanda olduğu vaxt XX yüzilliyin 30-cu illərində ziyarətgahlar təqib edildiyi, bu səbəbdən də "Yaralı Sultan" ocağının ziyarət edilməməsi səbəbindən K.Smirnov orada ziyarətgahın olmaması qənaətinə gəlmişdir.

Pirin ətrafında tapılan arxeoloji materiallara əsasən onun tarixini XIV-XV əsrlərə aid etmək olar.

## Vayxır piri

Babək rayonunun Vayxır kəndində yerləşən bu ziyarətgah kənd qəbiristanlığında yerləşir. Xalq arasında "Günbəz" adlanır. Buna əsasən demək olar ki, hazırda bərpa olunan pir günbəz formalı tikilidən ibarət olmuşdur.

Pirdə ziyarət obyekti iki qəbirdir. Qəbirlərin üstündə qoyulan daşların üzərində kitabə olsa da onlar zaman keçdikcə aşınaraq oxunmaz hala düşmüşdür. Ona görə də qəbirlərdə dəfn olunan mərhumların şəxsiyyəti haqqında konkret fikir söyləmək mümkün deyildir.

Pirin tarixini XVII-XVIII əsrlərə aid etmək olar.

## Tiri piri

Tiri piri Ordubad rayonunun Unus və Pəzməri kəndlərindən şərq tərəfdə yüksək dağın üzərində yerləşir. Pirin ətrafında çoxlu yaşıllıq vardır. Yerli əhalinin fikrincə, bu səbəbdən də ərazi belə adlanmışdır: "Tir" yaşıllıq mənası verdiyindən ərazi "Tiri

örüşü" adlandırılmış, pirə də "Yaşıl pir", "Yaşıllıq piri" və ya "Tiri piri" deyilmişdir. Sovet hakimiyyəti illərində baxımsız qalan ziyarətgahın binası müstəqillik dövründə Dırnıs kəndi əhalisi tərəfindən bərpa edilərək abadlaşdırılmışdır. Yerləşdiyi ərazinin adı ilə (Tiri örüşü) belə adlanan pir dördkünc formada olan əsas tikili və ona əlavə edilən artırmalardan – şüşəbənddən ibarətdir.

Pirdə əsas ziyarət obyekti binanın içərisində olan iki qəbirdir. Qəbirlərdən birinin üzərində ağ mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü abidə vardır. İncə ornamentlə nəfis şəkildə bəzədilmiş başdaşının üzərində ustalıqla açılmış dörd ədəd çərçivədə ərəb əlifbası ilə kitabələr həkk edilmişdir. Kitabələrin bəzi yeri aşındığı və başdaşının ortadan iki yerə bölünüb sonralar sementlə bərkidilməsi səbəbindən mətnin tam oxunması mümkün olmamışdır. Kitabədən birinci çərçivədə bu sözlər oxunmuşdur: "Ədlinlə qoyub aləmdə bir ad. ...".

Kitabənin üçüncü çərçivəsində isə bu sözlər həkk edilmişdir: "Ehsan oldu, tarix 995-ci il (12.12.1586 – 01.12.1587-ci il)".

Kitabə Naxçıvan ərazisində çox nadir hallarda təsadüf edilən Azərbaycan türkcəsində həkk edilən kitabələrdəndir. Kitabənin həkk edildiyi tarix Səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin son dövrləri, I Şah Abbasın hakimiyyətə gəldiyi dövrə təsadüf edir. Bu dövrdə Səfəvilər dövlətində türk mənşəli əyanlar hakim mövqeyə malik idilər. Azərbaycan dili dövlətlər arası yazışmalarda, sarayda, şahın ailəsində, orduda və s. əsas ünsiyyət vasitəsi idi. Ona görə də bu cəhət özünü epiqrafik abidələrin yazılmasında da göstərmiş və bəzi kitabələr, o cümlədən haqqında bəhs etdiyimiz kitabə Azərbaycan türkcəsində həkk edilmişdir.

Unus kənd əhalisinin söylədiyinə görə pirin yerində əvvəl qəbirlər olmuşdur. Deyilənə görə gecələr həmin qəbirlərdən işıq gəlirmiş. Adamlar həmin işığa doğru gedib onları tapıblar. Bundan sonra qəbirlərin üstündə bina tikilmişdir.

İnsanların, xüsusilə xəstələrin ziyarət etdiyi, nəzir verib qurban kəsdiyi pirdə uyuyan adamların şəxsiyyətləri hələlik aydınlaşdırılmayıb. Əhali arasında olan fikrə görə burada imam Museyi Kazımın nəslindən olan iki nəfər, Şərur bölgəsindəki Parçı imamzadəsində dəfn olunan Seyyid İbrahimin, Babək bölgəsindəki Nehrəm imamzadəsində uyuyan Seyyid Əqilin, Ordubad bölgəsindəki Düylün pirində ziyarət edilən Seyyid Səffanın (Səfinin), Mehri bölgəsindəki Buğurçar pirində məzarı olan Seyyid Əhmədin qohumları dəfn olunub.

Kitabədə qeyd olunan "Ədlinlə (ədalətinlə-H.S.) qoyub aləmdə bir ad..." sözlərinə əsasən ehtimal etmək olar ki, qəbirdə uyuyan şəxs bu ərazidə fəaliyyət göstərən hansı isə sufi təriqətinə mənsub xanəgahın rəhbərlərindən olmuşdur. O yaşadığı dövrdə öz ədaləti ilə müridləri və ətraf kəndlərin əhalisi arasında böyük nüfuz qazanmış, bu səbəbdən də öldükdən sonra qəbiri ziyarətgaha çevrilmişdir.

## Üstüpü piri

Bu müqəddəs yer-pir Ordubad rayonunun Üstüpü kəndinin şərq tərəfində, yüksək ərazidə yerləşir. Coğrafi cəhətdən yaşayış məskəninin səviyyəsindən yüksəklikdə yerləşdiyi üçün kəndin sakinləri kəndin adının yaranmasını bu əlamətlə əlaqələndirir. Onların fikrincə, kəndin adı əvvəlcə "Üstü pir" olmuş, zaman keçdikcə dəyişilərək "Üstüpü" şəklinə düşmüşdür.

Piri bəzən "Üçtəpə", "İsfəndiyar" da adlandırırlar. Qərbdən şərqə uzanan binadan (ölçüsü: uzunu 8,7 m, eni 3,5 m, hündürlüyü 2,7 m) ibarət olan pirdə ziyarət obyekti olan qəbir vardır. Qəbirin üstü 50 sm ucalığında hörülüb, qara mərmərlə üzlük çəkilib. Ancaq qəbirin üstündə epiqrafik sənəd – kitabə olmadığı üçün onun mənsubiyyəti haqqında tutarlı elmi fikir söyləmək mümkün deyil. Kənd əhalisindən bəzi adamların fikrincə bu qəbirdə İsfəndiyar adlı müqəddəs şəxsiyyət dəfn olunmuşdur.

Yerli əhalinin söylədiyinə görə bu qəbirdə uyuyan mərhumla, kənddən cənub tərəfdə yerləşən Düylün kəndindəki pirdə dəfn olunan şəxs bacı qardaşdırlar. Deyilənə görə burada dəfn olunan mərhum dəvə ilə bu əraziyə gəlmiş, burada yaşamış, vəfat etdikdən sonra burada da dəfn olunmuşdur. Bundan sonra onun qəbiri ziyarətgaha çevrilmişdir. Onun dəvəsi isə daşa çevrilmişdir.

Pir binasının şimaldan giriş qapısından təxminən 5 metr aralı iki qəbir vardır. Kənd sakini, ixtisasca rus dili müəllimi olan 70 yaşlı Yusif Muradov deyir ki, (məlumat 2007-ci ildə alınmışdır) mən nəsil şəcərəmizdə doqquzuncu adamam. Babalarım bu piri görüblər.

Babək rayonunun Cəhri kəndində də eyni adlı ziyarətgah vardır.

Üstüpü pirinin yaranması tarixini təxminən XVI-XVII əsrlərə aid etmək olar.

## Xəlifə Süleyman piri

Xəlifə Süleyman piri Naxçıvan Muxtar Respublikasının Ordubad bölgəsində, Dizə kəndinin qərb tərəfində yerləşir. Hazırda yerli əhali tərəfindən pir kimi ziyarət edilən bu yer kiçik binadan ibarətdir. Binanın içərisində bir qəbir vardır. Qəbirin üstü betonlansa da, üstündə qəbirin mənsubiyyəti haqqında məlumat verə biləcək kitabə olmadığı üçün orada uyuyan şəxs haqqında əsaslı fikir söyləmək mümkün deyildir. Qəbirin yerləşdiyi binada 2005-ci ildə yanğın olduğu üçün orada bir sıra əlamətlər də itmişdir.

Ziyarətgah yerli əhali arasında "Xəlifə Süleyman piri", "Pir-i xəlifə" adlandırılır və qəbirə "Xəlifənin qəbiri" deyilir. Hətta bəzi adamlar ziyarətgahın adındakı ("Xəlifə Süleyman piri") Süleyman şəxs adını əsas götürərək onu Süleyman peyğəmbərlə əlaqələndirirlər. Əlbəttə, bu fikrin heç bir elmi əsası yoxdur.

Əslində Xəlifə Süleyman pirinin adında xatırlanan Süleymanın adının əvvəlinə əlavə edilən “xəlifə” tituldur və aid olduğu adamın sufiliklə bağlı bir şəxs olduğunu göstərir. “Xəlifə” sufilikdə ən yüksək titullardan biridir. Görünür Süleyman adlı şəxs sufi təriqətlərinə mənsub bir adam olmuş, “xəlifə” rütbəsinədək yüksəlmişdir. Onun Dizə kəndində xanəgahı olmuşdur. O bu xanəgahda müridlərinin təlim və təhsili ilə məşğul olmuş, onlar vasitəsi ilə mənsub olduğu təriqətin ideyalarını yaymışdır. Öldükdən sonra xanəgahı yanında dəfn olunmuşdur. Bundan sonra onun qəbiri sağlığında qazandığı nüfuza görə ziyarətgaha çevrilmişdir.

Ziyarətgahın yaranma tarixini XVI əsrə aid etmək olar.

## Vələver piri

Vələver piri Ordubad rayonunun Vələver kəndinin şimal hissəsində yerləşir. Bu pir bölgədə kifayət qədər tanınır. Yerləşdiyi kəndin adı ilə “Vələver piri” adlanan bu pir yerli əhali tərəfindən “Balayı piri” də adlandırılır. Ancaq bu adın mənası məlum deyildir. Pir böyük bir binadan ibarətdir. Girişi cənubdan olan binaya sonradan balkon da əlavə olunmuşdur.

Pirin əsas və qədim hissəsi bir otaqdan ibarətdir. Bu otaqda bir qəbir vardır. Ancaq qəbirin üstü götürülsə də üzərində məzar kitabəsi olmadığı üçün orada dəfn olunan şəxsiyyətin adını müəyyən etmək mümkün olmamışdır. Yerli əhalinin fikrincə bu qəbirin yaşı beş yüz ildən çoxdur.

Kənd əhalisinin fikrini və pir binasının ətrafında əldə olunan arxeoloji maddi-mədəniyyət nümunələrini əsas götürərək onun tarixini XV-XVI əsrlərə aid etmək olar.

## Xədiceyi-Kübra piri

Xədiceyi-Kübra piri Naxçıvan şəhərində, Təbriz otelindən cənubda, Zaviyə məscid-mədrəsəsindən təxminən 100 metr

cənub-qərb tərəfdə yerləşir. 1934-cü ildə Naxçıvanda olan rus alimi K.Smirnov bu pir haqqında yazır ki, şəhərin malyariya dispanseri yerləşən mərkəzində, kiçik, səliqəli bir tikili vardır. Bu Xədiceyi-Kübra adlanır. Burada müqəddəs sayılan seyid qızının qəbiri vardır. Bura həmişə bağlı olur, ancaq dindarlar gələndə açılır. Buraya bayramlar ərəfəsində qadınlar gəlir, şam yandırır. Yaşlıların dediyinə görə bu sitayiş edilən yerin yaşı yüz ildən artıq deyil **(Смирнов К., с. 100)**.

K.Smirnovun məlumatından aydın olur ki, o Naxçıvan şəhərində olarkən pirin binası kərpicdən tikilmiş kiçik, səliqəli bir tikilidən ibarət olmuşdur. Ancaq sovet hakimiyyəti illərində pir baxımsız qalmış, bu tikili dağılmışdır. Keçən yüzilliyin ortalarında orada, pirin yerində üst-üstə yığılmış bir neçə daş var idi. Həmin daşların yanında şam və piltə yandırırdılar. Müstəqilliyin ilk illərində pirin yerində hündürlüyü 15 metrə yaxın olan türbə inşa edilmiş, türbənin daxilində simvolik məzar qurulmuşdur.

"Xədiceyi-Kübra piri" hazırda şəhər əhalisi tərəfindən ziyarət edilir.

# VI. TARİXİ NAXÇIVAN ƏRAZİLƏRİNDƏKİ BƏZİ ZİYARƏTGAHLAR HAQQINDA

Məlumdur ki, 1804-1813-cü illərdə və 1826-1828-ci illərdə baş vermiş Rusiya-İran müharibələrinin yekunu olaraq imzalanan Gülüstan və Türkmənçay müqavilələrinin şərtlərinə əsasən Araz çayı sərhəd olmaqla Azərbaycan torpaqları iki yerə bölündü. Həmin vaxt Şimali Azərbaycan torpaqlarının sahəsi təxminən 130 min kvadratkilometr idi. Ancaq müəyyən tarixi şəraitdə bu torpaqların bir hissəsi Çar Rusiyası tərəfindən başqa xalqlara verilmiş, buna görə də 28 may 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti 28 aprel 1920-ci ildə hakimiyyəti bolşeviklərə təhvil verərkən Azərbaycan ərazisi təxminən 114 min kvadratkilometrə yenmişdi. Ancaq Azərbaycan torpaqlarının başqa xalqlara verilməsi bununla bitmədi. Sovet hökuməti beynəlxalq hüquq normalarını pozaraq qədim zamanlardan Azərbaycana məxsus olan bir sıra əraziləri digər xalqlara, ilk növbədə ermənilərə verdi. Nəticədə sovet hakimiyyəti illərində Azərbaycanın ərazisi 86,6 min kvadratkilometrə qədər azaldıldı. Sovet rəhbərləri tərəfindən bağışlanan Azərbaycan ərazilərində isə Ermənistan SSR yaradıldı.

Ermənilər tarixi Azərbaycan torpaqları olan bu ərazilərə sahib olduqdan sonra orada xalqımıza məxsus tarix-mədəniyyət nümunələrini vandalcasına dağıtdılar, məhv etdilər, yer-yurd adlarını təhrif etdilər, dövlət səviyyəsində dəyişdirilməsinə nail oldular. Bu iş 1988-ci ildə ortaya atılan qondarma Dağlıq Qarabağ problemi ilə başlayan Ermənistan-Azərbaycan müharibəsindən sonra daha mütəşəkkil xarakter aldı. Ermənistanda yaşayan azərbaycanlılar təqib olundu, qətlə yetirildi, tarixi, ata-baba torpaqlarından zorla qovuldu, nəticədə Ermənistan türksüz respublikaya çevrildi. Bundan sonra orada qalan tarix-mədəniyyət abidələrinin əksəriyyəti məhv edildi, bir qisminin üzərində əməliyyatlar aparılaraq erməniləşdirildi, hətta azərbaycanlılara məxsus qəbiristanlıqlar şumlanaraq əkin sahəsinə çevrildi.

Yaxşı ki, bu abidələrin bir qismi vaxtilə tədqiqatçılar tərəfindən öyrənilmiş və nəşr etdirilmişdir. Ona görə də biz burada həmin tədqiqatçıların əsərləri əsasında orta əsrlər zamanı azərbaycanlı sənətkarlar tərəfindən Qərbi Azərbaycan ərazisində yaradılmış bir neçə abidə, xüsusilə taleyi daim Naxçıvanla sıx əlaqədar olan, bəzi tarixi dövrlərdə Naxçıvan adı ilə yaradılan inzibati-ərazi bölgülərinə daxil olan yaşayış məskənlərindəki ziyarətgahlar haqqında qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

**Buğakar piri**

Taleyi daim Naxçıvanla sıx əlaqədar olan, tarixin müəyyən mərhələlərində Naxçıvan adı ilə yaradılmış inzibati ərazi bölgülərinin, o cümlədən "Naxçıvan tüməni"nin, Naxçıvan sancağının, Naxçıvan xanlığının, Araz-Türk Respublikasının tərkibinə qatılan, ancaq sonralar zorla Azərbaycandan qoparılaraq Ermənistana verilən bir sıra tarixi torpaqlarımızda da islam dini ilə bağlı yaranmış çoxlu müqəddəs yerlər – imamzadələr, pirlər vardır. Bu müqəddəs yerlərdən ən məşhurlarından biri Buğakar piridir. Bu pir keçən yüzilliyin 20-ci illərində sovet hakimiyyəti tərəfindən Ermənistana verilən və indiki Ermənistan Respublikasının tərkibində 1930-cu ildə yaradılan Mehri rayonunun Buğakar kəndində yerləşir. Uca dağların qoynunda yerləşən, gözəl təbiəti, saf və sərin suları, meşələri ilə məşhur olan, Ələngəz dağının ətəklərində yerləşən bu kəndin yaranması tarixi ilə bağlı müxtəlif fikirlər vardır. Ancaq fikrimizcə, kəndin yaranmasının ərəb sərkərdəsi Buğa əl-Kəbirin adı ilə əlaqələndirilməsi daha inandırıcıdır. Bu haqda filologiya üzrə fəlsəfə doktoru Ə.Ələkbərli yazır ki, Buğakar kəndinin ərəb xilafətinin Babək Xürrəmdinlə vuruşan ordusunun sərkərdələrindən olan Buğa əl-Kəbirin adını daşıdığı güman edilir. Ordubadlıların bu kəndi "Buğa Kəbr" adlandırması da məlum gümanı həqiqətə yaxınlaşdırır **(Ələkbərli Ə., 1994, s. 146-147)**.

Bu ziyarətgah Azərbaycanda kifayət qədər məşhur olmuşdur. Ərazisində yerləşdiyi kəndin adı ilə "Buğakar piri" adlanan ziyarətgahda əsas ziyarət obyekti imam övladlarına məxsus olması söylənilən qəbirlərdir. Ziyarətgaha ətraf rayonlardan, Bakıdan, xüsusilə Naxçıvandan və başqa yerlərdən ziyarətə gəlirdilər. Buraya zəvvarların axını hər il hicri-qəməri təqvimin məhərrəm ayında daha sıx olurdu. Ona görə də ziyarətgah hər il məhərrəmlik mərasiminin sonunda burada kəsilən qurbanların hesabına Mehri rayonunun hazırlıq idarəsinə 3,5-4 min dəri təhvil verirdi. Sovet hakimiyyəti illərində ziyarətgaha gələn zəvvarlar tərəfindən verilən nəzirlər hesabına ora maşın yolu çəkilmişdi. Ziyarətgaha daxil olan qəbirlərin üstündəki binanın VIII əsrdə inşa olunması güman edilir. Naxçıvan əhalisi və yerli camaatın arasında belə bir fikir vardır ki, orada şiələrin VII imamı Museyi Kazımın oğlu, VIII imam Rzanın qardaşı Sultan Seyyid Əhməd dəfn olunmuşdur. Başqa bir fikrə görə Sultan Seyyid Əhmədin bacısı da orada, qardaşının yanında dəfn olunmuşdur. Görünür ataları Museyi Kazımın öldürülməsindən sonra təqiblərdən canını qurtarmaq üçün müxtəlif ölkələrə səpələnən övladlarından Seyyid Əhməd bu kəndə gəlmiş və orada yaşamışdır. Öldükdən sonra isə orada dəfn olunmuş, qəbiri ziyarətgaha çevrilmişdir. K.Smirnov bu haqda yazır ki, Mehri çayının sahilində, Buğakar kəndində, meşədə Museyi Kazımın oğlu Seyyid Əhməd ziyarətgahı vardır. Ehtimal ki, o burada sürgündə olmuş, yaxud da düşmənlərdən xilas olmuşdur **(Смирнов К., 1999, с. 102)**. Kompleksə daxil olan ikinci otaq isə uzaq yerlərdən ziyarətə gələn zəvvarların qalması üçün inşa edilmişdir.

Bu ziyarətgah yerli müsəlman-türk əhalisi arasında o qədər hörmətə və nüfuza malik olmuşdur ki, sonralar bu ərazilərə köçürülmüş ermənilər də ziyarətgaha ziyarətə getmişlər. Ancaq qədim zamanlardan Azərbaycan türkləri yaşayan Buğakar kəndi 1939-cu ildə ermənilər tərəfindən ləğv olunmuş, əhalisi isə yaxınlıqdakı ermənilər yaşayan Lehvaz kəndinə köçürülmüşdür. Buna baxmayaraq buğakarlılar və ətraf kəndlərin

müsəlman-türk əhalisi bu müqəddəs yeri ziyarət etməkdə davam etmişlər.

Buğakar piri Azərbaycanlıların 1988-ci ildə Ermənistandan zorla qovulmasına qədər fəaliyyət göstərmişdir. Ancaq indi ziyarətgahın taleyindən heç bir xəbər yoxdur. Şübhəsiz ki, bu ziyarətgah ermənilər tərəfindən vandalcasına dağıdılmışdır.

Ordubad şəhər əhalisinin fikrincə, Ordubad şəhər sakini Mir Əşrəf Mir Haşım oğlu Seyidov və övladları Sultan Seyyid Əhmədin nəslindəndirlər. Bu seyyid nəsli tarixən, hətta sovet hakimiyyəti illərində də Buğakar pirində toplanan nəzir-niyazların bir hissəsini gətirib Ordubadda yoxsul adamlara paylamışlar. Həmçinin, həmin vəsaitlə Ordubadın məscidləri təmir və bərpa olunmuşlar.

## Baba Hacı türbə-ziyarətgahı

Orta əsrlərin müxtəlif dövrlərində tarixi Naxçıvan ərazisinə daxil olan, ancaq sonralar Ermənistana verilən Zəngəzur mahalı müxtəlif təyinatlı ziyarətgahlarla çox zəngindir. Belə müqəddəs yerlərdən biri də Mehri rayonunun Nüvədi kəndində, Zəngəzur dağlarında, el arasında "Baba Hacı" adlanan türbə-ziyarətgahdır. Bu türbənin içərisində yerli əhali tərəfindən ziyarət edilən iki qəbir var idi. Tədqiqatçıların məlumatına görə həmin qəbirlərdən kənarda bir ədəd daşdan hazırlanmış qoç fiquru (0,51x0,41 m) olmuşdur. Deyilənə görə həmin fiqur qəbirlərdən birinin üzərində qoyulubmuş. Çox təəssüflər olsun ki, həmin qoç fiquru və qəbirlərin üstündə olan digər abidələr ermənilər tərəfindən məhv edilmiş, bizədək gəlib çatmamışdır. Ona görə də qəbirdə uyuyan şəxslər, o cümlədən türbə-ziyarətgaha adı verilən Baba Hacı haqqında heç bir məlumat əldə etmək mümkün olmamışdır. Ancaq türbənin ziyarətgaha çevrilməsinin həmin qəbirlərlə əlaqəli olmasına heç bir şübhə ola bilməz.

Türbənin ətrafında indiyədək qalan qəbirüstü xatirə abi-

dələri üzərində həkk edilən kitabələrin tarixinə əsasən onun dövrü haqqında müəyyən fikir söyləmək mümkündür. Türbə-ziyarətgahın ətrafında yaranan və sonralar da dəfn mərasimləri keçirilən qəbiristanlıqda vaxtilə t.e.d., AMEA-nın müxbir üzvü M.Nemət tədqiqat aparmış, orada iki ədəd xatirə kitabəsinin mətnini oxumuş, tədqiqatının nəticələrini nəşr etdirmişdir. Başdaşı formalı birinci xatirə abidəsinin (47x32 sm) üzərində Qurani-Kərimdən 55-ci surənin 26-cı ayəsi və hicri-qəməri təqvimilə 932-ci il tarixi (1525-ci il) qeyd olunmuşdur **(Неймат М., 2001, с. 74)**.

İkinci başdaşı üzərində süls xətti ilə yazılan və Qurani-Kərimdən 55-ci surənin 26-27-ci ayəsi ilə başlanan kitabədən məlum olur ki, başdaşı (66x38 sm) hicri-qəməri təqvimi ilə 995-ci ildə (1586-1587-ci il) vəfat etmiş Yaraməd adlı adamın xatirəsinə hazırlanmışdır **(Неймат М., 2001, с. 74)**.

Bu iki kitabənin məlumatlarına əsasən demək olar ki, “Baba Hacı” türbə-ziyarətgahı XVI yüzillikdən əvvəl fəaliyyət göstərmişdir. Çünki türbənin ətrafındakı qəbiristanlıq məhz türbədəki qəbirdə uyuyan şəxsin xatirəsinə hörmət əlaməti olaraq ətrafda aparılan fəxri dəfnlər hesabına əmələ gəlmişdir. Bu fakt təsdiq edir ki, haqqında heç bir məlumat əldə edə bilmədiyimiz Baba Hacı zəmanəsinin çox nüfuzlu və hörmətli şəxsiyyətlərindən biri olmuşdur ki, öldükdən sonra onun qəbiri ətrafında fəxri dəfnlər keçirilmiş, nəticədə zaman keçdikcə orada böyük qəbiristanlıq yaranmışdır.

Adına əlavə edilən “Baba” tituluna əsasən demək olar ki, mərhum Baba Hacı bu ərazidə fəaliyyət göstərən hansı isə sufi təriqətinə mənsub xanəgaha başçılıq etmişdir. “Baba” titulu bəzi sufi təriqətlərinin məşhur üzvlərinə, xüsusilə Bektaşi dərvişlərinə verilən titul olmuşdur. Bu titula əsasən ehtimal etmək olar ki, Baba Hacı Azərbaycanın əksər yerlərində yayılan və fəaliyyət göstərən “Bektaşiyyə” sufi təriqətinə mənsub şeyx olmuşdur. Görünür ki, o sağlığında müridləri və yerli əhali arasında böyük hörmət və nüfuz sahibi olmuş, bu səbəbdən

də öldükdən sonra qəbiri ziyarətgaha çevrilmişdir. Ziyarətgah XX yüzilliyin 80-ci illərinin sonlarınadək ziyarət edilmişdir. 1988-ci ildən sonra erməni əsarətində qalan həmin abidənin aqibəti haqqında məlumat yoxdur.

## Şeyx Mir ziyarətgahı

Epiqrafik məlumatlar təsdiq edirlər ki, Nüvədi kəndində orta əsrlər zamanı əhali tərəfindən ziyarətgaha çevrilmiş başqa müqəddəs yerlər də olmuşdur. Tədqiqat əsərlərindən məlum olur ki, bu ziyarətgahların bir qismi ərazidə fəaliyyət göstərən sufi təriqətlərinə məxsus xanəgahlarla əlaqədar yaranmışdır. Həmçinin orta əsr qaynaqları, xüsusilə epiqrafik mənbələr təsdiq edirlər ki, bu ərazidə həmin xanəgahlara rəhbərlik edən çoxlu xanəgah rəhbərləri olan şeyxlər yaşamışdır. Ərazidəki ziyarətgahların bir qismi həmin şeyxlərin dəfn olunduqları qəbirlərlə əlaqədar yaranmışdır.

Belə sufi şeyxlərindən biri Zəngəzur dağlarındakı qəbiristanlıqda dəfn olunmuşdur. Həmin şeyxin haqqında məlumatı bizə onun qəbiri üzərində qoyulmuş başdaşı (64x27 sm) üzərində nəsx elementli süls xətti ilə ərəb dilində həkk olunmuş kitabə çatdırır. Qurani-Kərimin “ər-Rəhman” surəsindən 26-cı ayə ilə başlanan kitabənin mətnindən aydın olur ki, qəbirdə dəfn olunan şəxs hicri-qəməri təqvimilə 700-cü ildə (miladi 1300-cü il) vəfat etmiş Şeyx ...oğlu Şeyx Mir adlı şəxsdir. Daşıdığı titula əsasən demək olar ki, mərhum şeyx Mir bu ərazidə fəaliyyət göstərən sufiliklə bağlı mərkəzə – xanəgaha rəhbərlik etmişdir. Mərhumun adına əlavə olunan “şeyx” tituluna əsasən kitabənin ilk tədqiqatçısı M.Nemət ehtimal edir ki, Zəngəzurun dağlıq hissəsində, bu ərazidə islamın sosial-siyasi mərkəzlərindən biri fəaliyyət göstərmişdir **(Неймат М., 2001, с. 58)**.

Bu fikri orta əsr qaynaqlarının məlumatları da sübut edir.

Qaynaqlar təsdiq edirlər ki, hərfi mənası "qoca" anlamınına gələn "Şeyx" orta əsrlər zamanı ancaq görkəmli şəxsiyyətlərə, xüsusilə sufi təriqəti rəhbərlərinə, xanəgah başçılarına müraciət bildirən titul olmuşdur. Kitabədə bir cəhət diqqəti cəlb edir. Mətndə ata və oğul "Şeyx" titulu ilə təqdim olunmuşdur. Şeyx Mirin atası da (kitabənin bir hissəsi ovulub töküldüyü üçün adını müəyyənləşdirmək mümükün olmamışdır) xanəgah başçısı olmuş, "Şeyx" titulu daşımışdır. Öldükdən sonra isə onun yerini irsi olaraq oğlu tutmuşdur. Şeyx Mir sağlığında müridləri və əhali arasında yüksək nüfuz və hörmət qazandığı üçün vəfat etdikdən sonra dəfn olunduğu qəbir ziyarətgaha çevrilmişdir.

## Əxi Təvəkkül zaviyəsi

Tarixi Naxçıvan ərazisinə daxil olan və taleyi həmişə Naxçıvanla sıx bağlı olan Dərələyəz mahalının Ələyəz kəndində də məşhur bir ziyarətgah var idi. Ermənilər tərəfindən bünövrəsinə qədər dağıdılmış bu ziyarətgah-türbədə aşkar edilmiş başdaşı üzərində belə bir kitabə yazılıbmış: "Bu məzar mərhum, günahları bağışlanmış, şəhid, Allahın rəhmətinə möhtac Əxi Təvəkkülündür – Allah onun günahlarını bağışlasın! 950-ci ilin məhərrəm ayında" **(Неймат М., 2001, с. 75)**.

Kitabənin mətnindən aydın olur ki, üzərində türbə ucaldılan qəbirdə hicri-qəməri təqvimi ilə 950-ci ilin məhərrəm ayında (6.4-6.5.1543-cü il) şəhid olaraq vəfat etmiş Əxi Təvəkkül adlı şəxs dəfn olunmuşdur. Adındakı "Əxi" titulu göstərir ki, mərhum Təvəkkül orta əsrlər zamanı müsəlman Şərqində, o cümlədən Azərbaycanda geniş yayılan və sənətkarların hüquqlarını müdafiə edən "Əxi" təşkilatının bu ərazidə fəaliyyət göstərən qurumuna rəhbərlik edən şəxs olmuşdur. "Əxi" təşkilatı Abbasilər xilafəti dövründə yaranmış və XIII əsrdə İran, Orta Asiya, xüsusilə kiçik Asiyada geniş yayılmış dini xarakterli ictimai-siyasi təşkilat idi. Akademik V.V.Bar-

told “Əxi” təşkilatını “dini-rıtsar (orta əsrlərdə Qərbi Avropa ölkələrində hərbi-zadəgan silkinə mənsub adam) ordenləri” qrupuna aid etmişdir. Sufizmin məşhur tədqiqatçılarından sayılan B.E.Bertels isə “Əxi” təşkilatını “sənətkarların gizli təşkilatları” kimi səciyyələndirmişdir **(Бертельс Б., 1965, с. 41)**.

Müxtəlif peşə və təriqətlərə mənsub olan şəhər sənətkarlarını birləşdirən “Əxi” təşkilatlarının xüsusi nizamnamələri (fütüvvətnamə) vardı. Onlar sufilərin dörd əsas idrak mərhələsinə (şəriət, təriqət, mərifət, həqiqət) sözsüz əməl etməli, yoxsullara, kimsəsizlərə və qəriblərə yardım göstərməli, onların mənafelərini müdafiə etməli, istismara, əsarətə qarşı mütəşəkkil mübarizə aparmalı idilər. “Əxi” təşkilatının başında ağsaqqal (Əxi baba) dururdu. Onların xüsusi musiqisi, geyimləri və silahları var idi. Ara müharibələri, xarici müdaxilələr, köçəri basqınları, üsyan və iğtişaşlar zamanı əxilər şəhər idarəsini əllərinə alaraq şəhərin dağıdılması və qarət olunmasına imkan vermirdilər. Azərbaycan tarixində bütün bunlara aid çoxlu faktlar vardır.

XIV əsrin əvvəllərində “Əxi” təşkilatları arasında təbəqələşmə başlandı. Tədricən onların hərbi-siyasi qüdrəti sarsıldı və XV əsrin əvvəllərində Bektaşiliyin tərkibinə daxil oldular və onlarla birləşdilər.

Qaynaqlar təsdiq edirlər ki, Azərbaycan ərazisi əxiliyin yayıldığı, onlara aid xanəgah və zaviyələrin fəaliyyət göstərdiyi bölgələrdən olmuşdur. “Əxi Təvəkkül zaviyəsi” də həmin mərkəzlərdən biri kimi yaranmış və Azərbaycanın sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Onun rəhbəri Əxi Təvəkkül isə fəaliyyət göstərdiyi dövrdə əhali arasında böyük hörmət qazanmış bir şəxsiyyət olmuş, bu səbəbdən də öldükdən sonra qəbiri ziyarət olunmuşdur.

## Pir Hüseyn türbə-ziyarətgahı

Qərbi Azərbaycan ərazisində orta əsrlər zamanı yaradılmış möhtəşəm memarlıq abidələrindən biri Çuxur-Səd bölgə-

sindəki Cəfərabad kəndində qırmızımtıl rəngli tuf daşdan tikilmiş türbə-ziyarətgahdır. Orta əsrlər zamanı və XIX-XX yüzilliklərdə yerli əhali tərəfindən ziyarət olunan bu abidəni 1961-ci ildə AMEA-nın müxbir üzvü, t.e.d. M.Nemət tədqiq etmiş, onun 22 metr uzunluğunda kitabəsini oxumuşdur. Qurani-Kərimin II ("Bəqərə") surəsindən 255-ci ayə ("Ayət əl-Kürsü") ilə başlanan kitabənin mətnindən aydın olur ki, bu türbə böyük sultan, mərhəmətli xaqan, Şərqin və Qərbin sultanlar sultanı, dövlətin və dinin himayəçisi Pir Budaq xan və Yusif noyonun zamanında mərhum, günahları bağışlanmış, bağışlanmaya möhtac əmir Sədin oğlu, hökmdarların və sultanların dayağı, zəiflərin və miskinlərin pənahı, alimlərin və tələbələrin (elm öyrənənlərin) tərbiyəçisi, fəqirlərin və təriqət mənsublarının (dərvişlərin) himayəçisi, dövlətin və dinin cəlalı əmir Pir Hüseynin əmri ilə 15 rəcəb 816-cı (11.10.1413-cü il) ildə inşa edilmişdir **(Неймат М., 2001, с. 66-67)**.

Tarixindən və kitabədə qeyd olunan hökmdarların adından da göründüyü kimi türbə Qaraqoyunlu hökmdarları Yusif noyon (Qara Yusif-H.S.) və Pir Budaq xan zamanında əmir Sədin oğlu Pir Hüseyn tərəfindən inşa etdirilmişdir. Türbəni inşa etdirən şəxs kitabədə "pir" titulu ilə təqdim olunmuşdur. "Pir" təsəvvüfdə ən yüksək tituldur və sufilikdə həqiqət mərhələsinə çatmış, ariflik səviyyəsinə yüksəlmiş övliyalara verilən ad olmuşdur. Kitabədə belə mötəbər bir titulla təqdim olunması göstərir ki, Pir Hüseyn sufi şeyxi olmuşdur. Bunu kitabədə Pir Hüseynin adına əlavə edilən çoxlu epitetlər arasında "fəqirlərin və təriqət mənsublarının (dərvişlərin) himayəçisi" söz birləşməsi də təsdiq edir.

Həmçinin, kitabədə Pir Hüseynin adına əlavə edilən "zəiflərin və miskinlərin pənahı", "alimlərin və tələbələrin (elm öyrənənlərin) tərbiyəçisi" və s. bu kimi epitetlər onun özünün xanəgahı və müridləri olmasını sübut edən faktdır. Deməli, Pir Hüseyn yüksək rütbəli sufi şeyxi olmuş, Cəfərabad kəndində

fəaliyyət göstərən və ölkənin sosial-siyasi və ideoloji həyatında özünəməxsus yeri olan sufiliklə bağlı mərkəzə – xanəgaha rəhbərlik etmişdir.

Ata və oğulun adına əlavə edilən "əmir" titulu göstərir ki, əmir Səd və əmir Pir Hüseyn həm də Qaraqoyunlu dövlət aparatında yüksək mənsəb sahibi olmuşlar və Çuxur-Səd vilayətinin əmiri vəzifəsində çalışmışlar. Pir Hüseyn atası əmir Səd vəfat etdikdən sonra onun yerini tutmuş və öz müridləri ilə birlikdə xidmət etdiyi dövlətin siyasətinin həyata keçirilməsində yaxından iştirak etmişdir. Ancaq kitabədə türbənin kimin xatirəsinə inşa etdirilməsi haqqında heç bir məlumat yoxdur. Ehtimal ki, əmir Pir Hüseyn bu türbəni rəhbəri olduğu xanəgahın hörmətli, yüksək mənsəb sahibi olan üzvlərindən birinin qəbiri üzərində tikdirmişdir. Bu səbəbdən də türbə həm də ziyarətgaha çevrilmişdir.

Tarixi cəhətdən çox qiymətli olan və yerli əhali tərəfindən qorunub saxlanan bu abidə 1988-ci ildən sonra ermənilərin əsirinə çevrilmişdir. Bir neçə il bundan əvvəl erməni katolikosu başda olmaqla erməni alimləri Türkmənistandan alimlər dəvət edərək Pir Hüseyn türbəsini ermənilərə və türkmənlərə məxus abidə elan etmişlər. Halbuki üzərindəki kitabələrdən də göründüyü kimi bu türbənin ermənilərə və türkmənlərə heç bir aidiyyatı yoxdur. Belə ki, indiki Ermənistan Respublikası yerləşən tarixi Azərbaycan ərazisində, o cümlədən Pir Hüseyn türbəsinin yerləşdiyi Cəfərabad kəndində tarixin heç bir mərhələsində türkmənlər yaşamamışlar. Buna baxmayaraq bəzi türkmən alimləri də erməni fitnəsinə uymuş və belə bir məsuliyyətsiz və saxta qərara imza atmışlar **(https://az.wikipedia.org/wiki/Pir_Hüseyin_türbəsi_(İrəvan))**.

# ƏDƏBİYYAT

1. **Qurani-Kərim, 1992.** Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı: Azərnəşr, 1992, 720 s.
2. **Qurani-Kərim., 2015.** Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Yenidən işlənmiş XVII nəşr. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: Nurlar, 2015, 632 s.
3. **Ağasıoğlu, 1991.**Ağasıoğlu. Pir və ocaq tapınaqları. “Vətən səsi” qəzeti, 6 noyabr 1991-ci il.
4. **Alimlər..., 1965.**Alimlər dinin əleyhinədir. Bakı: Azərnəşr, 1965, 192 s.
5. **Azərbaycan dilinin izahlı..., 1983.**Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı: Elm, 1983, 556 s.
6. **Azərbaycan klassik…, 1981.**Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti. Tərtib edənlər: A.M.Babayev, S.V.İsmayılzadə. Bakı: Maarif, 1981, 280 s.
7. **Azərbaycan klassik..., 1993.**Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Tərtib edəni: A. M. Babayev. Bakı: Maarif, 1993, 291 s.
8. **Aslanlı H., 2008.**Aslanlı H. Biləv. Bakı: “E.L.” Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008, 460 s.
9. **ASE, II cild, 1977.**ASE, II cild. Bakı: ASE Baş redaksiyası, 1977, 592 s.
10. **ASE, VI cild, 1982.**ASE VI cild. Bakı: ASE Baş redaksiyası, 1982, 608 s.
11. **Azərbaycan tarixi, 1996.**Azərbaycan tarixi. S.Əliyarlının redaktorluğu ilə (uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 872 s.
12. **Azərbaycan tarixi, III cild, 1999.**Azərbaycan tarixi. 7 cilddə, III cild. Bakı: Elm, 1999, 584 s.

13. **Baxşıyev Ə., 1990.** Baxşıyev Ə. Ordubad Səfəvilər dövründə . "Elm və həyat" jurnalı, 1990, № 11-12, s. 46.
14. **Bağırov A., 2002.**Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 288 s.
15. **Bağırov F., 2008.**Bağırov F.Nuh yurduna ziyarət. Naxçıvan: Az TU-nun mətbəəsi, 2008, 222 s.
16. **Bağırov V., 2007.**Bağırov V. Ordubadımız, tariximiz. Bakı: Nurlan, 2007, 168 s.
17. **Balayev M.A., 1971.**Balayev M.A. "Müqəddəslərə" pərəstiş keçmişin zərərli qalığıdır. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1971, 52 s.
18. **Bammat Heydər, 1994.**Bammat Heydər. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı: Azərnəşr, 1994, 62 s.
19. **Bünyadov Z.M., 1997.**Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı: Azərbaycan, 1997, 288 s.
20. **Bünyadzadə K., 2003.**Bünyadzadə K., Təsəvvüf fəlsəfəsinin ilk mənbələri. Sərrac Tusi. "əl-Lümə". Bakı, Qamma-servis, 2003, 232 s.
21. **Bünyadzadə K., 2004.**Bünyadzadə K. Təmkinli, sərxoş və xəta eləmiş dərvişlər. "Azadlıq" qəzeti, 1 iyun 2004.
22. **Cəlilov E., 1995.** Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzilliklər). Bakı: Dövlət Kitab Palatası, 1995, 420 s.
23. **Ciddi H., Seyfəddini M., 1984.**Ciddi H., Seyfəddini M. Tarixi abidələr və tarixi şəxsiyyətlər. "Ədəbiyyat və incəsənət" qəzeti,17.08. 1984-cü il.
24. **Dikici R., 1993.**Dikici R. Böyük övliyalar. Bakı: Vətən, 1993, 128 s.
25. **Əhədov A., 1984.**Əhədov A. Uydurulmuş "ziyarətgah". "Elm və həyat" jurnalı, 1984, № 12, s. 17-19.
26. **Əhmədov Ə., 1996.**Əhmədov Ə. Dürəfşan kəlamlar. Bakı: Təbib, 1996, 204 s.

27. **Ələkbərli Ə., 1994.**Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu – "Ermənistan". Bakı: Sabah, 1994, 208 s.
28. **Ərəb və fars sözləri..., 1985.**Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı, 1985, 1040 s.
29. **Füzuli M., 1993.**Füzuli M. Hədiqətüs-süəda. Bakı: Gənclik, 1993, 368 s.
30. **Gevr J., 1993.**Gevr J. Xacə şah. I kitab. Bakı: Gənclik, 1993, 224 s.
31. **Həsənli H.S., 1998.**Həsənli H.S. İslam mədəniyyətində elm. Bakı, 1998.
32. **Həsənov R., 1991.**Həsənov R. Məscid. Çevirəni Möhsün Nağıyev. Xəzər. Milli-dirçəliş dərgisi, 1991, № 4, s. 77-80.
33. **Həşimli H., 1996.**Həşimli H. Naxçıvanda farmasiyonluq: tarixdə və ədəbiyyatda. Naxçıvan tarixinin səhifələri ("Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları). Bakı: ADPU nəşriyyatı, 1996, s. 122-125.
34. **Xacə Nəsirəddin Tusi, 2005.**Xacə Nəsirəddin Tusi. Övsaful-Əşraf. Şərafətli insanların xüsusiyyətləri. Darül-hüda, 2005, 76 s.
35. **Xəlilov F., 2005.**Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 2005, 196 s.
36. **Xumeyni əl-Musavi.**Xumeyni əl-Musavi. Tozihil-məsail. Tərcüməçi Hacı Adil Zeynalov. Bakı, Təzə Pir məscidi.
37. **İrəvan əyalətinin..., 1996.**İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
38. **İslam,1985.**İslam. Qısa məlumat kitabı. Bakı: Azərnəşr, 1985, 164 s.
39. **Kərimzadə S.D., 1980.** Kərimzadə S.D. Naxçıvan memarlıq abidələrinin kitabələri. "Elm və həyat" jurnalı, 1980, № 7, s. 38-39.
40. **Kruşinski U.T., 1993.**Kruşinski U.T. Xristian səyyahın

tarixi. Farscadan tərcümə edəni və hazırlayanı Şahin Fazil. Bakı: Azərnəşr, 1993, 105 s.
41.**Qədirzadə H.Q., 2003.**Qədirzadə H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı, Elm, 2003, s. 368.
42. **Qədirzadə H.Q., 2007.**Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. IV minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). Naxçıvan: Qızıl Dağ, 2007, 160 s.
43. **Qiyasi C., 1991.**Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
44. **Quliyev H.A. Bəxtiyarov A.S., 1968.**Quliyev H.A. Bəxtiyarov A.S. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. Bakı, 1968, 111 s.
45. **Qurbani A., 1994.**Qurbani A. Şəhidlər dastanı. Bakı, 1994, 232 s.
46. **Məmmədov R., 1962.** Məmmədov R. Yaxın Şərq və Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında. Azərbaycan EA Xəbərləri (ictimai elmlər seyriyası), 1962, № 4, s. 11-22.
47. **Məmmədov R., 1977.**Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
48. **Mirheydərzadə M., 1930.**Mirheydərzadə M. Əbrəqunus dairəsi məşhur Əlincəçay sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi. Azərbaycanı öyrənmə yolu. Bakı, 1930, № 4-5, s. 78-80.
49. **Mirheydərzadə M. M., 1989.**Mirheydərzadə M. M. Noraşen dairəsinə səyahət. "Şərq qapısı" qəzeti. 16.02.1989-cu il.
50. **Musəvi T.M., 1969.**Musəvi T.M. Ustadın vətəni və məzarı. "Ədəbiyyat və incəsənət" qəzeti, 13.12.1969-cu il.
51. **Mustafayev Q., 1973.**Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.
52. **Naxçıvan sancağının..., 1997.**Naxçıvan sancağının müfəs-

səl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Sabah, 1997, 336 s.
53. **Naxçıvan sancağının..., 2001.**Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
54. **Naxçıvan abidələri ensiklopediyası, 2008.**Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
55. **Nemət M., 1991.**Nemət M. Pir Hüseyn və Şeyx Xorasan xanəgahları (t.e.d. M.Nemətova ilə müsahibə).“Elm və həyat” jurnalı, 1991, № 9-10, s. 16-20.
56. **Nemət M., 1992.**Nemət M. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
57. **Nemət M., 2000.**Nemət M. Şərbət qabları üzərində kitabələr. “Elm” qəzeti, 21 aprel 2000-ci il.
58. **Nemət M., 2010.**Nemət M. Azərbaycanda pirlər. Bakı: Elm və təhsil, 2010, 212 s.
59. **Nemətova M., 1963.**
Nemətova M. Azərbaycanın epiqrafik abidələri. Bakı: Azərbaycan EA nəşriyyatı, 1963, 157 s.
60. **Nemətova M., 1967.**Nemətova M. Epiqrafik abidələr və onların Azərbaycanın ictimai-iqtisadi tarixinin öyrənilməsində əhəmiyyəti (XIV-XIX əsrlər). Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1967. AMEA Tarix İnstitutunun Elmi Arxivi, inv. № 6639.
61. **Nemətova M.S., 1975.** Nemətova M.S. Kitabə xəttatları. “Qobustan” jurnalı, 1975, № 1, s. 29-31.
62. **Nemətova M., 1990 - 1.**Nemətova M. Aza kəndi – Azad şəhəri haqqında.“Elm və həyat” jurnalı, 1990, № 2, s. 1-3.
63. **Nemətova M., 1990 - 2.**Nemətova M. Sufizmin Naxçıvanda olmuş mərkəzləri haqqında.“Elm və həyat” jurnalı, 1990, № 5, s. 17-19.

64. **Nəsirəddin Tusi, 1989.**Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Tərcümə, müqəddimə və şərhlər R.Sultanovundur. Bakı: Elm, 1989, 256 s.
65. **Novruzlu Ə.İ., Baxşəliyev V.B., 1993.**Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 184 s.
66. **Ordubadi M.S., 1985.**Ordubadi M.S. Dumanlı Təbriz. II kitab. Bakı: Yazıçı, 1985, 730 s.
67. **Ordubadi M.S., 2012.**Ordubadi M.S. Həyatım və mühitim. Naxçıvan: "Əcəmi" NPB, 2012, 336 s.
68. **Onullahi S., 1999.**Onullahi S. Jan Batist Tavernye Naxçıvan haqqında. Naxçıvan Muxtar Respublikası. "Bakı Universiteti" Xəbərlərinin xüsusi buraxılışı. Bakı: BDU, 1999, s. 87-93.
69. **Çələbi Ö., 1989.**Çələbi Ö. Səyahətnamə. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, s. 230-238.
70. **Paşazadə A., 1991.**Paşazadə A. Qafqazda islam. Bakı: Azərnəşr, 1991, 224 s.
71. **Piriyev V., 2004.**Piriyev V. Naxçıvan tarixindən səhifələr. Bakı: Müəllim, 2004, 126 s.
72. **Pirlərimiz..., 2001.**Pirlərimiz – ziyarət yerimizdir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Epiqrafika qrupunun rəhbəri, t.e.d. M. Nemətlə müsahibə. "İnşaatçı" qəzeti, 30.10.2001-ci il.
73. **Rəfiyev C., 1966.** Rəfiyev C. Ordubad şəhərinin tarixinə dair bəzi qeydlər. "Yeni Ordubad" qəzeti, 28 iyul 1966.
74. **Rəfiyev C., 1967.**Rəfiyev C. Coğrafi adların mənşəyi. "Yeni Ordubad" qəzeti, 23 avqust 1967-ci il.
75. **Rəfiyev C., 1979.**Rəfiyev C. Abidələr şəhəri. "Ədəbiyyat və incəsənət" qəzeti, 25 may 1979-cu il.
76. **Rasizadə M., 1930.**Rasizadə M. Şərur dairəsində səyahət haqqında qeydlər. "Azərbaycanı öyrənmə yolu". № 4-5. Bakı, 1930, s. 81-82.

77. **Rəhimov Ə., 1975.**Rəhimov Ə. Nəiminin öldürülməsi barədə Nəsiminin maddeyi-tarixi. Azərb. EA Məruzələri,XXXI cild, 1975, c. 1, s. 89-92.
78. **Sadiqoğlu Ç., 1988.**Sadiqoğlu Ç. Azərbaycan təsəvvüfü tarixində “Səfəviyyə” və onun Xətai yaradıcılığında yeri / Şah İsmayıl Xətai (məqalələr toplusu). Bakı: Elm, 1988, 240 s.
79. **Salamzadə Ə., 1976.** Salamzadə Ə. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı: İşıq, 1976, 84 s.
80. **Salamzadə Ə., Məmmədzadə K., 1985.**Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
81. **Salehov B., 1990.**Salehov B. Nüsnüs məscidi. “Ədəbiyyat və incəsənət” qəzeti,10 avqust 1990-cı il.
82. **Seyidov A.Q., 1999.**Seyidov A.Q. Tarixdən səhifələr. Bakı: İsmət, 1999, 348 s.
83. **Səbri S., 1926.** Səbri S. Asar ətiqə. “Şərq qapısı” qəzeti, 15 sentyabr 1926-cı il.
84. **Səfərli H.F., Cəfərov H., 1998.**Səfərli H.F., Cəfərov H. Naxçıvan ziyarətgahları. Bakı: Qorqud, 1998, 84 s.
85. **Səfərli H.F., 2001-2.**Səfərli H.F. “Pirqamış” məscidi – “Pir Xamuş” xanəgahı. Naxçıvan Regional Elm Mərkəzinin əsərləri.VI buraxılış. Naxçıvan: Əcəmi, 2001, s. 142-149.
86. **Səfərli H.F., 2001-3.**Səfərli H.F. Ermənilərin Ordubad bölgəsinə köçürülməsinin nəticələrinə bir baxış. NDU-nun Elmi əsərləri. Naxçıvan, 2001, № 8, s. 29-30.
87. **Səfərli H., 2001-1.**Səfərli H. Epiqrafik abidələrdə Tusi nəslinə dair məlumatlar. “Nəsirəddin Tusi və müasirlik” kitabında. Naxçıvan: Qeyrət nəşriyyatı, 2001, s. 89-92.
88. **Səfərli F., 2003.** Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Nurlan, 2003, 392 s.
89. **Səfərli F., 2004.** Səfərli F. Təkeşiyi (Yəhya bəy) məscidi. “Elm və həyat” jurnalı, 2004, № 1-2, s. 35-36.

90. **Səfərli H., 2006.** Səfərli H. Ordubad çinarları. NDU, Xəbərlər, 2006, № 19, s. 88-89.
91. **Səfərli H., 2007.** Səfərli H. Yuxarı Əylis kəndi: tarixi, abidələri. AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2007, № 3, s. 11-17.
92. **Səfərli H., 2009.**Səfərli H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
93. **Səfərli H., 2013.**Səfərli H. Naxçıvanda sufiliklə bağlı mərkəzlər. Bakı: Elm və təhsil, 2013, 328 s.
94. **Sultanov Ş., Sultanov K., 1991.**Sultanov Ş., Sultanov K. Ömər Xəyyam. Tərcümə edəni V.Həbiboğlu. Bakı: Gənclik, 1991, 296 s.
95. **Şeyx Bəhaüddin Məhəmməd Amili, 1994.**Şeyx Bəhaüddin Məhəmməd Amili. Camei-Əbbasi. Bakı: Təbib, 1994, 180 s.
96. **Şeyx Məhəmməd ibn Həsən Hürr Amili, 2001.**Şeyx Məhəmməd ibn Həsən Hürr Amili. Hədisi-Qüdsi. Bakı: Möminin nəşriyyatı, 2001, 614 s.
97. **“Şərq qapısı” qəzeti.**“Şərq qapısı” qəzeti.
98. **Tərbiyyət M., 1987.**Tərbiyyət M. Danişməndani-Azərbaycan. Tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli. Bakı: Azərnəşr, 1987, 464 s.
99. **Zeynaloğlu C., 1992.** Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 s.
100.**Zeynəddin..., 1990.**Zeynəddin bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide (“Seçilmiş tarix”ə əlavə). Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.Kazımov və V.Piriyevindir. Bakı: Elm, 1990, 212 s.
101.**Aktüccar H., 1984.**Aktüccar H. Yunus Emre. Heyatı, seneti və eserleri. 1984.
102.**Atalay Besim., 1340.**Atalay Besim. Bektaşilik (ve edebiyyatı). İstanbul, 1340.

103.**Faruk Beşer, 1994.**Faruk Beşer. Fikih penceresinden sosyal hayatımız. I. İstanbul: Nuh Yayıncılık, 1994, 294 s.
104.**Gürkan Ahmet.**Gürkan Ahmet. İslam kültürünün Qarbi medenileştirmesi. Ankara: Nur yayınları, 396 s.
105.**İslam ansiklopedisi., 1991.**İslam ansiklopedisi. Cild 3. İstanbul: Türkiye Diyanet Vakfı. 1991, 559 s.
106.**İsmail Cerrahoğlu, 1994.**İsmail Cerrahoğlu. Camilər. Diyanet, ekim, 1994, sayı 46, s. 8-11.
107.**Kaya Haydar., 1996.**Kaya Haydar. Alevi Bektaşi. İstanbul, 1996, 700 s.
108.**Kuran-i Kerim..., 1992.**Kuran-i Kerim və türkce açıklamalı meali. Mədineyi Münevvere, 1992, 604 s.
109.**Miller K., 2002.** Miller K. Yakındoğu kervansarayları. Tercüme eden: A.Öztürk, Ş.Uzluk. İpek yolu dergisi, 2002, s. 122-166.
110.**Mustafa Varlı, 1993.**Mustafa Varlı. İslam ilmihali. İstanbul: Şamil Yayınevi, 1993, 416 s.
111.**Азимбеков И., 1929.**Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР. Известия "Азкомстарис"а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311.
112.**Алескерзаде А.А., 1947.**Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана. Эпохи Низами. Архитектура Азербайджана. Эпохи Низами. Москва-Баку, 1947, с. 369-390.
113.**Бакиханов А.,1991.**Бакиханов А. "Гюлистан-и Ирам", Баку: Элм,1991, 304 с.
114.**Бартольд В.В., 1963.**Бартольд В.В. История культурной жизни Туркестана. Сочинение, том II, часть 1, Москва: Наука, 1963, с. 169-433.
115.**Выдержки из..., 1862.**Выдержки из "Записок о мусульманских надписях на Кавказе", М.Н.Ханыкова, опубликованных в "Азиатском журнале", август, 1862, г. Пер.

с франц. яз. Э.К.Спитницкой. Научный Архив Института Истории Национальная Академии Наук. Азербайджана. Инв. № 1076.
116.**Гейдаров М.Х., 1982.**Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм, 1982, 284 с.
117.**Григорьев В., 1833.**Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 264 с.
118.**Джафаров А.К., 1992.**Джафаров А.К. Новая многослойная мустерская стоянка Газма в Азербайджане. Российская археология, 1992, №2, с. 270-274.
119.**Зелинский С.П., 1880.**Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский иДаралагезский. Сборник сведений оКавказе. Том III. Тифлис, 1880, с. 209-275.
120.**Зелинский С.П., 1882.**Зелинский С.П. Этнографические очерки из быта армян – переселенцев из Персии, живущих в Нахичеванском уезде Эриванской губернии. СМОМПК. Выпуск 2, Тифлис: 1882.
121.**Ибрагимов Б.И., 1985.**Ибрагимов Б.И. Средневековый город Хараба-Гилан. Автореферат дис.канд.ист.наук. Москва, 1985, 25 с.
122.**Казвини Хамдаллах., 1983.**Казвини Хамдаллах. Нузхат ал-кулуб. Перевод с английского. З.М.Буниятова, перевод с персидского И.П.Петрушевского. Баку: Элм, 1983, с. 37-65.
123.**Книга Орудж-Бека Байата..., 1988.**Книга Орудж-Бека Байата Дон-Жуана Персидского. Перевод с английского, введение и комментарии О.Эфендиева, А.Фарзалиева. Баку: Язычы, 1988, 216 с.
124.**Кулиева В., 1999.**Кулиева В.Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX-начале XX в. Баку: Элм, 1999, 64 с.

125.**Кулиева В., 2003.**Кулиева В. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX-начале XX вв. В ракурсе Армяно – Азербайджанских политических отношений. Баку: Нурлан, 2003, 371 с.
126.**Кулизаде З., 1970.**Кулизаде З. Хурифизм и его представители в Азербайджане. Автореферат дис...докт.ист. наук. Баку, 1970, 56 с.
127.**Крачковская В.А., 1948.**Крачковская В.А. Неизвестный альбом по арабской и персидской эпиграфике. Эпиграфика Востока, II. Москва-Ленинград, 1948, с. 19-38.
128.**Лавров Л.И., 1966.**Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа на арабском, персидском и турецком языках. Часть 1. Москва: Наука, 1966, 300 с.
129.**Мамедов Ф.Г., 1976.**Мамедов Ф.Г. Мемориальный комплекс в селенииДжиджимли. Советская этнография, 1976, № 5, с. 30-50.
130.**Нейматова М., 1967.**Нейматова М. Два указа Шаха Аббаса I. Эпиграфика Востока, XVIII. Ленинград, 1967, с. 105-110.
131.**Нейматова М.С., 1981.**Нейматова М.С. Мемориальные памятники Азербайджана. Баку: Элм, 1981, 76 с.
132.**Неймат М., 2001.** Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI-Yeni nəşrlər evi, 2001, 216 с.
133.**Обозрение..., 1836.**Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Санкт-Петербург, 1836, часть IV. 401 с.
134.**Пашаев А.М., 1998.** Пашаев А.М. Город Ордубад в XIX-начале XX вв. Баку: Элм, 1998, 200 с.
135.**Петрушевский И., 1949-1.**Петрушевский И. Очерки

по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Издательство ЛГУ, 1949-I, 384 с.
136.**Петрушевский И.П., 1949-2.**Петрушевский И.П. Азербайджан в XVI-XVII веках.Сборник статей по истории Азербайджана.Выкуск 1. Баку: Изд.-во АН Азерб.ССР, 1949,с.225-298.
137.**Персидско-русский словарь., 1983.**Персидско-русский словарь. Том 1. Москва: Русский язык, 1983, 800 с.
138.**Салаева Р., 2002.**Салаева Р. Нахчыван – наследие архитектуры. Баку: Издательство "Азербайджан", 2002, 240 с.
139.**Сафаров Ф., 1987.**Сафаров Ф. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIX вв)как историко-культурныепамятники. Диссертация на сосискание ученой степени канд. ист. наук. Баку, 1987, 179 с. НАИИ НАН Азербайджана. Инв.№ 8383.
140.**Сафарли Г., 2017.**Сафарли Г. Эпиграфические памятники Нахчывана. Нахчыван: «Аджеми» ИПО, 2017, 200 с.
141.**Сеидзаде А.А., 1947.**Сеидзаде А.А. Фазлуллах Неими (Астрабади). Доклады АН Азербайджана.1947, том III, № 6, с. 278-282.
142.**Смирнов К.Н., 1999.**Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.
143.**Сысоев В.М., 1928.**Сысоев В.М. Древности Нахичеванской ССР. Отдельный оттиск. Из 4-го выпуска Известий "Азкомстарис"а. Баку, 1928, с. 123-215.
144.**Сысоев В.М., 1929.**Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.). Известия "Азкомстарис"а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121.
145.**Хачатрян А.А., 1987.**Хачатрян А.А. Корпус арабских

надписей Армении VIII-XVI вв.Ереvaнь: Издательство АН Армянской ССР, 1987, 235 с.

146.**Челеби Э., 1983.**Челеби Э. Книга путешествия. Выпуск 3. Москва: Наука, 1983, 375 с.

147.**Шопен И., 1852.** Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: Типография Императорской АН, 1852, 1231 с.

# MÜNDƏRİCAT

**ÖN SÖZ**....................................................................4
**I. MƏSCİDLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT**.........7
**II. NAXÇIVAN BÖLGƏSİ MƏSCİDLƏRİN YAYILDIĞI MƏRKƏZLƏRDƏN BİRİ KİMİ**................. 21
**III. NAXÇIVAN MƏSCİDLƏRİ**.........................................26
Naxçıvan şəhər Came məscidi...............................................26
Pirqamış məscidi.......................................................................29
Ordubad şəhər Came məscidi.................................................36
Mingis məscidi...........................................................................43
Vənənd kənd Came məscidi....................................................44
Hacı Hüseynqulu məscidi........................................................47
Xanəgah məscidi.......................................................................49
Saltaq məscidi............................................................................50
Şah Abbas (Yuxarı Əylis) məscidi.........................................53
Mir Gədik məscidi.....................................................................55
Meydan (Dəstə) məscidi..........................................................55
Şingiləy məscidi.........................................................................57
Heydərxanlı məscidi.................................................................58
Cilovxanlı məscidi.....................................................................59
Sədərək məscidi.........................................................................59
Hacı Şəfi məscidi.......................................................................62
Burçunlu məscidi......................................................................62
Abidin məscidi...........................................................................63
Uzun küçə məscidi....................................................................64
Böyük məscid.............................................................................64
Bazar məscidi.............................................................................64

Tivi məscidi....................................................................65
Uçuq məscid....................................................................66
Xanağa məscidi....................................................................67
Ağrı məscidi....................................................................68
Düylün məscidi....................................................................68
Qoşa Dizə məscidi....................................................................68
Bəyimcan məscidi....................................................................69
Meydan (Nüsnüs) məscidi....................................................................69
Anabat məscidi....................................................................71
Köhnə Kotam məscidi....................................................................71
Təkeşiyi (Yəhya bəy) məscidi....................................................................72
Yuxarı Anbaras məscidi....................................................................75
Sərşəhər məscidi....................................................................76
Kürdətal məscidi....................................................................77
Xok kənd Came məscidi....................................................................78
Zaviyə məscid-mədrəsə kompleksi....................................................................80
Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidi....................................................................82
Xaraba məscid....................................................................84
Əsgərxan məscidi....................................................................85
Üştürləngə məscidi.................................................................... 88
Qarahovuz məscidi....................................................................89
Əngəş məscidi....................................................................89
Meyrəmçə məscidi....................................................................89
Qaraçanaq məscidi....................................................................90
Qırxayaq məscidi....................................................................90
Dilbər məscidi....................................................................91
Qoşqar məscidi....................................................................91
Şərur şəhər məscidi....................................................................92
Heydər məscidi....................................................................93

Nehrəm kənd məscidi.............................................................93
Həzrəti Zəhra məscidi............................................................94
Kazım Qarabəkir paşa məscidi................................................94
Heydər məscidi.....................................................................95
Əbrəqunus məscidi.................................................................96
**IV. ZİYARƏTGAHLAR HAQQINDA ÜMUMİ MƏLUMAT**..........................................................................97
**V. NAXÇIVAN ZİYARƏTGAHLARI**.............................107
Nehrəm imamzadəsi.............................................................107
Parçı (Xanlıqlar) imamzadəsi................................................108
Naxçıvan imamzadəsi...........................................................111
Nüsnüs (Qırxkimsənə) piri....................................................113
Dərə piri..............................................................................118
Düylün piri..........................................................................119
Almәmməd (Ərməmməd) piri...............................................120
Pirmaşa piri.........................................................................122
Azadkənd piri......................................................................122
Ərəfsə piri...........................................................................125
Göynük piri.........................................................................127
Əmin xəlifə piri....................................................................128
Şeyx Xorasan piri.................................................................129
Pir Ömər Naxçıvani ziyarətgahı.............................................136
Pir Yaqub xanəgah-piri..........................................................138
Xudu-Divanə xanəgah-piri.....................................................142
Dəli Pir................................................................................148
Malik İbrahim piri.................................................................150
Pir Eyvaz xanəgah-piri..........................................................154
Baba Yaqub xanəgah-piri.......................................................158

Xanağa xanəgah-piri.....160
Pir-i Süleyman xanəgah-piri.....163
İsfəndiyar (Qaş) piri.....166
Pir Məqsud piri.....170
Sır Xanağa piri.....172
Baba Yəqub piri.....172
Binamaz Əhməd piri.....174
İmminin ocağı.....175
Şəfa piri.....176
İmam ayağı piri.....176
Pir Baba xanəgah-piri.....176
Miranşah piri.....178
Sancı daşı.....179
Yaralı Sultan ocağı.....183
Vayxır piri.....183
Tiri piri.....183
Üstüpü piri.....185
Xəlifə Süleyman piri.....186
Vələver piri.....187
Xədiceyi-Kübra piri.....187
**VI. TARİXİ NAXÇIVAN ƏRAZİLƏRİNDƏKİ BƏZİ ZİYARƏTGAHLAR HAQQINDA**.....189
Buğakar piri.....190
Baba Hacı türbə-ziyarətgahı.....192
Şeyx Mir ziyarətgahı.....194
Əxi Təvəkkül zaviyəsi.....195
Pir Hüseyn türbə-ziyarətgahı.....196
**ƏDƏBİYYAT**.....199

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**

**NAXÇIVANIN MƏSCİD VƏ ZİYARƏTGAHLARI**

Çapa imzalanmış 14.05.2018.
Formatı 60X90 1/16. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 13.5 ç.v.
Sifariş № 359. Tiraj 150 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1